**SÜLEYMAN RÜSTƏM**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

ÜÇ CİLDDƏ
II CİLD

**"ŞƏRQ-QƏRB"**
**BAKI-2005**

*Bu kitab "**Süleyman Rüstəm**. Seçilmiş əsərləri. Dörd cilddə. I-II cildlər" (Bakı, Azərnəşr, 1969) və "**Süleyman Rüstəm**. Cənub şeirləri" (Bakı, Nurlar, 2003) nəşrləri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni: **Azad Rüstəmzadə**

**894.3611- dc 21**
**AZE**
**Süleyman Rüstəm. Seçilmiş əsərləri**. Üç cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2005, 328 səh.

Yaradıcılığı Azərbaycan ədəbiyyatının yeni dövrünə təsadüf edən Süleyman Rüstəm poeziyada milli, klassik ənənələrin davamçısı olmuş, eyni zamanda bu ənənələri öz yenilik axtarışları ilə əhəmiyyətli dərəcədə zənginləşdirmiş, şerimizin novator xüsusiyyətlərinin yaranmasında diqqətəlayiq rol oynamışdır.

Süleyman Rüstəmin poetik incilər xəzinəsində Vətənə məhəbbət çələngi olan Cənub şeirlərinin xüsusi yeri var. Bu şeirlərin lirik qəhrəmanının qəlbində bir azərbaycanlı kimi Cənub həsrəti son dərəcə güclüdür. Ancaq heç bir yerdə bu həsrət sızıltıya, düşkünlüyə çevrilmir. Şairin Təbriz qəzəlləri xalq dərdinin, böyük insan arzularının, işıqlı bir dünya həsrətinin bəzən yanıqlı, bəzən də qəzəbli səslənən rübabıdır.

"Seçilmiş əsərləri"nin II cildində şairin geniş bir silsilə təşkil edən Cənub mövzulu şeirlərlə yanaşı, həmçinin poemaları, eləcə də xatirələri toplanmışdır.

**ISBN 9952-418-57-1**

© "ŞƏRQ-QƏRB", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# *Cənub şeirləri*

# DİLIMƏ DƏYMƏ

## TƏBRİZİM

Baxdıqca hüsnünə doymayır gözüm,
Təbrizim, Təbrizim, gözəl Təbrizim!

Qoymaram yadları girsin qoynuna,
İzin ver qolumu salım boynuna!
Sənin bayramına, sənin toyuna
Dili bir, qanı bir qardaşın gəlib,
Dərdinə aşina sirdaşın gəlib.

Sən çıxdın qarşıma duzla, çörəklə,
Bağından dərdiyin güllə, çiçəklə,
İkiyə bölünməz saf bir ürəklə,
Təbrizim, Təbrizim, aman Təbrizim,
Yox olsun başından duman, Təbrizim!

Qədrini ayrılıq çəkənlər bilər,
Hicranda göz yaşı tökənlər bilər,
Ömrünə qaranlıq çökənlər bilər,
Bağından gül-çiçək dərdim, Təbrizim,
Yenə təzələndi dərdim, Təbrizim!

Nə qəşəngdir yol boyunca söyüdlər,
Söyüdlərin kölgəsində igidlər
Babalardan dinləyirlər öyüdlər,
Coşur damarlarda qanı, Təbrizim,
Yoxdur bu mərdlərin sanı, Təbrizim!

Ağlasan ağlaram, gülsən gülərəm,
Yaşasan yaşaram, ölsən ölərəm,
Varımı səninlə yarı bölərəm,
Gəl bir də üzündən öpüm, Təbrizim!
Başına gül-çiçək səpim, Təbrizim!

Nədir o, mənalı, dərin baxışlar?
Nədir gözlərindən yağan yağışlar?
Nədir qəlbindəki payızlar, qışlar?
Yetimtək boynunu burma, Təbrizim!
Məlul-məlul baxıb durma, Təbrizim!

Sənin çiçəyinə, gülünə qurban!
Mənə qardaş deyən dilinə qurban!
Vətəninə qurban, elinə qurban!
Baxdıqca hüsnünə doymayır gözüm,
Təbrizim, Təbrizim, gözəl Təbrizim!

## DİLİMƏ DƏYMƏ

Mən sənin dilinə dəymirəm, cəllad,
Gəl sən də bu ana dilimə dəymə!
Sənin də bağın var, gülün var, çəkin,
Bağımda əkdiyim gülümə dəymə!

Həsədlərlə baxdın çəmənimə sən,
Gör bir nələr etdin vətənimə sən,
Yan - deyib, od vurdun bədənimə sən,
Altında atəş var, külümə dəymə!

Mən ağa ağ dedim, qaraya qara,
Sən məni istədin çəkəsən dara,
Yenicə sağalır vurduğun yara,
Mənim bu yaralı könlümə dəymə!

## ANAM DİLLİ QARDAŞIM

Dinlə qan qardaşını, qabar əlli qardaşım
Mən sözlü, mən arzulu, mən könüllü qardaşım,
Görürəm ki, qanından rəng alıbdır dan yeri,
Dərdli, qəmli kamanı ürək telli qardaşım.

Azadlıq günəşindən can gəlsin torpağına,
Təbrizli, savalanlı, ərdəbilli qardaşım.
Uzun illər kilidli dilin açıldı artıq,
Doğma anam laylalı, anam dilli qardaşım!

## YAD GÜL DƏRƏ BİLMƏZ

Yad gül dərə bilməz çəmənimdən,
Heç qüvvə ayırmaz məni bir an
Öz doğma elimdən, Vətənimdən.

Hər yerdə günəşdir mənə bayraq
Baş əymərəm aləm yağı olsa,
Qan axsa da sel tək bədənimdən.

Ölsəm qalacaqdır əməlim sağ,
Düşmən mənə əl vursa, əminəm,
Atəş açılacaqdır kəfənimdən.

Heç qüvvə ayırmaz məni bir an
Öz doğma elimdən, Vətənimdən.

## YASİN ƏVƏZİNƏ

Ürəyimin yaxınları, eşidin,
Diləyimin yaxınları, eşidin:
İllər yaman artırır bu yaşımı.
Ya tez, ya gec yerə qoysam başımı,
Nə ağlayın, nə də fəryad qoparın,
Vədinizə əməl edin, nəhayət,
Məni Araz sahilinə aparın.
İllərdir ki, qəlbimdədir bu həsrət.
Məzarımı o torpaqda qazdırın,
Göz yaşımdan yaratmışam bu çayı.
Məni üzü Təbriz sarı basdırın,
Qibləm olsun Arazımın o tayı,
Ancaq, yalnız bircə bunu etməyin,

Gözlərimin qapağını örtməyin.
Üfüqlərdən çəkilərkən sis, duman,
Bəlkə bir də qara torpaq altından –
Vüsal günü qardaşımı görüm mən.
Qardaşımı, sirdaşımı görüm mən.
Mənim əzizlərim, mənim dostlarım,
Elə bilməyin ki, köçüb gedirəm.
Yarıya çatıbdır ömür baharım,
Bir də xahişimi təkrar edirəm:
Vaxtında dünyadan köçdüyüm gündə,
Tutsun tabutumdan o taylı əllər.
Yasin əvəzinə qəbrim üstündə,
Bir vüsal mahnısı oxusun ellər!

## BURAX!

Söyləmə: "Gəl səni qəfəsə salım,
Yanıb külə dönsün vətənin nəşi!"
Burax boğazımı, qoy nəfəs alım,
Tutma gözlərimi, görüm günəşi!

Sən kəsə bilməzsən mənim dilimi,
Dilimin rişəsi ürəyimdədir.
Dostunam, söyləyib sıxma əlimi,
Gözün məndə deyil, çörəyimdədir.

## LAYLA

Bir komada balasına layla çalır bir ana,
Dərdlərini sanki bir-bir yada salır bir ana.
Bu laylada sakit axan bulaqların səsi var,
Bahar çağı pıçıldaşan yarpaqların səsi var.
Bu laylanı uzaqdan
Ürəyimin qulağıyla eşidirəm bayaqdan.
Bir igidin balasıdır bu körpə,
Bir şəhidin balasıdır bu körpə.
Yaxşı fikir verirəm,

Mən tanışam bu laylanın hər sözüylə
Təbrizdəki o daxmada beşiyi də görürəm,
Qana dönmüş ürəyimin gözüylə.
Bu laylanın hər səsində
Sanıram ki, mənə doğma bir mahnının sətri var.
Bu laylanın nəfəsində
Tarlaların, meşələrin, çəmənlərin ətri var.
Ehtiyac yox suala,
İnanın ki, bu layla
İgidlərin adını,
Şəhidlərin adını
Gizlinə
Körpəciyin qulağına pıçıldayır hər gecə.
Bu laylada bir xalqın, bir vətənin
Qövr eləyən yaraları göynəyir.
Çiçəyinə qan çilənmiş çəmənin
Bülbülləri qəm yeyir.
Mürgüləyən körpənin gülümsəyir gözləri,
Nəsə deyir gözləri.
Eşitsin ana Vətən,
Bilirəm bu sirri mən:
Körpə sabah öz əliylə,
Xalqın böyük əməliylə
Quracağı dünyasından razıdır,
Anasının laylasından razıdır!

## MÜCAHİDLƏR MAHNISI

Biz gedirik azadlıqçün döyüşə,
Sinələri dağlamayın, analar!
Şəhid olsaq yaşarmasın gözünüz,
Başa qara bağlamayın, analar!

Bir vaxt deyib-gülənlərin yasını,
Düşmən bağrı dələnlərin yasını,

Bu günlərçün ölənlərin yasını
Uzun illər saxlamayın, analar!

Unudulmaz azadlıqçün ölənlər,
Bizi anar bizdən sonra gələnlər –
Bizim kimi el qədrini bilənlər,
Ağlamayın, ağlamayın, analar!

## TƏBRİZLİ ANALAR

Mən təbrizli analara bələdəm,
Fəxrimdir bu əziz, qoçaq analar.
Körpəsinin beşiyinin başında,
Sübhə qədər qalar oyaq analar.

Məhəbbəti çiçəklənər ilk gündən,
Zərrə bezməz öz analıq yükündən.
Balasına namərdliyi kökündən
Saf südüylə edər yasaq, analar.

Hər kəlməsi, hər sözü gül qoxuyar,
Laylasını diləklərdən toxuyar.
Ürəklərdən keçənləri oxuyar
Kitab kimi varaq-varaq, analar.

Xata çıxsa övladının əlindən.
İnsanlara ziyan dəysə dilindən,
Üz döndərsə vətənindən, elindən
Kandarına basmaz ayaq, analar.

Ta əzəldən dar günündə ellərin,
Qarşısına sinə gərər sellərin.
Nəfəsini kəsər qara yellərin,
Dayaqlara olar dayaq, analar.

Qan axarkən Təbrizdə su yerinə,
Döyüşlərdə ürək verər ərinə.
Nalə çəkib, şəhidlərin qəbrinə
Güllər səpər qucaq-qucaq, analar!

# VÜSAL HƏSRƏTI

## KÖÇƏN DEYİLƏM

Qoy əcəl bilsin ki, vəslin bağından,
Gül-çiçək dərməmiş keçən deyiləm.
O taylı dilbəri özümtək azad,
Bəxtiyar görməmiş köçən deyiləm.

Sinəmdə bir dərya sözüm var yenə,
Olümdən, əcəldən deməyin mənə.
Süleyman Rüstəməm, xalqa, Vətənə
Borcumu verməmiş köçən deyiləm!

## ÖZ GÜLÜSTANIM

Özgə torpağına göz dikməmişəm,
Mənə kifayətdir öz gülüstanım.
Yolunda hazıram candan keçməyə
Vətəndir, Vətəndir şöhrətim, şanım.

Qardaş, xəbərdaram güzəranından,
Gülləri yad dərən gülüstanından.
Canım canındandır, qanım qanından,
Yox, dözə bilməyir buna vicdanım.

Qəm-qüssə çəkməzdim bəlkə də bunca,
Təbrizi görsəydim bir də doyunca.
Vüsal həsrətilə Araz boyunca,
Yolları yollara yamayan canım!

## VÜSAL HƏSRƏTİ

Vüsal həsrətilə yanıram yenə,
Yoxdur əzəl gündən hicranla aram.
Şerimlə, mahnımla çəkərək nərə,
Hicran cəbhəsini mən gərək yaram.

Ey nisgilli bacım, dərdli qardaşım,
Savalan sayağı ağardı başım.
Bu tayda gülşəndir torpağım, daşım,
Sizsiz ola bilməz ürəyim aram.

Qəflətdən oyanmış görürəm sizi,
Dağ kimi dayanmış görürəm sizi,
Al qana boyanmış görürəm sizi,
Dərdiniz dərdimdir, yaranız yaram.

Halı cəlladların yamandır, yaman,
Yoxalır köləlik, dəyişir zaman.
Süleyman Rüstəməm, eşitsin cahan:
Sizə havadaram nə qədər varam!

## DEYİLMİ?

Durnalar, siz deyin, qan qardaşlarım
Gəlib dərd əlindən zara, deyilmi?
Odlar torpağının ürək parçası
Arazın o tayı, ora deyilmi?

İnsanlar göz açmır əlindən yasın,
Gülləri qaradır baharın, yazın.
Qoca ər evinə satılan qızın,
Örtüyü günütək qara deyilmi?

Süleyman, bağlısan o doğma yerə,
Vətənim deyirsən gündə min kərə.
Təbriz gözəlindən sənə xatirə,
Bağrında sızlayan yara deyilmi?!

## BİR ANLIQ HƏYƏCAN

Sevgilim, həyatla vida çağımda
Borcunu yerinə yetirməyə gəl.
Gəl, ötən günlərin xatıratını,
Gəlişinlə cana gətirməyə gəl!

Gəl, başıbəlalı Təbrizdən danış,
Ürəyi yaralı Təbrizdən danış,
Səngərli, qalalı Təbrizdən danış,
Vüsal çiçəkləri bitirməyə gəl.

Uzaqda olsan da yanımdan mənim,
Qanın ayrı deyil qanımdan mənim,
Canıma yaxınsan canımdan mənim –
Ölsəm, məni yerdən götürməyə gəl.

Ömrümün dünəndə qaldı baharı.
Mənim xoş günümdə gəlmədin, barı
Qırıb məftilləri, udub yolları,
Məni son mənzilə ötürməyə gəl!

## VƏFALI QALIB

Yenə könlüm quşu xəyala dalıb,
Başımın üstünü dumanlar alıb.

Yarı yolda Araz kəsib yolumu,
Məni min dərdə, min bəlaya salıb.

Sevgilimdən uzaq düşüb könlüm,
Bilsin aləm, qanım yaman qaralıb.

Gecələr yatmıram sabaha qədər,
Məni əqrəbmi, ya ilanmı çalıb!

Qan çəkib yol çəkən gözüm, heyhat,
Uzun illər ötüb, yaşım çoxalıb.

Xeyli var ki, vüsal küsüb məndən,
Mənə bir ayrılıq vəfalı qalıb.

## GƏL DEMƏ

Gəl demə, "Sevgilim unudub məni,
Yurdumu, yuvamı aramaz oldu".
Gəl demə, "Halıma ürəyi yanmır",
Demə, "xeyrə, şərə yaramaz oldu".

De görüm kimdə var məndəki dözüm,
Səni addım-addım aradı gözüm.
Uzanan yolları daradı gözüm,
Məgər bu yollarda yaram az oldu?!

Qınama uzaqdan-uzağa məni,
Unuda bilərmi sevən-sevəni?
Hər gün bu sahildən səslədim səni,
Səsimə səs verən tək Araz oldu.

## AXTARARSINIZ

Bir gün yadınıza düşərsəm, məni,
Bu doğma ellərdə axtararsınız.
Beş-altı nəğmənin müəllifini,
Sevən könüllərdə axtararsınız.

İlk bahar çağında
İsa bulağında,
Araz qırağında,
Sonalı göllərdə axtararsınız.

Gözəllər gözəlim, vətəndir, vətən,
Nə duman görəcək, amalım, nə çən.
Məni, karvan-karvan mənalı keçən,
Aylarda, illərdə axtararsınız.

Görən gözümü,
Ürək sözümü,
Mənim özümü
Nəğməli dillərdə axtararsınız!

## SÜLEYMAN DƏRDİ

Məni yandırdı Füzuli kimi hicran dərdi,
Uzun illər demədim xalqa bu pünhan dərdi.

Aşiqəm, eşqimi gizlətməyə haqqım yoxdur,
Həmdəmimdir gecələr sevgili canan dərdi.

Vurdu, soldurdu xəzan sevgilimin gülşənini,
Daşıyır gör necə qəlbində bir ümman dərdi.

Eşqimin hər iki sahildə dərin kökləri var.
Yox, deyil dərdimə tay eşqdə Sənan dərdi.

Hardasan, harda, xəyalımdakı təbrizli gözəl,
Tək sənin dərdin olub indi Süleyman dərdi?!

## SƏN DEYİLMİDİN?

Bir zamanlar öz yurdunda azad yaşayan
El bağından güllər dərən sən deyilmidin?
Könüllərə qalsın deyə xatirə, nişan,
Qardaşına pay göndərən sən deyilmidin?!

Azadlığın bayrağını ürəkdən öpən,
Alnındansa torpaqlara incilər səpən,
Vəcdə gəlib bülbül kimi mahnılar ötən,
Özü əkib, özü biçən sən deyilmidin,
Haqq yolunda candan keçən sən deyilmidin?!

Sükanını möhkəm tutan ümman içində,
Qərarım dəyişməyən tufan içində,
Süngülərin arasında al qan içində,
Ordulara qalib gələn sən deyilmidin,
Şənliklərdə deyib-gülən sən deyilmidin?!

Ürəklərə dayaq olub öz nəğməsilə,
Haqsızlığa cavab verən haqqın səsilə,
Çağırılmamış qonaqları bir nərəsilə
Uzaqlara qovan oğul sən deyilmidin,
Gözlərini ovan oğul sən deyilmidin?!

Səttarxanın bayrağını qəlbindən asan,
Millətinin şöhrətini günəşə yazan,
Əliqanlı cəlladların qəbrini qazan
Ağ günləri salamlayan sən deyilmidin,
Annıaçıq o qəhrəman sən deyilmidin?!

Sınaq günü görməmişəm mən səni gendə,
Yadellilər üzərinə hücum çəkəndə,
Fürsət tapıb od vuranda şəhərə, kəndə
Qol çırmayıb qılınc vuran sən deyilmidin?!
Səngərində möhkəm duran sən deyilmidin?!

Vətən oğlu vətənini düşünsə bir az,
Güllələrin qabağına güllərlə çıxmaz.
Getsin deyə könüllərdən bu matəm, bu yas,
Son qərara gələk deyən sən deyilmidin,
Lazım gəlsə ölək deyən sən deyilmidin?!

İndi niyə səsin gəlmir, hardasan, harda,
Deyirəm ki, bəlkə yenə dardasan, darda.
Bəlkə qolun gücdən düşüb, halın yamandır.
Bəlkə yenə dağlarının başı dumandır,
Bəlkə yenə zindanlara atıblar səni,
Səsin gəlsin, qoyma, qardaş, nigaran məni!

## ARAZIM

Bax, Arazım, bu vəhşətə, bu dəhşətə şahid ol
Azadlığa şəhidlərin üzərindən gedir yol.
Biz iki qan qardaşının arasından axırsan,
Uzun illər bir sağalmaz yarasından axırsan.

Hey axırsan, bizim ulu babaların yaşından,
Tarix bilir nə tufanlar gəlib, keçib başından.
Sənsən mənim qana dönmüş ürəyimin aynası,
Deyirəm ki, külə dönsün bu kölәlik dünyası
Al qoynuna dostlarını, ey bağrı qan Arazım,
Mənim qanlı göz yaşımdan yaranmısan, Arazım!
Od salmaqçın o taydakı cəlladların canına
Sinən üstdən yol ver, keçim qardaşımın yanına!

## YAŞA BAXMIRAM...

Yaş məni haqlayıb, deyir ki, dayan,
Yox, yox, mən bu yolda yaşa baxmıram!
Bu yol Təbrizimə aparır məni,
Bu yolda kəsəyə-daşa baxmıram.

Deyirəm, ey vüsal, hardasan, harda?
Gedirəm, gedirəm, qalsam da darda.
Dilbilməz tufanda, boranda qarda
Geriyə dön deyən qışa baxmıram.

Yoldayam, yoldayam, yoldayam yenə,
Qoy öyüd verməsin qansızlar mənə.
Önünə çıxsa da min qanlı səhnə,
Gözlərimi tutan yaşa baxmıram.

Əhdimə vəfalı bir insanam mən,
Doğma qardaşımdan nigaranam mən,
Uzun yollar yoran Süleymanam mən,
Qar kimi ağaran başa baxmıram.

## EHTİYAC

Yenə də cənubdan şimala gələn
Nə dost, nə qardaş var, nə bir bacı var.
Zindanlı, zindansız kəslərin belə
Başında qar kimi dümağ saçı var.

Bədnam fərmanlara qol çəkənlərin,
Nəşəni xəlvəti bol çəkənlərin,
Qəmli zindanlara yol çəkənlərin
Başda əmmamətək qanlı tacı var.

Bircə şad xəbərə möhtac könlümün,
Amansız hicranla hey qaç könlümün
Qardaş həsrətilə bu ac könlümün
Ömürlük vüsala ehtiyacı var!

*21 aprel 1984*

## YAZ, SÜLEYMAN, YAZ

Təbrizimin bitməyib, heyhat, qanlı günləri,
Sonsuz ahlı, fəryadlı, həyəcanlı günləri.
Bir zaman Yer üzündə çox yaxşı bilir ellər,
Şöhrətdi tarixlərə ulu, şanlı günləri.
Bu gün də əvvəlkitək nəğmələrdə səslənir
Bağırxanlı günləri, Səttarxanlı günləri.
Göz ağrıyır görəndə şairlər vətənində
Bu qəssablı günləri, bu qurbanlı günləri.
Əfsus, başda oturan əqrəb yuvalı başlar
Azadlıq adlandırır bu zindanlı günləri.
Yox, belə getməyəcək xalq ömründən siləcək.
Bu dəhşətli günləri, bu tufanlı günləri.
Yaz, Süleyman, durma, yaz, qoy var olsun Təbrizin
Şəhriyarlı günləri, Süleymanlı günləri.

## ŞEİRDƏN QİYMƏTLİ ŞƏRVƏT OLMASIN...

Dostlar, deyirəm ki, hər təzə ildə
Halal süfrəmizdə qeybət olmasın.
Vətəndən danışaq, eldən danışaq,
Gərəksiz, mənasız söhbət olmasın.

Qoy özündən küssün sözümdən küsən,
Hamıya, hamıya anadır vətən.
Könül, candan bağlan vətəninə sən,
Eldə ünvanına nifrət olmasın.

Döşünü qaz kimi qabağa verən,
Yerini hər yerdə lap başda görən,
Atını gah sağa, gah sola sürən
Mən-mən deyənlərə hörmət olmasın.

Vətəndir qol-qanad hər sənətkara,
Şairəm deməsin hər üzüqara.
Çalışaq onlarda nəşriyyatlara,
Hücumlar etməyə cürət olmasın.

Anamız vətənçin vurmasa ürək,
Haram olsun mənə yediyim çörək!
Vətənini sevən şairçin gərək
Vicdandan dəyərli sərvət olmasın.

## TƏBRİZLİ SÜLEYMAN OLDUM

Ayrılıqdan necə gör könlü pərişan oldum,
Gözü illər ıızunu yol çəkən insan oldum.
Bir zamanlar qoca Təbrizdə şeirlər yazdım,
Doğma qardaş kimi min-min evə mehman oldum,
Bir gözəl vardı o sahildə, Züleyxaydı adı,
İlk baxışdan mən onun hüsnünə heyran oldum.
Başıma yadlar əlindən qara daşlar yağdı,
Yaralardan ürəyi, bağrı qızıl qan oldum.
Göz yaşımla suvarıb dərdli vətən torpağını,
Qara güllər bitirən bağlara bağban oldum.
Mən o sahildə nişan qoydum ayaq izlərimi,
Bakılı, həm də ki, təbrizli Süleyman oldum!

*16 iyul 1985*

## MƏNİM MUŞTULUĞUM

*Bəxtiyar Vahabzadəyə*

Çoxdandır şad xəbər gəlmir o taydan,
Bağrıma dağ çəkib ayrılıq mənim.
Haçandır bir nəfər gəlmir o taydan,
Başıma daş töküb ayrılıq mənim.
İllərdir bu Araz qırağında mən,
Qardaş sorağında gəzən olmuşam.
Vahid vətən, millət fərağında mən
Dözülməz dərdlərə dözən olmuşam.

Mənə sözarası "Şair, bir belə
Yazmaqdan nə çıxar" deyənlər də var.
Orda zindandadır, ilk bahar belə,
El mənə, yazmasın lənət yağdırar.
Yağdırar, yağdırar, necə yağdırmaz,
Bu qızıl qələmi o verib mənə,
Vicdanım əmr edir şairim, yaz, yaz.
Hələ az yazmısan, durma, yaz yenə.

Gedirəm yenə də vüsala doğru,
Tənələr yağsa da biganələrdən.
Bilirəm, əzmimdə doğruyam, doğru,
Xəyalım uzaqdır əfsanələrdən.
Öz şəxsi dərdinə qalanlar mənə,
Hörümçəklər kimi tor hörməsinlər.
Ürəyi qara daş olanlar mənə,
Müqəddəs dərdimi çox görməsinlər.
Bu şair könlümün məhəbbətini
Bilir Heydərbaba, Savalan bilir.
Cənubun tükənməz müsibətini
Hamıdan daha çox Süleyman bilir.
Çox da gəncliyimdən uzaqdır yaşım,
Gələcək illərdə gözüm var hələ.
Cənubun dərdinə qarışıb başım,
Dünyaya bir dünya sözüm var hələ.

Qoy ellər eşitsin, qoy bilsin vətən,
Vüsal deyəcəyəm son nəfəsdə də.
Andıma vəfalı qalacağam mən,
Torpaqlar altında dar qəfəsdə də.
Qanlı göz yaşlarım deyildir əbəs,
Nisgilim, həsrətim yetməyir sona.
Vüsaldan şad xəbər versəydi her kəs,
Canımı muştuluq verərdim ona!

## SÖZ ORDUM...

Yanılmaram desəm ki, alın tərli sözümlə
Könüllərdə şairtək özümə yuva qurdum.
Öz ilk mahnılarımı körük basa-basa mən
Atamın gur dəmirçi ocağında yoğurdum.
Yurdumun keşiyində gecəli-giindüzlü mən
Ürəyimin gözüylə səfərbər kimi durdum.
Çalışıram vüqarla köç zamanı deyim ki,
Sadə şair ömrümü vicdanla başa vurdum.
Bir vüsal həsrətilə çıxdım uzaq yollara
Dostlardan Səhəndimi, Şəhriyarımı sordum.
Dünən də yollardaydı, bu gün də yollardadır
Yorulmayan söz ordum, qocalmayan söz ordum.
Səndən deyir Süleyman, səndən deyəcək yenə,
Sən ey mənim varlığım, müqəddəs ana yurdum...

## NƏ QƏDƏR Kİ, SAĞDIR...

Ötərgi sanmayın şikayətimi,
Mənim hər fəryadım, hər naləm haqdır.
Doğma Cənubumdan söhbət düşəndə
Hər kəlməm, hər cümləm bir yanar dağdır.

Orda cəzası var diləklərin də,
Xəmiri qanlıdır çörəklərin də.

Sözü doğruların kürəklərində
Şallaqların yeri zolaq-zolaqdır.

Ürək necə dözsün bu acı dərdə,
Gözləri qapayıb min qara pərdə.
Şairlər vətəni adlanan yerdə
Edamlı cəsədlər qalaq-qalaqdır.

Ay ellər, qəm yüklü sözümə baxın,
Məndəki bu ağır dözümə baxın,
Deyirəm bir daha özümə baxın:
Bağrımda yaralar yamaq-yamaqdır.

Hicranla döyüşür qələm üz-üzə,
Vüsalsa hələlik görünmür gözə.
O tayın dərdindən deyəcək sizə
Dostlar, nə qədər ki, Süleyman sağdır.

## HƏYATDIR MAHNI

Oxucum, ömürlük şair gözümdə
Məhəbbətdir mahnı, həyatdır mahnı.
Haqlıdan haqlıyam mən bu sözümdə,
Qanadsızlara da qanaddır mahnı.
Həyat yollarında, məncə, hamıya
Su, hava, çörəktək gərəkdir mahnı.

Vətən torpağına can verənlərə
Ən ağır cəbhədə köməkdir mahnı.
Yazıram, pozuram, illər uzunu,
Canım, ciyərimdir, qanımdır mahnım,
Onsuz bir günüm də olmayıb mənim,
Ömürlük adımdır, sanımdır mahnım.
Quduz, qara yellər heçdir onunçün,
Sərhədləri aşan sözümdür mahnı.
Tikanlı məftillər heçdir onunçün,
Haraylara qoşan özümdür mahnı.

## GECƏLİ-GÜNDÜZLÜ

Azadlığıma şahid qanım rəngli bayrağı
Ömürlük başı üstə saxlayan şairəm mən.
Hər ilin baharında vəcdə gəlib dilində
Sözü şəlalələrtək çağlayan şairəm mən.

Ey cənublu qardaşım, doğru yol seçənlərin,
Səttarxan bulağından büllur su içənlərin,
Azadlıq vuruşunda canından keçənlərin
Yarasını şerimlə bağlayan şairəm mən.

Dostunun dostuyam mən, düşməninin düşməni,
Mən gecəli-gündüzlü anıram hər an səni,
Gözümdə yaş görməsən, qınama, qardaş məni,
Ürəyimin gözüylə ağlayan şairəm mən.

## MÜBARİZƏ ELAN EDİRƏM

Dəmir kimi kəlmələrdir mənim silahım,
Şeirlərdir, nəğmələrdir mənim silahım!
Vaxt olur ki, gözüm düzü düz görməyəndə,
Mənə çoxdan tanış üzü düz görməyəndə,
Yolumdakı çöl-düzü düz görməyəndə,
Gözümə də mübarizə elan etmişəm,
Özümə də mübarizə elan etmişəm!

Lovğalara, satqınlara, rüşvətbazlara,
Özlərini sevən arsız şöhrətbazlara,
Millətini tanımayan millətbazlara
Hər sözümlə mübarizə elan etmişəm,
Ər sözümlə mübarizə elan etmişəm!

Azadlığa ölüm hökmü yazan kəslərə,
Millətlərin dostluğunu pozan kəslərə,
Haqq yolundan, düz yolundan azan kəslərə
Söz ordumla mübarizə elan etmişəm,
Öz ordumla mübarizə elan etmişəm!

Ağ günümü qara görən cahangirlərə,
Cinayətlə ömür sürən cahangirlərə,
Ölümlərə rəvac verən cahangirlərə
Öz sazımla mübarizə elan etmişəm.
Hər yazımla mübarizə elan etmişəm!

Başqasının torpağına göz dikənlərə,
Vətənindən uzaqlarda qan tökənlərə,
Tarix boyu sinələrə dağ çəkənlərə
Hər kəlməmlə mübarizə elan etmişəm,
Hər nəğməmlə mübarizə elan etmişəm!

Harda olsa dərdliyə şad söyləyənlərə,
Addımbaşı haqlıya yad söyləyənlərə,
Günə, aya görünmə, bat söyləyənlərə
Amalımla mübarizə elan etmişəm,
Cəlalımla mübarizə elan etmişəm!

Yerdə-göydə müharibə aşiqlərinə,
Bizə qarşı qəfil zərbə aşiqlərinə
Qan püskürən bu dəbdəbə aşiqlərinə
Mən amansız mübarizə elan etmişəm,
Sülhçün qansız mübarizə elan etmişəm!

## OXUCUMA

Oxucum, vətənə məhəbbətimi
Mənim bu döyünən ürəyimdə gör.
Ulu millətimə sədaqətimi
Sonsuz arzumda gör, diləyimdə gör.

Oxucum, şeri gör sözün düzündə,
Şairtək yerimi bu Yer üzündə
Ürəyimin qoşa saf güzgüsündə -
Mənim bu ikicə bəbəyimdə gör.

Mahnımın dillərdə səslənməsini,
Sevən könüllərdə səslənməsini,
Dost, qardaş ellərdə səslənməsini
Halal duzumda gör, çörəyimdə gör.

## GƏRƏKSİZ DEMƏSİNLƏR

*Nəvəm Günəşə*

Çalış öz zəhmətinlə ömrünü ağgünlü gör,
Sənə süfrəsi duzsuz, çörəksiz deməsinlər.
Hər dərdlinin halına ürəyin yansın gərək,
Sənə ellər içində ürəksiz deməsinlər.
Özünə min dost qazan, vətənə, xalqa bağlı,
Haqqında dar günündə köməksiz deməsinlər.
Şənlik məclislərində ətir yağdır dilindən,
Ömür bağçası gülsüz, çiçəksiz deməsinlər.
Daha gözəl günlərin sorağında çıx yola,
Dostlar sənə arzusuz, diləksiz deməsinlər.
Zirvələrin yolunu şair babamdan öyrən,
Üzünə zəfər günü çələngsiz deməsinlər.
Haray çəkənə hay ver, sənin Günəş adına
Gərəksiz deməsinlər, gərəksiz deməsinlər!

*21 iyul 1985*

## MƏHƏBBƏTİMDİR

Məni zirvələrə pərvazlandıran
Baharı xəzansız səadətimdir.
Mənə döyüşlərdə zəfər çaldıran
Eldən dərs aldığım cəsarətimdir.

Mənə dinclik sozü yaddır həyatda,
Özünü düşünsən qalmazsan yadda.

Tükənməz sərvətim bu kainatda.
Vətənə, millətə sədaqətimdir.

Bəşərə xidmətçin yaranmışam mən,
Onun düşməninə düşmənəm, düşmən.
Ağzıgöyçəklərin - bilir el, vətən
Başlarına bəla xasiyyətimdir.

Əbədi, günəşli düz yolu seçmək,
Dostiuq bulağından birgə su içmək,
Bir amal uğrunda canından keçmək
Bütün nəsillərə vəsiyyətimdir.

Süleyman Rüstəməm, ürəyi təmiz,
Açıq süfrəsində çörəyi təmiz.
Vicdanı, arzusu, diləyi təmiz,
Bu yolda bayrağım məhəbbətimdir!

17iyul 1985

## GÜCLÜDÜR, MƏNCƏ

Doğma vətənimin gülüstanına
Qoymaram uzansın hər qara pəncə.
Ağ günümə düşmən kim olur-olsun
Murdar varlığmı döndərrəm heçə.

Ərzə qorxu yoxdur bizim ölkədən,
Əlimiz uzaqdır qandan, ləkədən.
Sülhü qorumaqçün hər təhlükədən
Nəğmə yarağımı qoymuşam dincə.

Sülh deyə səslənir sazımın simi,
Qoy ellər dinləsin bu haqq səsimi.
Dilsiz bir körpənin ilk təbəssümü
Atom silahından güclüdür, məncə.

## YAŞILLIQ MƏCNUNU

*Mərhum dostum*
*Ağamirzənin xatirəsinə*

Dostlar, həm fərəhli, həm qəmliyəm mən,
Bir dostum yadıma düşdü bu axşam.
İllər keçibsə də köçdüyü gündən,
Mən əziz dostumu unutmamışam.
Onu tanıyanlar təsdiqlər məni,
Unutmaq çətindir Ağamirzəni.
Zəhləsi gedərdi qaraqabaqdan,
Dostlar məclisində üzü gülərdi.
Söhbəti, başlardı bağçadan, bağdan,
Hər dosta səadət, ağ gün dilərdi.
Dostumu tanımaq çətin deyildi,
Açıq bir kitabdı ondakı ürək.
O məni özünə dost, qardaş, bildi,
Çox yerdə onunla kəsdik duz-çörək.
Gah onlarda olduq, gah bizdə olduq,
Hərbin qızğın çağı Təbrizdə olduq.
Sonralar da tez-tez görüşərdik biz,
Məsul vəzifələr başında oldu.
Abadlıq naminə fikri səbirsiz
Vətən torpağında, daşında oldu.
Yaşıllıq görürdü yuxusunda da,
Nə həyatdan doydu, nə işdən doydu.
Öz qızıl vaxtını vermədi bada,
Sözünün əvvəli-axırı buydu:
Abadlıq, abadlıq, yenə abadlıq!
Abadlıq dostumçün şadlıqdı, şadlıq...
Torpağa sevgisi dərindi, dərin,
İşinə-gücünə canı yanırdı.
Harda olurdusa azdan o yerin
Çılpaq küçələri çinarlanırdı.
Dilində həmişə bu sözdü əzbər:
Yaşıla bürünsün gərək hər şəhər,

Ağaclar altından keçəndə dostum
Sanki baş əyirdi budaqlar ona.
Başqa bir şəhərə köçəndə dostum
Sanki əl çalırdı yarpaqlar ona.
Sanki o Məcnundu, yaşıllq Leyla,
Qoymazdı bir ağac baxımsız qala.
Az qaldı damlarda ağac əkdirə.
Göldənmi, çaydanmı su da çəkdirə.
Yorulma deyirdi özünə hər gün,
Əzmi qanadlıydı arzusu kimi.
Görünürdü onun gözünə hər gün
Ağaclar doğmaca ordusu kimi.
Qoymazdı biri də saralsın, solsun,
Bu uğurlu yolda bəxtiyardı o.
İşinə zəng vuran kim olur-olsun
Dəstəyi sorğusuz qaldırardı o.
Xalqına xidmətdi eşqi, həvəsi,
Dili ömrü boyu mən-mən bilmədi.
Üzə qüsurunu deyən hər kəsi
Özünə dost bildi, düşmən bilmədi.
Çalışdı qeyrətlə, illər boyunca,
Heyhat, yaşamadı dostum doyunca.
Könül sərvətini verib elinə,
Alnıaçıq köçdü son mənzilinə.
Ağaclarsa hər gün qalxdı, ucaldı,
Ondan nəsillərə xatirə qaldı.

* * *

Dostlar, həm fərəhli, həm qəmliyəm mən,
Bir dostum yadıma düşdü bu axşam.
İllər keçibsə də köçdüyü gündən,
O əziz insanı ununtmamışam.
Onu tanıyanlar təsdiqlər məni –
Unutmaq çətindir Ağamirzəni...

## ANAM XIRDAXANIMIN XATİRƏSİNƏ

Ana! Köçdünsə də, öpüşlərinin
Yeri xatirətək üzümdə qaldı.
Bizim ana-oğul məhəbbətimiz
Xoşbəxtəm ki, mənim özümdə qaldı.

Mən hər bağ vaxtında çox səni yordum,
Kol-koslar içində mayallaq vurdum.
Sözünə baxmadım, yıxıldım, durdum,
Tikanların yeri dizimdə qaldı.

Çoxdan, Novxanıda səninlə birgə
Xeyli meynə əkdik tər tökə-tökə.
Gözlərim o vaxtdan yol çəkə-çəkə
Ağ şanı adlanan üzümdə qaldı.

Rahat yaşasam da ocağımda mən,
Nəvə oynatsam da qucağımda mən,
Səninçün körpəydim bu çağımda mən,
Gözün gecə-gündüz izimdə qaldı.

Ana! Gör nə deyir bu şair balan –
Sən mənim qalamdın, mən sənin qalan,
Səkkiz baş övlada çaldığın laylan
Şeirli, nəğməli sözümdə qaldı.

Çox da qara torpaq ayırdı bizi,
Eşqinin qəlbimdən silinməz izi.
Anacan, budur ki, sözümün düzü –
Surətin ömürlük gözümdə qaldı.

*20 mart 1985*

## AĞ GÜNLÜ NƏVƏMSƏN

*Nəvəm Azadəyə*

Azadə! Gözəllər gözəlindən də gözəlsən!
Mən bildiyim, ellər gözəlindən də gözəlsən!

Şıltaqlığına hər gün ürəkdən gülürəm mən,
Hər kəlməni hər dərdimə dərman bilirəm mən.
Görcək səni, yorğunluğa üstün gəlirəm mən,
Hər kəlməsi tər güllü, gülər üzlü nəvəmsən,
Xoşbəxtəm onunçun ki, günəş gözlü nəvəmsən.

Şair babanın sözlərini saxla yadında,
Azadə sözü nəğmə kimi varkən adında –
Öz bəxtini yüksəklərə qaldır qanadında.
Saf sevgiyə layiq, məzəli, nazlı nəvəmsən.
Bülbül nədir, ondan da xoş avazlı nəvəmsən!

Sən bəxtimə bax, ömrümə solmaz yaraşıqsan,
Sən heç tayı, heç bənzəri olmaz yaraşıqsan,
Ellər də bilir kölgədə qalmaz yaraşıqsan.
Azadəciyim, ömrü bahar çağlı nəvəmsən,
Öz yurduna, öz millətinə bağlı nəvəmsən!

Öyrən vətəni, milləti öz yaşlı babandan,
Dünyanı dolanmış başı qar saçlı babandan,
Təbriz sarıdan gözləri qan yaşlı babandan,
Sən dərdi, qəmi yoxluğa sürgünlü nəvəmsən,
Ağ günlü nəvəmsən, mənim ağ günlü nəvəmsən.

## İŞIQ

Dar qəbirdən fərqi nədir, deyin zülmət bir zindanın?!
Arazın o tayındakı mənə doğma bir məkanın
Övladları dəstə-dəstə salındıqca zindanlara
Mən ürəkdən səs verirəm bağrı yara insanlara!
Gecəyarı, hər yer sakit,
Hərdən-birdən verilir fit.

Qoca Təbriz yuxudadır, ajanlardır yalnız oyaq,
Çiyinlərdə Amerika markalı son yeni yaraq.
Bir zindanın qabağında tək-tək deyil, qoşa-qoşa,
Gedib-gəlir jandarmlar gah o başa, gah bu başa.
Guya zindan boğa bilər azadlığın haqq səsini,
Ölüm-dirim savaşına bəstələnmiş nəğməsini.
Sanki zindan son verəcək al bayraqlı üsyanlara,
Həqiqətə, ədalətə candan bağlı üsyanlara.
Odur, iki məhbus yatır dar zindanın bir gözündə:
Nakamların qan izi var aydın-acıq mərd üzündə,
Hər ikisi qorxu bilməz, igid, dönməz fədaidir,
Ürəyində vətən eşqi əsla sönməz fədaidir.
İnqilabı, azadlığı zəncirləmək olarmı? - Yox!
Könüllərdə arzuların çiçəkləri solarmı? - Yox!

Günəş olub səhər-səhər iki dostun əməlləri,
Gəzir kənd-kənd, şəhər-şəhər iki dostun əməlləri.
İki dostu əldən salıb saya gəlməz sorğu-sual,
Hər birinin ürəyinə təsəllidir xoş istiqbal.
Hər birinin bədənində bir sağ yer yox, döyülməkdən.
Onlar deyir: - Dar ağacı şərəflidir əyilməkdən!
Bilirlər ki, təslim olmaq, ana yurda xəyanətdir,
Mübarizə zəfərlərlə doğma, əkiz həqiqətdir.
Bilirlər ki, əməlləri döyüşlərin bayrağıdır,
Onları mərd yetişdirən Azərbaycan torpağıdır.
Bilirlər ki, alovlanır xalqın kini, intiqamı,
Qana dönmüş ürəyində qalmayacaq arzu-kamı.
Bilirlər ki, yadellilər qovulacaq bu diyardan,
Müqavimət soraq verir zəfər adlı ilk bahardan.
Bilirlər ki, ana vətən nə gündədir, nə haldadır,
Bu ellərin ürək dostu, xilaskarı şimaldadır.
Deyir qəti döyüşləri düşündükcə, iki məhbus: -
Silah tutan əllərimiz zəncirlidir, əfsus, əfsus!
Ayağından sürüyərək bu məhbusu iki ajan,
Çuval kimi kameraya tullayaraq oldu nəhan.
Bu zindanın bir gecəsi belə, olmur fəlakətsiz...
Üstü, başı qan içində düşüb qaldı hərəkətsiz.

Yeni dustaq, cavan dustaq, -
İki yoldaş cəld qalxaraq,
Dinlədi can qəfəsini,
Onun zəif nəfəsini.
Söylədilər məhəbbətlə,
Məhəbbətlə və heyrətlə:
"Bir bu qədər yaralardan ölməyibdir, diridir o;
Əyilməyən alnıaçıq igidlərdən biridir o!"
Gənc məhbusa acıyacaq iki məhbus fikrə daldı,
Oxuyaraq fədailər nəğməsini dodaqaltı,
Lənət dedi çağırılmamış əliqanlı qonaqlara,
Fitnə-fəsad toxumu səpən yad məkanlı qonaqlara.
Oxşadılar: - Özünə gəl, oyan, - deyə gənc dustağı -
Qüvvə topla, qaya kimi dayan, - deyə gənc dustağı.
O tərpənib gözlərini açan zaman yavaş-yavaş,
Dostlar ondan soruşdular: - Adın nədir, kimsən, qardaş?
O tanıdı dostlarını... dostlar onu tanımadı,
Tanınmazdır, nə bilsinlər kimdir əsli, nədir adı?
Yeni dustaq xeyli süzdü bu mərd, köhnə dustaqları,
Bu sözləri deyə bildi parçalanmış dodaqları:
Azərbaycan, bütöv vətən bayrağıdır həqiqətim!..
Bu sözlərdən dar, qaranlıq, nəmli zindan işıqlandı,
Könüllərdə günəş doğdu, qəmli zindan işıqlandı!..

## SAXLARSAN

*Fikrət Qocaya*

Gözəl şeirlərini öz adında saxlarsan,
Vətən məhəbbətinin gur odunda saxlarsan.

Cıdırda söyləsələr "at seçin", açıq gözünü
İgid, Qaçaq Nəbinin Bozatında saxlarsan.

Çaparsan arzularınla Cənuba əldə qələm,
Sonunda, zirvələrin son qatında saxlarsan.

Vətənsizin yeri yoxdur bizim bu gülşəndə,
Bunu mənim kimi hər an yadında saxlarsan.

Deyim ürək sözümü, sən də mən Süleymantək,
Cənubun həsrətini fəryadında saxlarsan!

## ÜRƏK SÖZLƏRİ

*Osman Sarıvəlliyə*

Təbrik edirəm candan, ürəkdən səni, Osman,
Təkrar nə deyir - gör sənə dostun bu Süleyman.

Sən hörməti insanlara hörmətlə qazandın,
Qəlbindəki saf, nurlu məhəbbətlə qazandın.
Şerindəki ən güclü həqiqətlə qazandın,
Şair kimi heç güdmədin öz xeyrini dostum,
Ellər oxuyur nəğmətək hər şerini dostum.

Ağ günlü həyatında elin baxtını gördün,
Əzmində, səbatında elin baxtını gördün.
Ən ülvi muradında elin baxtını gördün,
Al bayrağı öz bağrına basdın yenə dostum,
Yazdın, yenə yazdın, yenə yazdın, yenə dostum!
Hər dikbaşa baş əymədin ömründə özünçün,
Mən-mən deyə car çəkmədin ömründə özünçün.
Sən heç qapılar döymədin ömründə özünçün,
Şöhrət özü döydü qapını, aç deyə, dostum,
Şerinlə qaranlıqlara nur saç, deyə dostum!

Tərif dilənən kəsləri, sən sevmədin heç vaxt,
Yad nəğmədə yad səsləri sən sevmədin heç vaxt.
Biganə baxan gözləri sən sevmədin heç vaxt,
Çal, çal, sazının susmasın heç telləri dostum,
Çal, vəcdə gətir mahnı sevən elləri, dostum!

Qoy aləm eşitsin, mən ürəkdən çəkirəm car,
Var, qarşıda bundan daha xoş illərimiz var,
Yox, yormayacaqdır bizi bu zirvəli yollar,
Heç baxmayıb öz şıltaq ürək ağrıma, dostum,
Gəl, bir də basım mən səni öz bağrıma, dostum!

## ADIN KİMİ

*Dostum Rəşidə*

Gəl öz köhnə dostunun sözlərini eşit sən,
Sən bu şair gözümdə adın kimi rəşidsən!
Ölkələr dolaşmısan ürək mahnılarınla,
Sülhsevər insanlara gərək mahnılarınla.
Səni pərvazlandırıb elindəki gözəllik,
Milyonlarla dil tapıb dilindəki gözəllik.
Vətəninin pozulmaz hər rəngi var səsində,
Millətinin vüqarlı ahəngi var səsində.
Mükafatın hər yerdə adına hörmət olub,
Səsini dinləyənlər bir səslə can deyiblər.
İlhamının mayası məhəbbətdən yoğrulub,
Əcəb bülbül yetirib Azərbaycan, deyiblər.
Bu uğurlu yollarda sərvətin mahnılardır,
Adın, sanın, şöhrətin əbədi mahnılardır.
Salonları seyr edib günəşli gözlərinlə -
Ürəkləri açırsan açarlı sözlərinlə.
Tərcüməsiz hər sözün könüllərə tapır yol,
Alqışlar ünvanına yağır yağıştək: - Sağ ol!
Bugünkü təntənəndə səni sevən dostlara
Sonsuz könül varından de, gözünə döndüyüm!
Əziz dostum, sən hara, söylə, yoruldum hara?!
Gözəl mahnılarından de, gözünə döndüyüm!
Gəl, dostum, gəl bir daha sözlərimi eşit sən -
Sən bu şair gözündə adın kimi rəşidsən!

*8 dekabr 1985*

## HAQLI DEYİLSƏN...

*Bir nankora*

Bir güzgüyə bax gör ki, günü ağlı deyilsən,
Öz yurduna, öz millətinə bağlı deyilsən.
Çoxdan qara qəlbindəki gənclik odu sönmüş,
Gəncəm deyə fəxr etmə, bahar çağlı deyilsən.
Xəlvətdə müqəddəs vətən ünvanına heç vaxt
Bir güldən ağır söz deməyə haqlı deyilsən.
Ey ömrü xəzan, bir daha söz acma bahardan,
Sən can evi gül bağçalı, gül bağlı deyilsən.
Dərviş kimi cövlan edib hər yerdə öyünmə,
Sən ki, yolu düz qırmızı bayraqlı deyilsən.
Əfsus, uzun illər boyu hicrində Cənubun
Rüstəm kimi sən bağrı yara dağlı deyilsən.

## EŞQİN ÜRƏYİMİN YARASINDADIR

Dinlə şairini, təbrizli gözəl,
Yenə həsrətinlə alışır sinəm.
Tarixi uzundur bu ayrılığın,
Əzizdir qəlbimə, doğmadır bu qəm.

Dünyanı versələr etmərəm qəbul,
Könlüm vüsalını istəyir ancaq.
Səni qul doğmayıb təbrizli anan,
Sənindir qan sızan o ana torpaq.

Silkin, qoy dağılsın başının üstdən,
Sənə gün verməyən qara buludlar.
Torpağın altından boylansın bir-bir,
Bahar müjdəçisi çiçəklər, otlar.

Mənə elə gəlir, vüsalın yolu
Gözümlə gözünün arasındadır.
Yox, mümkün deyildir, səni unutmaq,
Eşqin ürəyimin yarasındadır!

## BACIM ÜÇÜN

Görüb rəngi solmuş gül yarpağını,
Dünən bir kitabın arasında mən.
Təbrizli bacımın dərdini duydum,
Yanan ürəyimin yarasında mən!

Ürək sözlərini deyərək əzəl,
O gülü vermişdi mənə o gözəl.
Durur göz önümdə yenə o gözəl,
Olsam da dünyanın harasında mən!

Ona havadaram ömrüm uzunu,
Yox, darda qoymaram anam qızını!
Görürəm bəxtinin dan ulduzunu
Ağlar gözlərinin qarasında mən!

## O TAYLI GÖZƏLƏ

Mən nələr çəkmədim sənin yolunda,
Sənə toxunmasın ürək sözlərim.
Ömür qəfəsindən uçdu quş kimi
Aylı gecələrim, xoş gündüzlərim.

Çox gəzdik... Nəhayət, günün birində
Cənubun, Şimalın dağlıq yerində,
Birləşdi Savalan ətəklərində,
Ayaq izlərinlə ayaq izlərim!

Açıldı lalətək eşqimin baxtı,
Sinəmdən qan deyil, mahnılar axdı.
Baxdı bir-birinə, doyunca baxdı
Qara gözlərinlə ala gözlərim!

## AYRILIQ MAHNISI

Son görüşdə sahilində Arazın,
Səssiz baxdıq bir-birinin üzünə.
Qan çiləndi güllərinə bu yazın,
Culfanınsa od ələndi düzünə.

Sən də, mən də elimizin dililə
Birgə sildik gözümüzün yaşını.
Matəm çökdü bir qırpımda sahilə,
Duman aldı boz dağlaının başını.

Bir oldu ki, sənin, mənim düşmənim
Səni məndən, məni səndən ayırdı.
Bölünməzkən, yurdum, yuvam, məskənim,
Bir ürəkli, bir vətəndən ayırdı.

Mənə: "Getmə, qal" - dedin sən, qardaşım,
Duydum təzə hicran yaran qan sızır.
O gündən ta bu günəcən, qardaşım,
Kəsilməyib ürəyimin ağrısı!

## MİN KÖNÜL QALACAQ

Yaxamda xatirə səndən bir incə gül qalacaq,
Gözümdəsə əbədi canlı bir şəkil qalacaq.

Buna əminəm, əziz dost, sənin üzün güləcək,
Cahanda zülm evininsə yerində kül qalacaq.

Yadellilər köçəcəkdir tamam bu torpaqdan,
Bu qəhrəman, bu vəfalı, bu şanlı el qalacaq.

Vətənlə bir nəfəs alsa, yolunda can qoysa
O şairin sözü şəksiz yüz il, min il qalacaq.

Sabah gedərsən, əzizim, bunu yəqin bilirəm,
Mənə vəfalı bu Təbrizdə min könül qalacaq.

## DƏNİZƏM MƏN

Təbrizli gözəl qız, yenə eşqimdə düzəm mən,
Məndən uzaq olsan belə, üstündə gözəm mən.

Qəsd eyləsə iqbalma bir kəs - məni səslə,
Od parçasıyam, yandıraram, sanma közəm mən.

Gördüm səni röyada dünən, söylədim, ey bəxt,
Alqış sənə, cananla yenə üzbəüzəm mən.

Sənsizliyi az bilmə, gülüm, rəngimə bir bax,
Hicrində sənin gör necə solğun bənizəm mən.

Təbrizli gözəl! Sanma Süleymanı vəfasız,
Qarşında sənin körpə uşaqtək təmizəm mən!

## HARDADIR?

Öyrənin, ey durnalar, təbrizli yarım hardadır,
Ellərin istəklisi, gülüzlü yarım hardadır?

Xeyli vardır həsrətilə qövr edir qəlbimdə qəm,
Gözləri yolda, əli nərgizli yarım hardadır?

Ayrılıqdan od tutub hər gün çəkir könlüm haray,
Eşqimin ilk, son sözü xoş sözlü yarım hardadır?

Üz-gözündən min kərə öpsəm də azdır, kim desə -
Ay təbəssümlü, qərənfil gözlü yarım hardadır?

Şad xəbərlər gözləyir sizdən Süleyman, durnalar,
Söyləyin, bir göyləri ulduzlu yarım hardadır?

## TƏBRİZLİ GÖZƏLLƏR

Dünyaya dəyər nazlı, siyah gözlü gözəllər,
Baldan da, şəkərdən də şirin sözlü gözəllər.

İlham ala bilməz o qaranlıq gecələrdən
Vicdanı təmiz, taleyi gündüzlü gözəllər.

Mən Təbrizi gəzdikcə dünən söylədim, ey bəxt,
Azdır belə dünyada gülər üzlü gözəllər.

Bir gün açar öz eşqini öz yarına məncə,
İllərlə əgər saxlasa da gizli gözəllər.

Hər gün məni gözlər, bilirəm, gözləri yolda,
Gəl-gəl, - deyərək əlləri nərgizli gözəllər.

Təbrizdən uzaqsan, bilirik, qəm yemə,
Rüstəm, Xatırlayacaqdır səni Təbrizli gözəllər!

## QƏBRİMƏ YAZSIN NƏQQAŞ

Ey gözəl Təbrizimin dilbəri, gəl vəslə yol aç,
Sənin hicrində ürəkdən süzülür gözlərə yaş.

Sənə əl qaldıranın mən ovaram gözlərini,
Qoymaram düz yolum üstündə dayansın qara daş

Səni qurtarmaq üçün təkcə canımdan keçərəm,
Mənim hər arzuma dünyada özünsən sirdaş.

Bu uzun yolda məşəqqətlərim azdır, deyirəm,
Çox bəlalar çəkəcəkdir sənin uğrunda bu baş.

Deyirəm, bəlkə, gözüm bir də səni görməyəcək,
Mən nahaq etmirəm, ey qız, yaşım artdıqca təlaş.

Sakit olsun deyə torpaqların altında könül,
Gözəlim, qoy adını qəbrimə yazsın nəqqaş.

## SEVGİLİM

Hara getsən belə vurğun könlümü
Özünlə bərabər apar, sevgilim!
İşdir aparmasan, ilham atını
O sənin dalınca çapar, sevgilim!

Ayrılıq yüküdür kürəyimdəki,
Götür başından o qara örpəyi.
Sən gəl öz əlinlə ürəyimdəki
Yaranın közünü qopar, sevgilim!

Sıxdı pəncəsində səfalət səni,
Lakin yaşadacaq məhəbbət səni,
Hər yana getsən də, nəhayət səni,
Süleyman axtarıb tapar, sevgilim!

*Təbriz, 1942*

## SƏNSƏN

Günəşlə üz-üzə durmuş səadətim sənsən,
Ətirli gül-çiçəyim, xoş təbiətim sənsən.

Bütün gözəlləri səf-səf düzülsə dünyanın,
Könül deyər ki, yeganə məhəbbətim sənsən.

Səninlə keçdi gözəl günlərim, dəqiqələrim,
Dilimdə nəğməyə dönmüş həqiqətim sənsən.

Dalınca Təbrizə gəldim, vəfalıyam, dostum,
Özün də yaxşı bilirsən ki, şöhrətim sənsən.

*Təbriz, 1942*

## TƏBRİZLİ GÖZƏLƏ

Bir kitabtək qəlbini cananına aç, sevgilim,
Yad sözündən, yad gözündən hər zaman qaç, sevgilim.

Sənsizəm, canansızam, gəl bir xəbər tut yalqızam,
Şux çiçəkdən incədir, qəlbin deyil daş, sevgilim.

Küsməyin mənası varmı? Gözlərim yollardadır,
Yaxşı olmaz çəkməsən cananına baş, sevgilim.

Tapmıram, heç tapmıram sənsizliyin dərmanını,
Görməyəydim, sevməyəydim mən səni kaş, sevgilim.

Mən Süleyman Rüstəməm, nəğməmdə hər kəlməm gülər,
Umma gəl, sən gözlərimdən bir də qan-yaş, sevgilim.

*Təbriz, 1942*

## HARDASAN?

Hardasan, ey ilk baharım, hardasan?
Nazlı yarım, şux nigarım, hardasan?

Pəncərəndən gəlməyir əsla işıq,
Qalmayıb səbrim, qərarım, hardasan?

Gözlərimdən quş kimi uçmuş yuxum,
Getmiş əldən ixtiyarım, hardasan?

Surətin bir an gözümdən getməyir,
Hardasan olmuş şüarım, hardasan?

Sübhü açdım gözlərimlə, yatmadım,
Hardasan, Təbrizli yarım, hardasan?

*Təbriz, 1942*

## CƏNUBLU GÖZƏLƏ

Sən gözəllər gözəlisən gözəllərin arasında,
Qoy üzməsin yelkənimiz ayrılığın dəryasında.
Yalnız sənə könül verdim, yalınz səni sevəcəyəm,
Fərqi yoxdur olsam da mən dünyamızın harasında!
Heç kim səni mənim kimi duya bilməz, sevə bilməz,
Surətini gəzdirirəm qəlbimin saf aynasında.
Sən o tayda, mən bu tayda, vüsalmı istər könül,
Hər an səni düşünürəm bu azadlıq dünyasında.
Mən razıyam, ömrüm boyu bir könüllü dustaq olum,
Hər baxışda min söz deyən gözlərinin adasında.
Günlər keçir durnaların payızdakı qatarıtək,
Məhəbbətin çiçəklənir ürəyimin yarasında!

*Sentyabr 1960*

## TƏBRİZLİ QIZ

İllərdir dağda, daşda, gəzirəm həsrətinlə,
Məni quca bilməyib ayrılığın qolları.
Qəlbimə qüvvət gəlib sənin məhəbbətinlə,
Yollar məni yormayıb, mən yormuşam yolları.

Təkcə səni seçmişəm,
Yüz körpüdən keçmişəm,
Arazdan su içmişəm.

Adını bayrağıma yazmışam, təbrizli qız!
Ürəyimin başından asmışam, təbrizli qız!

Sənsiz deyib-gülmərəm,
Şənlik nədir, bilmərəm
Dərdə üstün gəlmərəm.

Versin gərək baş-başa dağlartək, təbrizli qız,
O ürək, təbrizli qız, bu ürək, təbrizli qız!

Bir ürəyik, bir ürək,
Arzuma yetəm gərək,
İkinci "Şərq" peykitək.

Gəl, dolanım min kərə başına, təbrizli qız!
Gözlərinin son verim yaşına, təbrizli qız!

Şöhrətin var dünyada,
Ağ günləri sal yada,
Əymə boyun cəllada!

Yetər, yetər, dözmə gəl bu hala, təbrizli qız!
Yol açaq mahmızla vüsala, təbrizli qız!

Ürəyimlə tanış ol,
Vəslə ordan gedir yol,
Deyim qoy yenə bir yol.

Görüm yolun həmişə ağ olsun, təbrizli qız!
Baxtın düşmən bağrına dağ olsun, təbrizli qız!

Gəzmə pərişan kimi,
Vuruş qəhrəman kimi,
Baban Səttar xan kimi.

Batırma göz yaşına çörəyi, təbrizli qız!
Tax döşünə qurtuluş çiçəyi, təbrizli qız!

İgidlər yata bilməz,
Tənələr dada bilməz,
Düşmənlər bata bilməz.

Nə sənə, təbrizli qız, nə mənə, təbrizli qız!
Könlümüzü vermişik vətənə, təbrizli qız!

Gəl özünü sanma tək,
Qəm oduna yanma tək,
Yaman günündə gerçək.

Atımı yellər kimi çaparam, təbrizli qız!
Mən səni harda olsan taparam, təbrizli qız!

Hər günüm bir il oldu.
Ürəyim tel-tel oldu,
Hicran qəmi kül oldu.

Sən mənim can evimdə gəzəli, təbrizli qız!
Gözümdə gözəllərin gözəli, təbrizli qız!

Təkcəsən bu yerdə sən,
Qələm çəkib dərdə sən
Yuyun şəfəqlərdə sən.

Sən əməllər bağımda gülümsə, təbrizli qız!
Ayımtək, günəşimtək gülümsən, təbrizli qız!

Mahnılarım sənindir,
İlk baharım sənindir,
Bütün varım sənindir.

Axıdaram yolunda qanımı, təbrizli qız!
Demişəm qurban sənə canımı, təbrizli qız!

Bir daha gəzsin deyə saçlarında bu əllər,
Sahilləri oxşayan sərin dalğalar kimi.
Könlümdə xoş arzular, əlimdə körpə güllər,
Qapına əvvəlkitək gəlmişəm bahar kimi!

*1961*

## TƏBRİZ GÖZƏLİNƏ

Anır xəyalını könlüm, gözəl mələk, hər yaz,
Qıraq qanadlı göyərçintək eləyib pərvaz.

Yaranmısan, görünür, varlığınla nazlardan,
O can alan gülüşün naz, ədalı rəqsin naz...

Səni ürəklə sevən aşiqin məhəbbətinə,
Nədənsə, etmədin ömründə mərhəmət bir az.

Mənə məhəbbətinin yadigarıdır, gözəlim,
Qırıq piyalə, qırıq bir könül, qırıq bir saz.

Yanır vücudum əzəl gündən hicrinin oduna,
Günəş sönərsə, səmadan mənim bu qəlbimi as!

## BİR XATİRƏ

Hər kim ki, zəhər içsə gözəl yarın əlindən,
Olmaz, bilirəm, zərrə peşiman əməlindən.

Bir ev ki, məhəbbətdən uzaqdır, nəyə lazım,
Heç kəs acımaz, uçsa o bir gün təməlindən.

Könlüm quşu ilham alıb eylər yenə pərvaz,
Bir zülfü pərişan, dodağı qönçə gəlindən.

Hicran məni yandırdı... gözəl eyibsiz olmaz,
Cananı xəbərdar eləyin el məsəlindən.

Qəlbində yaran varsa da fəxr eylə, Süleyman,
Bir xatirədir səndə bu, Təbriz gözəlindən...

## SAPA DÜZDÜM

Təbrizli gözəl, mən səni gəzdim,
Can dərdimi təsbeh kimi bir-bir
Qəlbimdəki al qan sapa düzdüm.
Heç kim dözə bilməz buna, heç kim,
Mən bir dəli vəslin həvəsiylə
İllər boyu hicranına dözdüm.
Göz gəzdirərək yollara sən də,
Yollar arayırsan bu vüsala.
Mən gündəsən, ey qız, bunu sezdim.
Can dərdimi təsbeh kimi bir-bir
Qəlbimdəki al qan sapa düzdüm.

## GETMƏYİB

Biz söz verdik ayrılanda bir-birinə ürəkdən:
Qismət olar, Allah qoysa, görüşərik yaxında.
Vüsal günü çələng hörüb qızılgüldən, çiçəkdən,
Ayaq altda qoç kəsərik Dəlibaba dağında.

Neçə il var görməmişik bir-birinin üzünü,
Gəl sanma ki, bu ayrılıq uzun illər sürəcək.
Sən bu taya zilləyərək həsrət dolu gözünü,
Soruşursan: dost dostunu bəs nə zaman görəcək?

Qanlı döyüş yollarında ağarmışdır dik başım,
Demə, demə, ürəyimiz arzusuna yetməyib.
Mən görüşə inanıram, çünki, ey qan qardaşım,
Əllərinin hərarəti əllərimdən getməyib!

## HƏSRƏT ÇƏKİRƏM

*Söhrab Tahirə*

Sənsizəm, vəslinin uğrunda müsibət çəkirəm,
Durnalardan xəbər al, gör nə məşəqqət çəkirəm,
Gecələr haqlı şikayətlə gəlirsən yuxuma,
Düşünüb qəmli keçən ömrünü, xiffət çəkirəm.
Görməyə bir kərə, bir anlığa solğun üzünü,
Gündə mən yüz kərə yox, min kərə həsrət çəkirəm.
Bil ki qəlbimdə mənim başqa qəmim, dərdim yox,
Tək səninçün bu qədər qəmlənirəm, dərd çəkirəm.
Vəslinə mən hələ yol tapmadığımçün deyirəm
Millətimdən də, özümdən də xəcalət çəkirəm.

## ORALIYAM MƏN

İllərdir üzünə həsrət qaldığım,
Doğma qardaşımdan aralıyam mən.
Düşmənim də bilsin, dostum da bilsin,
Hələ ölməmişəm, yaralıyam mən.

Harda alnıaçıq insan görsəniz,
Harda ürəklərdə üsyan görsəniz,
Harda məktəbdən çox zindan görsəniz,
Bilin o yerliyəm, oralıyam mən.

Çoxdandır toy-düyün görməyib obam,
Xırmanda özgəyçün iş görür yabam.
Səttarxandır atam, Babəkdir babam,
İndi bildinizmi haralıyam mən?!

## ARAZ DEYİR

Göydə buludlarla toqquşur ahım,
Başımın üstündə şimşəklər çaxır.
Özüm də bilmirəm nədir günahım,
Başıma yer-yerdən sərkilər yağır.

Bülbüllər məskəni bir gülüstanı
Deyirlər, ikiyə sən ayırmısan.
Götürün üstümdən quru böhtanı,
Bilsin təqsirini adıma yazan! -

Yox, yaranmamışam mən göz yaşından,
Göyərçin dalğalı Arazdır adım.
Ay ellər, qardaşı qan qardaşından
Ayıran ayırdı, mən ayırmadım!

## NİGARANAM

Araz sahilində gəzirəm yenə,
Ürəyi söz dolu bir insanam mən.
İllərdir gözlərim bu yollardadır,
Öz qan qardaşımdan nigaranam mən.

Nədir bu fəlsəfə, nədir bu hikmət?
Başımdan yağarkən bu var, bu dövlət.
Hicran bağçasında vüsala həsrət,
Bağrı çarpaz dağlı bir bağbanam mən.

Mən vurğun deyiləm şöhrətə, ada,
Sadə bir şairəm, qoca dünyada.
Düşəcək hərdənbir bu sözüm yada,
Sanmayın beşgünlük bir mehmanam mən.

Könlümdə müqəddəs bir həsrətim var,
Ləkə götürməyən həqiqətim var.
Görün, nə qəribə bir qismətim var,
O taylı, bu taylı Süleymanam mən!

## AĞLADI

Urmiya gölünə qan çilədilər,
Ördəyim ağladı, qazım ağladı.
Köçdü sahilindən nazlı gözəllər,
Baharım ağladı, yazım ağladı.

Başının üstünü dumanlar aldı,
Meşələr yas tutub saçını yoldu,
Dünyanın qəmləri qəlbimə doldu,
Kamanım ağladı, sazım ağladı.

İki hicran çəkən yenə qəm yedi,
Yandı gözlərində eşqin məbədi.
Biri Araz dedi, biri Van dedi, -
Süleyman ağladı, Nazim ağladı.

## KÖNÜL MAHNISI

Dinlə, a Təbriz gözəli,
Mən səni sevdim sevəli.
Xoşladı hicran qapımı,
Daşladı hicran qapımı.
Yaxşı bilirsən bunu sən,
Çox sevirəm yurdunu mən.
Şahid olub eşqimizə,
Şöhrətimiz Ərk qalası,
Mahnı deyib orda bizə,
Qüdrətimiz Ərk qalası.
Baxmayaraq dərdə, inan,
Bağrıma yazdım adını,
Od kimi bağrımda yanan
Ağrıma yazdım adını.
Ayrılığın keçdi belə,
Ayları da illəri də,
Gəldi xəzan, verdi yelə,
Əkdiyimiz gülləri də.
Düşmənə diz çökməmişəm,
Dərdə boyun əyməmişəm.
Sən də mənimtəksən, a qız,
Ay kimi göyçəksən, a qız.
Gəl qulaq as bir də mənə,
Ağlayıb, öz taleyinə
Kəm demə, Təbriz gözəli,
Qəm yemə, Təbriz gözəli.
Mən bilirəm gün gələcək,
Gül kimi bəxtim güləcək.
Can sıxan hicran köçəcək,
Səslənəcək arzularım,
Hər gün Arazdan keçəcək
Odlu könül mahnılarım!

## UÇUNUZ

Hara uçursunuz, bilim, durnalar!
Mənim tərcümanım, dilim durnalar!

Nə olar uçunuz mən deyən yerə,
Sizə əhsən deyim gündə min kərə.
Dolsun səsinizlə bütün dağ, dərə.
Sizindir çəmənim, çölüm, durnalar
Şəlaləm, dənizim, gölüm, durnalar.

Gülməyin gözümdən axan yaşıma,
Baharda qar yağıb mənim başıma.
Neyləyim, acıma, qan qardaşıma
Çoxdandır çatmayır əlim, durnalar.
Bunu yaxşı bilir elim, durnalar.

Arazdan o taya ötürün məni,
Arzuma-kamıma yetirin məni.
Paylayım sevinci, şeri, nəğməni,
Dəysin dost əlinə əlim, durnalar,
İkiqat olmamış belim, durnalar.

Doğma Arazımın qırağındayam,
Bir qaragözlünün fərağındayam
Həm bacı, həm qardaş sorağındayam,
Məni qorxutmayır ölüm, durnalar!
El gülsün, mən də bir gülüm, durnalar.

## ÇÖRƏYİM, AĞLA

Təbrizli bağlarda soldu gül-çiçək,
Ağla, gülüm, ağla çiçəyim, ağla.
İllərdir üzümə yollar bağlıdır,
Araz şikayətli küləyim, ağla.

Qoy yenə dilimdən od-alov saçım,
Bu sahil toxumdur, o sahil acım.

Çörəyə həsrətdir, qardaşım, bacım,
Ağla, süfrəmdəki çörəyim, ağla.

Bilir nisgilimi bu el, bu ölkə,
Ürəyim çətin ki, bu dərdi çəkə,
Mən yüsal gününü görmədim bəlkə,
Ağla, Araz gözlü ürəyim, ağla!

## BİR OVUC TORPAQ

Dinlə mənim, ey təbrizli qan qardaşım,
Bağrı yara can sirdaşım.
Nə qədər ki, hicran kəsib yolumuzu,
Sağımızı, solumuzu.
Nə qədər ki, qələm tutur dərdimizi yazan əlim,
"Yorulmuşam" kəlməsini lüğətimdən pozan əlim.
Nə qədər ki, sönməyibdir ürəyimin odu, közü,
Vüsal adlı diləyimin odu, gözü.
Nə qədər ki, dünyamızı aydın, açıq görür gözüm,
Nə qədər ki, ürəklərdə yuva salır şerim, sözüm,
Nə qədər ki, öz yerində durur ürək,
Həsrətinlə vurur ürək.
Nə qədər ki, vüsalına yetməmişəm,
Nə qədər ki, son mənzilə getməmişəm,
Qoyma qalsın ürəyimdə bu arzu, bu həvəs, qardaş,
Tələs, qardaş,
Bircə ovuc torpaq göndər Bakıdakı qardaşına,
Səni səndən artıq sevən sirdaşına,
O torpağı məhəbbətlə bu torpağa qatım bağda,
İllər boyu bəslədiyim xoş arzuma çatım bağda,
Bəlkə bir az vəslə möhtac, hicran yüklü can
dincəlsin,
Bahar çağı bağçamızdan təbrizimin ətri gəlsin.
Gəl qardaşım, qardaşını gəl dolandır öz başına,
Çox demirəm, bircə ovuc torpaq göndər qardaşına!

## AMANDIR, GETMƏ

*Təbrizdən ayrılarkən*
*qardaşımdan eşitdiklərim*

Məni yalqız qoyub hara gedirsən,
Bax bu göz yaşıma, amandır, getmə!
Dərdli könlümdəki xoş arzuları
Mübarək elinlə oyandır, getmə!

Sənsən ürəyimə, ruhuma sirdaş,
Qaralar geyəcək sən getsən dağ-daş.
Qurbanam gəldiyin yollara, qardaş,
Əməllərim sənə əyandır, getmə!

Sənə göz dikmişdir bu el, bu oymaq,
Üzünə baxmaqla mümkünmü doymaq?
Sən öz evindəsən, deyilsən qonaq,
Bağrı bu ellərin al qandır, getmə!

Zülm ilə tapdandı gül bağım mənim,
Söndü ayım, günüm, çırağım mənim.
Sənsən yaman gündə dayağım mənim,
Getsən yerim yenə zindandır, getmə!

Demirəm, yaş töküb halıma ağla,
Doğma qardaşınam yadında saxla.
Özün öz əlinlə yaramı bağla,
Göz yaşım dəryadır, ümmandır, getmə!

## İÇƏ BİLMİRƏM

Araz sahilindən yolum düşəndə,
Bir an həyəcansız keçə bilmirəm.
Nələr olduğunu o biri tayda
Çox gözəl bilirəm, necə bilmirəm?!
Eşitsin səsimi bacım, qardaşım,
Hicran yollarında ağardı başım.
Damır ürəyimə yenə göz yaşım,
Gündüzü gecədən seçə bilmirəm.

Özgələr su içir bulaqlarından,
Fəryadlar yüksəlir ocaqlarından.
Niyə qollarından, ayaqlarından,
Paslı zəncirləri aça bilmirəm.

Mənim o sahilsiz həyatım yoxdur,
Vüsalından böyük muradım yoxdur.
Niyə quşlar kimi qanadım yoxdur,
Niyə o sahilə uça bilmirəm?!

Mənə gəl-gəl deyir Təbriz, Miyana,
Sən necə baxırsan, Arazım buna!
Ürəyim yananda sənin suyuna
Göz yaşı qatmasam, içə bilmirəm!

## ÜRƏYİMİ VERƏRƏM

Xəzan vursa bağçanı, çiçəyimi verərəm,
Süfrəndə şey tapmasan, çörəyimi verərəm.

Amansız olsun deyə zərbən cəllad başında,
Biləyinə köməkçi biləyimi verərəm.

Düşmənlər nəfəsilə zəhərləsə havanı,
Onda sənə Xəzritək küləyimi verərəm.

Tufan qopsa, başına qayalar, dağlar uçsa,
Qarşısına mən dayaq kürəyimi verərəm.

Azadlıq vuruşunda ürəyin parçalansa,
Qoparıb bu sinəmdən ürəyimi verərəm!

## KÖÇÜRƏ BİLƏYDİLƏR

Deyirəm nə olaydı cənublu qardaşıma,
Mənim həyat suyumdan içirə biləydilər.
Azad torpağımdakı toxumunu güllərin,

Arazın o tayında becərə biləydilər.

Deyirəm nə olaydı məni qan qardaşımın,
Yanına Araz üstdən keçirə biləydilər.
Yaralı ürəyinin əvəzinə əvəzsiz,
Mənim bu ürəyimi köçürə biləydilər.

*1967*

## DİNLƏ QARDAŞINI

Dinlə qardaşını, a yaslı qardaş,
Həmişə arzulu, niyazlı qardaş,
Bağrı çarpaz dağlı, arazlı qardaş,
Qoymaram gözündən sellər tökülsün.

Nələr çəkməmisən ömründə, nələr,
Səni qurtarmasam zillətdən əgər,
Gözümdə gecəyə çevrilsin səhər,
Başıma damlardan küllər tökülsün.

Gün o gün olsun ki, gəlim vəcdə mən,
Bizim bu şəhərdə görünəndə sən.
Bütün eyvanlardan, pəncərələrdən,
Ayağın altına güllər tökülsün.

## QƏLBİM

Hər kəsin bir qəlbi varsa, mənim iki qəlbim var,
Hər ikisi bir vüsalın həsrətilə çırpınar.
Biri doğma Bakıdadır, biri ana Təbrizdə,
Biri xoşbəxt, o birisi batıb qana Təbrizdə.

Biri burda karvanını sürür aya, günəşə,
Biri orda varlığını atıb oda, atəşə.
Biri burda tikir, qurur, xariqələr yaradır,
Biri orda min əzaba sinə gəlir, yaradır.

Biri burda kommunizmin təməlinə daş qoyur,
Biri orda dərbədərdir, daş üstünə baş qoyur.
Biri doğma Bakıdadır, biri ana Təbrizdə,
Biri xoşbəxt, o birisi batıb qana Təbrizdə.

## LEYLA

Bu ellər göz yaşında qərq olub boğulanda,
Sevindi evdəkilər o dilbər doğulanda.
Boynuna muncuq salıb dedilər: - Gəlmə gözə,
Allah bilir, bəlkə də, düşdü ayağın bizə!
Anası layla çaldı əmizdirərək onu,
Bilmədi körpəsinin nə olacaqdır sonu.
Adını Leyla qoyub, qızı qundaqladılar,
Bəxtinə, taleyinə ümidlər bağladılar.
Heyhat! Aldanırdılar, bunlar xəyaldı, xəyal,
Bu torpaqda sevinmək, gülmək mahaldı, mahal.
Şaxta qılınc çəkərək gur-gur gurladı, durdu,
Aclıq ondan da betər gəlib qapmı vurdu.
Ehtiyac gözdən saldı Leylanın beşiyini,
Artıq çəkən olmadı gecələr keşiyini.
Aldı qanadlarına əcəl körpə Leylanı,
Sübhədək ağladılar öpə-öpə Leylanı.
Leylanı unutdular, Leylanı unutdular,
Yuyub o gül bədəni ağ kəfənə tutdular.
Aparıb tapşırdılar soyuq qara torpağa,
Qaranquşlar qondular qəbrinə ağlamağa.

## DƏYİŞMƏZSƏ KÖKÜNDƏN

Qəlbimdə dəniz var yenə kindən,
Qan-yaş tökəcək el gecə-gündüz,
Bu ölkə dəyişməzsə kökündən!

Gəlmiş qapına nazlı bahar, qalx,
İstərsən əgər ağ günə çıxmaq,
Bərk tut bu baharın ətəyindən!

Könlüm, nə durubsan, belə olmaz!
Dər, dostlara göndər, deyim əhsən,
Ən yaxşı gülündən, çiçəyindən!

Qan-yaş tökəcək el gecə-gündüz,
Bu ölkə dəyişməzsə kökündən!

## ÜRƏYİMİN QULAĞI VAR, GÖZÜ VAR

Mən ürəyi atəş dolu şairəm,
Hələ yaram sağalmayıb, gözü var.
Aman cəllad, sən vurduğun yaranın
Ürəyimdə hələ dərin izi var.

Əlimdədir bu kainat, bu dünya,
Kilid vurmaq olmaz axar bir çaya.
Ürəyimdə dalğalanan bir dərya,
Millətimin, vətənimin sözü var.

Qartal kimi süzüb uçan nəğməmdə,
Sellər kimi axıb coşan nəğməmdə,
Bahar kimi könül açan nəğməmdə,
Qan ağlayan bu ellərin özü var.

Cəllad! Yetər, çək əlini vətəndən,
Ayıraram dik başını bədəndən.
Daha məni sata bilməz hər yetən,
Ürəyimin qulağı var, gözü var!

## GƏLİR

Təbriz! Dərya kimi dalğalan, çağla,
Bu elə qəhrəman bir rəhbər gəlir.
Sənin şənliyinə dostumnz bahar
Yolları edərək müəttər gəlir.

Qoy mənim sözümə şahid olsun Ərk,
Səni ölənədək mən etmərəm tərk.
Günəşin əlindən yapışıb bərk-bərk,

Qoynuna uğurlu bir səhər gəlir.

Ucalır göylərə elin avazı,
Gülür bəxtsizlərin ömrünün yazı.
Rüstəm, nə durmusan, dilləndir sazı,
Ürək sevindirən bir xəbər gəlir!

## ZİNDAN

Heyhat! Necə dözsün buna insan:
Vur, vur ki, yıxılsın təməlindən
Aysız və günəşsiz qara zindan!
Hər kərpici qan, hər daşı fəryad,
Gülməz üzü bir kimsənin əsla...
Dözməz buna, dözməz buna vicdan.
Vicdansıza vicdan sözü yaddır,
Şair deyəcək, susmayacaq heç,
Cəllad nə qədər içsə də al qan.
Vur, vur ki, yıxılsm təməlindən,
Aysız və günəşsiz qara zindan!

## DİLBƏRİN GƏLİNLİK EVİ

Dilbər totuqca qızdı, onu verdilər ərə -
Acl ıqdan ölməsin deyə dövlətli bir yerə.

Təbrizlilər dözümlü olur dərdə hər zaman,
Dilbərsə tab gətirmədi ağ saçlı dərdlərə.

Yağdıqca dəmbədəm başına tənə daşları
Şivən qopartdı, ağladı, o, gündə min kərə.

Əsdi bağında bir qara yel soldu gül üzü,
Zalım ərinsə hər baxışı döndü xəncərə.

Yad göz gəzən cənazəni heç görməsin deyə,

Bağlandı dar dəmir qapı, örtüldü pəncərə.

Mən acizəm bu dərdi yazım... Heçdi, bəlkə də
Cəllad ərin gözündə bu dəhşətli mənzərə.

Heyhat, qapandı bir gün onun göz qapaqları,
Dilsiz məzar gəlinlik evi oldu Dilbərə.

## TƏBRİZ ZİNDANINDA

Zindanda, ah sataşdı gözüm xəstə bir qıza,
Dillən! - dedim, o bəxti qara, sönmüş ulduza.

Sıxmışdı pəncəsində onu aclıq, ehtiyac,
Boğmuşdu doğma körpəsini, qərq olub yasa.

Haqqında hökmü məhkəmənin çıxdı çox asan,
Qatil ana adıyla ona kəsdilər cəza.

Əl dəyməmiş yanınıda durur "dadlı" bir nahar,
Bir parça daş çörək, su dolu çirkli bir kasa.

Layla çalırdı sol əlinə körpə zənn edib,
Min köhnə dərdimin yarası oldu lap taza.

Birdən önündə diz çökərək söylədim: inan,
Dincəlmərəm əlimlə bu zindan dağılmasa!

## VƏTƏN YANDI

O qədər nalə etdim ki, qızardı lalətək bağrım,
Baxıb öz dövrəmə gördüm qərənfil, yasəmən yandı.

Ürəkdə min yaran vardır, yazıq millət, yazıq millət,
Sənə hər ləhzədə öz canını qurban edən yandı.

Qonub damlarda asudə ötür heybətlə bayquşlar,

Əlində haqqı bayraq eyləyən, düz yol gedən yandı.

Dolubdur nəmli zindanlar, yanır odlarda azadlıq,
Neçin dinmirsən, ey qardaş, soruş bir gör nədən yandı.

Durubdur başım üstündə, əlində xəncəri, cəllad,
Nə gül qaldı, nə bülbül qaldı, bağ yandı, çəmən yandı.

Yadımdan çıxdı bülbültək qəfəsdə güllərin rəngi,
Qəmin, dərdin əlindən od tutub axır bədən yandı.

Süleyman, qafil olma, yaxşı bax ətrafa, şairsən,
Cinayət aşdı həddindən, haray sal ki, Vətən yandı!

## TANIŞDIR

Qəfəsdən qurtulmuş yaralı şirəm,
Zəncir vura bilməz cəlladlar mənə.
Yox, yox, vura bilməz bir də yaralar –
Həm düşmənlər mənə, həm yadlar mənə!

İstəsən hər kəsi danışdır burda,
Göz yaşı elə bil yağışdır burda,
Hər addım başında tanışdır burda,
Nalələr, fəğanlar, fəryadlar mənə!

Vətənsiz bir şair cansız bədəndir,
Sevdası başımdan getmir nədəndir,
İlhamım, qüdrətim, eldir, Vətəndir,
Canımdan əzizdir bu adlar mənə!

*1942*

## ÜRƏYİM PARÇALANIR

Məncə, hər doğru məhəbbətdə siyasət olmaz,
Olsa bir azca siyasət, o, məhəbbət olmaz.

Ürəyim gizlədə bilməz ki, sevir qardaşını,
Tökür hicrində açıqdan-açığa göz yaşını.

Ona baxdıqca uzaqdan ürəyim parçalanır,
Dərdli bir nəğmə deyirkən dilim ağzımda yanır.

Çağırır, gəl! - deyə hər an məni ordan haraya,
Ürəyim quştək uçur dərdli Arazdan o taya.

Deyirəm: qəm yemə, dostum, hələ mən ölməmişəm,
Sənsiz ömrümdə, bilirsən ki, deyib gülməmişəm.

Ta əzəldən yoğurub qanla bu qardaşlığı biz,
Demişik, qəbrədək ayrılmayacaqdır əlimiz!

Heç yaraşmaz sənə artıq o pərişan görkəm,
Sadiqəm andıma, qardaş, tut əlimdən möhkəm.

Nərə çək, söylə o qəlbindəki hər istəyini,
Çevirib bayrağa qandan qızaran köynəyini!

Şüvəlan, avqust 1945

## O GÜN GƏLƏCƏK

Ləpələr qanlıdır Arazda yenə,
Nalə var çaldığım bu sazda yenə.
Yenə hər tin başında dar ağacı,
Ağlayır qardaşından ayrı bacı.
Yenə hər yerdə qan, ölüm dəhşət...
Çeynənir zülm əlində bir millət.
Gül - deyirlər ürəkdən ağlayana,
Bulaşıb gül, çiçək, çəməndə qana.

Vətənin sızlayır ürək yarası,

Buna şahid o dərdli "Ərk qalası".
Yox əsər orda, yox azadlıqdan
Müstəbidlərsə hey deyir qan, qan.
İndi artıq dünənki şən qızlar
İydəliklərdə ağlayıb sızlar,
Yox günəşdən nə bir əsər, nə bir iz,
Bir böyük yas içindədir Təbriz.
Əvəz etmiş gözəl baharı, xəzan,
Yanmayıb neyləsin bu şeri yazan?!
Necə dözsün ürək bu ayrılığa?
Son verilsin gərək bu ayrılığa!
Bilirəm ki, o an, o gün gələcək.
Yenə Təbriz çiçəklənib güləcək!

*1947*

## DÜLGƏRİN ARZUSU

Bir qoca dülgərə rast gəldim dünən,
Hərbi paltarıma diqqətlə baxdı.
Mənə cəsarətlə yanaşdı, birdən
Sanki gözlərində ildırım çaxdı.

Öz ana dilində oxudu mənə
Könül dəftərindən bir neçə varaq.
Məni dəvət etdi sonra evinə
Dərdli kaman kimi sızıldayaraq

Bəzəyi yoxsa da kasıb evimin,
Səndən inciyərəm getməsən əgər.
İnanın, vallahi bir şurəvinin
Qapımdan girməsi dünyaya dəyər!

Onun bu sözləri canıma yatdı,
Əl sıxıb öpüşdük qan qardaşımla.
Könül ayrılığın daşını atdı,
Yan-yana, vüqarla düzəldik yola!

## BİR MƏKTƏBİN QAPISINDA

Bir məktəb binasının keçərkən qabağından
Qəribə bir lövhənin şahidi oldum yenə.
Qoparıb atmışdılar bir gülü budağından,
Ürəyim parçalandı, hücum çəkdi dərd mənə.

A dostlar! Bu lövhəyə diqqətlə bir an baxın,
İçini çəkə-çəkə ağlayan bu uşağın
İslanıbdır dəftəri-kitabı göz yaşından,
Kim bilir nə bəlalar keçib onun başından.
Deyiləm biganə mən bu torpağın dərdinə,
Dedim, əgər qalmasam bu uşağın dərdinə
Bağışlamaz el məni, alqışlamaz el məni.
Silərək bir əlimlə körpənin göz yaşını,
Yuxarı qaldırıram bir əlimlə başını.
Soruşuram yavaşca: "Nə dərd üz verib sənə,
Bahar çağındır, bala, danışsana, gülsənə".
Boğur, dinməyə qoymur zavallını hıçqırıq,
Tökülür dodağından kəlmələr qırıq-qınq.
Gizlin deyil, əzəldən dünya ölüm-itimdir,
Dedim, bəlkə, bu körpə kimsəsizdir, yetimdir.
Bəlkə, ailəsində nə qardaş, nə bacı var,
Bəlkə, bir şirin sözə onun ehtiyacı var.
Dedim, işdir, bəlkə də, kəsilib dərslərindən,
(Dalıb düşüncələrə bir ah çəkdim dərindən)
Bəlkə, tədris haqqını ödəməyib zavallı,
Bəlkə, dünəndən bəri şey yeməyib zavallı.
Belə deyil, ey könül, ədalət divanı qur,
Öyrəndim ki, körpənin günahı yalnız budur:
O, Təbriz məktəbində vətənində, elində,
Yoldaşıyla danışıb doğma ana dilində.
Bir qara əl ağacdan qırıb budaqtək onu
Küçəyə tullamışdır, unutma, şair, bunu!

Mənim qan qardaşımın gözlərinin işığı,
Ömrünün yaraşığı
Bircə oğlu Nəriman
Gözü yaşlı, bağrı qan,

Qoltuğunda kitablar, körpə qəlbində qəmlər,
Qiymət dəftərçəsində xoşagələn rəqəmlər,
Məktəbin qapısında durub səhərdən bəri
Solğun yanaqlarında üç-dörd sillənin yeri!

*1961*

## CƏNUB HƏSRƏTİ

I

Yenə şair ürəyim döndü qana,
Yağır ətrafa dilimdən odlar.
Baxıram dərdli Arazdan o yana,
Görürəm qan axıdır cəlladlar.
Öldürürlər bacımı, qardaşımı,
Tökmərəm bir daha mən göz yaşımı.
İntiqam nəğməsi var könlümdə,
Xalqın ölməz səsi var könlümdə.
Orda bükmüş belini dərd anamın,
Qara günlər keçirən mərd anamın
Qanlı əllər uzanır saçlarına.
Qəlbi daşlarsa, bu göz yaşlarına
Baxaraq, hey qoparır qəhqəhələr,
Açılır orda fəğanlarla səhər.
Dil açanlar çürüyür, zindanda,
Haqq deyənlər yox olur bir anda.
Hər baxışdan yenə qəm, qüssə yağır,
Çox ağırdır, vətənin dərdi ağır...
Mən demişdim öz ürək qardaşıma,
Bizə sadiq o dilək qardaşıma,
Açılıb gül kimi gülsən, güləröm,
Vətən uğrunda sən ölsən, ölərəm.
Qardaşım, dönmərəm öz andımdan,
Titrəyir atdığım hər addımdan
Məni səndən, səni məndən ayıran...

Çox uzun sürməyəcəkdir hicran!
Bir canım var, sənə qurbandır o da.
Necə gülsün ürəyim? Qandır o da.
O gülər, məncə, vüsalınla sənin,
Yaşayır çünki xəyalınla sənin.
Nə sən onsuz, nə o sənsiz yaşamaz!
Azər övladı Vətənsiz yaşamaz!
Tut əlimdən ki, mənəm arxa sənə,
Qazanaq biz də bir ağ gün vətənə.
Yadların onda kəsilsin nəfəsi,
Bürüsün hər tərəfi nəğmə səsi.

II

Yox xəzandan o tərəflərdə baharın fərqi,
Çox böyükdür bu diyarla o diyarın fərqi.
Bürünüb matəmə kəndlər və şəhərlər, ölüdür,
Elə bil, orda həyətlər, küçələr qan gölüdür.
Mən xəyalən o sevincsiz küçələrdən keçirəm,
Kinli gözlərlə baxıb düşməni, dostu seçirəm.
Dəymə, cəllad, - deyirəm, - dəymə o qan qardaşıma,
Mənə bax, qorx qəzəbimdən, onu tək görmə, çəkin,
Qorx, yetər, vurma qaxınc gəl bu ağarmış başıma.
Dərdli qəlbində bu gün dalğalanır sonsuz kin.
Soldurub öz nəfəsinlə bağını, bağçasını,
Vətənin matəmə saldın o gözəl parçasını.
Onu bir qul kimi bir vaxt çox alıb satdın, sən
Elə zənn etmə ki, öz istəyinə çatdın sən!
Görməyirsənmi könüllərdə coşan üsyanı?
Sanma müstəmləkə sən şanlı Azərbaycanı!
Yetər ölkəmdə çəkib qəhqəhələr oynadığın,
İçirib haqq bağıran xalqa zəhər, oynadığın,
Çox güvənmə, yetər, arxanda duran dövlətə gəl,
Demə sən "körpə uşaq" dərdi coşan millətə gəl!
Sən mənim qardaşımın qatilisən hər yerdə,
Örtə bilməz bu cinayətləri heç bir pərdə.

İntiqam al! Deyir hər şanlı şahidin qəbri.
Qəhrəman millətimin, dinlə, tükənmiş səbri,
Öz dilindən onu məhrum elədin, ey cəllad!
Bilməyirsən belə getməz qoca dünyada həyat?!
Bilməyirsənmi o bir gün yenə zənciri qırar,
Nəmli zindanı uçurdub, yeni kaşanə qurar!?
İndidən baş çəkirəm dosta, qohum-qardaşa mən...
Gəzərək qəlbi yara yurdumu başdan-başa mən,
Yazıram qəlbimə bir-bir sənin etdiklərini,
Bilirəm, gün gələcək haqq tutacaq öz yerini.
Tutub ellərsə yaxandan çəkəcək məhkəməyə,
Onda heç kimsə sənə yetməyəcəkdir köməyə.
İntiqam ordusunun əsgəriyəm mən də! Eşit!
Olmayıb, olmayacaqdır kölə çox milyon igid!
Səsləyib dostlarımı, evləri bir-bir gəzirəm,
Səsimə hay verən olmur, tutulublar, sezirəm.
Hər xiyabanda mənə qupquru əllər uzanır.
Ağa can! Bircə qıran ver, deyə dillər uzanır,
Hər nəyim varsa cibimdən çıxarıb mən verirəm,
Həmin əllər uzanır, sonra da hərdən görürəm –
Qara şəmsiyəli bir kimsəyə... - heyhat, heyhat!..
O keçir daş kimi səssiz... ona yaddır bu həyat.
Səkkiz-on yaşlı uşaqlar ki, bahardır, məncə,
Gün çıxandan çəkərək gün batana işgəncə.
Dönür onlar əliboş, cibləri boş, evlərinə,
Bürünüb köhnə cırım-cındıra paltar yerinə. –
Ehtiyacın, görürəm, döymədiyi bir qapı yox,
Çərxi dönmüş şəhərinsə yüzü acdır, biri tox.
Yenidən insan ucuzlaşdı, çörək oldu baha...
Yox, könüllər dözə bilməz bu ağır dərdə daha!..
Məncə, bir gün gələcəkdir ki, bu qəm karvanı
Qəzəbindən coşaraq andıracaq ümmanı,
Boğacaq düşməni, aydın deyəcək istəyini,
Qaldırıb göylərə qandan qızaran köynəyini...

## QARDAŞIMIN DƏRDİ

Dərdim bir olsaydı, olmazdı qəmim,
Gör nə günə saldı zəmanə məni.
Üstümdə saç yolub ağlayan ana,
Nə üçün gətirdin cahana məni!

Kinimdən quruyub gözümdə yaşım,
Gəlsin köməyimə dostum, qardaşım.
Əyilməz kimsəyə bəlal başım,
Yadlar boyasa da al qana məni.

Haqsız döyülməkdən üzüm göyərib,
Öz ana yurdumda qəribəm, qərib.
Damlarda bayquşlar səs-səsə verib,
Bu dərddir gətirən fəğana məni.

Cəlladlar boyamış qana vətəni,
Zülmdən gətirib cana vətəni,
Satmaram milləti, ana vətəni,
Tutub salsalar da zindana məni.

Ayağımda zəncir, qolumda zəncir,
Səslənir sağımda, solumda zəncir,
Qalanıb dağ kimi yolumda zəncir,
Qoy ellər bilməsin divanə məni.

Çoxdandır bir şirin dilə həsrətəm,
Bir doğma qardaşa, elə həsrətəm,
Yuvasız bülbüləm, gülə həsrətəm,
Tanıyır xaraba, viranə məni.

Nədir bu ayrılıq bilə bilmirəm,
Nədən bülbül qonmaz gülə, bilmirəm,
Gülmək istəyirəm, gülə bilmirəm,
Aparın şimala loğmana məni.

Dinləsin arzumu yaslı durnalar,
Dərdi çox, söhbətli, sazlı durnalar,
Alıb qanadına nazlı durnalar,
Aparsın o gözəl məkana məni!

*Təbriz, 1942*

## YENƏ DURNALAR

Qanadlılar dünyasının şairlərindən,
Durnalardan söhbət açmaq istəyirəm mən.
Bahar gəldi, bu diyardan uçub getdilər,
Qaqqıldaşa-qaqqıldaşa köçüb getdilər.
Yer üzünün bizə yaxın, uzaq yerində,
Mahnımızı gəzdirdilər dimdiklərində.
Ömrüm boyu mən razıyam durnalarımdan,
Arazımı unutmadı qanadlı karvan.
Bu sahildən o sahilə qondu durnalar,
Yadlarında saxlayaraq mənim şərtimi
Lələyini qələm kimi yondu durnalar,

Yazdı Cənub torpağına köhnə dərdimi.
Aylar keçdi, soldu güllər, soldu çiçəklər,
Durnaların həsrətiylə dindi ürəklər.
Mən də hər gün gözlərimi dikdim göylərə,
Payız gəldi, qaqqıltıyla doldu dağ-dərə.
Yenə bizim bu məkana gəldi durnalar,
Yenə cənnət Lənkərana gəldi durnalar,
Gözlərində o sahilin qəmli lövhəsi,
Sözlərində qardaşımın, bacımın səsi.
Əzizsiniz bu vətənçin, elçin, durnalar!
İki sahil arasında elçim durnalar!

## BƏLKƏ

Şair səni üzü gülən görməmişdir yaşından,
Bəlkə Araz yaranmışdır gözlərinin yaşından!

Əcdadımın qulağımda fəryadları səslənir,
Güllərinə qan çilənmiş torpağından, daşından.

Saraydakı ağaların nə vecinə, ölkədə
Bütün millət nalə çəkib qırılsa da acından.

Bayrağında şir qocalıb, günəş çoxdan sönmüşdür,
Gələn məzar qorxusudur Pəhləvinin tacından.

Qan qardaşım! Tək deyilsən döyüşlərdə, qulaq as,
Hər gün səni səsləyirəm uca dağlar başından!

## DEMƏ

Mən desəm haqqını al, sən demə: "Allah qoysa".
Vətənin dərdinə qal, sən demə: "Allah qoysa".
Keçmiş ağ günlərini, qüdrətini, şöhrətini
Mən desəm bir yada sal, sən demə: "Allah qoysa".
Mən desəm gəl görüşək, can evimizdən əbədi
Qovsun hicranı vüsal, sən demə: "Allah qoysa".
Mən desəm yaxşı düşün, xalqını inkar edənə,
Ayıq ol, vermə macal, sən demə: "Allah qoysa".
Mən Süleyman bilirəm dərdimizin çarəsini,
Söyləsəm, qardaş, ucal, sən demə: "Allah qoysa".
Milyon inşallah ilə ağ günə çıxmaq olmaz.
Mən desəm "Cəngi"ni çal, sən demə: "Allah qoysa".

## DİNLƏ MƏNİ

Bir ana övladıyıq, dinlə məni, qardaşım,
Hicrandan sinəmizdə min dağım, min dağın var.
Azadlıq vuruşunda gülldən deşim-deşim,
Qızıl qana boyanmış bayrağım, bayrağın var.

Bir gün görüşəcəksən, bacınla, qardaşınla,
Sağalmaz bu yaralar alınla, göz yaşınla.
Hicrana dözdün yetər, öz bəlalı başınla,
Səttarxanlar yetirən müqəddəs torpağın var.

Bu qurtuluş yolundan geriyə çekilmə sən,
Yadlara əyilmədin, yenə də əyilmə sən.
Bu sınaq günlərində özünü tək bilmə sən –
Sənin Süleyman kimi arxan var, dayağın var!

## AY ELLƏR

Ellər, ellər ay ellər, ömrümün bu çağında,
Səadətin bağında, məhəbbətin bağında,
Bacımla, qardaşımla görüşməkdir məqsədim,
Könlümdə gecə-gündüz dillənir bu həsrətim.

Bir sirri bilmişəm mən,
Bu fikrə gəlmişəm mən.
Vüsalın uzun yolu mənim canımdan keçir,
Ordubadımdan keçir, Naxçıvanımdan keçir.

## YORULDUM DEMƏRƏM

Hər mahnım, hər şerim öpüb, öpəcək,
Xalqın dodağını qızılgül kimi.
Səni, ev vətənim, dərindən sevən,
Bir könül tapmazsan bu könül kimi!

Hicran əllərinlə bağrın söküldü,
Uğrunda döyüşdə igidlər öldü.
Ayrılıq həsrəti bağrımı dəldi,
Bununçün hər günüm keçdi il kimi!

Ey təbrizli gözəl, sözüm var sənə,
Sinənə cəlladlar dağ çəkib yenə.
Görünür o nəmli gözlərin mənə,
Kirpikləri şehli qərənfil kimi!

Dilin açar olsun, dodağın qıfıl,
Sinəndən dəftərə tökülsün qızıl.
Ayıl, öz dərdinə özün çarə qıl.
Gəzmə vətənində bir qafil kimi!

Hər yana baxıram ağrıyır ürək,
İnsan həyatindan bahadır çörək.
Övlad vətənində gəzməsin gərək
Bir dilənçi kimi, bir səfil kimi!

Hardasan, hardasan, ey vüsal günü!
Yoruldum deməröm ömrüm uzunu -
Cənub həsrətinin ağır yükünü,
Daşısam çiynimdə qoca fil kimi!

## ÜZÜM YOXDUR

Deyirsən ki, sənin vətən torpağına göz dikmişəm,
Bu qırmızı yalanına daha mənim sözüm yoxdur.
Torpağına sən qatmısan doğma ana torpağımı,
Mən şairəm, özgələrin torpağında gözüm yoxdur.

Utan, mənim millətimdən üstün tutma millətini,
Millətinə yedirtmə gəl millətimin nemətini.
Uzun illər könlüm çəkir bu vüsalın həsrətini -
Dözəcəyəm, kim deyir ki, ürəyimdə dözüm yoxdur?

Qardaşımın həyatını düşünürəm səhər-axşam,
Vüsalına yetmək üçün hələ bir yol tapmamışam.
Qan qardaşım zindandadır, mən bu tayda azad quşam,
Sən dərdə bax, gözlərinə görünməyə üzüm yoxdur!

## AZƏRBAYCANDADIR

Neyləyim, dostlar, yenə qan qardaşım tufandadır,
Yelkənim - hər dalğası, dağdan böyük ümmandadır.
El bilir, yox mahnıma, yox şerimə sərhəd mənim,
Sözlərim dillərdədir, Təbrizdədir, Zəncandadır.
Bircə an olsun da ayrılmır o taydan gözlərim,
Təbrizin hər guşəsi başdan-başa al qandadır.
Yurdumun hər zərrəsi doğma, əzizdir könlümə,
Vəslə yollar axtaran könlüm hələ hicrandadır.
Özgə bir torpaqda yoxdur, yox gözüm - aləm bilir,
Varlığım, eşqim, mənim ruhum Azərbaycandadır.

## VAR

Mən bilirəm, bilməyən də qoy bilsin,
Ayrılığın yaman qara üzü var.
Günlər deyil, aylar deyil, illərdir
Ürəyimdə yarasının közü var.

O taydakı mərd ellərə könlümün,
Şerə vurğun nəsillərə könlümün,
Həsrət dolu könüllərə könlümün,
Dərya qədər deyiləsi sözü var.

Süleymanam, dözümlüyəm firqətə,
Zaman gərək son versin bu həsrətə.
Ürəyim bir xəritədir, xəritə,
Orda əziz vahid Vətən özü var.

## DƏDƏLƏR, BABALAR OCAĞINDAYAM

Könlümdə bir dərya nəcib arzular,
Yenə dərdli Araz qırağındayam.
Xeyli var üzünü görmədiyimin –
Cənublu dilbərin sorağındayam.

Deyirəm silinsin sinəmdən bu dağ,
Qəlbləri oxuyum mən varaq-varaq.
Hər iki sahildə deyiləm qonaq,
Dədələr, babalar ocağındayam.

Gəzirəm qol-qola həqiqətimlə,
Üz-üzə gəlirəm səadətimlə.
Dünyaya sığmayan məhəbbətimlə,
Öz anam torpağın qucağındayam.

Könlümə doğmadır mənim bu yerlər,
Sizindir yazdığım bütün şeirlər.
Süleyman Rüstəməm, belə deyirlər,
Mahnımla ellərin dodağındayam.

## DOLAŞIR DİLLƏRDƏ

Çox da o sahildə yad əllərilə,
Adı kitablardan pozulan mənəm.
Bununla təsəlli tapıram ki, mən,
Şeri ürəklərə yazılan mənəm.

Leylamı səsləyib, gəzdim illərlə,
Keçirdim günümü təsəllilərlə.
Könül dəftərinə qara əllərlə,
Ayrılıq damğası basılan mənəm.

Xalqın xəbərdaram diləklərindən,
Qan sızar gözünün bəbəklərindən.
Uçan durnaların ləläklərindən,
Hicran məktubları asılan mənəm.

Çox da ki, deyiləm özüm o tayda,
Dolaşır dillərdə sözüm o tayda,
Araz sahilində, gözüm o tayda,
Məzarı bu tayda qazılan mənəm!

## YENƏ ARAZ QIRAĞINDA

Ömür keçdi, hicran quşu can evimdən köçmədi,
Arazından iki qardaş yan-yana su içmədi.
Heç özüm də bilmədim ki, necə oldu, qardaşım,
Ayrılıqdan, dərd əlindən ürəyimiz şişmədi!
Dəli könlüm istəyəntək buz bulaqlar başında

Ocağımız tüstülənib, kababımız bişmədi.
Şair gözüm qızılgülü, qərənfili, laləni
O sahildə, bu sahildə bir-birindən seçmədi.
Niyə mənim bu əllərim məhəbbətin bağından,
Tikanları oraq kimi öz vaxtında biçmədi?!

Mən mücahid qardaşımın gözlərindən öpürəm,
Al bayrağı güllələrdən çoxdan deşmə-deşmədi.
Qanlı döyüş meydanında, qara gündə, dar gündə
Əcdadımın həm Qıratı, həm Bozatı kişnədi.
Dağ gövdəli hansı igid, hər savaşın sonunda
Babək kimi, Koroğlutək bığlarını eşmədi?!
Qan qardaşım, bir zamanlar sənin, mənim qılıncım,
Dəstəyədək cəlladların ürəyinə işlədi.

Şöhrətini ulduzlara, aya, günə yazdılar,
Heyrətindən qoca dünya barmağını dişlədi.

Hanı sənin o çağların? Yox, yox, görüb duyuram,
Azadlığın sorağında sinən, bağrın teşnədir.
Yaxdı məni hicran dərdi, bu dərdimin yanında
Özün yaxşı bilirsən ki, başqa dərdlər heç nədir.
Dərdli Araz sahilində, uzun yollar boyunca,
Qana dönmüş, ürəyimdən nələr gəlib keçmədi?!
Qan qardaşım, gül üzünə bir də baxım doyunca
Bəlkə bir də bu yerlərdən mənim yolum düşmədi!

## KÖNLÜMƏ TƏBRİZ DÜŞDÜ

Mədinə Gülgünə

Gəldi min dilli bahar, könlümə Təbriz düşdü,
Güllü, bülbüllü bahar, könlümə Təbriz düşdü.
Təbrizin dərdi mənim dərdim olub illərdir,
Ordadır, nazlı nigar, könlümə Təbriz düşdü.
Çox da dünyada gözəl, adlı şəhər min-mindir,
Hər yerin öz yeri var, könlümə Təbriz düşdü.
Bacımı, qardaşımı, sevgilimi görməliyəm,
Yox, dəyişməz bu qərar, könlümə Təbriz düşdü.
Mən Süleyman, Kür - Araz nəğməli şair babayam,
Çəkirəm aləmə car, könlümə Təbriz düşdü!

## BƏNZƏMƏZ

Üfüqlərdən günəş qalxır bayrağımtək hər səhər,
Yad ellərin səhəri bu səhərimə bənzəməz.
Bu dünyada məncə min-min gözəl şəhər yox deyil,
Yox, heç biri bu xəzrili şəhərimə bənzəməz.

Hamı bilsin, bu sirri mən çoxlarına açmışam,
Şair kimi dövranıma min bir mahnı qoşmuşam.
Səfər vaxtı dənizlərdən, ümmanlardan aşmışam,
Heç bir dəniz, heç bir ümman Xəzərimə bənzəməz.

Sevgilimi o sahildə mən görmədim bu ay da,
Deməyin ki, sənin acı fəryadından nə fayda.
Yarı canım bu taydadır, yarı canım o tayda,
Yer üzündə heç bir kədər kədərimə bənzəməz.

Süleymanam, bu dərd mənim ürəyimdə yaradır,
O sahildə qan qardaşım yaman bəxtiqaradır.
Yaxşı ki, mən hələ sağam, qələm yazır, yaradır,
Heç bir dəftər mənim sinə dəftərimə bənzəməz!

## XATİRƏ

Zəfər dolu kitabında Vətənin
Hər igidin şöhrəti var, adı var.
Dastanlarda bu gün belə kişnəyən,
Bozat kimi, Qırat kimi atı var.

Qan qardaşım, yadındamı o illər,
Bir-birinə nələr dedi könüllər?!
Ömrümüzə yazdıq təzə fəsillər,
Ağızlarda o günlərin dadı var.

Gecə-gündüz qələm düşmür əlimdən,
Nigaranam o taydakı elimdən.
Süleymanam, od tökülür dilimdən,
Ürəyimdə ayrılığın odu var.

## BƏLİ, CƏNUBLUYAM

Araz qırağında ayrılıq günü,
Köynəyi qaradan biçilən mənəm.
Bəli, cənubluyam, yadlar əlində,
Al qanı şərabtək içilən mənəm.

Bir vaxt görüşərdik Xudafərində,
İndi yellər əsir onun yerində.
Vətən səngərində, el səngərində,
Bağrı deşim-deşim deşilən mənəm.

Tapdaq altındadır vətən torpağı,
Hələ sağalmayıb sinəmin dağı.
Qardaş həsrətilə hər bahar çağı,
Yarası lalətək açılan mənəm.

## ÖZÜMÜ GÖRDÜM

Yenə min arzuyla çıxdım səfərə,
Araz sahilində izimi gördüm.
Əziz qardaşımın, dərdli bacımın,
Gözündə yol çəkən gözümü gördüm.

Vüsalı görsəm də bir röya kimi,
Nə qəm, bir arxam var bu dünya kimi.
Coşqun dalğalara bir qaya kimi,
Sinəsini gərən özümü gördüm!

## PİYALƏM

Ayrılıqdan odlanan bağrımda laləm var mənim,
Titrəyən kirpiklərimdə qanlı jaləm var mənim.

Getməyir bir an xəyalımdan Cənubun həsrəti,
Qəlbimin hər guşəsində bir şəlaləm var mənim.

Həm uzaqdır, həm yaxındır məncə bu vəslin yolu,
Təbrizin hər daxmasında odlu naləm var mənim.

Arzulardan doğmadır hər nəğməmin hər kəlməsi,
Hər sözü dildən-dilə düşmüş risaləm var mənim.

Qoy vüsal gəlsin, gözəl mənalı bir sağlıq deyim,
Qardaşım! Göy göl kimi əlvan piyaləm var mənim!

## SAXLA YADINDA

Qardaş! Gözümə sən yenə pəjmürdə göründün,
Bəsdir bu qədər qolları zəncirli süründün.

Tez soldu bağın gəlmələrin tapdağı altda,
Cənnət qurulub qardaşının bayrağı altda.

Yalvarma, al öz haqqını əzminlə, gücünlə,
Zəncirini heçliklərə qır, at çəkicinlə.

Qan qardaşının sözlərini saxla yadında,
Qoyma köləlik damğası qalsın öz adında.

İnsan anadan qolları zəncirli doğulmur,
Dünyada azadlıq, bəli, qan axmasa olmur!

## QORXMURAM

Qorxmuram yağılardan bu qaranlıq diyarda,
Könlüm günəşə həsrət bir zirzəmi kimidir.
Azadlıq yollarında başı dik əməllərim,
Dalğaların qoynunda rəqsan gəmi kimidir.

Könlüm vətən eşqilə alovlanmış bir ölkə,
Mənim güləcəyimə yadlar inanmır, bəlkə.
Qorxutmasın sizləri gözlərimdəki kölgə,
Gənc könlümün bağçası yanmış zəmi kimidir.

Qasırğalı dəryada dəydi daşlara gəmim,
Batdı nəşəm, sevincim, çıxdı sahilə qəmim.
Odur ta o zamandan tərpənişim, görkəmim
Ağacda son yarpağın son görkəmi kimidir.

Rəqiblər ürəyimi daşlayır bir nərd kimi,
Deyin, kimdə dərd vardır sinəmdəki dərd kimi?
Durmuşam qəm çölündə dostlarımla mərd kimi,
Qəmim ana vətənin şirin qəmi kimidir!

*Təbriz, 1941*

## CƏNUB DƏRDİM

Deyirdim ki, gələr gün dincələr artıq bir az dərdim,
Xəbər gəldi Cənubdan, ah, alovlandı bu yaz dərdim!

Sevincin dostuyam, lakin mənim də öz qəmim vardır,
Cənublu qardaşımla tez görüşməkdir əsas dərdim!

Əziz qan qardaşım yatdıqca zindanlarda təqsirsiz,
Sənintək hər zaman tüğyan eylər daşqın Araz dərdim!

Qara güllər açıb bağrımda bu sənsizliyin dərdi,
Vüsal eşqilə məclisdə olur min telli saz dərdim!

Cənub hicrində çoxdandır sinəmdə qanlı dağlar var,
Olunmaz möhtəşəm vulkanlı dağlarla qiyas dərdim!

Sənin düşmənlərin, qardaş, sənə işgəncə verdikcə,
Gözüm qan-yaş tökər seltək, qurar könlümdə yas dərdim!

Süleyman Rüstəməm, artıq tükənmiş səbrim, ey cəllad,
Olarsan kül, sənə eylərsə əmrimlə təmas dərdim!

*1957*

## DƏNİZƏ ÇIXSIN

Arzumdur, ömrümdən keçən hər gecəm,
Həmişə günəşli gündüzə çıxsın.
Qoca balıqçıtək göllərə deyil,
Yelkənim dalğalı dənizə çıxsın.

Cənubun dərdinə şahiddir yaşım,
Savalandan betər ağarıb başım.
İnansın sözümə bacım, qardaşım,
Kim istər o eldə qan dizə çıxsın?!

Deyirəm, sönməsin göylərdə Ay, Gün,
Kim dünən yatıbsa ayılsın bu gün,
Namuslu bir oğul sayılsın bu gün,
Adı el içində təmizə çıxsın!

Yanımdan yel kimi ötdükcə hər il,
Görün nələr deyır bu şair könül:
Nyu-Yorka deyil, Parisə deyil,
Mənim uzun yolum Təbrizə çıxsın!

Məndən gileylidir dostlarım bir az,
Yetir sözlərimi o taya, Araz!
Süleyman vəfasız olmayıb, olmaz,
Gəlirəm, lalələr qoy düzə çıxsın!

## BİRDİR

Araz! Hər yaz çəmən birdir, o sahildə, bu sahildə,
Qərənfil, yasəmən birdir, o sahildə, bu sahildə.

Bilirsən ki, suya xəncər, bıçaq vursan da ayrılmaz,
Ürək birdir, bədən birdir, o sahildə, bu sahildə.

Əzəldən ayrılıq dərdi, vüsal dərdi, vətən dərdi,
İnandım bir də mən, birdir, o sahildə, bu sahildə.

Ürək telli müqəddəs saz, şeirdən incə xoş bir dil
Araz, bildinmi sən birdir, o sahildə, bu sahildə?!

Süleyman, gəl haray sal, qoy bütün aləm eşitsin ki,
Əziz, doğma vətən birdir, o sahildə, bu sahildə!

*1945*

## KÖLGƏ VAR

Qardaş! Bizim görüşümüz uzun sürmədi,
Dövran bizə bu vüsalı rəva görmədi.
İki ürək dərdə düşdü, gözlər ağladı,
Qarlı dağlar, göy meşələr, düzlər ağladı.
Sən əlini qaldıraraq dilsiz göylərə,
Dedin: "Tanrı, köməyim ol, tapdandı haqqım".
Mənsə böyük ümidlərlə dönüb bir kərə
Körpüdəki qanım rəngli bayrağa baxdım.
Yaxşı günlər yadımdadır, o yaman gündən,
Dərdli Araz sahilində ayrılan gündən –
Ürəyimdə hicran adlı bir ölkə vardır,
Gözlərimdə o ölkədən bir kölgə vardır.

## ƏN MÜQƏDDƏS ARZU

Bir arzum da var dünyada -
Bu şairi salıb yada
(Sizə açıq deyim niyə)
Şöhrət deyil, hörmət deyə,
Kitabımı Arazdakı körpü üstdən assınlar.
Gənc nəsillər unutmasın bu şairin şərtini.
Tez köçərsəm bu dünyadan başdaşıma yazsınlar
İki yerə parçalanmış ürəyimin dərdini.

## DÖZƏ BİLMİRƏM

Araz sahilində hər bahar çağı
Bir an həyəcansız gəzə bilmirəm.
Hətta, yuxumda da qan qardaşımın,
Əlindən əlimi üzə bilmirəm.

Gözümdə yaş görüb gülməyin mənə,
Arazdan deyirəm mən dönə-dönə.
Təsəlli verirəm özümə, yenə
Bu ürək ağrımı kəsə bilmirəm.

Baxanda Cənuba gözüm hər səhər,
Çəkir ordusunu üstümə kədər.
Dözənlər, bilmirəm, necə dözürlər,
Mənsə bu hicrana dözə bilmirəm!

## SİNƏM OLSUN

İllər keçdi, saç ağardı qar kimi,
O sahildən ayrılmadı gözlərim.
Vəfalıyam, o vəfalı yar kimi,
Qoy qalmasın ürəyimdə sözlərim.

Yetər, yetər yandım hicran oduna,
Şahid olsun bu arzuma Yer üzü.
Mən razıyam bir vüsalın adına,
Sinəm olsun Arazımın körpüsü!

## TƏBRİZ YOLU

Ürəyimdən çəkilib Təbrizə yol,
Dağları, daşları qandır bu yolun.
Ellər hürriyyəti, etdikcə parol
Ey nəsillər, yürüşə hazır olun!

Yenə şerimlə göyərçintək uçub,
Çəkirəm baş o döyüşkən şəhərə.
Yenə könlüm yeni bir mahnı qoşub,
Gözü yollarda qalan dərdlilərə.

Təbrizin doğma bağından hələlik,
Ah çəkib, qanlı çiçək-gül dərirəm.
Qardaşım! Əslinə yaddır köləlik,
Sənə öz mahnımı pay göndərirəm!

Dayanıb yolda bahar yüklü qatar,
Bu qatar tən ürəyimdən keçəcək.
Ayrılıq, göz yaşı, fəryad, nə ki var –
Əbədilik vətənindən köçəcək!

## UZAQ DEYİL

Bir zamanlar əzbəriydi dillərin,
Gözəlliyi, adı-sanı Təbrizin.
Qara illər qara yellər gətirdi,
Soldu birdən gülüstanı Təbrizin.

Torpağının hər zərrəsi qızıldır,
Məhəbbəti ürəkləri qızdırır.
Güvəndiyi mərd oğludur, qızıdır,
Yer üzündə tayı hanı Təbrizin!

Ayrılıqdan ürəkləri dərd alıb,
Haqsızlığa kainat da mat qalıb.
İllərdir ki, ürəyimdən yol salıb –
Hicran yüklü, qəm karvanı Təbrizin.

Öz yolundan çəkilməyib, çəkilməz,
Döyüşlərdə döyülməyib, döyülməz.
Cəlladlara əyilməyib, əyilməz,
Həm qocası, həm cavanı Təbrizin.

Alovlarda bağça yanıb, bağ yanıb,
Anaların ahı ərşə dayanıb;
Başdan-başa qızıl qana boyanıb
Hər küçəsi, hər meydanı Təbrizin.

Şəhidləri - "hər gün yada sal" deyir.
Nəsillər - "anda sadiq qal!" - deyir.
"Gəlmələrdən qisasımı al!" - deyir.
Bayrağına keçən qanı Təbrizin.

Görürəm ki, döyüşdədir, yenə də,
Ona deyən güllə dəyir mənə də.
Tək mənə yox, ey oxucum, sənə də,
Qanımdandır axan qanı Təbrizin.

Bu gün mənə ön səngərdə görünür,
Yenə, yenə ön səngərdə görünür.
Dönə-dönə ön səngərdə görünür,
Od ürəkli Səttarxanı Təbrizin.

Canım sənə qurban olsun, ey Vətən!
Qüdrətini bilməsə də hər yetən,
Varlığımla inanıram buna mən –
Uzaq deyil xoş dövranı Təbrizin.

Budur mənim bu könlümün qərarı –
Cəlladlara özüm qazım məzarı.
Gəlməyincə azadlığın baharı
Deyib-gülməz Süleymanı Təbrizin.

# *ŞƏHRİYARA MƏKTUB*

## ŞAİR QARDAŞIMA MƏKTUB

Qoy söyləyim ürəyimin sözünü,
Bir kərə də görməmişəm üzünü,
Nigaranam, yetir mənə özünü
Məhəbbətin bağrımdadır, Şəhriyar,
Mənim ürək ağrımdadır, Şəhriyar.

Kim deyir ki, ünvanımız ayrıdır,
Nə adımız, nə sanımız ayrıdır,
Nə canımız, nə qanımız ayrıdır,
Ürək birdir, bədən birdir, Şəhriyar,
Vətən birdir, vətən birdir, Şəhriyar.

Havaları nə gözəlmiş bu yazın,
Araz üstdən çatdı mənə avazın,
Yarı canım bu tayında Arazın,
Yarı canım yanındadır, Şəhriyar,
Şerin, sözün ətir dadır, Şəhriyar.

Gülşənlərdə çiçəkləri dindirən,
Gözəlləri, göyçəkləri dindirən,
Sevgi dolu ürəkləri dindirən
"Heydərbaba"n nə gözəldir, Şəhriyar,
Nə qəsidə, nə qəzəldir, Şəhriyar.

Hər canlıdan sənə bu can yaxındır,
Uzaq deyil yol ki, yaman yaxındır,
Qaşla gözün arasından yaxındır,
Gəl-gəl deyir sonbeşiyim, Şəhriyar,
Qurban sənə ev-eşiyim, Şəhriyar.

Hicran odu sinəmizi yaxdı, gəl,
Səndən ötrü ürəyimiz axdı, gəl,
İstəyirsən əncir-üzüm vaxtı gəl
Məclislərdə başda otur, Şəhriyar,
Ürəyimdə arzum budur, Şəhriyar.

Gəl qəmləri küləklərə verim, gəl,
Öz bağımdan sənə güllər dərim, gəl,
Sən məni gör, mən də səni görüm, gəl,
Demə ömür xəzansızdır, Şəhriyar,
Əcəl yaman amansızdır, Şəhriyar.

Beşikdəki quş yuxulu körpələr,
Dodaqları süd qoxulu körpələr,
Babaları dağdan ulu körpələr
Bizi əvəz edəcəklər, Şəhriyar,
Yolumuzla gedəcəklər, Şəhriyar.

Qoy bir də qan çilənməsin torpağa,
Yer üzündə nə qul olsun, nə ağa,
Şənlik qursun Təbriz, Mərənd, Marağa
Dilə gəlsin kamanımız, Şəhriyar,
Belə keçsin dövranımız, Şəhriyar.

Gəl Bakıya bağım-bağçam güləndə,
Bircə ovuc torpaq gətir gələndə.
Dostlar qatsın torpağıma öləndə,
Bəlkə onda kama çatam, Şəhriyar,
Son mənzildə rahat yatam, Şəhriyar!!

*18 may 1968*

**ÜÇÜNCÜ MƏKTUB**

Haqqım deyə ellər qalxıb ayağa,
Səsin gəlmir, ey Şəhriyar, hardasan?
Ayıl barı güllələrin səsinə,
Millətinin min dərdi var, hardasan?

Mən uzaqdan görürəm o dəhşəti,
Sən yaxından görmürsənmi vəhşəti?
Meydanda tək qoymaz övlad milləti,
De, hardasan, ey sənətkar, hardasan?

Alqışlardım bir zaman hər kəlməni,
Səbəb nədir, eşitmirəm nəğməni?
Gör haçandır, gör haçandır mən səni.
Axtarıram diyar-diyar, hardasan?

Od tutaraq alışardm şerinlə,
Ədalətdən danışardm şerinlə,
Ağ günlərçün çalışardın şerinlə,
Meydanlarda axır qanlar, hardasan?

Yağdırmasan lənətini cəllada,
Bildirməsən qüdrətini cəllada,
Göstərməsən qeyrətini cəllada,
Etməz sənə el etibar, hardasan?!

Doğma anan deyilmidir bu vətən!
Borcumdur ki, təkrar deyim sənə mən –
Ölüm-dirim döyüşündə cəbhədən
Vətənsizlər edər fərar, hardasan?

Qəm yelkənim dənizdədir haçandır,
Yan canım, Təbrizdədir haçandır,
Təbrizdədir, o sizdədir haçandır,
Sən hardasan, ey nəğməkar, hardasan?

Öz andını çıxarma gəl yadından,
Atəş yağdır ürəyinin odundan.
Şair kimi vətən, millət adından
Var səsimlə çəkirəm car, hardasan?

Çox da bu gün, bu dəm özüm burdayam,
Ellər bilir ürəyimlə hardayam,
Süleymanam, söz ordumla ordayam
Bəs sən özün, ey Şəhriyar, hardasan?!

## ŞƏHRİYARA DÖRDÜNCÜ MƏKTUB

*"Hərdən belə səsin gəlsin*
*Gözümüzün yaşın silsin"*
*Şəhriyar*

Məktubunu aldım, dostum Şəhriyar,
Düşüncəyə daldım, dostum Şəhriyar.

Salamını dostlarma yetirdim,
Məktubunu əldən-ələ ötürdüm.
Sandım səni ordan bura gətirdim!
Söhbət açdıq sədaqətdən, Şəhriyar,
Bir əbədi məhəbbətdən, Şəhriyar.

Nə yaxşı ki, incimədin sözümdən,
Mən ki səni ayırmıram özümdən.
Hər addımın yayınmayıb gözümdən,
Arzumuzun kökü birdir, Şəhriyar,
Eşqimizin yükü birdir, Şəhriyar.

Göylərindən boz buludlar çəkilsin,
Ürəklərdən vüsal yolu çəkilsin,
Məclislərdə əziz adın çəkilsin,
Silim sənin göz yaşını, Şəhriyar,
Öpsün qardaş qardaşını, Şəhriyar!..

Könlün qüvvət, ilham alsın əlindən,
Qoy düşməsin qələm yazan əlindən,
Mahnı, şeir əskilməsin dilindən,
Göz dəyməsin şöhrətinə, Şəhriyar,
Sən gərəksən millətinə, Şəhriyar.

Sən düşməni yandırmısan, yaxmısan,
Başı üstə şimşək kimi çaxmısan.
Öz günəşli sabahına baxmısan,
Ellərə bel bağlamısan, Şəhriyar,
Sevincindən ağlamısan, Şəhriyar.

Yad neftinin qoxusundan məst olub,
Nemətinin qoxusundan məst olub,
Sərvətinin qoxusundan məst olub,
Qoyma gəlsin sizə sarı, Şəhriyar,
Amerika cəlladları, Şəhriyar!

Vermə vətən torpağını əlindən,
İnqilabın bayrağını əlindən,
Qurtuluşun növrağını əlindən.
Ağ evlilər amansızdır, Şəhriyar,
Hiyləgərdir, vicdansızdır, Şəhriyar!

Hürriyyəti boğanlara atəş aç,
Səadəti boğanlara atəş aç,
Həqiqəti boğanlara atəş aç,
Kəlmələrin güllə olsun, Şəhriyar,
Nəğmələrin güllə olsun, Şəhriyar!

Fikrim bir an ayrılmayır yanından,
Görüm bəla uzaq olsun canından.
Ayrı deyil qanım sənin qanından,
Bir vətənin övladıyıq, Şəhriyar,
Mahnı, şeir fərhadıyıq, Şəhriyar!

Mücahidlər çıxmaz mənim yadımdan,
Mərd igidlər çıxmaz mənim yadımdan.
Şəhidlərin qəbri üstdə adımdan
Bayram çağı şamlar yandır, Şəhriyar,
Axşam çağı şamlar yandır, Şəhriyar.

Hər şəhidin məzarına səhər sən
Tər çiçəklər, qızılgüllər səpərsən,
Başdaşını əvəzimdən öpərsən,
Gözlərindən axsa da yaş, Şəhriyar,
Ürəyimiz deyildir daş, Şəhriyar!

Mənim ürək sözlərimə bələdsən,
Araz boyu izlərimə bələdsən,

Bu yol çəkən gözlərimə bələdsən.
Gəl görüşək, zaman keçir, Şəhriyar,
Ömrümüzdən günlər köçür, Şəhriyar.

Sən gəl desən, öz işimi bilərəm,
Uşaq kimi sevinərəm, gülərəm,
Ayaqyalın, başıaçıq gələrəm.
Sinəmizi boşaldarıq, Şəhriyar,
Nə yaxşı ki, sən, mən varıq, Şəhriyar!

İgid, şanlı bir millətin oğlusan,
Adlı-sanlı bir millətin oğlusan,
Səttarxanlı bir millətin oğlusan,
Ayrı deyil, anam, anam, Şəhriyar,
Qan qardaşın Süleymanam, Şəhriyar!

## ŞAİR SƏHƏNDƏ CAVAB

Yaradan əlini sıx Süleymanın,
O, el dərdi bilən yüksək insanın.
Söylə ki, hələ də "axır Arazın "
Dünyada heç belə "insafsız " olmaz.

***Səhənd***

Yaman dərin yarası var sinəmin,
Ağrımayan harası var, sinəmin?
Vüsal adlı çarəsi var sinəmin.
Bu dərdimlə birdir dərdi Səhəndin,
Şair gözü nələr gördü Səhəndin.

Mən Təbrizi, Marağanı gəzmişəm,
Həm Sarabı, həm Ovqanı gəzmişəm,
Günbatanı, gündoğanı gəzmişəm,
Uzun illər sorağında Səhəndin.
Qəm yemişəm fərağında Səhəndin.

Nolaydı ki, bir gedəydim Təbrizə,
Oturaydım dostlarımla üz-üzə,
Gecələri çevirəydik gündüzə,
Hey öpəydim gözlərindən Səhəndin,
Zövq alaydım sözlərindən Səhəndin.

Biz qardaşıq, nə özgəyik, nə yadıq,
Atadan bir, anadan bir övladıq.
Hicran adlı dağı yaran Fərhadıq.
Bu ən böyük əməlidir Səhəndin,
Mahnısının təməlidir Səhəndin.

Düşünürəm gecə-gündüz yenə mən:
Bir millətçin iki olmaz bir vətən...
Həm o sahil, həm bu sahil qədimdən
Torpağımdır, torpağıdır Səhəndin,
Vətən eşqi bayrağıdır Səhəndin!

Ey bacılar, ey qardaşlar, inanın –
Ağrısı var bu ürəyin, bu canın.
Görüm üzü qara olsun hicranın.
Mən səsini eşitmirəm Səhəndin,
Nəğməsini eşitmirəm Səhəndin.

Bu haqq sözü küləklərə vermirəm,
Nədən, nədən o taydan gül dərmirəm?
Bu günahı mən arazda görmürəm
Çünki Araz sirdaşıdır Səhəndin,
Göz yaşımdır, göz yaşıdır Səhəndin.

Deyirəm ki, qan görməsin elimiz,
Gülşənlərə ətir səpsin dilimiz,
Yorulmasın qələm tutan əlimiz,
Tükənməsin mahnıları Səhəndin,
Qoy var olsun Şəhriyarı Səhəndin!

Arzuları, əməlləri solmasın,
Ürəyinə bir daha qəm dolmasın,

Başından bir tük də əskik olmasın,
Hər gün bizi yada salan Səhəndin,
Şair gözü yolda qalan Səhəndin.

Pay ummaram özgəlerin malından,
Mən tikanlı məftillərin dalından.
Dostun necə xəbər tutum halından
Necə görüm gülşənini Səhəndin,
Vətənimi, vətənini Səhəndin?!

Gecikməyin, verin telli saz mənə,
Qonaq gəlir bahar mənə, yaz mənə.
Qan qardaşım, qələm götür, yaz mənə
Necə keçir güzəranı Səhəndin,
Nigarandır Süleymanı Səhəndin.

El güvənib öz ər oğlu ərinə,
Dəfn etsin qoy dərdi-qəmi dərinə.
Ağ gün gəlsin qara günün yerinə,
Çiçəklənsin dağı-daşı Səhəndin,
Süleymandır qan qardaşı Səhəndin!

*May 1968*

## DOSTUM CAVAD HEYƏTƏ

Qardaş! Qanımız bir, canımız bir, dilimiz bir,
Hicranın əlindən sonu yox nisgilimiz bir.
Lakin bu uzun yolda ümidsiz deyiləm mən,
Əvvəlki kimi sən səsimə səs verəcəksən.
Fəxr etməliyik çünki gözəl millətimiz var.
Çox yaxşı ki, dostluqda Cavad Heyətimiz var.
"Varlıq"dakı solmaz bağına, bağçana əhsən.
Vahid anamız doğma Azərbaycana əhsən!

# Poemalar

## YARALARIM

Yenə qəlbimdə çiçəkləndi yaram,
Dikmişəm gözlərimi dərdli Arazdan o taya
Nə qədər mən qoca dünyada varam,
Könlümün dərdi bulaqtək axacaqdır bu çaya!

Günlərim keçdi bu sahildə, o sahildə mənim,
Gözlərim qaldı qızılgüldə, qərənfildə mənim.
Qoxlayıb hər çiçəyi, hər gülü mən,
Ucadan səsləmişəm bağrıyanıq bülbülü mən.
Çox olub qarlı qışım, güllü yazım,
Gəzmişəm bağrımın üstündə sazım.
O yerin, məncə, qızıldan da gözəl torpağı var,
Xalqının laləli bağrındasa hicran dağı var.

Vurmuşam baş Xoya mən,
Düşmüşəm gah yasa mən, gah toya mən.
Gülmüşəm, ağlamışam,
Ellərə bel bağlamışam.
Udmuşam yollarının tozlarını,
Görmüşəm alnıaçıq qızlarını,
Gəzmişəm söz qoşaraq ellərə mən,
Vurmuşam mizrabımı tellərə mən,
Görmüşəm çöllərini, göllərini,
Qoxlamışam güllərini.
Doğrusu, heç duymamışam
Orda keçən günlərimi,
Qəmli və şən günlərimi
Bircə kərə saymamışam,
Bilməyənlər bunu bilsin, gün olub
Gah qəmim üstün olub, gah fərəhim üstün olub.
Seçdiyim yolda mənim,
Keçdiyim yolda mənim

Başıma daş atılıb, gül atılıb,
Od atılıb, kül atıhb.
Eşqimə sadiq qalaraq,
Söz qoşaraq, saz çalaraq,
Mən yenə addımlamışam,
Gülşənə addımlamışam.
Ah, bu şirin ağrıları,
Xeyli dərin ağrıları,
Bir əbədi xatirətək
Gəzdirəcəkdir bu ürək.

Mən ki, el dərdinə öyrəncipəm əvvəl gündən,
Bağrı qan, köynəyi qan bülbüləm əvvəl gündən.
Vaxt olubdur ki, qaranlıq gecələr sübhə kimi,
Bir fənər tək asılıb dost qapısından ürəyim.
Bürünüb gur işığa kor küçələr sübhə kimi,
Bir saattək vurub hər an ürəyim.
Dərdli qəlbimdə təlaş,
Çəkmişəm hər evə baş.
Oxuyub kölgəli gözlərdə şikayətləri mən,
Yazmışam dəftərimə dərdli hekayətləri mən.
Görmüşəm buzxanatək çox-yanacaqsız evlər,
Aclığın yurdu ocaqsız evlər.
Körpələr nəm həsir üstündə uzanmış, yatmış,
Sanki öz qəmli həyatından usanmış, yatmış.
Görmüşəm çox, döşü südsüz analar,
İrzi, namusu satılmış sonalar.
Çox da dünyaya gələn var,
Doğulandan çox ölən var.

Görmüşəm dar ağacından asılan mərdləri mən,
Yazmışam bağrıma son köynəyi qan dərdləri mən.
Hamının dar küçələrdən kəsilərkən ayağı,
Zilləyib gözlərimi göylərə şairsayağı,
Baxmışam zaviyə şəklində uçan durnalara,
Vermişəm Göy gölü mahnımla nişan durnalara.
Dinləyib onların ağlar səsini,

Yazmışam nəğmələrin nəğməsini.
Dolaşıb Duz-duzanı, Ovqanı mən,
Seyrə dalıb hər yanı mən...
Xırman üstündə nələr görməmişəm?!
Mülkədarlar aparıb kəndlilərin son dənini,
Kəndlilər kinlə baxıb göylərə, ovcunda həşəm,
Səsləmiş bir daha xoşbəxt gününü.
Bir günüm iydəli yollarda keçib,
Bir günüm darda keçib.
Söz eşidib, söz demişəm,
Gördüyümü düz demişəm.
Təbrizin Ərk qalasından oxunub mahnılarım,
Düşmənin bağrına oxtək toxunub mahnılarım.
Arxalanıb ellərə mən,
Ax, demişəm sellərə mən.
Gül, demişəm güllərə mən.
Bir yeni bağbandır adım!
Qardaşıma can demişəm,
Can sənə qurban demişəm,
Düşməninə yan demişəm!
Sadə bir insandır adım!
Üstümə min ordu gəlib,
Bağrıma dağlar çəkilib,
Sel tökülüb, çay tökülüb
Dalğalı ümmandır adım!
Düşmənin hər yerdə bu an,
Tökdüyü qan, içdiyi qan.
Yad başı üstündə qopan
Bir dəli tufandır adım!
Ellərə çatsın bu səsim,
Könlümə sığmır həvəsim,
Sönməz alovdur nəfəsim,
Çünki Süleymandır adım!
Qanlı vəhşətlərə, heyhat, necə dözsün insan!
İnanın, dağ sinəm üstündə yanan,
Göynəyən hər yaramın öz adı, öz dəftəri var.
Bacımın, qardaşımın,

Sirdaşımın
Geniş alnında bu gün min bir əzabın təri var.
Qəlbimin köhnə, dərin, baş yarası
Adlanır sadəcə qardaş yarası.
Yaş tökən gözlərimə orda bahar - qış görünür,
Tüstüsüz hər baca bayquş görünür.
İnanın, ordakı bağlarda qərənfillərsə
Torpaq altında yatan körpələrin gözləridir.
İlk bahar aşiqi bülbüllərsə,
Qəmli bir mahnı deyir güllərə çoxdan bəridir.
Vermişəm xalqıma çoxdan bəridir dincliyimi,
gəncliyimi.
Qocalıq ən qoca dərddir, bilirəm,
Bu sözü mən lüğətimdən silirəm.
Gəzirəm, hey gəzirəm ta nə qədər var nəfəsim,
Ellərə çatsın bu səsim.
Bəli, gəzdikcə o torpaqda, mənim,
Boğazımdan nə çörək getdi, nə su.
Deyirəm, ah, vətənim, can vətənim,
Ömür az, mənzil uzaq, yollar uzun...
Yox, ümidsiz deyiləm, vaxtı gələr,
Qardaşımın baxtı gülər –
Mən də ürəkdən gülərəm,
Onda bir az dincələrəm!

## QAFURUN ÜRƏYİ

I

İnsan var ki, bütün ömrü bir heçə bənzər,
Bir saniyən döndü sənin əbədiyyətə.
Mən günəşli yollarına saldıqca nəzər,
Varlığımla inanıram bu həqiqətə.
Mərd adınla fəxr edirəm, öz bakılımsan
Bir şəhərin havasını udmuşuq, Qafur.
Getmir, getmir xəyalımdan surətin bir an,
İkimiz də doğru bir yol tutmuşuq, Qafur.
Ey el oğlum, pak, müqəddəs əməlinlə sən
Mənim şair ürəyimdə - öz evindəsən.
Çox demişəm, yeri gəlib deyirəm yenə,
Bir əməlin yolçusuyuq həyat eşqinə,
Ötürürük bir-birinə öz adımızı
Dalğalanan bayraq kimi həyatımızı.

* * *

Əziz həyatımızı cəbhədə bayraq kimi
Ötürüb bir-birinə dayanırıq dağ kimi.
Sən qara torpaq altda torpağa dönsən belə,
Şöhrətin bir nəğmə tək düşəcək dildən-dilə.
Al mənim bu qəlbimi, yaşa onunla, Qafur,
Vur mənalı ömrünü başa onunla, Qafur.
Bax mənim gözlərimlə, nəfəs al nəfəsimlə,
Yetir əməllərini nəsillərə səsimlə.
Nəğmələrin ilk sətrində çəkilir adın,
Ürəyimin gözlərilə görürəm səni.
Sən torpağa düşdünsə də, həlak olmadın,
Cürətindir, qüdrətindir coşduran məni.
Məzarını ziyarətə tələsir dostlar,
Həyəcanla danışırlar şücaətindən.
Məzarına gedən yolu basmayıb otlar

Ordan ayaq kəsilərmi?! Yox, yox, əbədən!
Təslim olmur cəsur adın qara torpağa
Silahını saxlayırsan öz yanında sən,
Bir gün yağı əl atarsa işdir, yarağa
Məzarından qalxıb yenə döyüşəcəksən.

II

Birmərtəbəli evdə, Dağ üstü park yanında
Hərbin alov püskürən ən dəhşətli anında,
İsti bir avqust günü böyük bir həyəcan var,
Qarşıda, kim bilməyir uzun yol var, hicran var.
Görünür bu həyətdən Bakı - sevimli şəhər,
Xəzərin qoynundakı gümüş, almas ləpələr.
Bu həyətdə tər töküb atasıyla gənc Qafur,
Təbiətin əlilə sanki asılmış budur.
Püstə ağaclarından salxım-salxım püstələr,
Canına qüvvət gələr ondan yesə xəstələr.
Çox dırmanıb uşaqkən Qafur bu ağaclara,
Bənzəmiş ilk baharda özü də ilk bahara.
Aramış budaq-budaq yuvasını quşların.
Qonşu uşaqlarına dost tək qanı qaynamış,
Onlarla "Kos aldı qaç", "Çumur-çumur" oynamış.
Müxtəlif dünyası var dünyada hər uşağın,
Burda bardaş quraraq dövrəsində ocağın,
Əlləri yana-yana isti qutab yemişlər,
Bir-birinə tapmaca, bir də nağıl demişlər.
Bu ilk bahar ordusu hər gün verib əl-ələ,
Təbiətə qan verən günəşi nəğmələrlə
Səhər qarşılamışlar, axşam yola salmışlar.
Ondan qaranquşların sorağını almışlar.

* * *

Qafur gəzişib bir az, daldı düşüncələrə,
Canlandı qarşısında könül açan mənzərə.
Məhəbbətlə bir daha doğma şəhərə baxdı,
Sinəsitək qabaran şıltaq Xəzərə baxdı,

Sanki bir adam kimi gəldi dalğalar dilə,
Uşaqlıq xatlratı çəkdi onu sahilə.
Xəzər çağırır: "Qafur, məni danışdır deyir.
Mənimlə görüşməmiş cəbhəyə getmə, dostum!
Sənə bağlı könlümü pərişan etmə, dostum!
Öpmüş qədəmlərini yaz, yay bu dalğalarım,
Qoparır hicran çağı haray bu dalğaların.
Sənin qəlbin çırpınır mənim arzularımda,
Yad gəlsə bu sahilə, boğaram sularımda.
Gəzişib sahilimdə, böyüyüb yetdim başa,
Ömrümü qat ömrünə, mənim kimi min yaşa.
Nəfəsim soyuqsa da, od tutub yanır içim,
Gəl sərin sularımda əl-qol atıb bir də çim.
O qoçaq rus balası dostun Volodya hanı?
O da sənin kimiydi, yaman qaynardı qanı.
Qafur, Qafur, - huy... Qafur, qağayılar uçur, gəl!
Gəl, sahildə büsat qur, qağayılar uçur gəl!
Durna, ayaqlarına qanad taxıb çıx yola,
Atanın süfrəsi tək həmişə açıq yola.
Evdəki dost-aşnanı yubanma, tez ötür, gəl!
Uşaqlıq yoldaşını - Volodyanı götür, gəl!
Nə almasdır, nə dürrdür, nə zərdir mənim adım,
Hər damlası bir dəniz, Xəzərdir mənim adım!"
Diksindi qəhrəmanım, dəniz də danışarmı?
O da canlılar kimi xatirəylə yaşarmı?
Xoş xəyallar içində sarılıb məhəbbətə
Uşaqlıq dünyasını yönəltdi səyahətə. –

Bu gün xəzri bərk əsir,
Dostlar sahildə gəzir.
Volodya deyir: - Çimək,
Kim gözəl üzür, görək.
Qafür deyir ki: - Sonra...
Bir bax o dalğalara!
Eh-söyləyib Volodya
Atılır birdən suya.

Budur üzür Volodya, səsləyir: - Gəl sən də üz,

Dalğalara bələddir körpəlikdən könlümüz,
Sahil istidir, Qafur, sularsa çox sərindir!
- Volodya, çimdiyin yer dayazdır, ya dərindir?
- Dərindir.
- Eybi yoxdur çətin deyil ki, üzmək!
Dənizlə dost olanda ürək gərəkdir, ürək!
Bir qırpımda körpüdən Qafur atılır, suya,
Sahildəki uşaqlar baxıb düşür qorxuya.
Dənizdə fırtına var,
Dağ boydadır dalğalar.
Qafur üzür, cəld üzür,
Qağayılar tək süzür.
Dalğalar cilovunu gəmirən atlar kimi,
Sahibini belindən devirən atlar kimi.
Çılğın-çılğın kişnəyir, qalxıb-enir, nədir bu?..
Bəlkə də zəncirini qırmış divanədir bu?..
Qafur təslim olmayır, döyüşür dalğalarla,
Həyatında ilk dəfə qaç düşür dalğalarla.
Qızmış aslana dönmüş yoxsa bu gün təbiət?!
O, gah yatır, gah çıxır, yorulur ən nəhayət,
Gedir suyun dibinə birdən-birə daş kimi,
Volodya haray çəkir dost kimi, qardaş kimi.
Dönüb bir xilaskara,
Baş vurur dalğalara.
Sular qurğuşun kimi...
Dalğalarsa hücuma qalxmış bir qoşun kimi.
Boylanır həyəcanla sahildeki uşaqlar.
Əsirlər vahimədən yarpaq təki uşaqlar.
Sahildə köpüklənən dalğaların içindən,
Öncə iki baş çıxır, sonra iki yaş bədən
Heç qüvvət üstün deyil qardaşlığın gücündən,
Sahildən alqış səsi ucalır göyə birdən,
İki dost qucaqlaşıb öpüşür dönə-dönə.
İki dostun kölgəsi düşür qumlar üstünə.
Başlarının üstündə qağayılar qıy vurur,
Şən, bəxtiyar uşaqlar sahildə şənlik qurur.

* * *

Salır ötən günlərə Qafur yenidən nəzər,
Gözlərinin önündən keçir canlı lövhələr:
Bayıldakı yosunlu, sürüşkən qayalıqlar,
Tilovla tutduqları körpə, pullu balıqlar.
Axşamları həyətdə, "beş-daş" oynadıqları
Dilbər Şüvəlandakı əncir, üzüm bağları.
Əziz məktəb dostları, o çətin imtahanlar,
Müəllimlər, o sadə, o sevimli insanlar.
Nəhayət, mətbəədə mürəttiblik, iş, əmək,
Hər kitabda bir aləm, hər kitabda bir ürək.
Ayrılır bir an Qafur dərin düşüncələrdən
Doğrudan dar gündədir, anamız doğma vətən.
Ağır müharibədən, düşmənlə üz-üzəyik,
Düşmən üzü gecəyə, biz üzü gündüzəyik.
Müharibə, bu kəlmə min qanlı yük daşıyır,
Onun ağırlığını kiçik, böyük daşıyır.
Müharibə deyil dost təki, - quran ellərə,
Əsarət zəncirini çoxdan qıran ellərə.
Nə deyim, müharibə ayrılıqdır, kədərdir.
Bu kəlmənin dəhşəti yerdən göyə qədərdir.

* * *

Keçirdi qollarına hərbi çantanı, bir an
Budur, ayaq saxladı bizim bakılı oğlan,
Dedi həsrət içində: ana gəl halallaşaq,
Ürəyini sıxma gəl, oğlun deyildir uşaq.
- Bilirəm ki, deyilsən, bir dəqiqə dur bala,
Unutmuşdum az qala,
Bayaqdan görməyirdi gözlərim püstələri,
Yolda yeyərsən oğul, o çantanı ver bəri.
Ana püstə dərdikcə əl çatan budaqlardan,
Çəkmirdi gözlərini naməlum uzaqlardan.
Üzüb ayaqlarını bu dəmdə yerdən Qafur
Dırmandı pişik kimi ağaca birdən Qafur.

Püstə salxımlarını doldurdu çantasına,
Yarpaqlar arasından baxdı yurd-yuvasına.
Atılıb yerə öpdü anasını bir daha,
Qucaqladı məhəbbət dünyasını bir daha.
- Hələlik əziz ana, mən getdim.
- Get, yaxşı yol!
Get, oğlum, get, nəslin tək həmişə qəhrəman ol!
Ana əziz oğlunun baxır, baxır dalınca,
Gözündən ixtiyarsız yaşlar axır dalınca.

* * *

Qara dəniz dalğalar, gəmilər, sahil, şəhər,
Həyəcanlarla açır gözünü burda səhər.
Cəbhənin saatıyla hər gün oyanır sular,
Tökülən bombalardan alışıb yanır sular.
Qəliz, qara tüstülər yüksəlir yerdən göyə,
Qalxır alov sütunlar dərdli şəhərdən göyə.
Qara dəniz qəzəbdən düyünləyib alnını,
Qansız salacaq yola o hər əliqanlını.
Çətindir nəfəs almaq, hava qurğuşun kimi.
Düşmən təyyarələri ov gəzir quzğun kimi.
Baxışlar şimşək çaxır, ürəklər kinlə dolu,
Heçliyədir bu yerdən düşmənin zülmət yolu.
Dənizçilər vətəni, möhtəşəm hərbi liman
Deyir: "Əymərəm boyun qan sızsa da yaramdan.
Nəhəngcə bir gəmidir, sanki, bu məğrur şəhər,
Bağrı qandan qırmızı, dayanıb durur şəhər.
Sevastopol müqəddəs qəhrəman rus qalası,
Olmuşdur, olacaqdır hər zaman rus qalası.

* * *

Gəmilərdən atılan topların nərəsindən,
Vahiməylə qaçışan düşmənlərin səsindən
Az qalır ki, partlasın pərdəsi qulaqların,
Düşsün ürək-göbəyi Krımdakı dağların.

Dərə dolu, düz dolu faşist cəmdəklərilə,
Havanı zəhərləyən o it cəmdəklərilə.
Döyüşür neçə aydır Sevastopol durmadan,
Gözlərini yummayır bircə saat, bircə an.
Sevastopol! Qapıdan çox ordular qovulmuş,
Sənə göz tikənlərin burunları ovulmuş.
Poladdan bir qala tək dur, gözəl şəhərim, dur!
Düşmənlərin qəlbindən vur, gözəl şəhərim, vur!
Üstünə atlı gələn, atsız gedib bu yerdən,
Şöhrətli, adlı gələn, adsız gedib bu yerdən.
Dəmir axına bir bax,
Sənə göndərir dayaq
Bilirsən ki, unutmaz ölüm də kəssə yolu.
Xəzər Qara dənizi, Bakı Sevastopolu.
Budur, o qara gözlü, o qara qaşlı Qafur
Bakılı bir mürəttib, iyirmi yaşlı Qafur.
Bir gör necə vuruşur,
Gündüz, gecə vuruşur!
Azərbaycanlıdır o, möhkəmdir öz sözündə,
Şərəfdir dost yolunda ölüm onun gözündə.
Hələ bundan sonra sən tanıyacaqsan onu,
Bağrına basacaqsan Azərbaycan oğlunu.
Baxışları bu gündən gələcəyə nur saçır,
Zəfərlərə amansız süngüsüylə yol açır.

* * *

Gecədir... sakit gecə, hər yan qatı qaranlıq,
Çapır öz altındakı qara atı qaranlıq,
Susub toplar, tüfənglər... Sahildəsə bu ara
İki cavan diqqətlə göz gəzdirir sulara.
Rabitəçi Qafurla, komandir Sinetski
(Döyüşdə öz dostuna hayandır Sinetski)
Biri sakit, mərd, cəsur, biri dilli, diribaş.
Fərqi var bir-birindən onların iki-üç yaş,
Ulu babalarının olmuşsa da bir zaman
Bir-birindən ayrıca inamı, etiqadı,

Bu iki esgərinsə, deyil kimsəyə pünhan,
Ayrı deyil, ekizdir etiqadı, həyatı.
Göy sakit, dəniz sakit, gecə qaranlıq gecə,
Bəs onlar bir-birini necə seçirdi, necə?!
Böyük inamlarının, ölməz diləklərinin,
Kremlin saatıyla vuran ürəklərinin
Məşəlilə görürdü bu dostlar bir-birini,
Dünya qədər sevirdi bu dostlar bir-birini.
Yaşım yüz deyilsə də,
Eşidənlər gülsə də,
Sanıram mən də vardım o tarixi savaşda,
Lap elə bu geyimdə, bu görkəmdə, bu yaşda.
Yağıların indi də o şanlı gündən bəri
- Odur, dostum qızanr yenə səhərin gözü
Lakin bitib tükənmir odlu sinəmin sözü,
Sənə bir sualım var, bax gözümün içinə.
Sevgilidən-filandan varındırmı, de mənə,
- Heç özüm də bilmirəm nə deyim, nə söyləyim.
- Necə yəni?
- Qoy sənə bir qədər şərh eləyim.
Var desəm, yox kimidir; yox desəm, var kimidir;
Onsuz da başıma dünya, demirəm, dar kimidir.
- Tez-tez məktub yazırmı?
- Hələ deyilik tanış.
- Bir şey başa düşmədim, bir qədər açıq danış!
- Qonşuluqda yaşayır, evimiz üzbəüzdür,
Mənə elə gəlir ki, qəlbim tək qəlbi düzdür.
Mən ona çox baxmışam, o da mənə baxıb çox,
Nə mən bir söz demişəm... Nə də o deyib... Yox, yox,
Bağışla, komandirim, bəlkə bu aldanışdır,
Səndən niyə gizlədim, gözlərimiz tanışdır.
- Gözəldirmi?
- Gözəldir!
Adı nədir!
- Ədilə!
- At bu utancaqlığı, qoy eşqin gəlsin dilə.
Bir məktub yaz o qıza, yazmasan mən yazaram

Yazaram ki, baş əyir dostum hüzurunuza.
Yox, özün yaz, yoxsa ki, ürəyim tutmaz aram.
Yazarsanmı?
- Yazaram.
- Məndən salam o qıza...
- Sən necə, evlisənmi?
- Nə evliyəm, nə subay,
Haray bu ayrılığın əlindən haray, haray.
Araya dava düşdü, toyumuz baş tutmadı
- Məktub yazırmı?
- Yazır, Lizadır onun adı.
- Bağışla komandirim, harda olur və kimdir?
- "Taman" qospitalında ürəklərə həkimdir...
Aldı atəş səsləri bu sözlərin üstünü,
Hər "dostun", hər qazmanın, hər səngərin üstünü.
Başlandı partlayışlar... lap yaxında dalbadal,
Dincəlmək igidlərə burda mahaldır, mahal.
Budur cəbhə həyatı!.. Salam sənə ey səhər,
Atəşlə verdin cavab bizə yenə ey səhər!

* * *

Səhər açdı yuxusuz al qanlı gözlərini
Hərbin keşməkeşindən dumanlı gözlərini.
Qafur, bakılı Qafur əlində avtomatı,
Ölümün pəncəsindən qurtarmaqçın həyatı
Atır, vurub öldürür, düşmənə qan uddurur.
Gah sürünür üzü üstə, gah dayanır, gah durur,
Burda avtomatdadır söz-söhbət, sorğu-sual,
Avtomatla ver sual, avtomatla cavab al.
Yenə intiqam deyir topların kobud səsi,
Qanlı yollardan keçir könüllərin nəğməsi.
Qəhrəmanlar, bu yerdə qalmasın bir yad deyə,
Ölülərin üstündən keçirlər həyat, deyə.
Qaçan o, balıq gözlü sərxoş soldatlara bax,
Milçək kimi qırılan vicdansız yadlara bax.
Burda nə saat bəlli, nə dəqiqə bəllidir,

Bizdən ölən bircəsə, düşmənlərdən əllidir.
Həyat ölümsüz deyil, qurbansız gülməz zəfər.
Qafurun dörd yanına səpələnir güllələr.
Bir güllə bir əsgəri yaralayır başından.
Ayırır bircə anda yoldaşı yoldaşından
Bir qırpımda o gəncin enir göz qapaqları,
Titrəyir hiddətindən Qafurun dodaqları.
Gözünə sataşınca yadların pulemyotu,
Alışır ürəyində sönməz, intiqam odu.
Əlində qumbaralar sürünür torpaq üstə,
Bir polad dağ yeriyir sanki bir mum dağ üstə.
"Al payını!" söyləyib tullayır bombaları,
Düşmənlərin bağrı qanadır bombaları.
Faşist pulemyotçusu susur pulemyotuyla,
Vidalaşır əbədi, öz murdar həyatıyla.
Bu qəhrəmanlıq verir can, ürək matroslara.
Sinetski: - Dalımca! - deyərək matroslara,
Öz qoçaq dəstəsiylə keçir yenə hücuma
Qafur da cuma-cuma
Çatır Sinetskiyə, vəfalı yoldaşına
İgid komandirinə, öz cəbhə qardaşına.
Avtomatlar od saçır,
Yağı dovşan tək qaçır.
Döyüş susur... Komandir Qafuru qucaqlayır,
Ürəyini dostunun ürəyinə bağlayır.

* * *

Duşmən quvvət toplayıb gəlir başı aşağı,
Ağ canavarlar kimi eşir qanlı torpağı.
Soxulur kor-koruna, ölə-ölə hər yana,
Lənətə gəlsin görüm vəhşilər doğan ana.
Komandir Sinetski döyüşlərin canıdır,
Onun əsgərlərisə istiqbal karvanıdır.
O, ən məsul, ən ağır vəzifə başındadır,
Ömrünə məna verən Vətən savaşındadır.

O, sorğusuz, sualsız bələddir hər əsgərə,
Oxumuş kitab kimi hər ürəyi min kərə,
Poladdan da möhkəmdir onun əmri döyüşdə,
O, yorulmaz keçsə də, bütün ömrü döyüşdə
Deyir, doğma yaramdır hər soldatın yarası
Tamam sağalsın gərək bu həyatın yarası!
Yenə qızışır döyüş, Sinetski öndədir.
Düşmən yaman gündədir...
Ətrafa od yağdırır Qafurun avtomatı,
Qorxudan faşistlərin yadından çıxır adı.
Sataşır gözlərinə qaya dibində bu an
Düşmən avtomatçısı... coşur ürəyində qan.
Aman, aman, nədir bu Varlığını didir bu.
Düşmən, Sinetskinin bağrını almış nişan,
Avtomatda güllə yox, heç nəyə gəlmir güman.
Nə güllə doldurmağa, nə qumbara atmağa
Vaxtı yox, imkanı yox... qalxır birdən ayağa.
Yoldaş leytenant!.. deyə bağırır var səsilə
Şığıyır ildırımtək, qabaran sinəsilə
Qaldıraraq dostluğu qəlbində bayraq kimi,
Durur Sinetskinin önündə bir dağ kimi,
Bir qırpımda sinəsi rəng aldı lalələrdən,
Üzmək istəməyirdi ayaqlarını yerdən.
Silərək sağ əlilə sol döşünün qanını.
Qorumaq istəyirdi ölümdən öz canını.
Rəngi soldu get-gedə, çökən dağ kimi çökdü.
Gözündən iki damla əlvida yaşı tökdü.
Artıq gedirəm - deyə, məni bağışla, - deyə,
Böyük bir məhəbbətlə baxdı Sinetskiyə.
Nəsə demək istədi... Titrədi dodaqları.
Dostunun qucağında endi göz qapaqları...
Dolğun gözlü komandir bu itkidən bağrı qan,
Öpdü öz qardaşının soyuq dodaqlarından.
O, bu adla apardı cəsur döyüşçüləri
Müqəddəs vuruşlara... Düşmən çəkildi geri...

Qara dənizə yaxın bir təpənin başında
Qafuru basdırdılar... Onun məzar daşında
Yazdılar bu həyatda nəçi, kim olduğunu,
Cəbhəçilər döyüşdə bayraq etdilər onu,
Nəğmə qoşdu könüllər onun şücaətinə,
Görən də, görməyən də gəldi ziyarətinə.

* * *

Aylar, illər dolandı, dost ellər dünyasında,
Mən bu şəhərdə oldum... yerlilər arasında
Deyirdilər Qafurun anası çıxıb yola,
Bala məhəbbətilə gəlmiş Sevastopola.
Qucaqlamış can, deyə oğlunun baş daşını,
Bir ana tək axıtmış gözünün qan-yaşını.
Sanmış ki, hələ oğlu çıxmayıbdır bələkdən,
Qəbrini beşik bilib lay-lay demiş ürəkdən.
Özünü alıb ələ qalxmış ayağa birdən,
Hanı o dostun? - deyə sual etmiş qəbrdən,
Önündəki zabitə sataşınca gözləri,
Axmış, sərçeşmələr tək sadə ürək sözləri,
Sormuş: - Sən kimsən oğul? - Sinetskiyəm, ana!
Qafurun yoldaşıyam, yetər, etmə qan, ana!
Ana bir ah çəkərək, Sarılmış sarmaşıq tək
Qəhrəman rus oğlunun boynuna qollarıyla.
(Ey Vətən! İftixar et bu möhtərəm qarıyla!)
Səni görüb oğlumu yada salıram, deyə
Qafurumun iyini səndən alıram, deyə
Öpmüş Sinetskini - oğlunun yoldaşını,
Qanlı yollar şahidi, can, ürək sirdaşını.
Demiş: "Oğlum ölməyib, qəlbi, qəlbində vurur,
Eşidir qulağınla, baxır gözünlə Qafur.
Gəlir balamın ətri sənin gül nəfəsindən,

Eşidirəm səsini könül açan səsindən.
Bir tük də əskilməsin görüm, sənin başından.
Ürəyin dərdlənməsin gözlərimin yaşından.
Qanlı vuruşmalarda titrəməsin əllərin,
Əziz balası adlan bizim qardaş ellərin.
Qəbul et düz ürəkdən gələn xeyir-duamı,
Bilirəm yerdə qalmaz balamın intiqamı!
Deyirdilər bu yerə - matroslar diyarına,
O sadə el oğlumun - Qafurun məzarına
Bakılılar, Qafurla bir məhəlləli dilbər
Qara matəm haşiyəli əklillər göndəriblər.
Bəli, Qafur ölməyib, bu ada yaddır ölüm,
Belə qəhrəmanlara yenə həyatdır ölüm.
Burda yatan qəhrəman böyük imtahan verib,
Bu məzar unudulmaz, bu məzar deyil qərib.
Onun nəcib varlığı ürəklərdə yaşayır,
Arzusu, bu yerlərdə, bu göylərdə yaşayır.
Bilirəm, el oğlumu tapşırarkən torpağa
Hörmətlə qardaş ellər qalxmış bir an ayağa!

*1950*

## SƏBUHİNİ DÜŞÜNƏRKƏN

Öz masamın arxasında narahatam yenə mən,
Şair kimi Səbuhini düşünürəm səhərdən.
Mən dünən də düşünmüşəm, düşünürəm bu gün də,
Düşündükcə qələm gəzir ağ vərəqlər üstündə.
Mən bu yolda hər zəhmətə hazıram,
Ürəyimin dediyini yazıram.
Bir millətin dərdlərini ürəyində gəzdirən,
Əsrin ağır yüklərini kürəyində gəzdirən,
Uzaqları görən adam,
Sinəsini əzablara gərən adam,
Qatı qara buludların içindən,
Günəş kimi göründü,
Narazıydı başdan-başa zəmanənin işindən,
Bağrındakı yaraları dərindən də dərindi.
Duyub dövrün ələmini,
Əlindəki qələmini,
Qılınc kimi cəhalətin boğazına dayadı,
Haray çəkdi təməlindən dəyişməkçin həyatı.
Düşmənləri çox güclüydü, gətirmədi onunku,
Ürəyindən gəlib keçdi karvan-karvan qəm yükü.
El bağını gündən-günə basdı qara tikanlar,
Səbuhinin əllərində açdı yara tikanlar.
Kim bilmir ki, güzəranı yamandan da yamandı,
Ürəyini millətinin yarasına yamadı.
Gözü açıq Səbuhi, Bağrı yanıq Səbuhi,
Davam etdi yoluna -Döyüşdükcə qüvvət gəldi qoluna.
Can verməkçin vətəninin torpağına, daşına,
Gündən, aydan, ulduzlardan qoşun yığıb başına,
Çoxlarının gözlərindən pərdələri götürdü,
Millətinə gələcəkdən şad xəbərlər gətirdi.

Hücum çəkdi qaranlıqlar dünyasına amansız,
Bircə an da yaşamadı azadlığa gümansız.
Kafər dedi gözübağlı dinlilər,
Ərəblərə yas saxlayan miskinlər, pis günlülər,
Gözü açıq dinsizə,
Fikri aydın, sözü açıq dinsizə,
O, tufanlı dəryaların qoynunda
İtirmədi özünü,
Dolaşdıqca gəmisiylə dalğaların qoynunda,
Qan ağlayan Şərqə tutdu üzünü.
Azadlığa çağırdı gənc yaşından,
Ayrılmadı sükanının başından.
Həyat, nicat gəmisini uzaqlara sürdü o,
Qaranlıqlar arxasında ağ günləri gördü o.
Ürəyində min bir arzu bəslədi,
Öz xalqını azadlığın sarayına səslədi.
Qara keçdisə də onun günləri,
Düha kimi mətanətlə,
Cəsarətlə,
Hədyan saydı dinləri!
Öz əsrində rus xalqının duyub böyük yasını,
Xəzan gördü öz ömrünün baharını, yazını.
Elə matəm saxladı ki, rus oğluna - Puşkinə,
Gözü yaşlı dastan yazdı yana-yana Puşkinə.
Şair kimi əlbir olub köhnə dostum baharla
İftixarla, vüqarla
O qəhrəman ustadımın and içərək başına,
Məhəbbətlə baş əyirəm dilsiz məzar daşına.
Onu yenə ustad kimi sıramızda bilərək,
Sevinərək, gülərək,
Ona ürək sözlərimi deyirəm,
Sadə, göyçək sözlərimi deyirəm.
Ey mücahid Səbuhi,
Ey dövrünün qəmlərinə canlı şahid Səbuhi!
Döyüşlərdə yağılardan alan zaman min yara,
Ürəyinin dağlarını vursaydın qart dağlara -

Bir qırpımda dağıdardı dağları,
Yalın əllə təmizlərkən tikanlardan bağları,
Bircə kərə uf demədin, ey ustad,
Dedin gərək təməlindən təzələnsin bu həyat.
Sən başını dik tutub,
Ürəyinin ağrısını unudub
Öz xalqının yarasını düşündün,
Azad, xoşbəxt dünyasını düşündün.
Ey ustadlar ustadı,
Sən ey vətən övladı!
Bizim böyük dünyada
Bir balaca adım, sanım varsa da,
Sənin kiçik tələbənəm yenə mən,
Nə olar, qoy xatırladım bir qeydini sənə mən...
Füzulinin haqqındadır söhbətim,
Bax onu da, bax səni də candan sevir millətim.
Kim deyir ki, sevməmisən sən onu,
Vətənimin böyük şair oğlunu?!
Yox, sevmisən, öz dövründə gülməyən o şairi,
Bu gün belə ölməyən o şairi.
O da, sən də dühasınız, əzizsiniz bizimçün,
Sizi ustad seçmişəm mən çətin yolda özümçün.
Dirilərin dirisisən bu gün sən,
Xoşbəxtlərtək öyün sən!
Zəmanəmin övladları, qıl nəzər,
Allahları, şeytanları salıb göydən dərbədər,
İstibdadı basdırıblar dərindən də dərinə.
Şeytan sözü, Allah sözü qocalıb,
Dərd ocağı-məscidlərin yerinə -
Mədəniyyət ocaqları ucalıb.
Könüllərdə addımlayan əbədi bir bahardır,
Karvanımız ulduzların yollarını ağardır.
Yurdumuzdan kəsilmişdir qəm, qüssənin ayağı,
Aydan, gündən asılmışdır eşqimizin bayrağı.
Sən ey bizim sirdaşımız, Səbuhi,
Yoldaşımız Səbuhi!..

Şair kimi fəxr edirəm adınla,
Könlümün söz otağını qızdırıram odunla.
Sağ olsaydın bu gün sən,
Məhəbbətlə vəcdə gəlib yenidən,
Son verərdin köhnə ürək ağrına;
Bizim xoşbəxt nəsilləri basardın öz bağrına.
İnqilabın qanım rəngli bayrağını öpərdin,
Doğma, azad Vətəninin torpağını öpərdin.
Bəli, bəli, yaşasaydın bu günlərə qədər sən,
İnanıram buna mən:
Öz xalqının taleyindən, ustad, razı, qalardın...

*Oktyabr 1962*

## XİLASKAR

*Xəzərdə həlak olmuş*
*Tofiq Hüseynovun xatirəsinə*

Yaman xəzri qopubdur yenə bu axşam üstü,
Xəzər qanlı görünür mənə bu axşam üstü.
Buludlar qoşun-qoşun, göylərin qaşı qara,
Qəzəblə yumruq vurur dalğalar, dalğalara.
Uzaqlarda görünür yelkəni yırtıq gəmi,
Atıb tutur dalğalar onu sanki çöp kimi.
Bakılılar bilirlər necə dənizdir Xəzər,
Görürsən, gah bulanıq, gah tərtəmizdir Xəzər.
Onu cilovlamasa at tək insaının əli
Tez-tez qaşqabaq töküb, aşar gündə sahili.

* * *

Aman, dənizdə tufan get-gedə şiddətlənir,
Buludlardan güc alıb dalğalar hiddətlənir.
Sizə nə olub yenə dalğalar, a dalğalar,
Bu sirri açın mənə dalğalar, a dalğalar!
Görən necə olacaq köməksizlərin halı?
Onlarda zərbəsilə tufan qoymayıb tutar.
Dalğalar, çevirməyin ayrılığa vüsalı,
Tufanlı qoynumuzda yarı yolda qalan var!
Yaman toxunursunuz, gəlin, inanın buna
Bu şair ürəyimin qanlı divarlarına!
Xəzərim, bu çağımda yol tapsaydım bir anda,
Bəlkə içib suyunu mən səni qurudardım.
Sənə: dayan! Deyirəm, coşma, bir az dayan da...
Bacarsaydım at kimi yüyənindən tutardım.
Xəzər! Özünə ram et şıltaq ləpələrini,
Tez çevir varaq-varaq o dağ ləpələrini!
Dalğalar qulaq asmır, dənizsə dil anlamır,
Sıxlaşan buludların gözlərindən qan damır.

Sahildəki qayıqlar yıxılır böyrü üstə,
Qağayılar çığrışıb uçuşur dəstə-dəstə.
Ürəklərə nədənsə qüssə dolur, qəm dolur,
Sahildə bir gənc qadın ağlayaraq saç yolur.
Dalğalar qoymur onun eşidək fəryadını,
Çəkir balalarının bir-bir əziz adını.
Dəniz ayırmş onu ciyər paralarından,
Hər söz qopur ananın ürək yaralarından.
Gözlərini zilləyib dilsiz qaranlıqlara,
Baxır balalarıyçin qansız qayalıqlara.
Qayalar arasında hərdən üç baş görünür,
Ananın gözlərində sonsuz təlaş görünür.
Bəli, üç baş görünür nöqtələr tək dənizdə
Kim edəcək onlara indi kömək dənizdə?!
Dəniz yorub onları, gücdən düşüb qolları,
Dalğalarla bağlanıb qurtuluşun yolları,
Gənc ana tez-tez göyə qaldırıb əllərini,
Axıdır torpaq üstə gözünün sellərini.
Göydən cavab gəlməyir, kim deyir göy söz anlar?
Yanılırlar kökündən göydən nicat umanlar.
Yer oğluna, yer oğlu əl uzadıb həmişə,
Göydən imdad ummağı eləməyin bir peşə!
Budur, bir cavan oğlan elə bil çıxdı yerdən,
Soyunub bircə anda, suya atıldı birdən.
Hücum çəkdi Xəzərin üstünə aslan kimi,
Yox, yox, aslan nədir ki, sadə bir insan kimi.
Qudurğan dalğaların birbaş üstünə cumdu,
Bu hücum Abşeronda görünməmiş hücumdu.
Yarıb coşqun suları qollarıyla avar tək,
Vuruşdu dalğalarla əlbəyaxa təkbətək!

Ana, ağzı açılı dənizə göz zillədi,
Dizlərinə vuraraq kaman kimi inlədi.
Görəsən görəcəkmi əziz balalarını,
Ona qaytaracaqmı dəniz balalarını!?
- Yox, ümidim onadır, o cavan oğlanadır,
O bilir sahildəki köməksiz bir anadır.

Hərbin qızğın çağlarında bu dünyaya gəlmişdi o,
Beşikdəykən dinləmişdi qəmli hicran laylasını.
Anasının göz yaşını gülüşüylə silmişdi o,
Süd əmərkən hiss etmişdi ürəyinin yarasını.
Dil açanda atasını soruşmuşdu anasından,
Ana, bala göz dikmişdi hərbin qanlı yollanrıa.
Qan sızdıqca doğma Vətən torpağının yarasından
Ana ona demişdi ki: "Qüvvət gəlsin qollarına.
O gün olsun yetişəsən harayına cəsarətlə
Gözü yolda qalanların, gözü darda qalanların.
Bala, səni böyüdürəm bağrımdakı hərarətlə,
Yet dadına atan kimi ürəyi qan olanların!
Atan qanlı cəbhələrdə sinə gərib düşmənlərə,
Qoruyurdu öz canilə dost ellərin dünyasını.
O bilirdi, yadellilər od töksə də göydən yerə
Yox, sarsıda bilməyəcək dünyamızın əsasını".
Zəfər günü atasiylə qucaqlaşıb öpüşəndə
Yerə, göyə sığmamışdı sevincindən bizim oğlan.
Ata ona söyləmişdi sədaqətdən söz düşəndə:
"Ürəyinin tellərilə yurd, yuvana, elə bağlan!"
O, məktəbdə, ya kənarda dostlarının arasında
Bir azəri balası tək böyük hörmət qazanmışdı.
Şagirdliyi illərində, yeni bilik dünyasında
Əli hər vaxt dostlarına kömək üçün uzanmışdı.
Dərdli ana, az da olsa tanıtdırdım onu, sənə
Yox, o səni darda qoymaz, inan ona, inan mənə.

* * *

İnsanlar yaxşı bilir ta əzəldən dünyada,
Söz qandıran olmayıb bir suya, bir də oda.
Uzanıb hər dəqiqə sonsuz bir əsrə döndü,
Ananın gözlərində ümid çırağı söndü.
"Balam! Balam!" deməkdən dili ağzında şişdi,
Cansız bir cəsəd kimi yaş torpaq üstə düşdü.

Ayılıb yavaş-yavaş aldı özünü ələ,
Yenə qalxdı ayağa bala məhəbbətilə.
Onlar görünməz oldu, boğuldularmı yoxsa,
Necə qıydın, ey dəniz, sən o dörd günahsıza?!

Əldən düşmüş üç nəfər, budur, çıxır dənizdən,
Lap yaxındaydı onlar, uzaq deyildi gözdən.
Onların ayaqları yaş qumlara dəyəndə,
Sevinclər qurdu bardaş ananın ürəyində.
Öpdü cavan oğlanı gözlərində təşəkkür
Halı dəyişdi birdən, ağladı hönkür-hönkür,
- Bu qızlarım, bəs hanı mənim o kiçik oğlum,
Mən niyə sağ qalmışam, qoyun mən də boğulum!
Ananın gözlərindən oxuyub ricasını,
Çevirməkçin vüsala bu ayrılıq yasını
Cavan oğlan yenidən atıldı dalğalara,
Cumdu qayalıqlara suları yara-yara.
Dalğalar zor göstərir, əl-qol açmağa qoymur,
Xəzərə nə olub ki, bircə qurbanla doymur!
Saniyələr anaya gəlir dərdli il kimi,
Dalğalarsa görünür uzun, qara dil kimi.
Baxır dilsiz göylərə gözlərində şikayət,
Ürəyində natamam, qan donduran hekayət.
Qulaqlar tutulurdu dalğaların səsindən,
Heyhat! Onlar dönmədi, ana getdi özündən.

* * *

Sahil boyu gəzirlər əlləri məşəllilər,
Hələ gücdən düşməyib, dincəlməyibdir Xəzər.
Bürümüşdür sahili "Can bala, vay..." səsləri,
Övlad sorağındadır onlar axşamdan bəri.
Artıq gecə yarıdır, qan-qan deyir dalğalar,
Sahildə iki ata, iki dərdli ana var.
Məşəllə axtarırlar sahili, övlad deyə,
Təlaşla baş vururlar hər yerə həyat deyə.
Sübhə yaxın açıldı Xəzərin qaşqabağı,

Sinələrə çəkildi bir yeni hicran dağı.
Sarsıtdı bu mənzərə, sarsıtdı bu dərd məni,
Dəniz atdı sahilə iki cansız bədəni.
Dilim gəlmir söyləyim, əlim də tutmur yazım,
Onların bu yasına qarışdı mənim yasım.
Onlar, ürəklərində dağdan ağır qəm, kədər,
İki soyuq bədəni qucaqlayıb öpdülər.

* * *

Azər oğluydu oğlan, bir sovet balasıydı,
Vətəni qəhrəmanlar, qartalar yuvasıydı,
O, son nəfəsində də dönmədi öz yolundan.
Biz onun mərd adını ürəyimizə yazdıq,
İndi o bir ananın oğlu deyildi artıq –
Vida günü yas tutub öz qəhrəman oğluna
Həsrətlə ağlayırdı, milyon göz, milyon ana!

*Şüvəlan, avqust 1958*

## TƏBRİZDƏ QIŞ

Bir dost kimi yetişərək harayına Arazın,
Gözlərimi zilləyirəm o tayına Arazın.
Vətən dərdi ürəyimdən asılır bir daş kimi,
Öz cənublu qardaşıma deyirəm qardaş kimi:
- Gör nə kökə saldı sənin həyatını köləlik!
Ellər bilir, kömək əlim çatmır sənə hələlik.
Külək əsir, şaxta kəsir, çox əsəbi yağır qar,
İnsanlarsa xiyabandan keçir yumaq şəklində.
Mən bilirəm, qoşun yığır hücum üçün ilk bahar,
Əlində bir qızıl lalə, qızıl bayraq şəklində,
Nə gedən var, nə gələn var "Azərşəhər" yoluyla
Əlində bir buz qələm,
Ölüm yazır qış öz soyuq imzasıyla, qoluyla!
Sərbəst gəzir dərd-ələm.
Hər dəqiqə bir il qədər uzundur,
Bu mühitin törətdiyi faciələr uzundur.
Qış neyləsin, qışda günah nə gəzir?
Dövran özü bu varlığı hey tapdayır, hey əzir.
Qış dolanıb addım-addım,
Ləkəsizdir, deyir, adım.
Ərbablardır ölüm yazan əlimlə,
İnsanlara qəbir qazan, əlimlə...
Külək əsir, şaxta kəsir,
Nalə çəkir yetim-yesir.
Bir ay var ki, damlar-daşlar ağ kəfənə bürünmüş,
Buludlarla pıçıldaşan dağ kəfənə bürünmüş.
Donub cansız yerə düşür göydə uçan sərçələr,
Bir şikayət havasıyla dolu evlər, küçələr.
Yoxsulların daxmasında nə odun var, nə ocaq,
Sızım-sızım sızıldayır hər beşikdə bir uşaq.
Pəncərələr qırıq-qırıq, tavan uçuq, dam damır...
Könüllər qan ağlasa da, təbiət dil anlamır.

Nə yorğan var, nə döşək var, nə cecim var, nə həsir,
Ağacdakı son yarpaq tək dilsiz körpələr əsir.
Kimsəsizlər ən nəhayət bürünərək bir gişə,
Sübhü açır gözləriylə, taq-taq dəyir diş-dişə,
Bu ölkədə xeyli var ki, ağlamaq da yasaqdır.
Qara geyib ölənə yas saxlamaq da yasaqdır.
Bəziləri qan ağlayır, gülə-gülə, - dərdə bax!
Yarasından axan qanı silə-silə, - dərdə bax!
Ölüm gəzir qapı-qapı, küçə-küçə şəhəri,
Qırıb-çatır, fərqi yoxdur, gündüz-gecə şəhəri.
Amansızdır, sıyırmış buz qılıncını bu il qış,
Zavallılar deyir, - Çəkil, öldük, yetər, çəkil, qış!
Varlıların nə vecinə, yanır evdə sobası,
Uşaqları qışda belə udur bahar havası.
İsti paltar geyinərək oynayırlar küçədə,
Çox da qışdır, qarışqa tək qaynayırlar küçədə.
Onlar duymur isti günə, ilk bahara ehtiyac,
Nə dərdinə kimdir ölən, kimdir çılpaq, kimdir ac.
Qoy əbədi bu yerlərə bahar qonaq gəlməsin,
Çəmənlərə çiçək səpib qucaq-qucaq, gəlməsin,
Lazım deyil, qoy gəlməsin, onların nə vecinə,
Tox-firavan ömr edirlər, tümənlərin gücünə.
Küçələrdə dolaşaraq ayaqyalın, başaçıq,
Yetim qızlar nalə çəkir: - Qırılırıq, biz acıq!
Bu nakamlar buz yollardan ölə-ölə keçirlər,
Ərbablarsa, bu lövhəyə gülə-gülə keçirlər.
İşsiz-gücsüz bədbəxtlərsə, nə zövq alsın ömürdən?!
Qara çörək çıxır burda sanki daşdan, dəmirdən.
Dükanların qapısında ehtikarın qıfılı,
Zəncirli bir qart köpəkdir sahibkarın qıfılı.
Arabalar küçələrdən ölü yığır aramsız,
Külək isə, bir zərbəylə vurub yıxır aramsız.
Köməksiz bir ağac kimi, ev-eşiksiz kəsləri,
Saray kardır eşitməyir bu ucalan səsləri.
Seyr edin bu dəhşətlərə laqeyd baxan binanı,
Bayrağında mürgüləyir şirü-xurşid nişanı!

Baş küçədə qəhqəhələr yayır bütün hər yana,
Fasiləsiz işləyərək, qəhvəxana, meyxana.
Qulaqların pərdəsini yırtır vəhşi caz səsi.
Meyxananı topa tutur qadınların qaz səsi.
O xəfiyyə qadınlarda hiyləyə bax, naza bax,
Gözləriylə saplayırlar hər ürəyə bir bıçaq.
O xanımlar "qonaq" gəlib Nyu-Yorkdan, Londondan,
İlan kimi çıxıb hər gün min qabıqdan, min dondan
Özlərini pula deyil, siyasətə satırlar,
O vətənsiz ağaların qucağında yatırlar.
Əcnəbilər görünərək quzu kimi günahsız,
Fəth edirlər ürəkləri, beyinləri silahsız.

Ərbablarla əcnəbilər vurub badə-badəyə,
Sevinirlər: - Əcəb tapdıq bir ümumi dil, - deyə.
Bu kələfin nə günəşdə, nə aydadır bir ucu,
Ellər bilir, qan çanağı saraydadır bir ucu.

Şiddətlənir qar çovğunu, uğuldayır küləklər,
Könüllərə dəhşət yayır, qorxu yayır küləklər.
Yurd-yuvasız zavallılar bilir yalnız nədir qış!
Bir döngədə buzlar üstə iki kölgə dayanmış,
Önlərində cındırlara sarılı bir ölü var,
Sağlığında el deyərdi: - Əcəb qabil əli var!
Bəzək vurur, məna verir dilsiz daşa bu adam,
Sənətində bənzəməyir hər nəqqaşa bu adam...
Bir ölü ki, memarlıqda birinciydi Təbrizdə,
Evlərdəki hər naxışı bir inciydi Təbrizdə,
Tanımayan tapılmazdı el içində Səbrini,
Əvəz edən usta yoxdur öz işində Səbrini.
Bağlanmışdı ürəyinin telləriylə vətənə,
Min bir bəzək vurardı o əlləriylə vətənə.
O deyərdi: - Vətən oğlu mal-dövlətə satılmaz,
Nə qızıla, nə mənsəbə, nə şöhrətə satılmaz!
Bar verən bir ağac kimi dikib yerə başını,
Əridərdi bir şam kimi ömrün cavan yaşını.

Yaratdığı binalara baxdıqca o vüqarla,
Sanardı ki, dayanmışdır üz-üzə ilk baharla.
Bu şəhərdə bir çox qəşəng imarətlər tikmişdi,
Gözlərini ağ günlərə, gələcəyə dikmişdi.
Bu mənalı binalarda çox mənasız adamlar,
El dərdinə, taleyinə etinasız adamlar
Gün keçirir, çovğunlardan, küləklərdən bixəbər,
İntiqama hazırlaşan ürəklərdən bixəbər.

Səbrini də onlar çoxdan çıxarmışdı yadından,
Nə xeyir var ərbablara bir ustanın adından?
Əli qızıl bu adamın giş paltardı geydiyi,
Bir əl boyda çörək idi qazanaraq yediyi.

Düşünərdi: "doğar bir gün mənim də bəxt ulduzum,
Ömr edərəm bu evlərin birisində mən özüm".
O vurduqca divarlara, sütunlara naxışlar,
Seyr etdikcə doymazdı bu lövhələrdən baxışlar.
Gəncləşdikcə qoca şəhər sənətkarın əliylə,
Deyərdilər: - Əli birdir ilk baharın əliylə.
Arzulara son qoyulur yalnız, yalnız qəbirdə,
Qonaq kimi gəlib gənclik, qonaq kimi gedir də.
O hər daşın üzərinə bir daş qoyduqca yavaş,
Öz ömrünün sarayından hər gün düşürdü bir daş.
İllər keçdi, saç ağardı, bel büküldü, güc getdi,
Baş titrədi, göz tutuldu, gənclik onu tərk etdi.
Ehtiyacsa, yumruqladı qapısını, - Aç! - deyə,
Arxamca bax, ölüm gəlir, dur bu evdən qaç! - deyə.
Qızdırmalar pəncəsində onun ömür yoldaşı
Çabalayıb çırpınırdı, axıdaraq göz yaşı.
Arvad öldü... Səbri qaldı iki yetim qızıyla!
Hər gün dərin fikrə daldı iki yetim qızıyla.
Ev sahibi pul istədi, hardan versin, pul hanı?
Aydındır ki, verən gərək vardan versin, pul hanı?
Bir az sonra zavallını daxmasından qovdular,
Məhkəmələr qapısında onu başdan sovdular.

Yetişmədi sənətkarın şikayəti göylərə,
Əzəl gündən yoxdu onun məhəbbəti göylərə.
Rast gəlmədi bu ölkədə, haqq, ədalət Səbriyə,
Uçuq bir ev yuva oldu ən nəhayət Səbriyə.
Bu daxmada əli bomboş, küləklərdi qonağı,
Ehtiyacın bu qapıdan kəsilməzdi ayağı.
O nə etsin? Hara getsin? Kimə desin dərdini?
Bəlkə, çörək əvəzinə özü yesin dərdini!
O gördükcə küçələrdə çılpaq yatan qızları,
Ehtiyacdan namusunu heçə satan qızları.
Düşünərdi öz anasız qızlarının sonunu,
Onlardamı geyməlidir fahişəlik donunu?
Yox, yox, bircə bu qalmışdı! İntihara nə gəlib!
O günləri görməkdənsə, dar məzara nə gəlib!
Qəzəbindən yazıq ata əsim-əsim əsirdi,
Nə etsin ki, bu mühitin sərt əlində əsirdi.
Sənətkarçın kimsəsizlik ölümdən də ağırdı,
Qucaqlayıb dizlərini bir nöqtəyə baxırdı.
Gah gəzirdi kölgə kimi, tutub palçıq divardan,
Deyərdilər, dəlidir bu, görsəydilər kənardan.
Gah öpürdü oxşayaraq qızlarının başını,
Boşaldırdı torpaqlara gözlərinin yaşını.
Gah ümidlə yetimləri şirin dilə tuturdu,
Bir göyərçin tutar kimi, öz əliylə tuturdu
Xəyalında ağ günləri, səadəti həvəslə.
Qızlarına söyləyirdi titrək, boğuq bir səslə:
- Dərd çəkməyin, dərdinizi tək mən özüm çəkərəm,
Öz əlimlə sizə gözəl, qəşəng saray tikərəm,
O sarayın üzü baxar azad, xoşbəxt Şimalə,
Bu torpaqda eşidilməz nə inilti, nə nalə.
Bu sarayı məhəbbətlə ucaldaram sizinçin,
Siz, ey mənim iki bədbəxt ciyərparam, sizinçin!
Onu tikə bilməsə de sizin qoca atanız,
Tutacaqdır dik başını yenə uca atanız.
O binanı, əminəm ki, başqa tikən tapılar,
Üzünüzə açıq olar onda bütün qapılar...

* * *

Külək qopdu, birdən-birə palçıq divar söküldü,
Çürük taxta parçaları üstlərinə töküldü.
Bir-birinə sarmaşaraq sıxıldılar divara,
Düşünərək, aradılar bu dərdlərə son çara.
Qızlar dedi: - Əziz ata, heç olmazsa, bir kərə
Get tikdiyin evlərə.
O yerə ki, palçığına öz qanını qatmısan,
Təməlinə parça-parça ürəyini atmısan.
O ağalar haqqını da verməyiblər başabaş,
Get, qoy bəlkə, götürülsün üstümüzdən ağır daş.
Günü qara, qəlbi yara, dərdi dərya, qarnı ac,
Çölə çıxdı... - Dalımca gəl, - dedi ona ehtiyac.
Yaratdığı binaların qapısını döyərək,
Xəcalətlə ağız açdı istəyərək düz-çörək,
Hər qapıdan bu səs gəldi: "Allah versin, durma, get,
Zəhlə tökmə, murdar qoca, get, boynunu burma, get!"
- Mən Səbriyəm, bu evləri mən tikmişəm əlimlə,
Qocalmışam, üzbəüzəm, gözbəgözəm ölümlə.
Borcunuzdan bir az verin, mən dilənçi deyiləm,
Qul deyiləm, kaman kimi qarşınızda əyiləm.
Mən cəhənnəm, heç olmazsa, qızlarıma rəhm edin,
Ömrüm-günüm batıb yasa, qızlarıma rəhm edin!
- Rədd ol, səni tanımırıq.
- Necə?
- Tanısaq belə,
Unutma ki, sovurmuruq tümənləri biz yelə.
- Bu günümü bilsəydim, ah, burda qan-tər tökəndə,
Ac qarnına, sizin üçün, uca saray tikəndə,
Yandırardım bu evləri...
- Söyləyərik ajana,
Ömrünün son çağlarında atılarsan zindana.
- Mən görmüşəm o zindanı.
- Doğrudan da görmüsən,
Şirü-xurşid əvəzinə gizli-gizli hörmüsən.
Gəncliyində binalara beşguşəli bir ulduz,

Rədd ol, sənə haram olsun yediyin o çörək-duz.
Çıx get, bəxtin gətirib ki, ev doludur qonaqla,
Yoxsa sənin kürəyini doydurardıq çomaqla.
- Müvəqqəti qonaqsınız bu evlərdə, gün gələr,
Azadlığın nəğmələri asimana yüksələr,
Yeyin, için, kef eyləyin, bu evlərdə hələlik,
Gün gələcək, olmayacaq bu torpaqda köləlik.
Tikdiyim bu binalarda görməyəcək el sizi,
Tutub dara çəkəcəkdir bir uğurlu əl sizi.
Mən görməsəm o günləri, görəcəkdir qızlarım,
Lap bu evdə xoşbəxt həyat sürəcəkdir qızlarım!..
Bu sözləri deyib Səbri baxdı, baxdı şimala,
Bitab, ağır addımlarla sonra düzəldi yola.
Siyirərək qılıncını öz işini gördü qış...
Bir döngədə buzlar üstə iki kölgə dayanmış.
Önlərində cındırlara sarılı bir ölü var...
Sağlığında el deyərdi: - Əcəb qabil əli var!
İki kölgə göz yaşında boğularaq ağlayır,
Nalələri, fəryadları ürəkləri dağlayır.
İki kölgə dilə gəlib deyir: - Verin, ağalar,
Ölən əziz atamızdır, baxın, görün, ağalar,
Dəfh etməyə kimsəmiz yox, pulumuz yox, amandır,
Aclıq, ölüm, kimsəsizlik, yetimlik çox yamandır!
Üz çevirib yetimlərdən xəz paltolu adamlar.
Ürəyi boş, qarnı dolu, cibi dolu adamlar
Yol keçirlər, əsla qulaq asmadan bu nəvaya!
Sığaranın tüstüsünü püskürərək havaya.
Sağlığında qalmayanda sənətkarın dərdinə,
Kim qalacaq indi ölmüş bir memarın dərdinə?!
O evlər ki, yaranmışdı əllərilə Səbrinin,
Ürəyini əritmişdi illər ilə Səbrinin.
İndi ordan qəhqəhələr yüksəlirdi göylərə,
Onlar xəbər tutmazdılar, ensəydi də göy yerə.
Bu an köhnə bir araba gəlib durdu döngədə,
Arabaçı öz işinə yekun vurdu döngədə.
İki adam düşünmədən şöhrətini Səbrinin,
Qaldıraraq yerdən atdı meyidini Səbrinin -

Donub şaxta gecələrdə ölənlərin üstünə,
Ac-yalavac, küçələrdə ölənlərin üstünə.
Arabaçı qırmaclayıb sürdü yorğun atları,
Ona məlum deyildi bu ölülərin adları.
Fəqət o da düşünürdü öz gələcək gününü:
"Kim alacaq bu amansız ölümlərin önünü?
Bəlkə bir gün özümü də bu mindiyim araba
Qəbristana aparacaq?.. Daşürəkli ərbaba
Əl açacaq oğlum-qızım küçələrdə gəzərək,
Sürünəcək təhqirlərə, əzablara dözərək?"
Bu xəyallar güc verərək gozlərinin yaşına,
Xəncər kimi işləyirdi ürəyinin başına.
İxtiyarsız ac atlara vurduqca o qamçılar,
Gözlərindən mıncıq-mıncıq tökülürdü damcılar.
Arabanın arxasınca iki kölgə qoşurdu,
İki kölgə yumruğuyla təhdid edib, coşurdu, -
Qəhqəhədən şüşələri cingildəyən evləri,
- Dünya bizim vecimizə deyil, - deyən evləri.

Bir təpənin ətəyində tənha məzar görünür!
Bahar çağı göy otlara, çiçəklərə bürünür.
Üzərinə kölgə salıb cavan söyüd ağacı,
Ziyarətə gəlir qəbri tez-tez dərdli cüt bacı.
Sükutunda bir üsyan var bu torpaqda yatanın,
Bu həyatın acısını, əzabını dadanın,
Gəlib bir gün fədailər bu məzarın başına,
Beşguşəli ulduz şəkli qazdılar baş daşına.
Hər gün, hər vaxt o ulduzu öpüb keçir yolçular,
Üzərinə qızıl güllər səpib keçir yolçular.
Sanki Səbri qəbrində də görürdü ilk baharı,
Fədailər dəstəsinə qoşulmuşdu qızları.
Sənətkar öz məzarında yetişmişdi vüsala,
Fədailər basdırmışdı onu üzü Şimala.
Kütlələri intiqama çağırırdı bu məzar,
Məzarda da döyüşlərdən ayrılmayır sənətkar!..

*1949*

## QOLSUZ QƏHRƏMAN

Gecə dilsiz, yer-göy dilsiz, ay-ulduzlar yenə dilsiz,
Saya gəlməz insan udur lal gecənin havasını.
Budur döyüş meydanında qalmış hələ al qandan iz,
Bütün ətraf xatırladır ölüm-dirim davasını.
Qərib dağlar fikrə dalıb əridir öz ürəyini,
Top səsindən bu dağlarda qalmamışdır ürək-dirək.
Ucaltmış al bayraq kimi igidlər öz diləyini,
Döyüşləri təsvir üçün poladdan bir qələm gərək.
Bu dağların ətəyində tutmuş qərar Qızıl Ordu.
Sanmayın ki, uzun sürən bu döyüşlər onu yordu.
0, dincəlir, səhər yenə göstərəcək qüdrətini,
Qazanacaq milyon-milyon məzlumların hörmətini.
Növbətçilər qartal kimi göz gəzdirir dörd bir yana,
Düşmənlərin ağzı nədir girsin bir də bu meydana.
Fikrə dalmış gənc komandir bir xəritə üzərində
Fikrə dalmış, yeni həyat, zəfər gülür nəzərində.
Bir tərəfdə şişpapaqlı cavan əsgər uzanmışdır,
Sanmayın ki, bu ədalət döyüşündən usanmışdır.
Cananı tək öz bağrına basıb əziz yarağını,
Kölgəsində and içərək öpmüş Vətən bayrağını.
Əsla qorxu bilməmişdir güllələrin altında o,
Saxlamışdır əcdadının öyüdünü yadında o.
Dərdi budur, kənddə qalıb sevgilisi, gözəltisi,
Bəzən ona gəl-gəl deyir ağacların qaraltısı.
Andıqca o şux gözəli, düşündükcə o dilbəri,
Mənə dolu gözlərilə açır burda hər səhəri.
Xeyli olar məktub gəlmir o gözəldən, səbəb nədir?
Məgər özü bilməyirmi, ürək nədir, əsəb nədir?
Bu döyüşlər bir körpüdür o dilbərin vüsalına,
Görəsən o mən yazığı gətirirmi xəyalına?
Ah, görəsən indi onu mənsiz evə kim ötürür,
Yuxu nədir? Kirpiklərim sübhə kimi od götürür.

Şübhə nədir? Yox, yox mənə söz verib o,
Ürəyimin aynasını məndən daha tez görüb o.
Birdən incə, xoş bir gülüş rəqs eləyir üz-gözündə,
Görür nazlı nigarını ürəyinin güzgüsündə.

* * *

O, öz cəbhə yoldaşına bu sözləri demiş dünən.
Bu amansız vuruşlarda işdir, əgər, ölərsəm mən
Sevgilimə yetirəsən, tərk elədim bu həyatı.
Ürəyimdə əziz Vətən, dodağımda onun adı!

## HƏRƏKƏT

Çalındı birdən boru... Komandir gur səsilə
Boşluğa məna verən gözəl, məğrur səsilə
Hazır duran orduya verdi hərəkət əmri.
Artıqdı bir ordudan əsgərlərin hər biri.
Komandir oxşadıqca boz atının yalını,
Gələcək döyüşlərə çəkdi öz xəyalını.
Ayağı üzəngidə atın belinə yatdı,
Bu adi at deyildi, yerişdə yel qanaddı.
İgidlərin qılıncı siyrildi öz qınından,
Onların nərəsindən yer-göy titrədi bir an.
Yüksəlib dalğa-dalğa hər yeri gəzdi səslər,
Dağlar dağları burdan aldığı səslə səslər.
Yayılırdı dörd yana atların kişnəməsi,
Hücumdan pozulurdu yadların sıx cərgəsi.
Bir igidin bir əli vururdu min əl kimi,
Düşürdü atdan yerə düşmənlər xəzəl kimi,
Otların, çiçəklərin üstündə qan izləri,
Bizim cavan əsgərin od saçırdı gözləri,
Ayrılmırdı kölgə tək komandirin yanından.
Xəbərsizdi qanından, keçmişdi öz canından.
Bir az sonra daş kimi atından yerə düşdü,
Cumub şəfqət bacısı köməyinə yetişdi...

Vuruş dayanmamışdı, hücum davam edirdi,
İnqilabın ordusu sel tək axıb gedirdi.
Saatlar belə keçdi, axşam oldu nəhayət...
Kitablara yazıldı yeni bir qalibiyyət.

* * *

Döyüşçülər yorulmuş, batmış tamam qan-tərə,
Uzun yolların tozu qarışmış axan tərə.
Yorğun körüklər kimi alır ciyərlər nəfəs,
Silib təmizləyirdi öz silahını hər kəs.
Komandir əmr etdi ki, dincəliniz bir qədər.
Daha qəti bir hücum başlanacaqdır səhər.
Buludlar arasından ay boylanıb bu ara,
Sanki "əhsən" deyirdi bizim qəhrəmanlara.

## DÖNÜŞ

Göydə ay, ulduzlar görünən zaman,
Bizim qızıl əsgər endi qatardan.
Xaki köynəyinin bir qolu boşdu,
Gözləri yaşardı, ürəyi coşdu.
Udub havasını bu doğma yerin,
Cumdu dəryasına düşüncələrin.
Burdan kəndlərinə bir xeyli yol var,
Nə eybi, bir tanış evində qalar.
Bir tanış qapını döydü, açdılar,
Onu tanıdılar, bərk-bərk qucdular.
Boşaldı ürəklər, doldu ürəklər,
Düzüldü süfrəyə gözəl xörəklər.
Tanışlar əsgərə vermədi macal,
Yağdı yağış kimi üstünə sual.
Bir qollu qayıtmış bizim qəhrəman,
Keçirib qəlbində böyük həyəcan.
Çapdı uzaqlara xeyal atını,
Danışdı cəbhədən xatiratını.

Könlündə dostların oyatdı maraq.
Ona heyran olub, asdılar qulaq.
Uçdu dəqiqələr, ötdü saatlar,
Sonra da yatmağa yığışdı dostlar.
Qəhrəman dilində bir qızın adı,
Yumdu gözlərini, amma yatmadı.
O qalxdı yerindən günəşdən qabaq,
Dostlardan ayrıldı qucaqlaşaraq.
Fikirlər içində yönəldi yola,
Dost-aşna söylədi: "Uğurlar ola!"
Cumurdu irəli bizim qəhrəman,
Günəş yox, qəlbiydi göylərdə yanan.
Nədənsə gözündə uzanırdı yol,
Deyirdi özünə: "Bir az möhkəm ol!"
Saldıqca xatirə ötən günləri,
Gömmək istəyirdi o şux dilbəri.
Bu yol, bu ağaclar tanışdı ona,
Onlar keçənlərdən söz açdı ona.
Gəldi xatirinə sevgilisiylə
Bu yoldan keçdiyi-qoşa, əl-ələ.
Unutmaq çətindir bu xatiratı,
Ürəyi elə bil cilovsuz atdı.
Yox, yox, o, getmirdi, uçurdu kəndə,
(Quş kimi yanınca uçuram mən də)
Yetişdi nəhayət kəndinə, budur,
Yeridi təmkinlə, alnında qürur.
Bu da öz evləri, girdi həyətə,
Başilə salam da verdi həyətə.
Hürdü ala köpək tanıyıb onu,
Buladı bir qədər boz quyruğunu.
Tozlu çəkməsini yaladı heyvan.
Yenə "Hav-hav" deyə, hürdü yavaşdan.
Qəhrəman səslədi: — Ana, can ana!
Ana evdən çıxıb sarmaşdı ona.
Axdı gözlərindən sevinc yaşları,
Töküldü çiyninə dümağ saçları.

- Anacan ağlama, anacan bəsdir,
Mən sağ-salamatam matəm əbəsdir.
Verdim bir qolumu Vətənə qurban,
Canım da qurbandır bu yolda inan.
- Haqlısan, can balam, günəşim, ayım,
- Mənimsə davadan zəfərdir payım.
O qara günlərə çəkildi pərdə,
Düşməz mərd analar bir daha dərdə!

* * *

Yığılıb qonşular qurban kəsdilər,
Süfrəyə cürbəcür yemək düzdülər.
Çalıb oynadılar, qızışdı ara, O, pərtdi...
Bəs hanı, hanı Dilara?
Vaxt ötdü, dağıldı qonum-qonşular,
Daha qalmamışdı onda iqtidar.
Sübhü gözlərilə açdı bu gecə.
Könlü istəyən tək oldu nəticə.
Boğub ürəyində ilk yarasını,
Tapdı ən nəhayət Dilarasını.
Gördü ki, dayanıb göl qırağında,
Eşqi dilə gəldi könül bağında.
Lapdan gözlərini tutdu arxadan...
Dilara diksinib çığırdı: - Aman! Kimsən?
Çək əlini, çək gözlərimdən,
Yoxsa, qardaşımı səsləRəm həmən.
- Səslə! Qorxan kimdir o qardaşından!
Mənəm, mən!
- Qəhrəman?
- Bəli, Qəhrəman.
Gözlər bir-birinə dikildi yaşlı...
Öncə dilə gəldi o qara saçlı.
- Düz üç il sirdaşım qəm, kədər oldu,
Həmdəmim yuxusuz gecələr oldu.
İnsafsız, yollara dikib gözümü,

Əsən küləklərə dedim sözümü.
Gərək eşidəydin ah və zarımı,
Zərfi açılmamış məktublarımı,
Hər geri alanda ölürdüm min yol.
- Hər şeyi bilərsən, bir səbirli ol.
Budur, bir qolumu itirib gəldim,
Kəndə xoş müjdələr gətirib gəldim.
Nəyinə gərəyəm bir qolumla mən?
Deyirəm qoy gedim öz yolumla mən.
Bəlkə başqasını...
- Nə dedin, aman!
Çökdü gözlərimə yenidən duman.
Sən nə danışırsan? Buna bax, buna!
Canım qurban olsun o bir qoluna.
Süzüb - qəhrəmanı bir də, bir an o,
Öpdü köynəyinin bir qolundan o.
Alışdı könüllər, birləşdi əllər,
Şeyda bülbül kimi ötüşdü dillər.
Onlar öpüşdülər bu xoş baharda,
Düşüb əksləri güldü sularda

*1927*

## YENİ KƏNDİN İŞIQLARI

Təbiətin qucağında, doğma Xəzər qırağında,
Qəhrəmanlar ocağında, kefimizin şən çağında
Yeni kənddə yarı gecə gəzişirik küçə-küçə,
Seyr edirik gözəlliyi, dəqiqələr getmir heçə.
Ay göylərdən işıq səpir, yollarda ən kiçik ləpir
Gözə çarpır ayna kimi. Göy əyilib yeri öpür.
Aydın görər insan oğlu, nə arasa bizim yerdə,
Tamaşaya baxan kimi şəkil-şəkil, pərdə-pərdə.
Gen qapı tək ardınacan açıb xallı qanadını,
Qara, xumar gözlərilə gecə süzür "Boladı"nı.
Rəssamlara gəl, gəl, deyən bir lövhədir, baxsan hara,
Hər il bu vaxt min arzuyla havalan yara-yara,
Dəstə-dəstə, qatar-qatar quşlar bura köçüb gəlir.
Yad ellərdən, dost ellərdən, uzaqlardan uçub gəlir.

* * *

Sanki qızıl mıx vurulub
Göy üzünə ulduzlardan.
Yeni kəndsə işıq ummur
Nə aydan, nə ulduzlardan.
Göz gəzdirib nə görürük,
Tüstü qalxır bacalardan.
Soruşuruq dost evini
Cavanlardan, qocalardan.
Asimana bülənd olur
Cavanların ürək səsi,
Şux qızların, gəlinlərin
Dalğa-dalğa xoş nəğməsi.
Hər qapıdan bir baş çıxıb
Deyir: bizə qonaq gəlin!
Boldur bizdə otaq, gəlin!

Gəlin, təzə çay dəmləyək,
Siz danışın, biz danışaq...
Qonaq üçün gözlərini
Yola dikib oğul-uşaq.
- Çox razıyıq, deyib təkrar,
Dolaşarıq küçələri.
Nə gözəldir, nə qəşəngdir
Yeni kəndin gecələri!
Dostum gülür, mən gülürəm,
Ürəyimdən qopan şerin
Hər sözü, hər bəndi gülür.

* * *

Gəzə-gəzə gəlib çatdıq
Bir qapıya ən nəhayət.
Sinəmizi dolduraraq
Gecənin saf havasıyla,
Başımızı əyə-əyə,
Meynəliklər arasıyla,
Keçib girdik gəl-gəl deyən,
Gur işıqlı bir otağa.
Çil-çıraqlı, bər-bəzəkli,
Yaraşıqlı bir otağa.
Su gətirdi ev gəlini,
Yuyub sildik əlimizi.
Bax, bununçun mən sevirəm
Azad, xoşbəxt elimizi.
Az qalırdı bolluğundan
Partlasın bu geniş otaq.
Dedim: - Bu ev az görməyib
Bizim kimi əziz qonaq.
Pəncərədə böyük, kiçik
Cərgə-cərgə dibçəklər var,
Dibçəklərdə ətir saçan
Çeşid-çeşid çiçəklər var.

Gümüş kimi ağ samovar,
İpək yorğan, ipək balış.
Belə evdə hiss edilməz,
Qopsa tufan, yağsa yağış.
Gözə çarpır pianonun
Dillərində barmaq yeri.
Böyük xalı üzərində
Qədəm yeri, ayaq yeri.
Qonaqlara qaş, göz edir
Şkafdakı piyalələr.
İnsan bir el bayramına
Düşdüyünü xəyal elər.
Düzülmüşdür sıra-sıra
Büllur vaza, çini kasa.
Yadlar görsə bu cəlalı,
Düşər dərdə, batar yasa.
Daş aynanın dövrəsində
Ailənin şəkilləri
Hər şəkilsə xatırladır
Ötən mənalı illəri.
Ev sahibi söhbət açır
Öz varından, dövlətindən.
Kolxozçunun məna dolu
Ağ günündən, zəhmətindən:
"Hər kimin ki, qeyrəti var,
Məhəbbətlə işləyəcək.
Yaxşı deyib bizim ellər:
Kim işləsə dişləyəcək.
Nə gizlədək, işləmişik,
Bunu görür, bilir hamı.
Bir orduya bərabərdir
Bizim kəndin hər adamı...
Vətənə tez dönüm, deyə,
Cumurdum qan ocağına.
Tapdayaraq tüpürürdüm
Faşistlərin bayrağına.

Artıq doğma kəndimdəyəm,
El içində hörmətim var.
Kolxozun bu cəlalında
Az da olsa zəhmətim var...
Fəxr edirəm şöhrətimlə,
Bu kolxozun mənəm sədri.
Məhsuluma göz gəzdirin,
Bu "ənbərbu", bu da "sədri".
Mənimdir bu ətirli çay,
Qızıl tütün, bu yağ, bu bal,
Ağızlardan dadı getməz
Bu turş limon, bu portağal.
Qarışdıqca tər torpağa,
İstiqbalın özü gülür...
Düşmənlərin, zaman-zaman
Yeyəcəkdir qurd içini.
Yuvasını burda tikib
Haqqın, sülhün göyərçini!"
Bu an evin şux gəlini,
Süfrəmizə xörək verdi.
"Toxuq" dedik; kolxozçular
Yenə bizə ürək verdi.
Ömrümüzdən, gülə-gülə,
Gəlib gedir dəqiqələr.
Deyirəm ki, neçin bizi
Tez tərk edir dəqiqələr?!

* * *

Çox məzəli bir oğlan var
Süfrəmizin o başında.
Sanki onun ürək sözü
Yazılmışdır göz-qaşında.
Həmin oğlan yeyə-yeyə,
"Ənbərbu"nun plovundan,
Gülə-gülə dastan deyir

Öz dünənki qaz ovundan:
"Marığımda sübhə kimi
Qızıl qazdan ayıq durdum.
Mahalda bir quş qalmadı...
Belə atdım, belə vurdum.
Tər tökərək yük altında
Döndüm kəndə, çantam dolu.
Ayağıma qanad taxıb,
Bir nəfəsə gəldim yolu.
Budur mənim məsləhətim
Getməyin heç qaza, dostlar.
Köhnə dostlar tanır məni,
Qoy tanısın taza dostlar.
Yoxsa şübhə edirsiniz?
Qoy söyləsin atam özü.
Bəzən tərif edə bilmir
Öz işini adam özü".
Altdan-altdan öz oğlunu
Göz ucuyla süzdü ata.
Bu məzəli gənc ovçuya
Güldü çiyin ata-ata.
Bu söhbətə süfrədəki
Qızardılmış qaz da güldü.
Sanki, mən də varam, deyib,
Divardakı saz da güldü.
Hamı güldü... O gülmədi...
Dedim: "Dava topsuz olmaz.
Gözəl deyib ellər bunu:
Ovçu qardaş gopsuz olmaz!
Asan deyil qaza getmək,
Göl var, dizdən dərin olur.
Ov mövsümü ovçuların
Yalanı da şirin olur".
Cavan ovçu gülümsədi,
Mən dəyişdim söhbətimi.
Qonaqlıqda olanlara

Bildirdim öz hörmətimi,
Söhbətləri dinləyərək,
Coşdu birdən kənd həkimi:
"Deyin, görüm, yeni kəndi
Bilən ham mənim kimi?
Burda qulaq asmadığım
Varmıdır bir ürək, deyin.
Getmişdirsə heçə, boşa
Çəkdiyimiz əmək, deyin?!
Bizim xoşbəxt kəndimizdə
Kədər nədir, ələm nədir?!
İnsanların varlığını
Məhv eləyən vərəm nədir?..
Bir pəhləvan qüvvəti var
Zəhmət sevən biləklərdə.
Xoş arzular çiçəklənir,
Düz döyünən ürəklərdə.
Bizim ellər görməyəcək
Nə qızdırma, nə yatalaq.
Cavanların yanağına
Çırtma vursan, qan damacaq.
Bağlamışıq könlümüzü
Bir məqsədə, bir məsləkə.
İstiqbalın yollarında
Nə qorxu var, nə təhlükə.
Dayanmışıq biz həkimlər
Sağlamlığın keşiyində.
İnsanlara göz oluruq
Körpəlikdən beşiyində".
Qalxdı qoca bir kolxozçu
Öz yerindən cəld ayağa.
Baxan onu bənzədərdi
Başı gümüş qarlı dağa.
Dedi: "Yeyin, için, dostlar,
Süfrəmizdə boldur çörək.
Cavan oğlan, nə durmusan,

Piyaləmi doldur, görək!"
Bu qocanın ürək sözü
Əks elədi dağa, daşa...

* * *

Biz küçəyə çıxan zaman
Gördük hələ kənd oyaqdır.
Xoşbəxt evlər, gen küçələr
Başdan-başa çil-çıraqdır.
Yeni nəğmə qönçələnir
Gəlinlərin dodağında.
İnsan oğlu nəfəs alır
Səadətin qucağında.
Ulduzlarsa sönür bir-bir,
Göy üzündə gecəyarı.
Ulduzlara acıq verir,
Yeni kəndin işıqları!

*Boladı, 1948*

## MƏSUMƏ

*Olmuş hadisədir*

Sərgərdan yaşından illər boyu sən,
Bir zindan kəsildi qəlbinə vətən.
Atan əkib biçdi, döydü, nə fayda,
Bir pud da düşmədi payına ayda.
Hökumət istədi, ağa istədi,
O verdi, onlarsa yenə ver dedi.
Sevinc qapınızdan çox uzaq keçdi,
Yalnız ərbabların günü ağ keçdi.
Ailə acından ölməsin, deyə,
Əcəl zəfər çalıb gülməsin, deyə,
Səni vaxtından tez verdilər ərə,
Bir şey aparmadın getdiyin yerə.
Orda da ehtiyac, orda da aclıq,
Dərdin öz vəznindən qatbaqat artıq.
Dilin qabar çaldı, acam, deməkdən,
Bir kömək olmadı göydən, fələkdən.
Bir oğul gətirdin dünyaya heyhat,
Yenə də gülmədi üzünə həyat.
Bir gün həbs edildi ömür yoldaşın
Vərəqə yayarkən...
Ağardı başın.
Bağlandı üzünə bütün qapılar,
Bəlkə, bu dərdlərə çarə tapılar, -
Deyə bürünərək cırıq yorğana,
Qoşuldun şəhərə axan karvana.
Daş-kəsəkli yollarla zülümdən qaça-qaça,
Aclıqdan, susuzluqdan ölümdən qaça-qaça,
Qucağında tək balan qoca Təbrizə gəldin,
Burda da ehtiyacla, dərdlə üz-üzə gəldin.
Öz ana vətənində nə iş tapdın, nə çörək,
Xəstə ciyərlərində düyümləndi öskürək.

Özün kimi dilənən sonsuz acları gördün,
Geniş meydanlardasa dar ağacları gördün.
Baxıb kəndlərdən gələn qəm-kədər ordusuna,
Ordu orduna keçmiş işsizlər ordusuna.
Qana dönmüş bağrından qopdu acı nalələr,
Yox edə bilərmi heç ehtiyacı nalələr?!
Odlanan ürəyində odlar qalandı yenə,
Dərdlərinin üstünə dərdlər calandı yenə.
Gördün satqın ağalar səcdə edir dollara.
Yenə böyük ümidlə çıxdın uzun yollara.
Ayağın qabar-qabar çatdın Tehrana, heyhat,
Burda da rast gəlmədin təmiz vicdana, heyhat!
Jandarmalar yadlara salam verib, keçirlər,
Səndən daşürəklilər üz döndərib keçirlər.
Budur Tehran - canilər, fitnəkarlar yuvası,
Boğur haqq deyənləri zəhərlənmiş havası.
İçi əcnəbi dolu maşınlar gedib, gəlir,
Açıq pəncərələrdən "tanqo" səsi yüksəlir.
Bəli burda yaşayır Təbrizə qan udduran,
Xalqın gözünü açan kitablara od vuran,
Murdar, faşist ürəkli, qeyrətdən boş ağalar.
Öz-özlərindən razı kobud, sərxoş ağalar.
Burdadır o "Ağ ev"in elçisi yeni allah,
Burdadır məmləkəti dollarlara satan şah.
Sən yola çıxmışdın başqa arzuyla,
Uddu Tehran səni qanlı ağzıyla.
Evin yad, biganə küçələr oldu,
Həmdəmin qaranlıq gecələr oldu.
Tənha küçələrdə acından ölən,
Gənc analar gördün, balalar gördün.
Görmədin səninlə dərdini bölən,
İşgəncələr gördün, bəlalar gördün.
"Sevincim balamı, dərdim balamı? -
Dedin, - daş doğsaydım, yaxşıydı bundan.
Amansız ölümə məhkum balamı,
Qarnımda boğsaydım yaxşıydı bundan".
Qanlı cinayətlər ocağında sən,

Bir günün içində on il qocaldın.
Gəzib öz bəxtinin sorağında sən,
Yenə yurdsuz qaldın, yenə ac qaldın.
Şəhər kənarında hər zaman, hər an,
Dağ kimi qalanmış meyidlər gördün.
Şənlik yerlərində sərxoş, qudurğan,
Əcnəbi geyimli zabitlər gördün.
Azğın Amerika zabitlərinə,
Baxdıqca gözlərin şimşəklər çaxdı.
Hərdən göz vurduqca əclaflar sənə,
Gözünün yaşları qəlbinə axdı.
Dedilər: əllərin kimə gərəkdir,
Satılmış ölkədə əndamını sat.
Burda insandan da baha çörəkdir,
Bəli bu torpaqda belədir həyat.
Sən föhşi seçmədin, ölümü seçdin,
Öz balandan keçdin, canından keçdin.
Qucağında körpən, çıxıb bir dama,
Bir geniş küçəyə atdın özünü.
Ağzından torpağa qan dama-dama,
Həyata əbədi yumdun gözünü.
Əcnəbi ağalar laqeyd baxaraq,
Dedilər, qadında vəhşiliyə bax.
Özünü məhv etdin nədən, Məsumə?
Belə deməmişdi vətən, Məsumə!
Günah mühitdədir, səndə nə günah –
Qoydu ürəyində arzu-kamını.
İntiqam ordusu, inan ki sabah,
Alacaq birə min intiqamını!

*1950*

## NAKAM MƏHƏBBƏT

*Azəroğluya*

Təbrizdə olmuşam anadan qəmli daxmada
İnsana qəm, kədər gətirən nəmli daxmada.
Qundaqlayıb anam məni bir cındır əskiyə.
Mıncıq da taxdı boynuma, göz dəyməsin deyə.
Göz dəyməsin deyə, məni çox basdı bağrına,
Azər qoyub mənim adımı yazdı bağrına.
Sonra beşik başında çalıb lay-lay, ağladı,
Hər gün, hər həftə ağladı o, hər ay ağladı.
Düşdükcə damcılar üzümə gözlərindən, ah,
Bilməzmişəm bunun səbəbi mənmişəm mən, ah!
Dərya qədərdi dərdi qəmi, acdı ailə,
Bir al günəşli gündüzə möhtacdı ailə.
Yalnız, anam deyildi bu Təbrizdə dərd çəkən,
Zindandı öz oğullarına bağrı qan vətən.
Ulduzlar, Ay, Günəş aça bilsəydi dil əgər,
Dünyaya eyləyərdi hekayət nələr, nələr...
Qəmlərlə, ehtiyacla tamamlandı hər ilim
Təbrizliyəm, mən azəriyəm, odludur dilim.
Ondan da odludur ürəyim, çünki varlığım,
Saf ilk məhəbbətim, əməlim, bəxtiyarlığım
Təhqir olundu, hey coşaraq dalğa-dalğa mən:
- Üsyan gərək! - dedim güvənib doğma xalqa mən.
Hicrilə, ey bu qəlbimi hər gün dələn gözəl,
Hər an nəzərlərimdə mənim yüksələn gözəl,
Sən də bizim heyətdə gəlib qəmli dünyaya,
Zülmət otaqda bənzədin hüsnünlə bir aya.
Oldun mənim uşaqlığımın dostu, ortağı;
Bir yerdə oynadıq, böyüdük... bir səhər çağı
Çıxdıq səninlə gizlicə ilk dəfə sahilə,
Gəzdik ayaqyalın, başaçıq birgə, əl-ələ.
Gördükcə mən sularda sənin canlı əksini,
Sahildəki ağacların ətrafında rəqsini,

Birdən ürəklənib sənə bir kəlmə söylədim;
Güldün, sənin təbəssümünə nəğmə söylədim.
Artıq bir adət oldu bizə xoş gəzintilər.
Qalxıb günəşdən öncə yatağımdan hər səhər:
- Qalx, gün doğur, oyan! - deyə, mən səslədim səni,
Hər an uğurlu kölgə kimi izlədim səni.
Çıxdıq təbiəti yenə də seyrə birgə biz,
Ağ günlərin vüsalına bağlandı qəlbimiz.
Sevdim təmiz ürəklə səni, güldüm, ağladım,
Bir dost kimi bu sevgini qəlbimdə saxladım.
Addımbaşı mənim dilimin oldun əzbəri,
Gəzdik həvəslə qol-qola biz iydəlikləri.
Hər gün ağac kötüklərinə qazdım ismini,
Çəkdim məhəbbətimlə xəyalımda rəsmini.
Baxdıqca biz çiçəklərə, baxdıqca güllərə,
Lənət dedik ürəkdən ağır, qanlı illərə.
Gülməzsə gəncliyin üzü, güllər gülərmi heç?
Gülməzsə el, ürəklərdəki tellər gülərmi heç?
Baxdıqca öz həyatımıza, söylədik: - Yetər,
Aclıq, ölüm, ürəkləri al qan edən kədər!..
Əfsus... daşürəklilərin daş baxışları
Yağdırdı gözlərindən elin qan yağışları.
Dolduqca sən yaşa, bəli, dolduqca mən yaşa,
Var səslə söylədik: - Ey ana, ey vətən yaşa!
Doğdu könüldə şerə həvəs, şair oldum, ah...
Etdim əlimdə şeri döyüşlərdə bir silah.
Qəlbimdə hər nə varsa, bütün doğru söylədim,
Mən haqqa-haqq, oğruyasa-oğru söylədim.
Şair gərək ki, baxmaya zindana, məhbəsə,
Qul tək boyun da əyməyə ömründə heç kəsə.
Səttar xanın məzarına and içdim ər kimi,
Ellər də verdi səs səsimə, bir nəfər kimi.
İşgəncələrlə keçdi fəqət gəncliyim mənim,
Yadlar əlindən olmadı bir dincliyim mənim.
Çox da sevinmədim öz həyatımda gülmədim,
Lakin o qan soranlara əsla əyilmədim.
Yurdum, elim bu yolda qanad verdi şerimə,
Heyhat!.. Sığmadı vətənin dərdi şerimə.

Xalqa səadət istədim, hürriyyət istədim,
Yurdun şərəfli qızlarına hörmət istədim.
Gördüm qoşun-qoşun mənim arxamca el gəlir,
Zindanları uçurmağa bir canlı sel gəlir.
Keçdik hücuma - xalqı soyan müstəbidlərə,
Qandan qızardı lalə kimi dağ, çəmən, dərə.
Cəlladlar aldı dövrəmi bağrımda bir yara,
Baxdım ümid ilə döşü qartallı dağlara.
Səndən ayırdılar məni, zindana saldılar, Heyhat!..
İlk məhəbbətimi məndən aldılar!
Zindanda tez büküldü belim gənc ikən yaşım,
Qar tək ağardı, istəmədən mən, bu dik başım.
Ay, il dolandı, çıxdım o cəhənnəmdən, ey pəri,
Aldım sorağını ərə getmişsən, ey pəri.
Aclıq döyüb sizin qapını... Sonra ailən:
- Olmaz, deyə, bizim bu qızın yarı hər yetən, -
Vermiş səni, sən istəmədən, yarlı ərbaba
Mirvari tək o göz yaşını düzmüsən sapa,
Boynundan asmısan, gözəlim, bir cehiz deyə;
Fəryad qoparmısan - hanı ilk eşqimiz! - deyə.
Təqsir mühitdədir; sənə, ah, mən nə söyləyim,
Nakam məhəbbətə nə sayaq çarə eyləyim?
Öz dərdimi mən ağ kağıza qanla yazmışam,
İlk eşqimin məzarını qəlbimlə qazmışam.
Sənsizliyin əzabını çəkdikcə, sevgilim,
Bir əsrə çevrilir duyuram sanki hər ilim.
Mən cəbhədən qaçan deyiləm son nəfəsdə də,
Susmaz dilim, inan, yaşasam dar qəfəsdə də.
Sən qəm yemə, gözəl mələyim, böylədir zaman,
Arzum budur ki, hüsnünü soldurmasın xəzan.
Qəlbində mən, qolunda ərin, sür həyatını,
Ulduzlar, Ay, Günəş bəzəsin kainatını.
Mənsə, qarış-qarış gəzərək doğma ölkəmi,
Arxamca hey sürükləyirəm dərdli kölgəmi.
Qəlbimdə sən, qolumda nə bir qız, nə bir qadın;
Od yağdıran dilimdə: azadlıq, sənin adın!

*Yanvar 1948*

## PARTİZAN ƏLİ

Unutmaram, ömrüm boyu komsomolçu Əlinin
Düşmənlərlə vuruşunu Qarabağ meşəsində.
Qəhrəmanı incitsə də yarası sol əlinin,
Qalibiyyət gurlayırdı yenə onun səsində.
Əli coşub bağırırdı: "Axsa qızıl qanımız,
Düşmənlərlə dolsa belə bir gün dörd bir yanımız,
Qəlbimizi bayraq edib haqq yolundan dönmərik,
Göy üzündə günəş sönsə biz yanarıq, sönmərik!
Yaxşı baxın alt-üst olmuş bizim kəndə, a dostlar,
Bu dəhşətə baxmaq olmaz durub gendə, a dostlar.
Bacalardan tüstü qalxmır, laylasızdır beşiklər,
Doğma kənddə anasızdır, balasızdır beşiklər.
Xəndəklərdə kəsik başlar, kəsik əllər, ayaqlar,
Səngərlərdə boş patronlar, bir də ki, boş daraqlar.
Qalmamışdır partizanın evində daş üstə daş:
Öldürülmüş min əzabla arvadı, oğlu, qızı.
Yaxşı baxın o təpənin döşündə yanan kəndə,
Fəryadları bomboş, dilsiz göyə dayanan kəndə.
Yaxşı baxın o evlərin qızıl alovlarına, -
Dalğalanır əsən yeldən pərişan saçlar kimi.
Yaxşı baxın obamızın uçuq divarlarına,
Qəmgin durur quş qonmayan yetim ağaclar kimi.
Yox, bu dərdə, bu zillətə dözmək olmaz, dostlarım,
Belə getsə yurdumuzdan nişan qalmaz, dostlarım.
Düşmənlərə sinə gərən bizik əli yaraqlı,
Bəli, bizik vuruşanlar, birəlli, birayaqlı.
Mərd ellərin arasında qəhrəmandır adımız,
Düşmənlərə zərbə vuran partizandır adımız.
Biz ölsək də qoy anamız yaş töküb ağlamasın,
Qapqara bir örpək örtüb bizə yas saxlamasın.
Biz ölsək də, dostlar, nə qəm, bizdən sonra gələnlər
Qaldırarlar adımızı göylərə bayraq kimi.

Ölməmişik, hələ sağıq, düşmənlərdir ölənlər,
Düşmənlərdir önümüzdə titrəyən yarpaq kimi!
Aha... Dostlar, düşmən yenə atəş açır, irəli!
Atəş, hücum! Atəş, hücum! Onlar qaçır...
İrəli!"
Bu sözləri eşidincə yel tək qanadlanırdıq,
Ölümləri unudaraq dağlardan atlanırdıq.
Hər atəşdə, hər hücumda düşmənlərə hər səfər
"Hədiyyələr" göndərirdik isti-isti güllələr!
Müharibə günlərində müdhişdir, qorxuludur
Vətən eşqi bizim üçün hər bir şeydən uludur,
Ondan alır ilhamını hər partizan ürəyi.
Biz ölməyə, öldürməyə hər dəqiqə hazırdıq,
Daş-kəsəklər arxasından dayanmadan yazırdıq,
Güllələrlə, düşmənlərin bədəninə yaralar.

* * *

Döyüş bitdi... Zəfər güldü üzümüzə günəş tək,
Ağ günlərin sevgisilə döyünürdü hər ürək.
Ailədən, məhəbbətdən danışırdıq, gülürdük,
Bəzimizsə yaramızın al qanını silirdik.
Əli bəzən söz qatırdı şirin söz arasına,
Zərrə fikir verməyərək qolunun yarasına.
Şirin-şirin, həzin-həzin gözəl tütək çalırdı,
Ağacların yarpaqları Əliyə əl çalırdı.
Qarabağlı, qəşəng səsli partizan yoldaşımız,
Yanıq-yanıq oxuyurdu bizə kəsmə şikəstə.
Könlümüzün tellərilə məşğul ikən başımız
Yağdı birdən üstümüzə güllələr dəstə-dəstə.
Biz də haman verdik sözü pulemyota, tüfəngə,
Ağız açıb göylər belə heyran qaldı bu cəngə!
Artıq bu sıx meşədə də dərin sükut hakimdi,
Dəstəmizin üz-gözündən zəfər gülürdü indi.
Bəli, bu son vuruşmada düşmənlər basılmışdı,
Taleləri ölən sinfin boynundan asılmışdı.

Meşəni halqaya alıb yollarını bağladıq,
Cəld, sağ qalan yağıların qollarını bağladıq.
Birdən bizi dəhşət aldı, yoxdu qəhrəman Əli,
Bilirdik ki, atışmada yaralanmışdı Əli.
Yüyürüşdük dərələrə, təpələrə təngnəfəs...
Bir ağızdan nərə çəkdik, meşəni tutdu bu səs: -
"Əli, Əli, hardasan huy! Əli. Əli, Əli - huy!"
Qalın meşə əks-səda verib dedi: "Bəli, huy".
Çox axtarıb tapdıq onu, otsuz, quru bir yerdə,
Biz belə bir qəhrəmanlıq görməmişdik bəşərdə...

*1932*

## GÜLBAHAR

- Danış, danış, Gülbahar,
- Olum tanış, Gülbahar,
Dərdlərinə yaxından.
Səni udan bu zindan
Yıxılmazsa kökündən,
Dərd getməz ürəyimdən.
Danış bir-bir, dinləyim,
Kaman kimi inləyim...
Ağlama, yazıq bacım,
Gün doğur artıq, bacım,
- Qardaş, qulaq as, deyim.
Nədir bu dərd, yas, deyim
Sinəm yaradır, yara,
Günüm qaradır, qara...
Nə haqqım, nə səsim var,
Dəmirdən qəfəsim var.
Dərdim uca dağ kimi;
Solğun bir yarpaq kimi
Küləklər əsiriyəm,
Bəxtsizlərdən biriyəm...
Bir zaman çox gözəldim,
Hər gözəldən əzəldim;
Azdı könlümün dərdi,
Qızlar baxıb deyərdi:
- "Qızılgülün yarpağı –
Bu dilbərin yanağı
Qədər gözəl deyildir.
Bu qız bir dəstə güldür!.."
Böyüdükcə anladım
Nədir mənim həyatım.
Gördüm, yaman gündəyəm,
Sanki bir sürgündəyəm.
Dövrəmiz qan ağlayır,
Bulud, duman ağlayır.

Gecə çıraq sönəndə,
Atam evə dönəndə,
Sevinərdik, yatmazdıq.
Qəm-qüssəyə batmazdıq.
Od tutub alışardı,
O, bizə danışardı:
Bugünkü sürgunlərdən.
Gələcək ağ günlərdən.
Gözümüzü yumardıq,
Biz də bir pay umardıq
O gələcək həyatdan,
Bəzəkli kainatdan...

Bir gün tutuldu atam,
Buna dözərmi adam?!
Batdı dəryada gəmim,
Çoxaldı dərdim, qəmim.
Tüstüsüz yandım oda,
Bu aha, bu fəryada
Qulaq asan görmədim;
Mən bir insan görmədim
Ki, etsin bizə kömək.
Yağ tək əridi ürək...
Anam düşdü yatağa,
Döndü solğun yarpağa.
Əridi bir şam kimi,
Qərib bir axşam kimi.
Dərdimizi çəkən çox,
Qapımızı döyən yox.
Yox ümid, yox təsəlli,
Qışın amansız yeli
Qılınc çəkib qudurdu,
Astanamızda durdu.
Ana xörək istəyir,
Qardaş çörək istəyir...
Satdıq evdə hər nə var,
Elə bildik yenə var..

Dad əlindən, ey fələk
Rəvamı ki, bir mələk
Ölsün acından, ölsün?!
Görüm, gözün tökülsün
Buna dözərmi ürək –
Bir parça qara çörək
Göz yaşıyla tapıldı,
Mənliyimiz çapıldı.
Anam gələrək dilə,
Dedi: - "Qız, məni dinlə;
Əbəsdir həkim, dərman,
Həyatıma yox güman...
Məni bu öskürəklər
O dünyaya sürüklər...
Şirin şeydir yaşamaq,
Heç yaşamadım ancaq.
Həyatı vurdum başa,
Mən ölürəm... Sən yaşa!.."
Bu sözdən sonra yazıq
Gözünü yumdu artıq.
Qopardım nalə, fəğan,
"Anamız öldü, aman!"
Deyib, birdən bayıldım,
Bir gün sonra ayıldım...
Qıyıb o gül bədənə,
Sarıdılar kəfənə.
Ortdu ustunü torpaq,
Peşəm oldu ağlamaq.
Adım çağrıldı yetim,
Yamandır ölüm-itim...
Hara gedim, hara mən?
Həsrətəm bahara mən.
Aclıq doydü qapını,
Ürəyimin sapıni
Az qaldı qırsın əcəl,
Mənə yas qursun əcəl.
Qan ağladı gülüşüm,

Bütün tanış-bilişim
Məni tanımaz oldu.
Dostum matəm, yas oldu.
Bəlaya düşdü başım,
Məndən kiçik qardaşım
Qapı-qapı diləndi.
Göz qapaqları endi.
Ömrümə vurdum yamaq.
Ah... bumudur yaşamaq?!
Bir iş yox, işə gedim,
Mən talesiz nə edim?!
Qış getdi, bahar gəldi,
Dünya mənə dar gəldi.
Qonşular yığılddar,
Mənə çarə qıldılar.
Zorla ərə verdilər;
Çox pis yerə verdilər.
Qaynanam söydü məni...
Ərimsə döydü məni.
Sevdiyi tiryək, qumar,
Onda qoymadı tutar
Evə hey sərxoş döndü;
Cibləri bomboş döndü;
Bircə üzüyüm vardı,
Anamdan yadigardı, -
O da getdi qumara...
Mən günü, bəxti qara
Düşdüm çarəsiz dərdə,
Qaldım quru bir yerdə.
Gözlərim kölgələndi,
Elə bil, qan çiləndi
Sevdiyim çiçəklərə.
O dilsiz, kar göylərə
Ucaldı hər gün ahım.
Nəydl mənim günahım?!
Günüm kömürdən qara...

Ah... bu ömürdən qara
Bir ömür görmədim mən.
Yaşla doldu gözlərim,
Mənim bişərəf ərim
Bir gün dedi: - "Get, satıl,
Ümumxanaya atıl,
Ödənsin ehtiyacım,
Sənsən çörək ağacım!"
Lal oldum, dondüm daşa,
Onu düşüncə başa,
Sellər kimi köpürdüm;
Üz-gözünə tüpürdüm.
Dedim: "Hardasan, əcəl?
Tez ol, imdadıma gəl!"
Coşdu, qızdı bu zaman,
Söyüş yağdı ağzından.
Birdən üstümə cumdu –
Bu sonuncu hücumdu.
Heç bilmirəm ki, haçaq
Əlimə keçdi bıçaq,
Alovlandım od kimi,
Şimşəkli bulud kimi
Üzərini qapladım,
Ürəyinə sapladım
O dil bilməz bıçağı,
Ev oldu qan çanağı.
O bələndi al qana,
Mən atıldım zindana...
İndi sən söylə, qardaş,
Ürəyin deyildir daş,
Müqəssir odur, ya mən?!
Razı olma ki, düşmən
Məni burda saxlasın,
Tapdasın, ayaqlasın...
Yardaşım, məni dinlə,
Müqəssir kimdir, söylə?!

Dedim: - Mühitdir, bacı,
Ağlama acı-acı!
Səninkidir gələcək...
Gözəl günlər gələcək,
Sevincindən ağlarsan,
Sellər kimi çağlarsan.
Bir qədər də döz, bacım,
Öz bacımsan, öz bacım...
Gec-tez dəyişər həyat,
Gülər bütün kainat.
Qırılar dəmir qəfəs,
Alarsan azad nəfəs.
Qanad açarsan sən də,
Quş tək uçarsan sən də.
Bəxtinə doğar günəş,
Əlini sıxar günəş.
Gözəl günlər görərsən,
Sən də həyat sürərsən
Azad bir insan kimi,
Şair Süleyman kimi!

*Təbriz, 10 fevral 1942*

# İLDIRIM

İldırımın cəbhəyə üç-dörd aydı gəldiyi,
Onun bu dağda-daşda bircə şeydi bildiyi.
Döndərib insanları skeletə - kölgəyə,
Düşmən ölüm gətirir bu xalqa, bu ölkəyə.
Qəzəbindən basaraq, dişini dişi üstə,
Deyirdi: - Düşmənlərin əsməsəm başı üstə,
Bir cilovsuz yel kimi, bir qorxunc tufan kimi,
Yaxmasam nəfəsimlə yurdunu vulkan kimi,
Anadan əmdiyim süd qoy olsun haram,
Düşmənə nicat yoxdur nə qədər ki, mən varam!..
Mənim dostum dağlarda boy atıb böyümüşdü,
Ölümlə pəncələşib, qurd ürəyi yemişdi.
Günü ovda keçərdi qışda, qarda, boranda,
Evdə bayram olardı o, ovdan qayıdanda.
Anadan doğulanda polad kimi bərk idi,
Üç-dörd ayda cəbhədə bir qat daha bərkidi.
Terekin sahilində çəkərkən bir gün keşik,
Güllələr şinelini etmişdi deşik-deşik.
Sevinmişdi gördükcə sahildə leş yığını,
Səssiz axan suların qandan qızardığını.
Bağlamışdı Terekin sularına ürəyi,
Sanki basdırılmışdı bu dağlarda göbəyi,
Ölümün pəncəsindən sağ çıxmışdı çox dəfə -
Düşmənin gülləlləri dəymməmişdi hədəfə.
Sanki o bir qalaydı, o bir dəmir bədəndi;
Məncə, onu qorayan məhəbbətdi, Vətəndi!
İldırım kəşfiyyatdan qayıdanda hər gecə,
Qoltuğundan bir şəkil çıxarırdı gizlicə.
Dönə-dönə öpərdi onu ay işığında;
Yaranardı alnının körpə qırışığında
Təmiz ürəkdən doğan bir yığın dərin sual;
Onu dağlar ardına çəkirdi dadlı xəyal,
Aldığı məktubları gəzdirərdi cibində,

Bəzən torpaq səngərin oturaraq dibində,
Oxuyardı yüz dəfə oxuduğu məktubu...
Sevən könüllər üçün böyük təsəllidir bu.
Bir səssizlik içində dincələrkən ortalıq,
Birdən yada düşürdü son öpüş, son ayrılıq:
Yarın topuğa qədər uzanan hörükləri,
O ipək hörükləri, o ilan hörükləri,
O can verib, can alan qara, badamı gözlər.
Hər zaman əsir edər sevən adamı gözlər.
Çimnazın gözəlliyi saymaqla gəlməz başa,
Görən valeh olurdu o boya, o göz-qaşa.
Rəng alaraq günəşdən, güllərdən, çiçəklərdən,
Yurdunda sayılırdı birinci göyçəklərdən,
İldırımın ömrünün baharıydı, yazıydı;
Onu gözəlləşdirən dağların havasıydı!..
Heç xatirdən çıxarmı toy günü, toy gecəsi,
Könülləri dindirən saz səsi, kaman səsi
Ürəkdən silinərmi o dadlı xatirələr,
Xəyal göylərindəki qanadlı xatirələr...
Düşündükcə Çimnazı, gülürdü öz-özünə,
Varlıq bir röya kimi görünürdü gözünə.
Hicran şüşə qəlbinə dalbadal daş atırdı,
Yuxuda Çimnazını qucaqlayıb yatırdı...
Ayılıb görürdü ki, hicran yolu bağlayıb,
Çimnazın əvəzinə tüfəngi qucaqlayıb...

## GECƏ

Gecədir, döyüşçülər səngərlərdə dincəlir,
Arabir uzaqlardan ağır top səsi gəlir.
Bəzən fişəng atılır, dönür gecə gündüzə,
Bir kəs görünməz, baxsan, göz işlədikcə düzə,
Ağ buluddan göylərin alnı qırış-qırışdır,
Hava soyuqdur, hələ nə payızdır, nə qışdır.
Terek qəzəblə axır, yenə də qan-qan deyir,
Boğmuşam sularında minlərlə düşmən, deyir.
Görürsən ki, ulduzlar hərdən göz qırpır aya.

Göylərdə hər nə varsa, bir-bir əks edir suya.
Hələ seyr edin yaşıl söyüd ağaclarını,
Sanki yuyub darayıb Terekdə saçlarını.
Bu dünya görmüş yollar, bu düm ağ saçlı yollar,
Çox şeyləri xatırladır, bu qoca yaşlı yollar.
Əllərində tüfənglər, əllərində yabalar,
Ana Vətən uğrunda bizim ulu babalar
Vaxtilə düşmənləri bu yollarla qovmuşlar,
Burunlarını burda qanatmışlar, ovmuşlar.
Fikirə gedir Qafqazın ağ papaqlı dağları,
Həsrətlə xatırlayır dəbdəbəli çağları.
Əsgərlərsə səngərdə dirsəklənib otlara,
Baxırlar hərdən aya, hərdən ağ buludlara.
Hamı bir bülbül kimi cəh-cəh vurub dil açır,
Hamının ürəyində min bir əməl gül açır.
Biri ağrı hiss edir köz tutan yarasında,
Biri papiros çəkir ovucu arasinda,
Biri öz süngüsilə bir ad yazır torpağa,
Oxuyur dodaqaltı: "Zülfün gəlməz darağa..."
Biri də öz bəxtini ulduzlardan asıbdır,
Deyir, görəsan, fələk alnıma nə yazıbdır...
Mənim qəhrəmanımsa görünür xeyli dalğın,
Beynində həlli müşkül sual vardır bir yığın.
Uşaqlıqdan ekizdir İldırımla igidlik...
Az keçir, birdən-birə pozulur bu sakitlik.
O yanda təyyarələr yerə bombalar tökür,
Bombalar bir qırpımda yerin bağrını sökür.
Yanır göz qabağında, od içində bir şəhər,
Alov sütunlar qalxır yerdən ta göyə qədər.
Yanğının tüstüləri qarışır buludlara,
Səpilir kədər tozu çiçəklərə, otlara.
Göydən yerə quşbaşı, qapqara bir qar yağır,
Gecənin sükutunu pozduqca çığır-bağır.
Bürüyür küçələri alovlardan ləpələr,
Yanır qoca qarılar, yanır dilsiz körpələr.
Ağ birçəkli atlalar al qanlara boyanır,
Yanır sevgi, məhəbbət, yanır gözəllik, yanır.

Əcəl didərgin salır yuvasından bülbülü,
Qızıl gülün bağlarda göyə sovrulur külü...
Qaqqıldaşaraq köçür başqa yerə durnalar,
Necə dözsün bu dərdə, bu kədərə durnalar!
Göründükcə bu dəhşət İldırımın gözünə,
Od tutub yanırdı o, deyirdi öz-özünə: -
İnsanın dərya qədər kədəri olsa belə,
Gərək qəm dəryasından üzüb çıxsın sahilə.
Üz-üzə gəlsən əgər ölümlə - qorxma, bərk dur!
Yaxşı yadında saxla, hərbin qanunu budur.
Sən tez tərpən, sən ölç-biç düşməninə kəfəni,
Sən onu öldürməsən, o öldürəcək səni!
Meşədə, dağda, daşda güd, qanlı qatili güd,
Ürəyinin başından vur, eyləmə tərəddüd!
Güllən qurtarsa, işdir, karıxma-dişlərin var,
Qoyma salamat çıxsın əlindən qart canavar...
Nə qədər ki, ayağın yerdən üzülməmişdır,
Tüfəngin qundağılə kəlləsini əzişdir.
Sözüm yadigar olsun silahlanmış hər gəncə,
Ölmək daha yaxşıdır, qul olmaqdansa, məncə!
Çalış, səndən danışsın zamanın dodaqları,
Bəzənsin şərəfilə tarixin yarpaqları.
Adına bağ salınsın, adına gül əkilsin,
Adın əsrlər boyu məclislərdə çəkilsin!

## HÜCUM

İldırım qabaqdaydı bölmə hücum edəndə,
Bir neçə yoldaşilə birinci girdi kəndə.
Gördüyü vəhşətlərdən halqalandı gözləri,
Bir yanda hıçqırıqlar, bir yanda qan izləri.
Baxdıqca, ürəklərə dərd gəlir ləpə-ləpə,
Məsum dodaqlarilə on aylıq dilsiz körpə
Başsız bir gənc qadının döşlərini əmirdi...
İldırımın ürəyi nə daşdı, nə dəmirdi, -
Birdən saraldı rəngi, doldu gözləri yaşla,
Cumdu körpəyə doğru həyəcanla, təlaşla.

Baxmadı naləsinə, baxmadı fəryadına,
Anasından ayırıb verdi başqa qadına.
Hər tərəfə baxırsan, qan çıxıb dizə qədər...
İnsanlıq simasını itirmiş bu vəhşilər.
Üzməkdən zövq alırlar dəryasında qanların,
Budur "mədəniyyəti", "mədəni" düşmanların!
Budur bəşəriyyətə vəd etdikləri "cənnət"...
Əvəzsiz qalmayacaq bu cinayət, bu vəhşət!
Bir tərəfdə əl-ayaq, bir yanda başsız bədən,
Kəndin sağ qalanları, çıxıb zirzəmilərdən,
Öpürlər əsgərlərin əlindən-ayağından...
- Qovun bu cəlladları Vətənin torpağından! –
Deyərək əsgərlərə baxırlar heyran-heyran,
Qeyd edir dəftərinə bunu ağ saçlı zaman...
Yeridikcə ildırım baxırdı sola-sağa,
Kəndin küçələrində dönmüş meyidlər dağa.
Evlər yanıb olurdu bir ovuc kül yığını,
Söndürməz göz yaşları, söndürməz bu yanğını.
Bu yanğnı söndürülər yalnız qəzəblə, kinlə.
İldırım öz-özünə deyirdi: "Yaxşı dinlə,
Körpənin naləsini, ananın fəryadını, -
Süngünlə yer üzündən sil faşizmin adını!"
Budur, döşü kəsilmiş cansız yatan bir gözəl
Ümidlə yaşayırmış bundan beş-on gün əzəl.
Gənc yaşında, doymadan sevgidən, məhəbbətdən,
Bir anda qara əllər boyuna biçmiş kəfən.
İldırım bu gözələ qəlbi yaralı baxdı,
Kinindən, qəzəbindən gözləri şimşək çaxdı,
Dedi: - Qırmasam əgər cəlladları kökündən,
Onları qovmasam bu dağların ətəyindən,
O qansızlar mənim də eşqimi oğurlayarlar,
Mənim də Çimnazımı bu sayaq doğrayarlar! –
Budur, dar ağacında gömgöy göyərmiş bir qız,
Yellənir sinəsində onun bir varaq kağız.
Bu dilbər azadlıqçün boğazdan asılmışdır,
Döşündəki kağıza bu sözlər yazılmışdır:
"Hər kim partizanların göstərməsə yerini,

Boğazında görəcək ölümün kəndirini".
Budur, ikicə qüca, qar tək ağarmış başı,
Birinin on yaşı var, birinin doxsan yaşı.
Budur, bir qadın kəsdi yolunu İldırımın,
Tez boynuna doladı qolunu İldırımın.
Silah tutan əlindən, bir də alnından öpdü,
Solğun dodaqlarından gül səpdi, çiçək səpdi.
"Dünyaya gətirdiniz yenidən bu xalqı siz,
Bizi də doğrardılar bir az gec gəlsəydiniz!"
Dərin izləri vardı gözlərində kədərin,
Yanmışdı yurd-yuvası bu dərdli dərbədərin.
Dalğın baxışlarında bir dünya qəzəb vardı,
İldırımı bağrına basmaqda səbəb vardı.
Deyirdi: "Qonşu kəndə aparın, mən də gedim,
Balamı cəlladların önündən xilas edim..."
Ana qoşuldu qəzəb, intiqam dalğasına,
Milyon könüldən doğan bu ilham dalğasina...
İldırımgil cumurdu, alıb yüz qan bir qana,
Yanlarında saçları pərişan dərdli ana.
Cumduqca nəfəsindən külə dönürdü sağ-sol,
Cumurdu, ağ günlərə açıb süngüsüylə yol...

## Qiş

Gecədir, bu dağlarda nə yazdır, nə də payız,
Təbiət sərib yerə bircə varaq ağ kağız...
Üstündə yazı yazır əsgərlərin ayağı,
Gecə-gündüz İlhamı coşqun - şairsayağı.
Əlində buzdan bıçaq, dayanıb yollarda qış,
Qocalar söyləyir ki, heç belə qış olmamış.
Dağların qoynundakı bulaq donub, çay donub,
Göylərdə zənn edirsən ulduz donub, ay donub.
Əl-ayağa dolaşır qışın saçı-saqqalı,
Hər tərəf müəmmalı, hər tərəf macəralı.
Nə səs var, nə səmir var: sükut, dərin bir sükut...
Bezən ayın üzünü tutur qara bir bulud.
Bulud çəkilən kimi gülümsəyir göydə ay,

Ayın gözəlliyini özündə əks edir çay...
Hər yanda qar təpəsi, hər yanda qar yığını,
Bir sözlə, demək olmur qarın bu ağlığını.
Baxdıqca göz qamaşır, yerlər ağ, göylər ağdır,
Təbiət yatmışsa da, döyüşçülər oyaqdır.
İldırım qorxmayırdi nə soyuqdan, nə qardan,
Bir hədiyyə almışdı bu son günlördə yardan:
Bir toxunma yun köynək, bir cüt qalın yun əlcək,
İçi yun, meşin papaq, yun corab, üstü bəzək,
Boz şinel isə soyuq keçməyən bir qalaydı,
Bu geyimlə dağlarda gəzmək ona qolaydı!

## KƏŞFİYYATDA

Təbiətin hüsnünə mat-mat baxan İldırım,
Kinlə dolu gözləri şimşək çaxan İldırım.
Mühüm tapşırıq aldı bu gecə komissardan,
Sevincindən qaynadı damarlarındakı qan.
İki dostuyla birgə durub düşdülər yola,
Yoldaşlar bir ağızdan dedi: - Uğurlar ola –
Gah yoldan keçirdilər, gah çöldən keçirdilər,
Gah çaydan keçirdilər, gah göldən keçirdilər...
Bellərində qumbara, əllərində avtomat,
Üzə-üzə keçdilər Tereki sağ-salamat...
Bir çox yerdə sürünüb qarlar üstə səssizcə,
Bir kəndə yaxınlaşdı üç yoldaş yarı gecə.
Verilən tapşırığı düşünərək bir qədər,
Kəndin kənarındakı bir qapını döydülər...
Qapını açan qadın heyrətdən donub qaldı,
Qaldırıb qollarını qartal tək qanad çaldı.
Qollarını boynuna doladı İldırımın,
Gözü doldu, ürəyi qanadı İldırımın.
Gözləri kölgəliydi, saçları pərişandı,
Görünür zavallının ürəyi-bağrı qandı.
Görünür xeyli vardır saçlar daraq görməyib,
Onu bu dərdli ana daramayıb, hörməyib...

Soyuqdan ağ dişləri dəyirdi bir-birinə,
Dərya dalğalanırdı qəlbimdə qan yerinə.
Başında cındır yaylıq, əynində cırıq köynək,
Durmuşdu İldırımın qarşısında əsərək.
Dərd qatdı dərdli ana dərdinə İldırımın,
Sanki qəlbinə batdı min iynə İldırımın...
Bu ev, ev deyildi, yox, matəmxanaydı artıq,
Bir xəstə uzanmışdı yerdə, üst-başı açıq.
Çox ağır nəfəs alıb inləyirdi dərindən,
Matdım-matdım baxırdı, tərpənmirdi yerindən.
Tökərək gözlərindən gildir-gildir yağışlar,
"Məni qurtar!" - deyirdi o yalvaran baxışlar,
Böyük faciələrin şahidiydi gözləri,
Gömgöydü üz-gözündə təpiklərin izləri.
Cəlladların bu kəndə ayaq basdığı gündən,
Qara yellər əsmişdi bu qönçənin üstündən.
Dünənki bu gözəl qız indi bir skeletdi,
İldırım baxıb qıza, dərin bir fikrə getdi.
Yerlər, göylər bilir ki, bir il əzəl Larisa,
Gözəllər arasında təkmiş gözəl Larisa.
İldırım əyilərək qarşısında bu qızın,
Vətənin göylərində səssiz sönən ulduzun
Öpdü alnından doğma, mehriban ata kimi,
Qırıldı içindəki ürək sazının simi.
Ana, gözləri yaşlı, dilə gəlib danışdı,
Elə bil, İldırımla otuz ildi tanışdı.
Dedi: - Qardaş, mən deyim dərdimi, sən qulaq as:
Yadlarla birgə gəldi bu ellərə kədər, yas.
Nəğmələr yüksələrdi bu evdən bir zamanlar,
Hər yanı bürümüşdü indi ahlar, fəğanlar.
Belə deyildi bizim ellər bundan irəli,
Talandı varlığımız onlar kəndə girəli.
Bir körpəm, bir qızımla kənddən çıxa bilmədik,
O gündən bu günədək bir kərə də gülmədik.
Larisanın atası meşədə partizandır;
Bir xəbər bilməyirik ondan xeyli zamandır.
Hər gün gəlib sordular: "De, görüm, ərin hanı?"

Dinmədin, dar etdilər başıma gen dünyanı.
Gözümün qabağında doğradılat körpəmi,
Doldu dərdli könlümə dünyanın dərdi, qəmi.
Qızım Larisa buna dözməyib vərəm oldu,
Tökdüyü göz yaşından quru torpaq nəm oldu.
Kim bilir, ürayində nə arzular bəsləyir...
Hətta yuxusunda da qardaşını səsləyir.
Gör bir nə günə saldı ananı bu göz dağı,
Ömrümün ağacının qırldı şah budağı...
Bu ölüm diyarında nə çörək var, nə dərman,
Ancaq hələ ölməyib qəlbimizdəki inam,
Çox da bu ana, bu qız dəmir bir qəfəsdədir,
Gələcəksiniz deyə, qulağımız səsdədir.
Oğul, dözmək ölümdür ayrılığa, hicrana.
Gəldiyiniz yollara qurban olsun bu ana!
Budur, bahardan müjdə gətirən qaranquş tək
Uçdunuz bu yerlərə... sevindi dərdli ürək!..
Burda tamam eylədi ana macərasını.
İldırım xatırlayıb öz doğma anasını,
Böyük hörmətlə öpdü bu qadının əlindən,
Qəlbə təsəlli verən sözlər yağdı dilindən,
Bir neçə sözlə dedi nə üçün gəldiyini...
- Danış, bu ətraflarda öyrənib bildiyini.
Ana dedi: - Bu kənddə oturmamışam bekar,
Gəzmişəm hər nə qədər canavar yuvası var.
Alın bu kağızları, bunlar sizə gərəkdir,
Məni yaşadan yalnız bir Vətən, bir ürəkdir!..
Birdən qapı döyüldii, hamı kəsildi bir daş,
Sanki anaya soyuq tər gəldi yavaş-yavaş.
Qorxudan yarpaq kimi dili-dodağı əsdi,
- Aman!.. - dedi... İldırım onun sözünü kəsdi.
Səssizcə, dostlarilə gizləndilər çardaqda,
Silahı hazır tutub oldular göz-qulaqda.
Evə bir zabit girdi, yanında iki saldat,
Zabitdə parabellum, soldatlarda avtomat.
Baxdılar qanlı-qanli bir anaya, bir qıza.
İnsan demək günahdır bu üç acgöz qansıza.

Arvad geyimli zabit bərəldərək gözünü,
Təkrar etdi hey təkrar elədiyi sözünü:
- De ərinin yerıni, deməsən öldürərik,
Biz sizə faşistlərin gücünü bildirərik!..
Ərin hardadır? Söylə!
- Bilmırəm...
- Axmaq qarı,
Ölmək istəmirsənsə, düzünü söylə, barı.
Partizanlar hardadır?
- Bilmirəm!
- Yox, bilirsən!
Bizi axmaq zənn edib üstümüzə gülürsən?!
Ay qız, dillən, sən söylə, dinməsən öləcəksən!
Cavab versən, unutma, sevinib güləcəksən...
Dinmirsən? Al payını: bir, iki, üç, dörd, beş... on...
Zavallı Larisanın ömrünə verildi son...
Ana öpüş yağdırdı öz qızının nəşinə.
Getmə! - desən, durarmı axşamın günəşinə,
İldırım inanmadı gözüylə gördüyünə...
Düşmən solğun dılbəri saldı gör bir nə günə!
Üçü də Terek kimi birdən köpürdü, daşdı,
Qəzəbli baxışları od saçdı, alov saçdı.
Atıldı üç qəhrəman evin ortalığına,
Xəncərlər iş görməmiş bu yerdə girməz qına.
Daxmanın divarları bütün bələndi qana...
Bu hala şaşqın-şaşqın durub baxırdı ana...

## İNTİZAR

Gecədir... ay pul səpir Terekin sularına,
Baxdıqca göz qamaşır şiş dağların qarına.
Yel əsir, qalın meşə səslənir kaman kimi,
Hər əsgər səngərində durmuş qəhrəman kimi.
Ay çimib qurulanır ağ buludlar içində,
O nə bilir ki, yanır bəşər odlar içində.
Parıldadıqca ayın nurilə qarlar, buzlar,
İnsanın gözlərinə görünür şux ulduzlar.
Göy üzünə mıxlanmış bir qızıl mismar kimi,

Bəzən də parçalanmış qıpqırmızı nar kimi.
Başqa bir mənzərə var bu zaman göydə. yerdə.
Saz çalıb aşıq Əsgər oxuyur gözəlləmə,
Deyir: - Qoymaram yadlar toxunsun gözəlimə...
Xəyal qovur məhəbbət səhrasından sərabı,
Oxunur varaq-varaq azad eşqin kitabı.
Meşələr səsləndikcə, axdıqca şır-şır sular,
Könüllərdə gül açır xoş duyğular, arzular,
Söhbət düşür sahərki qanlı vuruşmalardan,
Necə döyüşdüyünü nəql edir hər qəhrəman.
Evindən məktub alan oxuyur məktubunu,
Yalnız əsgər olanlar hiss edər, duyar bunu.
Daha bir məktub var ki, gözləyir İldırımı,
O dilsiz kağız sanki səsləyir İldırımı.
O çoxdan gəlməliydi, hamı qalıb nigaran.
Bir həyəcan doğurur bu ayrılıq, bu hicran.
Dostları qəm bürüyür, - Ona nə oldu? - deyə,
Biri deyir: - Görəsən, niyə gecikdi, niyə?
Biri deyir: - Bəlkə də, başında bir xata var!..
Dostluğun qiymətini burda bilir insanlar.
Az keçir, bir partlayış səs salır bu dağlara,
Əsgərlər bir qırpımda uzanır torpaqlara.
Terekin o tayında başlanır bərk athaat,
Səsləndikcə qumbara, səsləndikcə avtomat,
Hamı deyir: - Görəsən, nə olmuşdur o tayda?
Buludlar arasından bunu seyr edir ay da...
Budur, qonşu təpəyə dırmanır dörd qaraltı,
Səngərlərin yanında dayanır dörd qaraltı.
Ən qabaqda gələni yerişindən bildilər,
Onu dövrəyə alıb sevindilər, güldülər.
Mərdlər - İldırim! - deyə, sarıldılar boynuna,
Yağış kimi suallar yağdırdı dostlar ona.
İldırım bir-bir dedi başlarına gələni,
Nə artıq, nə də əskik... Oxucum, sən biləni...
Gözləri şimşək çaxan komandir gəldi dilə,
İldırımdan soruşdu ürəkdən gülə-gülə:
- Terekin o tayında kimlərdi atışanlar?
- Ürəkləri intiqam oduyla alışanlar!

Bizdik orda körpünü alt-üst edib dağıdan,
Bizdik intiqam alan - qan-qan! - deyə yağıdan.
Sayca bizdən çoxdular, nərə çəkdim, bağırdım,
Tək başıma qırxını avtomatımla qırdım,
Komandir İldırımın öpüb dodaqlarından,
Dedi: - Ey dağlar oğlu, qəhrəmansan, qəhrəman!
Al, bu da sevgilindən gələn məktub!..
- Ver, görüm!
Ah, görəsən nə yazır göz bəbəyim, dilbərim! –
Səsləndi birdən-birə könül sazının simi,
Uzun müddət aclığa dözmüş adamlar kimi,
Yeyirdi gözlərilə hər sözü, hər kəlməni...
- Dotlar, həyat yoldaşım təbrik eləyir məni:
Yazır ki, oğlum olub!..
- Var ol, İldırım, var ol!
Körpənlə bu dünyada hər zaman bəxtiyar ol.
- Arvad soruşur - ona nə ad qoyum, söylə, mən!
Əsgərlər bir ağızdan dedilər ki, yaz-Vətən! -
Yayıldı Vətən səsi dağlara dalğa-dalğa,
Yenə dərin bir sükut sökərkən ortalığa.
Bahar tək baxışları gül səpdi, çiçək səpdi,
Girib torpaq evciyə məktubu öpdü, öpdü.
Öz ilkinin iyini, ətrini duydu onda,
Qəlbində xoş duyğular oyandı bircə anda.
Arzular qanadlandı könlümdə bir quş kimi,
Cəh-cəh vurdu güllərin üstünə qonmuş kimi.
Əlini yastıq edib uzandı yatağında,
Canlandı can yoldaşı gözünün qabağında.
Üzünü görmədiyi oğlunu qucaqladı,
Öpdü... Ona can verdi bu ilk öpüşün dadı.
Gözü yumuldu... fəqət dodaqları gülürdü,
Bu gülüşdən gecənin sinəsi sökülürdü.
Səhər günəş nur səpdi qazmaya ətək-ətək,
Qalxdı öz yatağından qalibiyyət, gələcək!

*Döyüşən ordu, Bahayurd, Zibətyurd, 1942*

## ŞAİRİN ÖLÜMÜ

*İran irticası tərsfindən zülmlə*
*öldürülmüş Əli Fitrələ*

Saçları dağınıq, gözləri dolğun,
Gəzib dolaşmaqdan dizləri yorğun.
Sanırsan ki, indi yıxılacaqdır,
Əynində paltarı yamaq-yamaqdır.
Səpsən yerə düşməz üstünə darı,
Belə qarşılayir qışı, baharı.
Gündüzləri dolaşır Tehranı addım-addım,
Ölçür ayaqlarilə hər yanı addım-addım.
Həkim kimi baş çəkir yaralı ürəklərə
Dostundan, qardaşından aralı ürəklərə.
Gecələr təkbaşına oturub şeir yazır,
Dodaqaltı yanıqlı nəğmələr deyir, yazır.
Nə çırağın, nə şamın bilməyir sorağını,
Qəlbi işıqlandırır qaranlıq otağını.
Nə gələn var, nə gedən şairin mənzilinə,
Hələlik polislərin düşməmişdir əlinə.
Yaxın əməl dostları atılmışdır zindana.
Xəbər tuta bilməyir baş vurursa hər yana.
Şairə toxunmurlar dəli adamdır deyə,
Öləcək bu gün, sabah işi tamamdır deyə.
Osa dinclik, yorğunluq bilmədən yazır, yazır,
Polad sətirlərilə yadlara məzar qazır.
Çörəksiz qalırsa da, ürəksiz qalmayır o,
Sarayın təhdidini vecinə almayır o.
Hələlik deyərək gecəyə şair,
Günəşlə bir çıxır küçəyə şair.
Tehran adamları tanıyır onu,
Döyüşlərdə keçir ömrünün sonu.
Nə ərbab tanıyır, nə də ki, ağa,
Arıq sinəsini verib qabağa,

Ucadan-şairə yol verin, - deyir,
Bu köhnə aləmi devirin, - deyir.
Ərbablar bağırır: çəkil, dilənçi,
El bilir bu adam deyil dilənçi.
Bu adam şairdir, yazdığı şeir
Sülh deyir, haqq deyir, azadlıq deyir.
O gedir qırışıq alnında vüqar,
Dalınca bir qoşun xırda uşaqlar.
O gedir, bilir ki, haraya gedir,
Aclar ordusuna haraya gedir.
O gedir Sərabdan, Əhərdən gələn,
Təbrizdən ya başqa şəhərdən gələn
Aclar ordusuna şeir deməyə,
Gedir təsəlliyə, gedir köməyə.
Ərbablar dükandan boylanıb baxır,
Şairin alnından tər axır, axır.
Odur, bir jandarma çatır şairə,
Yerdən daş götürüb atır şairə.
İyirminci əsrin bu eybəcəri
Bağırır ucadan geri dön, geri.
Şairin qəlbinə vurulur yara,
Nə şerə hörmət var, nə sənətkara.
Hər cəllad millətin boynuna mindi.
Firdovsi yurdunda şairə indi
Saray adamları dəli deyirlər.
"Ağ ev"in əmrinə bəli deyirlər.
Bürüyür hər yanı dayan, dur səsi,
Şairə tanışdır qoyma, vur səsi.
Sanır ki, dalınca köpəklər hürür,
Dönüb arxasına baxaraq görür;
Onu təqib edən jandarmalardır.
Hamısının əlində yarağı vardır.
Dönür bir küçəyə dincəlsin deyə,
Yorğun dizlərinə güc gəlsin deyə...
Şəhər kənarına çatır nəhayət.
Birdən varlığını bürüyür dəhşət.
Görür ki, sərbazlar, bir də polislər

Olub başdan-başa hazır, səfərbər.
Aclar küçələrə dolmasın deyə
Şəhəri alıblar mühasirəyə.
Sanmayın başını itirir şair,
Özünü dostlara yetirir şair.
Deyir ürəyinin sözünü xalqa,
Dikir ümid dolu gözünü xalqa.
Çevrilir süngüyə sözü, kəlməsi,
Sarsıdır düşməni şairin səsi.
Baxıb dostlarına yaşarır gözü.
Ürək yarasının qabarır közü.
Oğlundan aralı analar görür,
Ürəyi yaralı analar görür.
Saçları pərişan cavan bir ana,
Ölmüş körpəsini basıb bağrına,
Dəli tək gah gülür, gah da ağlayır,
Yanından keçəni tutub saxlayır.
Bir yanda can verir qəşəng bir gəlin,
Deyir dayanmayın, sinəmi dəlin.
Çıxarın qəlbimdən intiqamımı,
Çevirib bayrağa alın qanımı.
Şair var səsilə deyir: - Qardaşlar,
Bizdən zağ-zağ əsir o yekabaşlar.
Dəmir addımlarla arxamca gəlin,
Qarşı duranların bağrını dəlin.
İntiqam eşqilə döyünür ürək,
Gəlin dalğa-dalğa, zülmə son verək.
Karvan sellər kimi axır şəhərə,
Hamı kin, qəzəblə baxır şəhərə.
Tacirlər dükanı bağlayıb qaçır,
Əcnəbi xanımlar ağlayıb qaçır.
Yeni kömək gəlir jandarmalara,
Böyük çaxnaşma var baxıram hara.
Zabitlər əmr edir, açılır atəş,
Ətrafa yağış tək saçılır atəş.
Tehran küçələri boyanır qana,
Can verir kimsəsiz qız, gəlin, ana.

Nazirlər yad olub öz millətinə
Cumur Amerika səfarətinə.
Əlsiz-ayaqsizlar vurulur, ölür,
Azadlıq yolunda qırılır, ölür.
Tanklar meyidlərin üstündən keçir,
Adsız igidlərin üstündən keçir.
Az sonra hər yanı bürüyür sükut,
Başlanır həbslər, sonsuz tuthatut.
Ummadan kimsədən mərhəmət, kömək,
Sərbazlar önündə rəngi sapsarı.
Zərbələr altında şeir deyərək,
Gedir qoca şair zindana sarı.
Aparırlar... Adamlar baxır bu mərd dustağa,
Aparırlar döyməyə, bağrına dağ basmağa.
Aparırlar ömrünü əzabla çürütməyə,
Min dəfə öldürməyə, min dəfə diriltməyə.
Aparırlar, kimsədən mərhəmət ummayır o,
Vətən satqınlarından ədaləl ummayır o.
Aparırlar... o təkdir, onlarsa min nəfərdir,
Şair çox gözəl bilir bu sonuncu səfərdir.
Aparırlar, qəlbini qəzəb, intiqam yeyir.
Süngülər arasında qorxmayır, diksinməyir.
Aparırlar şairi sərbazlar qolu bağlı,
Lakin onun qəlblərə deyildir yolu bağlı.
Aparsınlar, poladdan möhkəmdir etiqadı,
Alnında gün tək yanır xalqının etimadı.
Aparsınlar, sorğusuz divara dayasınlar,
Əllərini şairin qanilə boyasınlar.
Sonra nişan alsınlar, qəhrəmanlarıq, deyə,
"Ağ ev"dən göndərilsin daha böyük hədiyyə.
Aparsınlar, bununla döyüş yetməyir sona,
Ölsə də, şeirləri həyat verəcək ona!

## YAXŞI YOLDAŞ

Yenə qucmuş məni ağ əlli bu Mil səhrası,
Nə gözəldir havası!..
Xeyli parlaq və qəşəngdir gündüz,
Hələ səhra: dündüz...
Qocaman göydə buludlar rəqsan,
Tablodur hər yana dönsən, baxsan...
Görürəm, gündüz uzaqdan, - geymiş
Qarabağ dağları qardan paltar;
İndi bildim ki, gözəllik nə imiş...
Bu gözəl lövhələri kim ünudar?
Gün yığarkən dağınıq saçlarını,
Dəyişir rəngi səmanın - qızarır,
Saralır, sonra görürsən bozarır...
Gah görürsən ki, çatır qaşlarını...
Baxıram dərdli Arazdan o taya,
Nə deyım, ah, nə deyım mən bu çaya!..
Görurəm orda oküz, xış və kotan...
Ayılar bır gun o torpaqda yatan
Burda yazdır, əbədı bir yazdır,
Çox lətif, çox da qəşəngsən, yaşa yaz!
Gəl bu yerlərdə ömür sür, yaşa, yaz,
Ey həyatdan geri qalmış şair,
Sən də gəl, gəl belə yerlərdə yaşa!
Gəl çıxaq biz yenidən bir yarışa!
Gəl görək kim aparır, kim uduzur..
Deməsinlər bizə, peymanı pozur,
Gecə səhrada nə var, mən görürəm,
İti xəncər kimi, bezən, görürəm
Gecənin qəlbinə işlər işığı
Ta uzaqdan şığıyan bir maşının.
Ey maşın, durma, qaranlıqda şığı,
Bir zəfərdir sonu hər bir savaşın...

Burda həm çox qoca, həm çox yeni arxlar işlər;
Durmadan güclü traktordakı çarxlar işlər...
Sevməyir Mil düzü öz keçmişini;
Ona öz keçmişi baxdıqca ağardır dişini.
"Mil minarən" hanı, göstər, səhra?
Görmək istər, səhra,
Onu bir dəfə də olsun gözümüz,
Ona vardır sözümüz.
Gül, gül, ey Mil düzü, gül.
Ey mənim taleyimin gündüzü, gül!
Qalmamışdır daha qəlbində yara! -
Daha heç kimsə sənə söyləyə bilməz avara.
Gecə ulduzlara öz nəğməni tutdur, səhra,
Bizə sən köhnə, ağır dərdi unutdur, səhra!
Çəkmə gəl bizləri artıq geriyə,
Səni bölmüş ikiyə
Bir zamanlar qara qanlarla köpüklənmiş Araz,
Gəl-gəl, ey bağrı gümüş pullu Araz, gəl qulaq as:
Yaxşı bax, gör nə olur bir o cənubunda sənin,
Yanır odlarda yazıq həmvətənin.
Orda aclar, yalavaclar yığılırlar bazara;
Dinləyirlər qoca dərviş babanı.
Çoxunun qəlbi tutulmuş azara,
Baba dərviş yığaraq pul dolanır meydanı:
- Sol qolundan asılan söylə nədir?
- Kəşküldür;
Mənə onsuz yaşamaq müşküldür...
Dinlə bir, dinlə Araz, dərvişin əfsanəsini,
Çünki az sonra onun susduracaqdır səsini
Şaha qalxıb köpürən dalğaların,
Dərdi, hicranı həyatdan süpürən dalğaların...
Orda qurşun tökülür ağzına üsyançıların,
Hələ də ağrısı var qamçıların
Qanlı çiynində həqiqət deyənin.
Qan soran xanlara nifrət, - deyənin...
                    Burda azadlıqdır,
                    Bəzəmək artıqdır,

Gör nələr var orda,
Fitnələr var orda...
İndi xəlvətdə qurulmuş, görürəm, dar ağacı.
Oxucum, sən qulaq as, -
Qulaq as sən də, Araz!
Qulaq as sən də bir, ey şanlı Muğan səhrası,
Bu xəbər olsa da düşmənlər üçün xeyli acı,
Arazın indi sağalmaz yarası,
Sağalar xalqımızın qoyduğu məlhəmlərlə,
Vuruşur dərdli Araz qəmlərlə...
Arazın qəlbini onlar yaralar,
Bizim əllərsə, sarar!
Orda gözlərdən asılmaqda siyah bir pərdə,
Orda aclıq davadır aclığa, hər bir dərdə...
Orda haqq, orda ədalət nə gəzir,
Orda insanlara rəğbət nə gəzir!
Orda, - qanun! - deyə, min qan doğuran söz çıxarır
Qanlı xanlarla vəzirlər hər gün.
Orda rəncbərləri dustaqda əzirlər hər gün.
Gül, Araz, gül, - gülüşün göz çıxarır.
Gül, gözəllikdə qiyamətsən, Araz!
Sən mənim qəlbimi çaldın, necə afətsən, Araz!
Ax, Kürüm, ax, Arazım,
Bax, Kürüm, bax, Arazım,
Bax sağına, bax soluna.
Düşməni al caynağına,
Boğ, köpürüb daş, Arazım,
Mən sənə yoldaş, Arazım!
Köpürüb daş və ərit dalğanda
Keçmişin qanlı məzar daşlarını.
Qan deyən kəsləri, tez, durma, kirit dalğanda,
Onların çırp yerə dik başlarını.
At bu yurdum kimi boy,
Tanısınlar səni qoy, Sahilin şənliyə dönsün, Arazım,
Yadların qəndili sönsün, Arazım,
Gələcək günlərə hörmətlə baxar arzuların,

Mahnı söylər suların.
Atmısan hər yana öz qollarını,
Görürəm qollarını, yollarını.
Doymuram mən sənə baxdıqca, inan,
Olmuşam hüsnünə məftun, heyran.
Sahilin, sanki, qızıl lalə, qızıl gül, Arazim,
Gülür ölkəm, ona bax, sən də sevin, gül, Arazım!..
Göydə qızıl mıxlar var,
Parlayaraq göz qırpar.
Onları əks eylərsən,
Sonra da rəqs eylərsən,
Gecələr sən, Arazım.
O təmiz qəlbin atır;
Söylə bir, harda yatır,
Gecələrsən, Arazım'?!
Dinlə gəl bir də məni,
Sevirəm xeyli səni,
Sənə coşmaq yaraşır.
Birlik uğrunda vuruşmaq yaraşır.
Yenə də qaçdı yuxum,
Dinlə bir, mən sənə dastan oxuyum.
Eşidib sən də oxu!
Can verib mən deyən hər bəndi oxu...
Dinlə dastanımı, gəl hər necə qursam, Arazım,
Xəbər et, mən səni yorsam, Arazım!..

## NİYAZ

Neçə ay var ki, Niyaz
Gələrək Mil düzünə,
Çalışır, - hər işi saz,
Öyünür öz-özünə,
Atılır daim oda...
Qarabağdandır o da.
Əli iş vaxtı görünməz, itidir,
İş onun varlığıdır, dövlətidir.
Pambığın bağrını yarmışdır o,

Çox böyük şöhrətə varmışdır o.
Hər gün ünvanına yağmaqda: "Sağ ol!"
Tək qalan dəmdə, çəkir gözləri yol.
Qəlbinin telləri bir incə kaman telləridir
Ki, toxunsan ona tez səslənəcək.
Pambığın qəlbinə bir qorxu salan əlləridir.
Hamı söylər: -Niyazındır gələcək!..
Bəzən axşam çağı tutqun görünür,
İntizar gözləri bir göl kimi durğun görünür.
Düz bir aydır, Qarabağdan xəbəri
Yox, xeyr, yox Niyazın.
İndi, bundan ötəri
Dördi var çox Niyazın.
Dərd deyildir bu, düzü, bəlkə də bir istəkdir,
Ayrılıb sevgilisindən, ocağından, təkdir.
Onu hicran alıb öz pəncəsinə,
Dözdürür dərdinə, işgəncəsinə.
Keçsə hərgah əlinə bircə vüsalın ətəyi,
İnləməz ney kimi, hicrində nigarın ürəyi...
Yol çəkən gözləri birdən güldü,
Sevinib söylədi: — hicran öldü!
Aldı öz sevgilisindən, gözəlindən məktub,
Zərfi açdıqca, onun qəlbi döyündü gup-gup...
Bircə məktubla məhəbbət gücünü göstərdi,
Ac adamlar kimi məktubu yemək istərdi.
Bu kağız parçasını sandı, güləndam yardır,
Oxuyaq birgə, görək orda nə sözlər vardır:

MƏKTUB

"...Bircə aylıq getdin,
Demə, sən tərk etdin,
Məni, qoydun yalqız.
Beləmi, insafsız?!.
Gözün aydın, Niyaz, olmuş oğlun,
Sənə çox bənzəri var, bilsən, onun.
Gözü, əlbəttə, kömürdən qaradır,

Gör təbiət nə gözəl can yaradır!
Baş kiçik, sonra qulaqlarsa - palaz!..
Yatmayır, xeyli dəcəldir yaramaz.
Qoduğun əlləri təndir kösöyü,
- Böyü, oğlum, yeni insan kimi sürətlə böyü!
Deyəcəksən, ona baxsan ki, tabaqdır sifəti,
Adamın, görsə, tökülməzmi əti?
Canlıdır, kündəyə bənzər ayağı,
Sanki, tutqun havadır qaş-qabağı.
Salıram döşlərimi ağzına mən,
Çox da mən süd verirəm, kimdir əmən?!
Çox dəcəldir, nə durur, ah, nə yeyir,
Bir dəli şeytan nə deyir;
Qap çubuğu,
Döy qoduğu.
Süd yerinə yasdığı al,
Ağzına bas, qoy ola lal...
Doğrudan, dərdi böyükdür ananın;
Körpələr üstünə "yükdür" ananın.
Burnu lap burnuna bənzər - yekədir,
Gəl yaxından ona bax, - mərəkədir!
Niyazım, körpəmizin taleyi çox parlaqdır;
Gecəsi süd kimi ağ, gündüzü ondan ağdır.
Gecə-gündüz beşiyindən uzaq olmaz bu ana,
Səni xatırlayıram, eşq ilə baxdıqca ona...
Ona qurban ananın ev-eşiyi,
Tərpədib qov kimi yüngül beşiyi,
"Bala, lay-lay!" - deyirəm.
Saf, təmiz süd verərək,
"Ala, lay-lay!" - deyirəm.
Qalmayıb məndə ürək...
Sevgilim! Bir də görürsən ki, gülür,
Az keçir, gün tutulur, qönçə dodaqlar büzülür.
Oluram lap əsəbi,
Bilirəm, ağlayacaq.
Məni ta sübhə kimi
Yuxusuz saxlayacaq...

Qapıram gah tabağı, gah sinini,
Çalıram, bəlkə, uşaq ağlamasın,
Öpürəm, sonra da təkrar edirəm nəğməsini,
Bəlkə, bir çıxsın içindən bu "yasın".
Söz kar etmir qoduğa,
Hey deyir: "inqa-inqa..."
Çağırır, bəlkə, səni:
Burda tək qoyma məni...
Burda kolxozçu qadınlar yığılır,
Doğrudan, gündə gəlirlər yanıma.
Balamın dərdləri gəlsin canıma,
Ah, səninçin ürəyim bərk sıxılır.
Bir də təklik mənə heç verməyir əl,
Durma tez gəl, Niyazım, tez, tez gəl!
Bil ki, sənsiz ölərəm körpəmlə,
Gəlməsən, mən gələrəm körpəmlə...
Səni, məndən artıq
Nazlı körpən çağırır,
Hardasan, bir gəl çıx,
Gecə-gündüz bağırır...
Nəyə qaldın o uzaq yerlərdə?..
Ürəyim heç dözə bilmir dərdə.
Hara getsəm, hara baxsam, Niyazım,
Çiçək açmır nə baharım, nə yazım...
Güc verib göz yaşına,
Gozlərindən öpürük.
Gecə-gunduz başına
Şux çiçəklər səpirik...
Batırıb qəlbimə tez-tez qələmi,
Yazıram, yar, sənə mən odlu yazı.
Öpərək, qoxlayaraq öz gülümü,
Gülürəm, ağlayıram gündə beş-on dəfə azı...
Bizi xatırla, Niyaz,
Qəlb açan məktub yaz!..
Fikrə daldırdı bu sözlər Niyazı,
Deməli, körpəsi gözlər Niyazı.
Azı on dəfədən artıq oxudu

Arvadından gələn ilk məktubu.
Düşünür, hey düşünür,
Gah yanır, gah üşüyür...
Gecə keçmiş, hamı yatmış, ağarır qar kimi o.
Qovrulur sanki, ilan vurmuş adamlar kimi o.
Gəldi bir-bir gözünün qarşısına:
O totux körpəsi, şux sevgilisi...
Dedi: "Ey qəlb, yenidən eşqini gəl bir də sına!"
Onu, sarsıtdı məhəbbət hissi.
Yuxusuz qaldı gecə;
Necə yatsın o, necə?!
Qalxdı tezdən yatağından səhəri,
Baş alıb getdi müdirin yanına
Bircə işdən ötəri:
Yağlı dillərlə ona
Xeyli yalvardı ki, burdan onu azad etsin;
Belkə, bir quş kimi öz yürduna uçsun, getsin...
Dedilər: - Anla, düşün, gör nəçisən,
Sən ki, ön səfdə gedən zərbəçisən!
Hələ qal, sonra gedərsən, sonra...
Burdan üstünmü ora?!
Burdadır canlı vuruş meydanı,
Gərək ilk növbədə məğlub eləyək səhranı:
Sonra biz söhbət açaq körpədən, həm arvaddan...
Bilirəm, körpə, həyat yoldaşı çıxmaz yaddan.
Belə bir gündə, düşün, cəbhəni atmaqmı olar, -
Evdə yatmaqmı olar?!

Söylə, bir busə üçün
Geri dönmək nə demək?
Söylə, bir söylə, neçin
Dərdlisən Məcnun tək?!

Hamı istər ki, bu gün nazlı həyat yoldaşını
Oxşasın, öpsün, onu eşq ilə bərk-bərk qucsun.
Onun eşqilə fəzalarda dolaşsın, uçsun...
Nə olar, bax, belə bir gündə gedərsək hamımız?
Bunu nankorlar edərlər yalnız...

Yox, yox olmaz belə, qal,
Qal, Niyaz! Qal, hələ qal!..
Qalmaram, yox!.. Yaxşı,
Qalaram... çox yaxşı!
Yenidən fikrə, xəyal aləminə daldı Niyaz,
Yenə səhrada, bir əsgər olaraq, qaldı Niyaz.
Almır artıq Qarabağdan məktub,
Çırpınıb qəlbi edir: gup-gup-gup...
Hələ bir həftə deyil, heç hələ bir həftə deyil,
Dəyişib, başqalaşıb siması...
Daha ön səfdə deyil,
Niyaz olmuş asi,
İxtiyarsız çalışır,
İqtidarsızçalışır...
Əli pambıqda, fəqət könlü uzaqlarda uçur,
Alaraq oğlunu ağuşuna fikrində, qucur...
Burda yalnız ikidir lövhə, iki,
Lövhədir, bəlkə do, insanlar üçün doğru çəki,
Biri hər yerdə zəfərdən danışır, - qırmızıdır,
Sovxozun güzgüsüdür, bəlkə də, dan ulduzudır!
Biri aysız gecələrdən də qara,
Niyazın, bir neçə gündən sonra,
Sildilər qırmızısından adını,
Bəlkə, bilsin dadını
İztirabın, kədərin;
Düşünüb azca dərin,
Bəlkə, bilsin ki, nədir düşdüyü son lövhə nədir...
Etiraz etmə, Niyaz, çünki səninçin yeridir!
Gecədir; göy üzü parlaq, şəffaf,
Ay da bəzən bürünür göydə buluddan çarşaf.
Ay axır, axdıqca axır,
Hər kəsi heyran buraxır.
Kim deyir ayçın-utancaq bir qız?
Andırır, bir baxınız,
Can verən bir balığın gözlərini...
Belə bir anda, veriblər yuxuya özlərini

Ağ çadırlarda igidlər səssiz.
Seyr edək onları biz:
Hamı yatrmış, yata bilmir, bu nədır, təkcə Niyaz?
Nə səbəbdən qara bir lövhədə canlansın adı?
Bu gözəl mənzərənin seyrinə dalmaz, baxmaz.
Kim bilir, bəlkə də, sınmış qanadı!
Bəlkə, qəlbində dərindir yarası?
Daha dildən-dilə düşmüş adı getmiş bada...
Bu nəhayətsiz, uzaq səhrada
Təpədən bir köpəyin havlaması
Onu diksindirdi,
Elə bil, dindirdi.
Hey məzəmmət edərək öz-özünü,
Yumdu axırda qızarmış gözünü...
Hiddətindən, acığından bu Niyaz
Kəndə, öz evlərinə bir daha məktub yazmaz.
Özü, öz varlığına bəslər kin,
Lakin,
Hər zaman, görsə gəlir poçtalyon,
Döyünər qəlbi onun sürətlə,
"Yenə yoxdur mənə məktub!.." - deyərək, hiddətlə
İstər olsun bu acı dərdlərə, hicranlara son,
Sarsıdır qəlbini, hicran, qayğı,
Çarparaq daşlara, sınmış qayığı,
O ki, istərdi qayıtsın evə, ötsün, gülsün...
Bunu bilsin işə yüngül yapışanlar, bilsin:
Sosializmin döyünən qəlbini heç durdurmaz
                    Gəlsə yüzlərcə Niyaz.
                    Daha yoxdur təhəri;
                    Səhəri,
Niyaz ağ pambığa, bol-bol qara torpaq qatdı,
Niyə öz xalqını, heyhat, nə üçün aldatdı?!
Nə isə...
Hər gün ağırlaşdı kisə...
Tutdular zərbəçilər bir gün "iş üstündə" onu,
Bumudur şöhrətinin, söylə, Niyaz, söylə, sonu?!

Qəhrəmanlarla yeməkxanə dolub ağzınadək,
Biri çalmaqda qaval, digəri eşq ilə tütək.
Sataraq şivə süzür bir qoca kolxozçu qadın...
- Qocalar gəncləri ötmüş... - gözün olsun aydın!..
Biri davət eləyir, - oyna! - deyib hey Sonanı...
Papiros tüstüsü tutmuş havanı...
Əl çalan kim, oxuyan kim, gülüşən kim burda:
Yalnız ölməz, əbədi sevgidir hakim burda!
Seyr edin, bircə, traktorçu qəşəng qız oynar,
Sanki, düşmüş yerə göydən yeni ulduz oynar...
Nə gözəldir bu oyun:
Adı Leyladır onun.
Qarabağdan iki ildir gəlmiş,
Yeni açmış yeni güldür, gəlmiş.
Qara gözlərlə süzür ətrafı, -
Şairin otla əgər insafı,
Söyləyər: - xeyli gözəldir Leyla...
İncədir, canlı qəzəldir Leyla...
Dağıdır çiyninə gur saçlarını...
Verən, əlbəttə, utanmaz varını.
Çox qəşəngdir, bəli, yox bunda yalan,
İldırımdır baxışından doğulan;
Düz deyir el-oba Leylayə zirək,
O, bu səhrada deyil əsla tək.
Çağırır qızları tez-tez yarışa;
Hamı söylər: - yaşa, - Leylayə, - yaşa!
Yer açın, eşqilə süzsün Leyla.
Gənclərin qəlbini üzsün Leyla.
Oynasın, biz dəxi ilhama gələk.
Oynasın, bəlkə, fərəhlənsin ürək.
Oynasın, yurdumuzun şən gözəli,
Oynasın, şeir evinin ən gözəli,
Oynasın, incə çiçək, gül Leyla,
Oynasın, qoy sarı bülbül Leyla.

Oynasın, gəncləri əyləndirsin,
Oynasın, könlümüzü dindirsin.
Oynasın, məclisə versin rövnəq,
Oynasın, yerdə də qoy canlı şəfəq...
Sanmayın siz ki, o ancaq oynar,
Onda bir başqa gözəllik daha var:
Görsə kı, çalğı və şənlik bitdi,
Olacaqdır yenidən çox ciddi,
Geyəcək sadə meşin pencəyini,
Taxacaqdır əlinə əlcəyini.
Gələcək günlər üçün iş görəcək,
Qoca səhrada traktor sürəcək.
Yuxudan qaldıracaq boz gecəni,
Salacaq heyrətə yoldan keçəni.
And içib cəbhədə möhkəm dursun,
Qəmdən azad yeni dünya qursun...
Belə bir anda durub yap-yalnız
Ləkələnmiş bir adam lap yalnız.
O, Niyazdır, utanır hər kəsdən,
- Bu nə işdir ki, Niyaz, gördün sən!.. –
Döyünür qəlbi, əsir,
Hər baxış sanki kəsir
Onu xəncər kimi, bax,
Ona yox burda dayaq...
Düşünür: "Mən atımı yad çölə sürdüm, çapdım,
Qapılıb hissə bu gün doğru yolumdan sapdım!"
Bax, budur gündə dirilmək - ölmək,
Ona biganə sevinmək, gülmək!..
Hanı əvvəlki adı?
Hanı əvvəlki tükənməz hörmət?
Sifətindən yerə tər damcılayır,
Onu mənalı baxışlar, elə bil, qamçılayır.
Qəlbi ney tək inlər,
İstəməz görsünlər
Onu ellər ləkəli.
Hər kəsin doğru deyildirsə əli,

Belədir qayda, nəhayət düşəcəkdir bu kökə,
Onu təqib edəcəkdir, hara baş vursa, ləkə!
Boğularkən, əl atır çör-çöpə dəryada Niyaz,
Belə gün əqlə gətirməzdi bu dünyada Niyaz.
Kimsə baxmır üzünə...
Bu xəbər Mil düzünə
Yayılır dalğa kimi,
Onu ar devrələmiş halqa kimi...
Dərdlidir, dardadır Niyaz darda,
Həyəcan var bütün adamlarda.
Biri qalxıb deyir ki: - Yoldaşlar,
Bu həqiqətdir, etmirik inkar.
Söyləyin bir, keçərmi heç sözümüz,
Özümüzdan oğurlasaq özümüz?!
Adımızçın bu bir böyük ləkədir,
Bir də təkrar olunsa, təhlükədir!..
Bu Niyazçın bir ölüm, bəlkə, ölümdən də betər...
Tər axır sel kimi alnından, tər.
"Hardadır, gəlsin əcəl!..."
Açdı bir əl qapını,
Niyazın sanki bu əl
Qəlbinin qırdı qırılmaz sapını.
Gülxanım gördü yeməkxana dolub ağzınadək,
Ayaq üstündə dayanmış əri, tək,
Yağdırırlar ona sonsuz töhmət,
Hanı əvvəlki şərəf, şan-şöhrət?!
Baxaraq bir Niyaza, bir uşağa,
Dedi: - Göz dəydi bizim bağça-bağa!..
Bixəbər körpəsi şəfqətlə gülür,
O gülərkən, elə bil, dan sökülür...
Bilməyir burda nə vardır, hələ o,
Bənzəyir lap bala bir bülbülə o,
Gülxanım pərl oldu,
Ona bir dərd oldu
Ərinin son əməli:
Belə etməzdi dəli...

Süzdü ətrafını şaşqın-şaşqın,
Soldu gül çöhrəsi birdən yazığın.
Özünü aldı ələ, Udqunub gəldi dilə:
- Bu nədir, söylə, Niyaz?
Bu nə işdir, yaramaz!
Edirəm mən də tələb
Hansı bir iş buna olmuş, de, səbəb?
- Get, bunun, get, səbəbi sən oldun,
Mənə düşmən oldun!
Qarabağdan məni səndin çağıran:
"Gəl, Niyaz, durma, tez ol, gəl..." bağıran.
Get, yaxın gəlmə mənə.
Son sözümdür bu sənə!..
Yox, dayan, getmə, müqəssir özüməm,
Mənə, sən asma qulaq, hər nə desəm.
Bilmirəm heç özümü,
Tutdu qan-yaş gözümü.
Hamı bilmiş, bilirəm,
Gördüyüm iş, bilirəm,
Bir xəyanət kimidir,
Bəlkə, cinayət kimidir!
Qoydu hicran məni axır darda,
Söyləyin, harda görünmüş, harda,
Vətənin mərd oğlu
Olaraq bir oğru,
Üzü ağ pambığa hər gün qara torpaq qatsın,
Sonra rahət yatsın?
Nankor övladın, aman, yox üzü çıxsın araya!
Acıym, barı, bu qəlbimdəki müdhiş yaraya...
Ləkədir gördüyüm iş ailəmin saf adına,
Bir baxın gözləri ağlar qadına,
Daş deyildir bu ürək...
Çox danışmaq nə gərək:
Mənə imkan verin, on gündə düzəldim özümü,
Zənn edin anda bərabər bu müqəddəs sözümü.

Gülxanım coşdu Arazdan artıq,
Baş açıq, həm döş açıq,
Basaraq körpəni öz sinəsinə,
Verdi qüvvət səsinə.
Dedi ki: - Yoldaşlar,
Çox böyük dərdim var.
Ne deyim mən sizə, ah... -
Məndədir, bəlkə, günah!
Sevirəm mən onu, çox bərk sevirəm,
Onu heç eyləmərəm tərk, sevirəm.
Yox bu sevgimdə yorulmaq məndə,
Sevdiyim gül odur ancaq bu gözəl gülşəndə.
Yox mənim özgə bir eşqim, həvəsim,
Onunam, yalnız onundur nəfəsim.
Qulaq as sən də, Niyaz,
Ey yaramaz!
Sevirəm mən səni, yox şübhə, fəqət doğru səni,
Sevirəm doğru səni, sevməyirəm oğru səni!
İşləyib baxtım uşaq anlamayır etdiyini,
Doğru yoldan azaraq əyri yola getdiyini... -
Heç rəvadırmı ki, ağ pambığa torpaq qatasan?
İndi artıq adı batmış, ləkələnmiş atasan...
Tək deyilsən daha sən,
Qalıram burda çalışmaqçın mən...
Edərəm yox ləkəni!
Qovaram yel kimi üstündə əsən təhlükəni!..
Basdı alqış səsi səhranı bütün...
Qoy bu sözlər ləpələnsin, bürüsün
Yurdumun dağlarını, daşlarını,
Qoy batırsın yerə düşmənlərimin başlarını!
Qalxaraq ciddi, açıq məhkəmənin sədri dedi:
Bizdə insanın əzizdir şərəfi, qədri, — dedi,
Kim deyir müttəhimə sözlərimiz kar etmir?
Özü öz gördüyünü zərrəcə inkar etmir.
O ağacdan yerə düşmüş sarı yarpaq kimidir,
Bilirik, dərdi-qəmi bir qocaman dağ kimidir...

Onu əfv eyləyirik biz, ancaq
Hamıdan çox çalışıb, çox yığacaq.
Bax, bu meydan, bu da sən, iş səni gözlər, yatma!
Yığdığın pambığa gəl bir daha torpaq qatma!..
Xalqa söz verdi Niyaz:
Sevinib güldü bir az.
Gülxanımdan alaraq körpəsini,
O təmiz alnına qondardı şirin busəsini.
Sanki güc tapdı, qanad tapdı Niyaz,
Yenidən doğru həyat tapdı Niyaz.
Keçdi on gün, bizə məlum, bu böyük hadisədən,
Dağ yaranmışdı o pambıq dolu saysız kisədən
Sovxozun anbarı ətrafında,
Sanki pərvanə idi öz varı ətrafında
On gün əvvəlki günahkar bir adam.
Ona vermişdi ürəkdən ana torpaq ilham.
Niyaz artıq qoca səhrada deyildir yalnız,
Parlayır lövhədə, bir bax, iki sönməz ulduz.
Gülxanım, bir də Niyaz, hər kəsə məlum iki ad...
Belədir bizdə həyat!

## XİTAB

Ax, Kürüm, ax, Arazım,
Bax, Kürüm, bax, Arazım,
Mil düzünün keçmişinə,
İndiki parlaq işinə,
Pambığımız dalğalanır,
Bir yeni aləm yaranır.
Bunu öyrən, Arazım,
Ey mənim şən Arazım!
Suyun altunla bərabərmi sənin?
Fəxrisən qəlbi alov bir vətənin!
Söyləsəm: - Ey üzü ağ, günləri ağ!
Deyəcəksən mənə, gəl, şeri burax!
Həmdəmin hər gecə ulduzlarmı

Ya ki, şən qızlarmı?
Ey kənarındakı ağ qumluğu çin-çin Arazım,
Ey bəyaz dalğası azadə göyərçin, Arazım!..
Bilməz artıq ürəyin dərd-ağrı,
Çatlasın düşməninin qoy bağrı!
Qoy qəmər səndə soyunsun gecələr,
Soyunub nazla yuyunsun gecələr,
Sən də ilhamını al!
Nə gözəldir bu vüsal!
Bax, bu coşqun, yeni şair, Arazım,
Yazacaqdır sənə dair, Arazım...
Bax, bu yerlərdə adamlar dəyişir,
Kal gələn burda dəyir, tez yetişir.
Burda bir an belə getməz bada,
Bu ilanlar mələyən səhrada
Xanların tökdüyü qanlar qurumuş,
Burda bambaşqa bir aləm qurmuş...

*1934*

## 12-Cİ TÜFƏNG

At belində yavaş-yavaş dırmanırıq dağlara,
Öz əlilə gözəl bahar min rəng vurmuş bağlara,
Ana torpaq nəfəs alır uşaq kimi dərindən...
Bu lövhələr könülləri oynatmazmi yerindən?
Üzüm gülməz, könlüm gülməz, düşünürəm, dalğınam;
Bu diyarın dərdlərinə mən hamıdan yaxınam.
Şair könül, nə durmusan dərya kimi dalğalan,
Bax, alnını düyümləyib durur dərdli "Savalan".
Mən yanmasam varlığımla, nə söyləyər el mənə,
Başı qarlı, ürəyisə yanan dağın dərdinə?!
Şerim düşməz dildən-dilə həqiqətdən yazmasam,
Ağaların, cəlladların nəşəsini pozmasam,
Hər kəlmədə döyünməsə mərd xalqımın ürəyi,
Qönçələnməz bu torpaqda azadlığın diləyi.
Nə bir nəğmə eşidirsən bu yerlərdə, nə çalğı,
Kimlər salmış matəmlərə mənə doğma bu xalqı?
Dinmə! - deyə kim çıxarmış boğazından dilini,
Kim soldurmuş tapdaqlarla bağçasında gülünü?
Hər tərəfə göz gəzdirsən, qızıl qandan ləpir var,
Hər addımda canlılardan qat-qat artıq qəbir var.
Ətrafına çiçək səpmiş ətək-ətək ilk bahar,
Könüllərdə xəzandırsa, nəyə gərək ilk bahar!
Nəyə gərək bağrı yara bülbüllərin nəğməsi,
Hər bucaqda qan ağlarkən könüllərin nəğməsi!
Dərdlərimi mənə sadiq dostlarımla bölürəm,
Bu al-əlvan çəmənləri seyr etdikcə bilirəm.
Vaxtsız ölən körpələrin gözləridir çiçəklər,
Bəxtsizlərin kirpiyindən qan-yaş damar hər səhər.
Dilsiz, nakam hər məzarın bu həyatda gözü var,
Ürəyində dünyalarca deyilməmiş sözü var.
Nəyə gərək bahar, dedim, nəyə gərək əyləncə,
Qan qardaşım zalimlərdən görurkən min işgəncə!

Könül! Səni aldatmasın bu diyarın zahiri,
Qonaq kimi baxa bilməz buna sovet şairi!
Mən cənubun dərdlərini ötəcəyəm sazımda,
Onun qəlbi döyünəcək əşarımda, yazımda...

Gün altında yana-yana çatırıq kəndə,
Ah, bilsəniz, nə arzular oyanır məndə.
Evlərinin pəncərəsi günəşə baxır,
Ortasından şırıl-şırıl körpə çay axır!
Başdan-başa laləlikdir çölü, çəməni,
Güllükləri bülbüllərin yurdu, məskəni.
İydəliklər arasilə yol keçən hər kəs
Qoxusundan məst olmazmı aldıqca nəfəs?
Dalğa-dalğa ətir saçan dağ çiçəkləri
Sevindirməz nə üzləri, nə ürəkləri...
Hərdən-birdən qəmli-qəmli ötür bir kəklik,
Sanki deyir: - Yaman dərddir dünyada təklik.
Ürküb qaçır dağ döşündən bir sürü ceyran,
Yol yoldaşım alır həmən onları nişan...
- Vurma! - deyə tez tuturam onun qolunu,
Məsum qanı axıtmağa qoymuram onu...
Dırnağiylə bəzək vurub nəmli torpağa,
Qoyun-quzu mələşərək, qalxır yaylağa.
Burda hər şey mənalıdır görən insana,
Diqqət ilə baxıram mən gənc bir çobana.
Ah... acından qonur gözü düşüb çuxura,
Heyhat, keçir ömür-günü kömürdən qara.
Mən bu yerə ad verirəm qəmlər ölkəsi,
Çinarların, söyüdlərin sərin kölgəsi.
Nə bir məclis, nə də bir toy görmüş əzəldən...
Düşünürəm hər tərəfə baxıramsa mən.
Gülür bahar, gülür yer-göy, insan gülməyir,
Vüsal deyib qan ağlayır hicran, gülməyir.
Acı, qanlı xatirədir bu yerdə dağ, daş,
Təbiətdən nə zövq alsın cənublu qardaş!
Gömgöy etmiş kürəyini hər gün qamçılar,

Gözlərindən ürəyinə, qan-yaş damcılar.
Ta həyata gələn gündən ayaqyalındır.
Haqq sevəndir, düz ürəkdir, açıq alındır.
O bilir ki, belə getməz həmişə dövran,
Ürəyində alovlanır sönməz bir üsyan.
Öz yol çəkən gözlərini dikib şimala,
Deyir: - ey bəxt, yetir məni, yetır vüsala!
Qan qardaşım! Nəhayət ver artıq yasına,
Azadlığı alacaqsan qan bahasına!

Çatıb kəndin meydanına düşdük atlardan,
Kənd axışdı yanımıza keçincə bir an,
Atımızın cilovundan yapışıb hərə
Dedilər ki: - Salam olsun şurəvilərə!
Dərdli kəndin ağsaqqalı çıxıb qabağa,
- Gəlin! - deyə dəvət etdi bizi otağa.
Baş əyərək girdi tək-tək bu otağa kəndlilər,
Hörmət edər hər an əziz bir qonağa kəndlilər.
Bizdən sonra hamı bir-bir bardaş qurub oturdu,
Dövrəmizdə ehtiramla həlqə vurub oturdu.
Kimsə dinmir, milçək uçsa, eşidərsən otaqda,
Qonur gözlü bir uşaq da oturmuş bir bucaqda.
Bizə baxır maddım-maddım, ürəyində nəsə var,
Baxışmdan görünür ki, bilməz nədir ilk bahar.
Nəzərləri cəlb eləyir gözlərinin kölgəsi,
Gör nə günə qalmış bu gün səttarxanlar ölkəsi.
Bir qoca da, zilləyərək gözlərini tavana,
Ovuşdurub ovucunda tütün tökür qəlyana.
Nə biləsən, nə arayır xəyalında bu qoca,
Bənzəri var bu torpaqda kök salan bir ağaca.
Pozmamışdır vüqarını nə qasırğa, nə tufan,
Çox da olmuş illər boyu bu diyarda bağrı qan.
Kibrit çəkib sonra saxsı qəlyanını yandırır,
Bu görkəmlə bir qocaman yanar dağı andırır.
Yan otaqdan bizə baxır ağ birçəkli bir ana,
Ayaq üstə ərimişdir şam kimi yana-yana.

Ağ saçları dərdləridir xeyli cavan ömrünün,
Qar yağdırmış baharına acı dövran ömrünün...
Astanada tüstülənir böyru batıq samovar,
Ləmədəsə, rəngi uçmuş beş-on nimçə, kasa var.
Altımızda xalı deyil, cırım-cındır, həsirdir,
Mən demirəm yoxsullarçın bu eyibdir, kəsirdir.
Pəncərənin qıraqları kağızlarla yamanmış
Bir qul kimi ömür sürmək dünyada nə yamanmış!
Birdən qəribə səslər eşidildi bayırdan,
Kəndlilərin üzündə dalğalandı həyəcan.
Bir anda "əmniyyələr" soxuldular otağa,
Hamısı birdən çəkib tüfəngləri ayağa:
- Oturduğunuz yerdən tərpənməyin! - dedilər,
Bizi orda görən tək qorxudan titrədilər.
Çəkib barmaqlarını tüfəngin çaxmağından,
Rəis bixəbər kimi titrəyən ayağından.
Söylədi, - Bağışlayın, bilmədik burdasınız,
Bizim, şurəvilərə hörmətimiz var yalnız.
Siz səfa gəldiniz bu gözəl Azərbaycana,
Bu bişərəflər bizi cana gətirmiş, cana.
Bunlar ki var, adamın boynunu daldan kəsər,
Əmin-amanlıq olmaz, olmasa əmniyyələr.
Gəlmişik çürütməyə bunlarla haqq-hesabı,
Namərdəm, yatırmasam bu yerdə inqilabı
Verib bunlar əl-ələ kənddən qovdular xanı,
Haqlıyam, asilərin halaldır, desəm, qanı...
Tərki-silah ediblə on iki əmniyyəni,
Mərkəzdən göndəriblər cəza verməkçin məni...
Qoca kəndli gülərək bu sözə dodaq büzdü,
Əmniyyə rəisini başdan-ayağa süzdü,
Bir qırpımda divardan aldı ələ qılıncı,
Əmniyyənin bağrına dəydi qılıncın ucu.
Qan tökülməsin deyə, qocaya - dayan! - dedik, -
Birinin ölümüylə düzəlməz dövran, - dedik.
Başı qarlı bu dağın od vardı ürəyində,
Şimşəklər çaxdı-söndü sanki göz bəbəyində.

Bizə haqq verib yenə qoydu qılıncı qına,
Sanki ildırm qondu onun qaşqabağına;
Bu an yaxa bilərdi dünyanı nəfəsilə,
Baxıb əmniyyələrə söylədi var səsilə:
Şurəvi əfsərləri olmasaydı bu yerdə,
Ömrümüzə çəkərdik öz qanınızla pərdə!
Məqsədiniz, arzunuz aydındır bizə, aydın.
Nə qədər ki, başınız salamatdır, qayıdın!
Qayıdın, qəzəbimiz dünyalardan böyükdür,
Söykəndiyiniz dirək təməlindən çürükdür,
Uçulacaq o bir gün zərbəmizlə kokündən,
Çəkinin qəlbimizdə alovlanan bu kindən!
Əmniyyəsiz də burda vardır əmin-amanlıq,
Qurtarmaz söyləməklə etdiyiniz yamanlıq.
Başdan-başa müsəlləh, hər kəndə çıxanda siz,
Üzürsünüz sel kimi tökdüyünüz qanda siz.
Əl atdınız qızların irzinə, namusuna,
Gedin, görünməyin bu intiqam ordusuna,
Ağalar, gedin, artıq, kəndimizi tərk edin!..
Rəis dodaq gəmirib qızdı: - Qoca, nə dedin?
Aldığınız on iki tüfəngi verin geri!
Uşaqlar, yubanmayın, axtarın tez hər yeri!
Yoxsa sərbazlar gələr mərkəzdən bura birbaş,
O zaman kəndimizdə qalmaz daş üstündə daş!
Gəlin, tökün, bu daşı ətəyinizdən yerə,
Bir ovuc kəndli neylər top-tüfəngli ləşkərə!..

Kəndlilər pıçıldaşıb dedilər ki: - Çox gözəl,
Tüfəngləri alan tək gedin burdan əlbəəl!
Qoca kəndli vüqarla açar saldı sandığa,
On bir tüfəng çıxarıb tulladı ortalığa,
Görüb lovğalandılar əmniyyələr bu halı,
Rəis ağzı köpüklü bağırdı iddialı:
Qan axmamış qaytarın on ikinci tüfəngi!
Bucaqdakı uşağın birdən ağardı rəngi,
Gözləri həlqələndi, titrədi dodaqları,

Canlandı xəyalımda son bahar yarpaqları.
Süzüb uşağı bir an öz-özümə dedim mən:
On ikinci tüfəngdə nə hikmət var, görəsən?
Nədən rəngi uşağın birdən-birə saraldı,
Bütün varlıq gözündə bir qırpımda qaraldı?
Baxıb əmniyyələrə qəzəblə altdan-altdan,
Dedim: - Çıxarmaz sizi sovet şairi yaddan!
Silaha əl atmağa yoxdu məndə ixtiyar,
Qəlbimin sahilinə çırpıb qanlı dalğalar,
Sarsıdıb mənliyimi yerindən oynadırdı,
Rəisin hər kəlməsi, sanki, zəhər dadırdı,
On ikinci tüfəngin üstündə söz uzandı,
Kəndlilər bir ağızdan o sən tüfəngi dandı.
Əmniyyələr başladı otağı axtarmağa,
Rəis nəzər salaraq rəngi solğun uşağa.
Dedi: - Ey uşaq, bəlkə, sən bilirsən yerini,
Deməsən, dabanından soyduraram dərini!
Uşaq bağırdı... hamı qorxdu onun səsindən,
Bir yumruq vurdu azğın rəisin sinəsindən.
Tez uşağa çevrildi lüləsi tüfənglərin,
Qorxmadı hədəsindən o, bu daş ürəklərin.
Yan otaqdan cumaraq bağrı yaralı ana,
Dedi: - Məni öldürün, ancaq dəyməyin ona!
Odur mənim qaranlıq ömrümə işıq, çıraq,
Dərdi dağlardan böyük sinəmə çəkməyin dağ!
Yan otağa atıldı zavallı birnəfəsə,
Gətirib atdı yerə əlləri əsə-əsə,
Qundağı parçalanmış qan ləkəli tüfəngi...
Uşağın kağız kimi ağardı yenə rəngi.
Çılğın fəryad qoparıb tüfəngi qucaqladı,
- Yox, yox verməərəm! - deyib hönkür-hönkür ağladı.
Gücdə o bir yanaydı, əmniyyələr bir yana,
Bənzəyirdi bu dəmdə qızmış körpə aslana.
Rəis tüfəngi zorla ondan alıb apardı,
Elə bil, sinəsindən ürəyini qopardı.
Əmniyyələr də getdi... Olmadı sakit uşaq,

Öz dərdli anasına sığındı ağlayaraq.
Qoca dedi: - Nəriman, ağlama, bəsdir, oğlum,
Sənin bu göz yaşların, məncə, əbəsdir, oğlum.
Gec-tez yetişəcəksən qəlbindəki o kama,
Döyüşlər qabaqdadır, hazırlaş intiqama!

Yaxınlaşıb söylədim: - Danış, Nəriman, danış,
Məni öz dərdlərinlə gəl et yaxından tanış.
Danış, nə hikmət vardı on ikinci tüfəngdə?
Danış ki, qövr eyləyir dərd qalarsa ürəkdə...
Hirsindən açılmadı Nərimanın dodağı,
Qoca kəndli doldurub gur səsilə otağı:
- Qardaş, dərindir, dedi, onun ürək yarası,
Bu dərdin başqa şey yox, intiqamdır çarəsı.
Gördüyün bu Nəriman bir aydır ki, yetimdir,
Sən də, mən də bilirik dünya ölüm-itimdir,
Fəqət dərdi başqadır bizim bu Nərimanın,
Qəlbi həsrətdir çoxdan ağ gününə dünyanın.
Bir gözəl kənd yerləşir bu dağın o tayında,
Gülür çölü, çəməni hər ilk bahar ayında.
O kəndin oğlu, qızı ta qədimdən mərd olur,
Bir naxələf çıxdımı, bütün kəndə dərd olur.
Onlarla ta əzəldən dostuq, qohum-qardaşıq;
Bir-birinin qəlbinə aşinayıq, sirdaşıq,
Bir ay əvvəl o kənddə bir faciə baş verdi,
Ordakı dostlarımız gül əkib, tikan dərdi,
Bir ay əvvəl xan oğlu bir rəiyyət qızına
Əl atıb ləkə vurdu irzinə-namusuna.
Nişanlısı xanlığa gedərkən şikayətə,
Doğrayıb öldürdülər, yol açıb cinayətə.
Zülmdən cana gəlmiş ac-yalavac kəndlilər,
Əldə külüng, bel, yaba xan evinə getdilər,
Dedilər ki: - Bu zülmə son verin, bəsdir daha.
Xalqa qanlar uddurmaq xoş gələrmi Allaha!
Xanın mühafizləri, bütün qohum-qardaşı
Düşündülər: "Axmasa bu torpağa göz yaş!,

Ayaqyalınlar bizim başımıza çıxarlar.
Qurduğumuz büsatı bir zərbəylə yıxarlar".
Kəndlilərə açıldı xanın əmrilə atəş,
Buludlarda gizləndi utandığından günəş.
Xanın murdar niyyəti bir anda üzə çıxdı,
Sarayın qabağında o gün qan dizə çıxdı.
Hamı köməyə getdi bizim kənddən o kəndə,
Baxma, saçım-saqqalım ağdır-ordaydım mən də.
Tüfənglər işə düşdü... od püskürdü müsəlsəl,
Yoxlayıb səngərləri gəzirdi ovçun əcəl.
Nərimanın atası lap qabaq səngərdəydi,
Onun qəlbinə güllə mənim yanımda dəydi.
Güllədən tüfənginin parçalandı qundağı,
Yarasından axan qan qızartdı boz torpağı.
Gözləri axa-axa tüfəngi verdi mənə,
Dedi: - Nərimanımı tapşırıram mən sənə.
Qoy alsın düşmənimdən mənim intiqamımı,
Fələk qəlbimdə qoydu gül açmamış kamımı...
Nərimanın atası can verdi qucağımda:
Elə bildim, tufanlar əsdi könül bağımda,
Birdən ayağa qalxıb - Hücum! - deyə bağırdım,
Öz dostlarımla birgə yüzədək yağı qırdım.
Qan ləkəli tüfəngi gətirdim Nərimana,
Məni sözsüz anlayıb ürəyi döndü qana,
Bax, həmin bu otaqda od saçıb nəfəsindən:
"Atamın qisasını alacağam, - dedi, mən..."
On ikinci tüfəngin tarixi budur, oğlum.
Ağlama, Nərimanım, bəsdir, qurbanın olum...
Gözü yaşlı öz oğlunu ana basıb bağrına,
Dedi: - Bala, mən yaxınam sənin ürək ağrına.
Qoymamışdır göz açmağa bizi düşmən həyatda,
Görməmişik bircə ağ gün nə sən, nə mən həyatda.
Göz yaşının arasından yaxşı baxsan əgər sən,
Ürəyinin yarasını ürəyimdə görərsən.
Zaman məni tez ayırdı sənin əziz atandan,
Könlüm, eşqim ayrılmayıb o torpaqda yatandan.

Nəfəsindən onun doğma nəfəsini duyuram,
Qabaqdakı döyüşlərdə nərəsini duyuram.
Sən qalmısan mərd atandan mənə təkcə yadigar,
Nərimanım, bilirsənmi, ürəyimdə nələr var? –
Bir dəhşətli intiqamçın bəsləyirəm səni mən,
Hətta, bəzən, yuxumda da səsləyirəm səni mən.
Dərdli ana sığallayıb öz oğlunun başını,
Öpə-öpə sildi ağlar gözlərinin yaşın.
Dilə gəlib qoca dedi: - Heç qəm yemə, Nəriman,
Unutma ki, belə getməz bu yaşayış, bu dövran,
Əmniyyələr çox da sənin quş qəlbini qanatdı,
Zənn etmə ki, azadlığın göylərində gün batdı.
Dözə bilməz bu dərdlərə, əzablara kənd, şəhər,
Bir gün səhər bayraq kimi qızaranda şəfəqlər.
İlk baharın müjdəçisi qaranquşlar gələndə,
Qərənfillər, yasəmənlər, qızıl güllər güləndə,
İgid ellər baş qaldırıb qoşulanda üsyana,
Dağlar, daşlar lalə kimi boyananda al qana,
İgid bala, sən də o gün başqa tüfəng taparsan,
Üsyan etmiş kütlələrin ən önündə çaparsan.
Dərdli anan yəhərləyər onda sənin atını,
İntiqamla doğruldarsan öz müqəddəs andını!
Bu sozlərdən qüvvət alıb dağa döndü ürəklər,
Gülümsədi Savalanın köksündəki çiçəklər.

*1947*

## DÖNƏ-DONƏ XATIRLAYIN

*Şəhidlərin xatirəsinə*

Yollar... ulu babaları görən yollar,
Nəsillərə tarixlərdən hər gün xəbər verən yollar -
Elə xanlı kitabdır ki, hər ocaqda sorağı var,
Torpağının sanı qədər varağı var:
Yüyürmüşük süngülərin, alovların arasıyla,
Yüyürmşüşük Berlinədək bağrımızın yarasıyla.
Həyat deyə, zəfər deyə adımızı həkk etmişik -
Divarları güllələrdən dəlik-dəlik
Zülm ocağı Reyxstaqa,
Qan çanağı Reyxstaqa.
Ey bu günün, ey sabahın nəsilləri,
Yaxşı-yaxşı öyrənin siz o illəri,
Qardaş sovet ellərində
Pianonun dillərində, kamançanın tellərində,
Dillərində Qlinkanın, Üzeyirin mahnıları,
Rusiyanin, bizim yerin mahnıları,
Məclislərdə bir-birilə öpüşəndə piyalələr,
Könüllərdə çağlayanda şəlalələr
Məhəbbətlə şahidləri xatrlayın,
Şöhrətimiz igidləri xatırlayın.
Canilərin məzarını qazanları xatırlayın,
Al qanıyla qalibiyyət dastanları yazanları
xatırlayın!

Alçaqların budaqları bürünəndə qar kimi ab çiçəklərə,
Könüllərin qartalları baş çəkəndə yüksəklərə,
Üzümlərin salxımına xal düşəndə,
Fərqi nədir, ya səşənbə, ya düşənbə -
Qızaranda qızıl qumlar isti cənub küləyindən,
Əncirlərin damla-damla bal damanda göbəyində,
Hərbin uzun yollarını yoranları xatırlayın!
Düşmənləri ürəyindən vuranları xatırlayın!

Bakıda, ya Lənkəranda
Göy sulara tor atanda,
Şişirdəndə əsən yellər yelkənlərin yanağını,
Axşam-səhər
Quş qanadlı ağ ləpələr
Öpüşüylə oxşayanda sahillərin ayağını,
Əl-üzünü yuyanda o sərt qayalar,
Çığrışanda dənizlərin öz şairi - qağayılar
Bir zamanlar bu yerlərdə gəzənləri xatırlayın,
Bu günlərçin min əzaba dözənləri xatırlayın...

Məktəblərdə imtahanlar başlananda,
Ürəklərdə həyəcanlar başlananda
Özünüzü ələ alın,
Andınıza sadiq qalın.
Dünən qanlı cəbhələrdə
Qələm çəkib bütün dərdə,
İmtahandan alnıaçıq çıxanları xatırlayın,
Faşizmin qan sarayını yıxanları xatırlayın!
Ağacların kölgəsində bardaş qurub oturanda,
Kabab üçün manqallara od vuranda;
Bağçaların ilk meyvəsi yeyiləndə,
Gözəl sağlıq deyiləndə,
Qızılgüllər dəryasında şair kimi söz tapanda,
El bağında dağ gövdəli ağaclardan tut çırpanda
Yanınızda görünməyən adamları xatırlayın,
Nakamları xatırlayın!
Təzə, qəşəng mənzillərin açarını alan zaman,
Sevinclərlə qapılara salan zaman,
Vətənin, millətini unutmayan,
Dədələrin-babaların qeyrətini unutmayan,
Başdaşısız qəbirləri bilinməyən,
Məhəbbəti ürəklərdən silinməyən,
Elimizdən uzaq düşən oğulları xatırlayın,
Gözümüzdən iraq düşən oğulları xatırlayın!
Abşeronda, Şamaxıda, Qarabağda, Naxçıvanda,
Vətənimdə hər məkanda

Səadətlər baharını seyr edəndə,
Durnaların üçbucaqlı qatarını seyr edəndə,
Dinləyəndə büllur gözlü bulaqların nəğməsini,
Təbəssümü şerə sığmaz dodaqların nəğməsini,
Son nəfəsdə - Vətən - deyən, - ana - deyən oğulları
xatırlayın!
Anaları - balam - deyib, qara geyən, oğulları
xatıriayın!

İlk baharın ilk axşamı
Rəng-rəng şamı
Səməninin düzüb dörd bir tərəfinə,
Yandıranda dünyamızın şərəfinə
Yuvanızdan uçub gedən qartalları xatırlayın,
Köçüb gedən qartalları xalırlayın!

Oğlan qızı, qız oğlanı bəyənəndə,
Məhəbbətdən ürəkləri döyünəndə;
Qızın qızıl barmağına qızıl üzük taxılanda,
İpək paltar cehizinə baxılanda.
Qarışanda bir-birinə kamançanın, tarın səsi,
Xoş mahnıya çevriləndə yarın səsi
Bu çağlarçün candan keçən balaları xatırlayın,
Qandan keçən balaları xatırlayın!
Baharını ömrünüzün baharına qatanları xatırlayın.
Bu müqəddəs torpaq altda yatanları xatırlayın!

Ey analar, ey bacılar, ey atalar, ey oğullar,
Şəhidlərin al qanıyla qızarmışdı dünən yollar.
Onlar Vətən qeyrətini qorudular...
Tarix boyu biz onları cərgəmizdə görməliyik,
Çiçəklənən, gözəlləşən ölkəmizdə görməliyik.
Ey nəsillər,
Ötüşdükcə aylar, illər
Cəsarətlə ölümlərin gözlərinə axanları xatırlayın,
Cəlladların başı üstə şimşək kimi çaxanları
xatırlayın!

Zəfər günü, axşam üstü,
Şəhərlərin üzərindən çəkiləndə duman, tüstü;
Göy üzündə sayrışanda zəfərlərin fişəngləri,
Andıranda çəməndəki çiçəkləri;
Dodaqlarda görünəndə təbəssümlər,
Könüllərin sarayında səslənəndə sarı simlər
Sizin kimi dünən deyib-gülənləri xatırlayın,
Canından çox el qədrini bilənləri xatırlayın.
El içində əzizlərdən əzizləri xatırlayın,
Ürəkləri təmizlərdən təmizləri xatırlayın!

Ey insanlar! Asta gəzin torpaq üstə bahar çağı,
Torpaq altda yüz-yüz, min-min ürək yatır.
Yox, yox, hələ sağalmayıb anaların sinə dağı,
Torpaq altda yatanların əməlləri həyatdadır.
Ey insanlar! Fikir verin sözlərimə,
Şəhidləri düşündükcə yuxu getmir gözlərimə.
Çəmənlərdə, bağçalarda gördüyünüz tər çiçəklər,
Bahar çağı dərdiyiniz tər çiçəklər,
Torpaq altda yatanların arzusudur, diləyidir,
Heykəlləri gül-çiçəyə batanların arzusudur, diləyidir.
Ey insanlar, yer üzündə yenə "qan-qan" deyənlər var,
Qəsbkarlıq həsrətilə yanıb qara geyənlər var.
Beşikdəykən qundağında boğun hərbin balasını,
Qoy çəkməsin bəşər bir də cəlladların bəlasını!
Ey insanlar! Ayıq olun,
Sayıq olun!
Dünən yerdə, göydə qopan tufanları xatırlayın,
İnsanlığı xilas edən insanları xatırlayın.
Xatırlayın, xatırlayın! Yenə, yenə xatırlayın,
Dönə-dönə xatırlayın, dönə-dönə xatırlayın!

# Xatirələr

# AĞAMALIOĞLU

Azərbaycan xalqının mübariz, müdrik oğullarından biri də şöhrəti vətən hüdudunu aşmış Səmədağa Ağamalıoğludur. Xalq, vətən qarşısında bu yorulmaq bilməyən inqilabçının, mütəfəkkirin xidmətləri çoxdur.

Ağamalıoğlu bir sıra mühüm, məsul, rəhbər vəzifələrdə işlərkən həmişə xalq arasıda olmuş və onunla bir nəfəs almışdır.

Səmədağa səhhətinin ağır vaxtlarında belə xalqa, vətənə bütün varlığıyla xidmətdən ayrılmamışdır. O, xalqın ruhunu bilirdi, qəlbinə asanlıqla yol tapmağı bacarırdı. Onu görənlər onunla birlikdə çalışanlar bu adamın nə qədər mədəni, nə qədər uzaqgörən, nə qədər hazircavab və nə qədər xeyirxah olduğunu çox yaxşı bilir. Səmədağa işsiz darıxırdı, xəstə vaxtlarında belə respublikanın dövlət işlərilə, yeni, latın əlifbasının həyata keçirilməsi məsələlərilə ciddi məşğul olurdu. O vaxt Səmədağaya yeni əlifbanın atası deyirdilər. Bir söhbət də camaat arasında çox yayılmışdı, guya əfqan şahı Amanulla xan Bakıdan vətənə qayıdarkən Ağamalıoğlu ona deyib ki, "sən allah Amanulla, Əfqanıstanda yeni əlifbanı yaymağı unutmayasan ha".

Bu söhbətin bir səbəbi də odur ki, Ağamalıoğlu hər məclisdə, hər yerdə müxtəlif söhbət əsnasında yeni əlifbadan odlu-odlu danışmasaydı olmazdı. Hətta bəziləri zarafatla deyirlər ki, günlərin bir günündə Səmədağa latın əlifbasını ərəblərə də qəbul etdirəcəkdir. Gənclik illərini xatırlayıram. Biz bu adama böyük məhəbbət bəsləyirdik.

Səmədağa Azərbaycan Dövlət Universitetinin qapısıyla üzbəüz Kommunist küçəsilə Poluxin küçəsinin tinindəki evin ikinci mərtəbəsində yaşayırdı. Çox vaxt gənclər, tələbələr qarşıdakı səkiyə toplaşıb balkonda mizin üstündəki kağızları nəzərdən keçirə-keçirə çay içən Səmədağaya məhəbbətlə baxırdılar. Maşına minib işə gedəndə, işdən gələndə onunla əl verib səmimi salamlaşardılar. Ayaqüstü ona dərdlərini deyərdilər, məktublarını verərdilər. Səmədağanın çox bacarıqlı bir köməkçisi vardı. Təəssüf ki, onun adını unutmuşam. O rus dilini gözəl bilirdi. Bizim bir sıra şeirlərimizin, hekayələrimizin hərfi tərcüməsini bu adam edərdi.

O bizə deyərdi ki, Ağamalıoğlunun adına gələn saysız-hesabsız məktubları, ərizələrin biri də cavabsız, nəticəsiz qalmır.

Həmin yoldaşın vasitəsilə (Səmədağa xəstə ikən) yazıçılar cəmiyyətimizin bir sıra ehtiyacını düzəltmək üçün onun evinə qəbula getdim. Oradan ümidsiz qayıtmadım.

Əliheydər Qarayev, Həmid Sultanov, Dadaş Bünyadzadə, Teymur Hüseynov kimi partiya, dövlət xadimləri, Məmməd Səid Ordubadi, Süleyman Sani Axundov, Hacı Kərim Sanılı, Hacıağa Abbasov, Mirzəğa Əliyev, Hüseynqulu Sarabski, Rza Darablı kimi mədəniyyət, sənət xadimləri tez-tez onun evində görünərdilər. Ağamalıoğlu həmişə mədəniyyət xadimlərimizin taleyi ılə maraqlanır, ədəbiyyatımızın, sənətimizin inkişafı üçün əlindən gələni əsirgəmirdi. Onu səhnə əsərlərinin ilk tamaşalarında görərdik. Əsərlər və tamaşalar haqqında fikirlərini söylərdi.

Ağamalıoğlu klassik və müasir ədiblərimiz haqqında bir marksist kimi mətbuatda və şifahi çox qiymətli fikirlər irəli sürmüşdür.

Mirzə Fətəli Axundovun "Kəmalüddövlə məktubları"nın Ağamalıoğlunun giriş sözüylə, latın əlifbası ilə çapdan çıxması o zaman böyük bir hadisəyə çevrildi. Bu əsər ilk dəfə idi ki, Ağamalıoğlu tərəfindən marksizm nöqteyi-nəzərindən təhlil edilirdi.

Səmədağa Mirzə Fətəli Axundovun yaradıcılığına çox yüksək qiymət verirdi. Onun fikrincə, rus ədəbiyyatı üçün Puşkinin etdiyini Mirzə Fətəli də Azərbaycan ədəbiyyatı üçün etmişdir.

Ağamalıoğlunu xalqa sevdirən ondakı bu məziyyətlərdi.

Yadımdadır. Bir dəfə Ağamalıoğlu çox ağır xəstələnmişdi. Əzizbəyov adına xəstəxanada cərrahlar onun ayağında ciddi əməliyyat aparmışdılar.

Xəstəxananın küçəsində maşın gediş-gəlişi dayandırılmışdı.

Şəhər əhalisi onun səhhətindən çox nigarandı. Adamlar dəstə-dəstə gəlib qapıda onun vəziyyətini soruşub gedirdilər.

Bu xəstəxana küçəsindən keçən adamlara dıqqət etsəydiniz onların ağır, yavaş, ehtiyatlı addımlarla yol keçdiyinin şahidi olardınız. Onlar Səmədağanın dincliyini pozarlar deyə belə ehtiyatla yol keçirdilər.

Mən Ağamalıoğlunu dəfələrlə opera, dram teatrı səhnəsindəki "Yeni yol" qəzeti klubundakı tribunalarda nitq söylərkən dinləmişəm. O, çox odlu danışan, mahir bir natiq idi. Ağamalıoğlu danışarkən bütün salon dərin sükut içində onu dinlərdi. Səmədağa bəzən o qədər həyəcanlanardı, qəzəblənərdi ki, quruluşumuzun düşmənlərinin ünvanına bəzən bir para ağır sözlər deyərdi.

Ağamalıoğlu Mərkəzi İcraiyyə Komitəsinin sədri vəzifəsində çalışarkən bir neçə dəfə onun yanında olmuşam. O zaman Azərbaycan proletar yazıçıları cəmiyyətinin sədri Teymur Hüseynov, katibi isə mən idim. Teymur Hüseynov eyni zamanda Mərkəzi Komitənin şöbə müdiri və yeni əlifba komitəsi sədrinin (Ağamalıoğlunun) müavini idi. O vaxt ədəbi təşkilatımızın maliyyə işləri o qədər da yaxşı deyildi. Bizə maliyyə cəhətdən ciddi kömək lazımdı. Bu köməyi isə biz çox vaxt Səmədağadan gözləyirdik. Bir gün Teymur Hüseynov dedi ki, bax, məndən olmasın, mənim heç nədən xəbərim yoxdur. Sən bir Ağamalıoğlunun yanına get. Nəşriyyat işləri üçün vəsaiti ancaq sizə o verdirə bilər. Ancaq orda səhvin, filanın olmasın. O səndən nəşr olunacaq əsərlərin hansı əlifbada çap ediləcəyini soruşacaq. Sənin cavabın bu olmalıdır. "Əlbəttə, yeni əlifba ilə". Məni onun başqa müxtəlif suallarına cavab verməyə hazırladılar. Lakin məsələ tamamilə başqa rəng aldı. Məni Ağamalıoğlunun yanına buraxdılar. İçəri girən kimi o mənə oturmağı təklif etdi. Onun baxışları adamın qəlbinin dərinliklərinə qədər nüfuz edirdi. Simasında bir atalıq, bir müəllimlik görkəmi vardi. Əvvəlcə təşkilatımızda olan gənc yazıçılarn sayı ilə və kimlərdən ibarət olduqlarıyla maraqlandı. Sonra bu gənc yazıçıların nədən və necə yazdıqlarını xəbər aldı. Daha sonra əsərlərimizin çap olunub olunmamasını soruşdu. Bu suallara cavab aldıqdan sonra təxminən belə dedi: "Sözlərimi cavan yazanlara çatdırarsan. Cavanlar bizim gələcəyimizdir, ümidimizdir, çalışın həmişə xalq içində olun, onun istədiyini yazın, elə yaxşı yazıçılarımız var ki, əsərlərini oxuyub heyifsilənirsən ki, niyə elin başa düşəcəyi ana dilində yazmırlar, biz nə farsıq, nə ərəb; özümüzün təmiz gözəl ana dilimiz var".

Səmədağa sözünü Mirzə Fətəlidən, Sabirdən söhbətlə tamamladı.

Bir azdan kabinetindəki bəzi şeyləri göstərib məndən adlarını soruşdu. Ərəb, fars sözü eşidən kimi məni saxlayıb gülümsəyərək həmin şeylərin adını azərbaycanca dedi.

Nəhayət nə üçün gəldiyimi soruşdu. Mən ona nəşriyyatımızın maliyyə cəhətdən çox ağır halda olduğunu ətraflı danışdım. O mənə belə bir sual verdi.

- Yaxşı, oğlum, de görək çap etmək istədiyiniz kitablar, yazılar hansı əlifba ilə olacaq?

Mən ona həqiqəti söylədim.

- Bu vaxta kirai kitablarımız ərəb əlifbası ilə nəşr olunmuşdur. : Sizə söz veririk ki, yazılarımızı yeni əlifba ilə çap edəcəyik.

Cavabım Ağamalıoğlumın çox xoşuna goldi. Gözlərində, dodaqlarında razılıq təbəssümü göründü. Mənə yeni əlifbanın xalqımız üçün, bütün Şorq millətləri üçün böyük, misilsiz əhəmiyyətindən danışdı.

Bu görüşümüzdən sonra Ağamalıoğlu vədini yerinə yetirib proletar yazıçıları cəmiyyətinin maliyyə vəziyyətinin yaxşılaşmasına kömək etdi. Biz cavan yazıçıların bu xalq adamına, dövlət xadiminə hörməti, məhəbbəti qat-qat artdı.

Həmişə onun iştirak etdiyi məclislərə gedib ona qulaq asmağa can atardıq. Yadımdadır, bir dəfə! "Yeni yol" qəzeti klubunda ədəbiyyatmız haqqında müzakirə gedirdi.

Ağamalıoğlu da bu yığıncaqda idi. Gənc ədəbiyyatçılarımızdan biri M.Rəfili çıxış edərkən tribunadan Mirzə Fətəli Axundovun ərəb əlifbası ilə çap edilmiş pyeslər kitabın havaya qaldıraraq, Azərbaycan ədəbiyyatının böyük taleyi, dünyaya tanıtdırılacaq irsi olmadığından bəhs açdı. Salonda bir uğultu oldu. Səmədağa Ağamalıoğlu yerində rahat dayana bilmədi. İclası aparan sədrdən icazə almadan odlu bir nitq söylədi. Dəlillərlə bizim çox zəngin, dünyanı heyran edəcək, ədəbi irsimizin qüdrətli nümayəndələrinin adlarını çəkdi. Xüsusilə Mirzə Fətəli Axundovun ödəbi irsindən, millətimiz üçün gördüyü işlərdən danışdı. Salonda toplaşanlar Ağamalıoğlunun çıxışını uzun sürən alqışlarla qarşıladılar.

Cavan ədəbiyyatçı qızarıb pörtmüşdü.

Sonralar həmin gənc ədəbiyyatçı öz səhvlərini dərinən başa düşdü. Mirzə Fətəli Axundov haqqında çox qiymətli elmi əsəryazdı. Ömrünün axırına kimi Mirzə Fətəli yaradıcılığının təbliğatçısı oldu.

Mən Ağamalıoğlu haqqında bildiklərimi yazdım. Lakin bu dövləl xadiminin həyat və fəaliyyəti haqqında qalın kitablar yazıla bilər.

## CƏLİL MƏMMƏDQULUZADƏ

Azərbaycan ədəbiyyatında çox sevdiyim şəxsiyyətlərdən biri də unudulmaz Cəlil Məmmədquluzadədir.

Mən gənclik illərindən onun əsərlərini maraqla izləyir və böyük məhəbbətlə oxuyurdum. Ədibimiz əsərlərində xalqımızın keçmiş

dövrdəki yaralarını bir cərrah əliylə yoxlayır və onun sağalmasına yollar axtarırdı.

Azərbaycan xalqı azadlığa çıxdıqdan sonra Molla Nəsrəddinimizin artiq öz satira silahını inqilabın fütuhatına əngəl törədənlərə, yeni cəmiyyətin düşmənlərinə, millətin gozündən dini mövhumat pərdəsi asmaq istəyən ruhanilərə qarşı çevirdi. Mən Cəlil Məmmədquluzadə ilə Nərimanov adına Sənaye Texnikumunda oxuyarkən yazdığım kiçik xəbərləri "Molla Nəsrəddin" məcmuəsinə apardığım zaman tanış oldum. Sonralar onu tez-tez görürdüm. Mən o zaman "Azərbaycan gənc qələmlər ittifaqı"nda çalışırdım. Onu mədəniyyətimizlə, ədəbiyyatımızla əlaqədar təşkilatlarda tez-tez görərdim.

1928-ci ildə türk işçi-kəndli teatrında Cəlil Məmmədquluzadənin "Anamın kitabı" əsəri tamaşaya qoyulmuşdu. Mən öz daimi biletimlə səhnə ilə üzbəüz lojada oturmuşdum. Cəlil Məmmədquluzadə öz həyat yoldaşı Həmidə xanımla birlikdə həmin lojada idi. Tamaşada respublikamızın istedadlı artistləri iştirak edirdi. Onu da deyim ki, o zaman artistlərimiz səhnədən müəlliflərin əvəzinə özlərindən əlavə sözlər uydurub söyləməkdən çəkinmirdilər.

Tamaşa əsnasında üç oğul ana ilə bacılarını ərə vermək haqqında söhbət edirdi. Türkiyədə təhsil almış oğlunun rolunu ifa edən Kazım Ziya anasına belə dedi:

- Annəciyim, həmşirəmizi mütləq bir qocaya vərməliyiz.

Ana - Ay oğul, sən nə danışırsan, bacına yazığın gəlmir. O bədbəxti niyə həmşərəyə, özü də qoca həmşirəyə verək axı?

Peterburqda təhsil almış oğlunun rolunu oynayan Ağasadıq Gəraybəyli isə anasına belə müraciət etdi:

- Mama, sestramızın əsl ərə çıxan vaxtıdır, ya nə vozrajayu.

Salonda şiddətli gülüşlər oldu. Bu dəmdə Mirzə Cəlil üzünü mənə tutub dedi:

- Bala, bəlkə sən bilirsən, bu əsəri kim yazıb?

Bu sual məni heyrətə saldı. Cürətlənib dedim:

- Mirzə bu əsər sizindir axı.

O:

- Bəli, bəli, hər kim yazıbsa bəd yazmayıb, deyib başını buladı və fikrə qərq oldu.

Mirzə Cəlil artistlərin atdığı şarjlara etirazını yalnız bu iki cümlə ilə bildirdi. Tamaşa çox gözəl idi. Lakin sənətkarlarımızın bəzi sərbəst hərəkətləri Mirzə Cəlili narahat etmişdi.

Yadımdadır. Bakıda qonaq olmuş gürcü yazıçıları vətənlərinə qayıdarkən bizi Gürcüstana dəvət etdilər.

Biz 1929-cu ilin may ayında Tiflisə yola düşməli olduq.

Nümayəndə heyətində Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Süleyman Sani Axundov, Abdulla Şaiq, Cəfər Cabbarlı, Əhməd Cavad, Hacı Kərim Sanılı, Cabbar Əfəndizadə, Seyid Hüseyn, Xəlil İbrahim, Əminbəyli, gənclərdən Mikayıl Müşfiq, Məmməd Rahim və mən vardıq. Onu da deməliyəm ki, böyük ədibimiz Cəfər Cabbarlı ilk dəfə idi ki, Biləcəri sərhədini keçirdi. Heyəitn sədri Haqverdiyev, katibi mən idim. Haqverdiyev mənə daha çox öz şəxsi katibi kimi baxırdı. İki həftəyə qədər sürən bu səfərdə xeyli söhbətlər oldu, xeyli nitqlər söyləndi. Mirzə Cəlil isə demək olar ki, cümlətani iki-üç varağa qədər söz deyə bilmişdi. O hər məsələyə ya bir sual ya bir cavab ilə müdaxilə edərdi.

Səfərə çıxmaq üçün bizə maarif komissarlığından bilet əvəzinə tələbə bileti (pulsuz bilet) verdilər. Bakı vağzalının bufetində canlı heykələ bənzəyən sədrimiz Əbdürrəhim bəy Haqverdiyev şirin-şirin söhbət edirdi. Mən biletləri qeyd etdirməyə gedərkən Mirzə Cəlilə müraciət etdim.

- Mirzə, siz Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin namizədisiniz. Sizə yumşaq vaqona pulsuz bir yer ala bilərəm.

O qoltuq cibindən vəsiqəsini çıxarıb mənə uzatdı...

- Xeyr, elə məni də yoldaşlar gedən vaqona qeyd etdir.

Mən getmək istərkən əlavə etdi.

- Xob, deyirsiniz ki, mənim bu namizədlik kitabçamla pulsuz-parasız bilet almaq olar?

- Bəli, Mirzə.

- Bəs onda niyə belə?

Mən əvvəl bu sualın mənasını başa düşmədim. Bunu sonra dərk etdim. Molla Nəsrəddin demək istəyirdi ki, bala, indiki İcraiyyə Komitəsinin üzvü də, namizədi də qatarla pulsuz səfərə çıxa bilər, bəs onda niyə məni üzv yox, namizəd seçiblər?! Elə üzv seçəydilər də.

Vaqonumuz bir qədər qaranlıqdı. Gürcü dostlarımızın bizi hansı vaqon qarşısında qarşılaması bizi düşündürürdü. Bir səslə qərara aldıq ki, böyük yazıçılarımız qatar Tbilisiyə çatana yaxın yumşaq vaqonlara gedib ordan düşsünlər.

Haqverdiyev, vaxtımız cansıxıcı keçməsin deyə öz həyatından bizə çox maraqlı səhnələr söyləyirdi.

Molla əmi isə əsasını çənəsinə dayayıb gözlərini bir nöqtəyə zilləyərək sakitcə dinləyir və nə haqdasa düşünürdü.

Artıq səhər açılırdı. Vaqonumuz da işıqlandı. Qatar Tiblisi vağzalına yaxınlaşırdı. Heç kəs yerindən qalxmaq istəmirdi. Haqverdiyevlə Mirzə Cəlil hamıdan tez durub əl-üzlərini yuyub geyinmişdilər. Haqverdiyev bir sədr kimi bizə müraciət etdi:

- Uşaqlar, Tbilisiyə az qalır. Tez, qalxın, əl-üzünüzü yuyun!

Yoldaşlarda bir hərəkət əlaməti görünmədi. Hamı kal oyanmışdı.

Bu zaman hər şeyi dərindən duyan Mirzə Cəlil Haqverdiyevin dadına çatdı.

- Əbdürrəhim, uşaqlar əl-üzlərini yumasalar yaxşıdır. Qoy Tbilisi camaatı görüb və agah olsun ki, biz mazutlu Bakıdan gəlirik, bəli, bəli, mazutlu, Bakıdan.

Bu sözlər hədəfə dəydi. Hamı əsgərsayağı qalxıb cəld əl-üzünü yumağa getdi.

* * *

Tbilisidə Azərbaycan yazıçılarının şərəfinə verilən qonaqlıqların birində Gürcüstan Yazıçılar İttifaqında çalışan bır qız oturmuşdu. Mirzə Cəlil qızın sol tərəfindəydi. Mirzə Cəlil hərdənbir əlindəki "Zarya Vostoka" qəzetilə qızın üzünü yelləyir və qulağına nə isə pıçıldayırdı.

Birdən gürcü qızı mənə donuz əti təklif etdi. Mən yeməkdən imtina etdikdə qız pərt olub dedi:

- Yeməsəniz durub yanınızdan getməyə məcburam. Qonağa nə versələr, yeməlidir.

Molla əmi də ona havadar çıxdı.

- Bala, niyə yemirsən? Ye, halalın olsun.

Mən çıxılmaz vəziyyətdə qalıb naçar... ilk və son dəfə o məclisdə donuz əti yedim.

Molla əmi gülümsəyərək dedi:

- Bala, daha sən müsəlmanlıqdan çıxdın, mübarək olsun!

Mən Molla əminin məclisdə qızla pıçhapıçının mənasını sonra başa düşdüm.

Tbilisidə xoş günlər keçirdik. Oradan gürcü yaziçılarıyla birlikdə Ermənistan yola düşdük.

Yollarda sədrimiz Haqverdiyev bolluca nitqlər deyirdi. Sevanda Mirzə Cəlil buz kimi suda çimərkən mahir üzgüçü olduğunu nümayiş etdirdi.

Ermənistanın paytaxtı Yerevan şüarlarla bəzənmişdi. Məclislərdən dostluq sədaları yüksəlirdi.

Bir gün Ermənistan torpaq komissarlığının həyətində toplaşmışdıq. Tut təzəcə yetişirdi. Bağçada qocaman bir tut ağacı vardı. Mirzə Cəlil ağaran tutları nəzərdən keçirib dedi:

"Niyə, bəd deyil". Mən ağacın bir qoluna dırmandım. Budaqları silkələdim. Yaşıl otların üstü qar kimi ağardı. Mirzə Cəlil və digər yazıçılarımız tut yeməyə girişdilər. Elə bu vaxt gözü qara eynəkli, əli əsalı, uzun çənə, mıx burun, ariq bir adam Molla əmini ağac altında yaxaladı. Mən tez ağacdan endim. Mirzə Cəlil ağac altında dövrə vurduqca, həmin adam da onu qarabaqara izləyib dəftərçəsindən ona öz şerini ucadan oxuyurdu. Həmin şerin bir bəndi yadımdadır.

İravan şəhərinə diqqət elə gör kimlər gəlib.
Bakıdan bizə qonaq hörmətli cimlər gəlib.

Bu adam gözlərini Molla əmiyə zilləyərək, öz şeri haqqında, onun fikrini bilmək istəyirdi. Mirzə Cəlil ona dedi: "Bəli, cimlər gəlib. cimlər, bəd deyil". Eynəkli adam ikiqat olub təşəkkür edəndən sonra hansı qəzet redaksiyasına isə daban aldı. Eynəkli adam "cimlər gəlib" deyəndə adları, familiyaları cimlə başlayan Mirzə Cəlili, Cəfər Cabbarlını, Əhməd Cavadı və Cabbar Əfəndizadəni nəzərdə tutmuşdu.

Bir gün Mirzə Cəlilin könlünə Naxçıvanı görmək düşdü. Bu barədə Haqverdiyevlə danışdı və onun boynuna qoydu ki, bu səfər getmək üçün heyətimizin baş rəhbəri Əminbəylidən icazə istəsin. Əminbəylinl tanıyanlar bilir ki, o necə qanunbaz bir adamdı. Mirzə Cəiil və Haqverdiyev Əminbəylinin yanına getdi. Özünü qabağa verib Haqverdiyev bu xahişi Əminbəyliyə dedi. Əminbəyli özündən çıxdi.

- Bu nə oyundur, canım? Bu axmaq fikir kimin başına gəlib? Dəstədən bir dəqiqə də ayrılmağa ixtiyarınız yoxdur... vəssalam.

Haqverdiyev dediyinə peşman olub başını aşağı saldı.

Mirzə Cəlil acı təbəssümlə ona dedi:

- Əbdürrəhim, mən səni ağıllı adam bilirdim. Bu axmaq fikir sənin başına hardan gəldi?..

O gün Haqverdiyevin üzü gülmədi.

Səfəri başa vurub erməni yazıçılarıyla birlikdə Yerevandan Azərbaycana yola düşdük. Yolüstü qonaqları bir neçə rayon və şəhərlərimizə apardıq. Bu zaman Azərbaycan diviziyası həmin şəhərlərin birində təlim keçməkdəydi. Ordu hissələri musiqi müşayiətilə qarşımızdan keçirdi. Haqverdiyevlə Şirvanzadə bir təpədə yan-yana durub nümayişi qəbul edirdilər. Şirvanzadə də tez-tez deyirdi:

- Salam, yoldaşlar!

- Əleyk salam.

Şirvanzadə:

- Yaşasın Şura Edirbecan.

Əsgərlər:

- Urra! - deyə cavab verirdi.

Haqverdiyev və Şirvanzadə yaman yorulmuşdu. Nümayişin sonunda diviziya komandiri zabit və əsgərlərə nə barədə isə əmr verdi. Birdən polad biləkli əsgərlər Haqverdiyevlə Şirvanzadəni alıb tutmağa başladılar.

Şirvanzadənin və Haqverdiyevin göylərə ucalan nalə və fəryadları əsgərlərin urra sədaları altında batıb gedirdi. İki ətli-canlı qocanınan ədibin halı çox pisdi. Hamımız özümüzü itirdik. Tez diviziya komandirinə müraciət etdik. Komandirin əmrilə əsgərlər nəhayət, bihal olmuş Şirvanzadədən və Haqverdiyevdən əl çəkdilər. Artıq iki möhtərəm yazıçı otların üstündə arxası üstə zorla ağır nəfəs alırdı. Onlar ancaq bir neçə dəqiqədən sonra özlərina gəla bildilər. Bu mənzərəni seyr edən Mirzə Cəlil gülümsəyərək dedi:

- Döşünü qabağa verənin, çox danışanın aqibəti bax belə olar.

Niyə, bəd deyil.

* * *

Mirzə Cəlilin böyüklüyü, necə qüdrətli qələm sahibi olduğundan, alimlərimiz, ədəblyyatşünaslarımız öz ürək sözlərini demişlər və bundan sonra da deyəcəklər. Mənim payıma isə ounn həyatında baş vermiş bəzi hadisələr düşmüşdür. Mirzə Cəlil aramızdan gedəndən sonra hər yerdə onun adını eşidirdim.

1941-ci ildə ordu sıralarında Təbrizdə olduğum zaman "Molla Nəsrəddin" məcmuəsinin orada nə kimi mühüm rol oynadığının şahidi oldum.

Bir gün Təbrizli professor Fəxri Ədhəm bizi evinə qonaq çağırdı.

O böyük məhəbbətlə Mirzə Cəlildən canlı, maraqlı xatirələr danışırdı.

Vaxtilə Mirzə Cəlil İran səfərində Təbrizdə Fəxri Ədhəmin evində çox əziz qonaq kimi yaşamışdı. Professor Fəxri Ədhəm bizə divardan asılmış bir şəkil göstərdi. Bu ailəvi şəkildə Mirzə Cəlil də vardı.

Cəlil Məmmədquluzadə öz "Ölülər" əsəri kimi ölməzdir. Onun əsərləri hərəkətdədir, yaşayır və yaşayacaqdır. Mənə elə gəlir ki, Cəlil Məmmədquluzadə xalq tərəfindən sevil-sevilə oxunmasına öz vətənindən uzaqlarda belə şöhrət tapmasına belə qiymət verər: "Niyə, bəd deyil".

## XƏYALIMDA MİRZƏ FƏTƏLİ CANLANDI

Vətən müharibəsi illərində ordu sıralarında İran Azərbaycanında olduğum zaman gördüklərimi, eşitdiklərimi qələmə alsam böyük bir kitab olar. Əlbəttə, yaxın zamanda oxucularım belə bir kitabı görə biləcəklər.

İran Azərbaycanında üç ədibin adı dillərdən düşmürdü. Biri Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin), biri Mirzə Fətəli Axundov, biri Mirzə Ələkbər Sabir idi.

Bir neçə gün əvvəl qeydlər dəftərçəmi nəzərdən keçirdim. Dəftərçənin bir yerində Mirzə Fətəlinin beş il uşaqlıq çağlarını keçirdiyi Xamnə kəndi haqqında qeydlərə rast gəldim. Mən bu qeydləri 1941 -ci ilin 30 oktyabrında yazmışdım. Onları buraya köçürməyi lazım bildim. Mirzə Fətəlinin uşaqlıq illərini keçirdiyi Xamnə kəndinə gedirik. Təbrizə qastrola gəlmiş opera və balet teatrının artistlərindən bir ncçəsı bizimlədir. Niyazi, Məmmədağı Bağırov, Əlövsət Sadıqov və qeyriləri Xamnədə konsert verəcəklər. Alimlərimizdən Yunis Hacıyev, Səmədzadə və mən bir maşındayıq.

Şəxsən məndə elə bir əhvali-ruhiyyə, elə bir inam vardi ki, guya Xamnədə Mirzə Fətəlini uşaqlıq çağlarında görəcəyəm.

Payızdır, lakin təbiətdə solğunluqdan əsər-əlamət yoxdur. Təbrizdən Xamnəyə 80 kilometrlik yol var. Sofyana qədər şose yoludur. Sofyandan o yana yol daşkəsəkli, dərəli, təpəlidir. Maşınlarımız havaya toz buludları qaldıraraq gedir. Maşınların pəncərələrini örtdüyümüzdən istidən tərləmişik.

Sofyan dəmir yolunun kənarında bağlı, bağatlı böyük bir kənddir. Sofyandan keçərkən kənd əhalisi qarşımıza çıxdı. Kəndlilər bizi çox səmimi, mehribancasına qarşıladilar. İlk dəfəydi ki, Sovet Azərbaycanından gələnlərlə görüşürdülər. Bizimlə qucaqaşıb öpüşdülər. Onlaırn gözləri yaşarmışdı. Bəziləri əllərilə, bəziləri donlarının ətəyilə gözlərinin yaşını silirdi.

Bizi şirin dillə öz yoxsul daxmalarına qonaq aparmaq istədilər.

Tələsdiyimizə görə onlardan üzr istəyib yolumuza davam etdik. Maşınlarımızın arxasınca alqış səsləri ucaldı. Hava çox gözəldi. Ətraf aydın görünürdü. Yol boyu qan qardaşlarımızın taleyini düşütüürdük. Uçan quşları, ötən quşları gördükcə cənublu qardaşlarımızın da belə xoşbəxt pərvazlanmasını arzulayırdıq. Yol üstündə kiçik bir kəndin meydançasında maşınlarımızı yoxlamaqçın dayanmalı olduq.

Burada da kənd adamları pişvazımıza çıxdı. Nimçələrdə bizə üzüm verdilər. Kəndin ağsaqqalı bizə:

- Buyurun, xanəmizdə dincəlin, çay için, - dedi. Biz də təşəkkürümüzü bildirdik. Qocalardan biri gülümsəyərək: "Qorxmayın biz xəsis deyilik. Bizdən ehtiyat eləməyin. Biz sizinlə qardaşıq. Sağ olun, var olun. Nə qədər ki, siz burdasınız, kölgəniz üstümüzdədir, kəndin zalım ərbabından qorxumuz yoxdur. Evimiz sizin evinizdir. Kasıbın olduğundan bir şey taparıq. Bu yerin ən xəsis adamı ərbabdır. Hazırda keşiyini həyətindəki əli silahlı sadiq nökərləri çəkir. Ondan çəkdiyimizi Allah özü yaxşı bilir. Ərbabımızı bizdən yumurta vergisi alanda görsəydiniz özünüzü gülməkdən saxlaya bilməzdiniz. Onun xüsusi bir ölçü daşı var. Vergi vaxtı tərəzinin bir gözünə daşı, bir gözünə isə yumurtanı qoyur, yumurta daşdan bir misqal belə yüngül vəzndə olsa qəbul etmir ki, etmir. Amma siz bu toıpağa ayaq basandan sonra ərbabın tərəzisi, daşı bekar qalıb, danışdığım həqiqətdir". Hamımız güldük.

Mən qocaya dedim ki, yəqin uşaqlıq illərini sizə qonşu Xamnə kəndində keçirmiş Mirzə Fətəlinin Hacı Qarası ilə ərbabınız qohumdur.

Kəndlilərlə səmimi, şirin söhbətdən sonra üzü dağlara sarı hərəkət etdik. Şəbüstər qəsəbəsinə çatdıq. Burada Sabiri Özünə ustad seçmiş

Mahmud ağa Şəbüstərinin qəbrini ziyarət etdik. Mən çöl çiçəklərindən dərib qəbirdaşı üstünə qoydum. Kəndin qocaları, cavanları heyrət içindəydi. Şəbüstərini tanıdığımıza ona hörmət əlaməti olaraq qəbrini ziyarət etdiyimizə məəttəl qalmışdılar.

Kənd uşaqlarıyla, bu haqda söhbət etdim. Onlar məni başa düşdülər. Söz verdılər ki, bayramlarda mütləq Şəbüstərinin qəbrini güllərlə, çiçəklərlə ziyarət edəcəklər.

Şəbüstər daş, kərpic, palçıq evlərdən ibarət yaşıllıqlar içində qərq olmuş gözəl bir kənddir. Uca banlardan göylərə baş qaldırmış meyvə ağacları, nəzərləri oxşayırdı. Şəbüstərdən Xamnəyə doğru yola düşdük. Budur, ədəbiyyat tarixində adı çəkilən Xamnə görünür. Maşınlarımız, kəndin ortasında dayandı. Bir təbii axınla əbali bizə doğru gəlirdi. Biz kənd əhalisinin əhatəsində yarımörtülü bazar içiylə kənd məktəbinə tərəf gedirik. Hamı sevinirdi. Onlar ilk dəfə öz qardaşlarını, sovet adamlarrı görürdülər. Məktəb həyətinə girdik. Cümə günü olduğıundan məktəbdə dərs yoxdu. Məktəb müdirinin dalınca adam göndərdik. Beş-altı dəqiqə içində məktəb həyəti adamlarla doldu. Bir azdan məktəb və qonşu damlarda qadınlar, qızlar, uşaqlar göründü. Damlara bir anda ensiz, uzun nərdivanlar söykəndi, qadınlar əvvəlcə qucaqlarındakı qundaqlı körpələrini odun tullar kimi damdakı qızların üstünə tullayıb sonra isə özləri nərdivanla dama çıxırdılar. Bir azdan Axundzadə adlı, orta yaşlı məktəb müdiri gəlib çıxdı. Ona gəlişimizin səbəbini dedik. O bizə "Xoş gəlmisiniz, çox şadam" dedi.

Axundzadə Mirzə Fətəli yaradıcılığa yaxşı bələddi. Söhbət əsnasında nədənsə özünün Mirzə Fətəli familiyası ilə yaxınlığı olmadığını söylədi. Bu söhbətdən nə səbəbə isə bir az çəkinirdi də. Lakin Təbrizdə mötəbər adamlar mənə demişdilər ki, Xamnə məktəbinin müdiri Mirzə Fətəli Axundov nəslindəndir.

Biz Xamnə əhalisi ilə danışmaq istərkən birdən əmniyyə rəisi öz əmniyyələrilə həyətə girdi. Camaat arasında bir uğultu oldu. Onlar dörd nəfərdi. Bizimlə salamlaşmadan, görüşmədən, əmniyyə rəis əlindəki gümüş dəstəkli qamçısıyla kəndlilərin üstünə cumdu və "Pədər süxtə" deyib onları şallaqla dağıtmağa çalışdı. Kəndlilərin etiraz sədaları ucaldı. Mən buna dözə bümədim. Cəld əmniyyə rəisinin qarşısına gəlib əlindəki qamçısından yapışdım.

- Ayıb deyilmi. Bunların günahı nədir ki, söyub qamçılayırsan - dedim. Yunis Hacıyev ikimizin arasına girib bizi sakit etməyə çalışdı,

demə mən qeyri-ixtlyari tapançanı atmışam. Əmniyyə rəisi "yumşalıb" mənə hərbi qaydayla salam verdi. (Mən o zaman batalyon komissarı idim.)

Dedi ki: - Mən bu bişərəfləri sizin rahatlığınız üçün qovmaq istəyirdim.

Mən dedim ki, kəndlilərdən mütləq üzr istəməlisiniz. O cavabinda gülərək dedi: "Bunlardan ha. Xeyr, ağa".

Əmniyyə rəisi bir azdan dil tökərək bu axşam məni Təbriz restoranlarından birinə qonaq dəvət etdi. Mən məşğul olduğumu bəhanə gətirib onun bu təklifini rədd etdim.

Biz Təbrizə qayıdandan sonra öyrəndim ki, əmniyyə rəisi Təbriz polis rəisinə xəbər verib ki, guya Xamnədə mən onun üstünə silah çəkmişəm. Bu, mənim yadıma gəlmir.

Xamnədə məktəb həyətlndə böyük şənlik başlandı. Həyətdəkilər, damdakı qızlar, qucaqları körpəli qadınlar bir ağızdan sovet ordusuna xeyir-dua dedilər. Məhəbbətlərini yetlrdilər.

Axırda mən ilk olaraq "Durnalar" şerimi oxudum. Dinləyənlər bu şeirdə öz dərdlərini, arzularını gördü. Ədəbiyyatşünas Həbib Səmədzadə toplaşanlara Mirzə Fətəli yaradıcılığından danışdı. Artistlərimiz opera əsərlərindən arıyalar və xalq havaları oxuduqca alqış səsləri ucalırdı. Konsert zamanı kütlə artistlərimizə qoşuldu. Mahnılar, rəqslər birləşdi. Hətta damlardakı al-əlvan paltar geymiş qızlar bu mahnılara, rəqslərə qoşuldu. Xamnə başdan-başa bağ-bağatdır. Burada badam, qoz, ərik, alça ağacları müxtəlif üzüm növləri kənd başqa bir gözəllik verir.

Barıları aşıb küçələrə sallanan meynələrin iri, şəffaf gilələri adama gəl-gəl deyirdi. Təbrizdə olduğu kimi burada küçələrdən keçərkən, həyətdəki gözəllikləri təsəvvür edə bilmirsən.

Ən yoxsul adamın qapısından içəri girdikdə gözlərinin önündə gözəl, könüloxşayan bir mənzərə canlanır. Hər həyətdə müxtəlif meyvə ağacları və güllər, çiçəklər vardır. Mən meydançalardakı qocaman ağacları gördükdə düşünürdüm. Bəlkə bir vaxt balaca Mirzə Fətəli bu ağaca dırmanıbmış, bəlkə balaca Mirzə Fətəli bu keçdiyimiz küçədən keçibmiş. Bəlkə balaca Mirz Fətəli bu meydanda uşaqlarla kosaldıqaç oynayıbmış və s.

Xamnədə bizim müəyyən vaxtımız yarımörtülü bazarda keçdi. Bazardakı bir neçə dükan adlanan gözdə ancaq daş çapı kitablar və

əlyazmalar satılırdı. Səmədzadə buradan bir neçə qiymətli kitab aldı. Xamnəlilər hər yerdə bizimlə idi.

Bizi evlərə qonaq çağırırdılar. Biz ancaq Xanmənin dadlı, ətirli meyvələrindən yeyə bildik.

Axşam düşdüyündən Xamnəli qardaşlarımızdan həsrətlə ayrıldıq. Yol boyu düşünürdüm, xəyalımda Xamnə meydançasında gah balaca Mirzə Fətəlini uşaqlarla oynayan görürdüm, gah böyük, dahi ədibin ucalan heykəlini seyr edirdim.

*Oktyabr 1962*

## ƏZİM ƏZİMZADƏ

Əzim Əzimzadə təsviri İncəsənətin yüksək zirvələrində özünə əbədi yer tutmuş qüdrətli, sözün əsl mənasında xalq rəssamıdır.

Böyük rəssamın şöhrəti bütün varlığı ilə xalqa, vətənə bağlılığından, onlara böyük istedadıyla xidmət etməsindən irəli gəlmişdir.

Şəxsən ınən Əzim Əzimzadəni Molla Nəsrəddin və digər gülgü məcmuələrimizdəki əsərlərilə tanıyırdım.

O zaman bir ailə tapmazdın ki, Əzimzadənin çəkdiyi rəsmlərə baxıb dərindən, ürəkdən gülməsin. Keçmiş dövrdəki fırıldaqçı din nümayəndələri, bəylər, mülkədarlar, qolçomaqlar, qoçular, canilər, xalqın həyatını zəhərləyən bu müzürr insanlar onun fırçasından çıxan əsərlərlə şiddəti zərbəyə, atəşə tutulurdular. O zaman Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin) və Sabirlə yanaşı Əzim Əzimzadənin adı da hörmətlə və məhəbbətlə çəkilirdi. Xalqın gözünü həqiqətə açmaqda, əzablara dözmüş zəhmətkeşlərdə qanlarını soranlara qarşı qəzəb, nifrət oyandırmaqda Əzimzadə də çox mühüm bir rol oynamışdır. O dövrdə bu, sənətkar üçün böyük qəhrəmanlıqdı, fədakarlıqdı.

Əzimzadə ilə əyani 1925-ci ildə "Kommunist" qəzeti redaksiyasında tanış oldum.

Əzimzadə qəzetin növbəti nömrələri üçün beynalxalq məsələlərə, məişətimizdəki kəsirlərə aid karikaturalar, şarjlar çəkirdi.

Bizim "Gənc qızıl qələmlər ittifaqı" həmin vaxtda kommunist qəzetinin klubunda fəaliyyət göstərirdi. Əzimzadəni ilk dəfə Nəriman Nərimanov adına Sənaye Texnikumunda oxuduğum zaman filarmoni-

yada Sabirin xatirəsinə həsr edilmiş ədəbi, bədi gecədə səhnədə gördüm.

Bu gecədən toplanan pullar Sabir kitabxanasının zənginləşdirilrnəsi üçündü.

Budur, Əzimzadə səhnədə göründü. Gurultulu alqışlar altında salondakılara hörmətlə baş əydi. Kiçik taxta lövhəyə kağızlar yapışdırıb bir göz qırpımında kömürlə sovet hökumətinin düşmənlərinin Makdonaldın, Petenin, Çemberlenin, Qolçaqın, Kerenskinin, qeyrilərinin eybəcər şəkillərini çəkir və salondakıların gülüşləri altında qızğın alqışlanırdı.

Əzim Əzimzadənin mədəniyyətimizin hər sahəsindən yaxşı dostları vardı. Yazıçılardan və jurnalistlərdən Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin) Əbdürrəhim bəy Haqverdiyev, Mahmud Səid Ordubadi, Seyid Hüseyn Sadiq, Əli Nəzmi, Nemət Bəsir, Məmmədəli Sidqi, Xəlil İbrahim, Əsəd Tahir, artistlərdən Hacıağa Abbasov, Mirzəğa Əliyev, Abbas Mirzə Şərifzadə, İsmayıl Hidayətzadə, Hüseynqulu Sarabski, Sidqi Ruhulla, partiya və dövlət xadimlərindən Ruhulla Axundov, Həbib Cəbiyev və başqaları onun sənətinə çox yüksək qiymət verirdilər.

Əzimzadəni tez-tez nəşriyyatlarımızda, qəzet və jıırnal redaksiyalarında görmək olardı.

Onun fırçası bir gün də bikar qalmırdı. O İllərin kitablarında, qəzəl və jurnallarında Əzimzadə fırçasından çıxmış əsərlərə rast gəlirdik.

Əzimzadənin gənc yazıçıların iclaslarında iştirakı da yadımdadır. O vaxt Əzimzadə mənim şarjımı çəkmişdi. O, gülərək deyirdi ki, "səndə nə isə var, şarja yaman çətin gəlirsən".

Həmin illərdə Əzimzadə mənə öz əksini bağışladı. Şəklin altında ərəb əlifbasilə bu sözlər yazılmışdır: "Gələcəyimizin parlaq örnəyi, kommunizm qurıüuşumuzda böyük ümidlər verəcək Süleyman yoldaşa xatirə. Bakı. 5 may 1927-ci il".

Bu mənim üçün Əzimzadədən ən gözəl, əziz xatirədir. Mən onunla "Maarif və mədəniyyət" jurnahnın katıbi olduğum zaman da tez-tez yaxından görüşərdim.

Yadımdadır, Seyid Hüseyn Sadiq jnrnalımız üçün "Bir küçənin tarixi" adlı bir hekayə yazmışdı. Hekayədə Bakı varlısı, qoçusu Hacı Aslandan bəhs edilirdi.

Məcmuənin redaktoru Ruhulla Axundov mənə dedi ki, "Hekayə mütləq rəsmlərlə getməlidir. Bakının köhnə tiplərini Əzimzadə kimi gözəl bilən ikinci rəssamımız yoxdur. Əzimzadəni tap, hekayəni ver

oxusun. Adımdan ona de ki, bundan sonra jurnalımızda fəal iştirak etməlidir".

Əzimzadə Ruhulla Axundovun xahişini sevinclə qəbul etdi. Hekayə üçün çox orijinal, tutarlı rəsmlər çəkdi.

Bundan sonra o jurnalımızın fəal iştirakçılarından biri oldu. Biz gənclər bir neçə dəfə Əzimzadənin evində qonaq da olmuşuq.

Bir dəfə rəssam Rüstəm Mustafayev, Şəmsi Bədəlbəyli və mən Əzimzadəgilə getdik. Süfrə arxasında xeyli söhbətdən, gülməkdən sonra Əzimzadə yorğun olduğundan mürgüləməyə başladı.

Rüstəm Mustafayevin təhrikiylə Əzimzadənin otağındakı bir albomu götürüb aradan çıxdıq. Bu albom Parijdə çox az tirajla çap olunmuşdu.

Əzimzadə albomun aparıldığını o günün səhəri bilmişdi. O bizi tapdı. Nadır albomu geri qaytarmağımızı xahiş etdi. Bir də əlavə etdi ki, cavansınız elə əsərlərə baxmağı sizə məsləhət görmürəm. Üzr istəyib albomu ona qaytardıq.

Hazırda Şüvəlandakı bağ evimdə Əzimzadənin mənə bağışladığı rəngli bir rəsm var. Mən hər zaman o əsərə baxarkən ürəkdən gülməyə bilmirəm. Gənclik illərində mən Əzimzadəyə bir şeir ithaf etmişdim.

Əzim Əzimzadə Azərbaycan xalqının böyük rəssam oğludur. Əzimzadə yaratdığı əsərlərlə mədəniyyətimizin tarixində şərəfli yerlərdən birini tutur.

*Fevral 1970*

## SÜLEYMAN SANİ AXUNDOV

Uşaqlıq çağlarım sabiq Quba meydanının yuxarısındakı Spasskaya küçəsində keçmişdir.

Quba meydanının yerində indi bağ salınmışdır, küçəmizin aşağı hissəsində Dövlət Dram teatrının binası yüksəlir. Küçəmiz isə hal hazırda Qasım İsmayılov adınadır.

Yaşadığımız rayonun keçmişi, əhalisi indi də yadımdadır. Məhəlləmizdə yaşayanların çoxu yoxsullardı. Onlar müxtəlif peşə sahibi kustarlar və fəhlələrdi. Əlbəttə, məhəlləmizdə tək-tük varlı, dələduz, hətta qoçu da vardı. Onların üzündən bir çox ailənin günü qara keçirdi.

Küçəmizin yuxarısında (şimal tərəfdə) bir məktəb, ondan bir qədər yuxarıda polis idarəsı yerləşirdi. Məşhur inqilabçılardan Əli Bayramov

və Ceyran xanım Bayramova bizim küçədə yarım mərtəbə evimizlə üzbəüz Məşədi Hüseynqulunun mülkünün birinci mərtəbəsində olurdu. Evimizdən bir az aşağıda (cənub tərəfdə) "Dar dalanın" düşəcəyində bir binanın ikinci mərtəbəsindəki çox kiçik, darısqal bir otaqda 26 Baki Komissarından biri müəllimimiz Mir Həsən Vəzirov yaşayırdı.

Bu insanlar haqqında əlbəttə, böyük kitab əsər yazmaq olar. Mən hazırda yazdığım "Xatirələr dəftərim"də bunları doğru, real qələmə almağa çalışıram.

Məhəlləmizdəki məktəbin adı "4-cü rus-tatar məktəbi" idi. Çar dövründə azərbaycanlıları ya tatar, ya da müsəlman adlandırırdılar.

Lakin yalnız bizim məhəllənin sakinləri yox, bütün şəhər bu məktəbə "Süleyman Sani" məktəbi deyirdi. Çünki bu məktəbin müdiri və müəllimlərindən biri, özünü əsərlərilə xalqa sevdirmiş Süleyman Sani idi.

Bu yaxınlarda arxivimi yoxlarkən həmin məktəbi bitirdiyim haqdakı kamal attestatını tapıb çox sevindim. Orada Süleyman Saninin, Mir Həsən Vəzirəvun, Rəsul bəy Tahirovun, Ağabəy İsrafilbəylinin imzalarını gördükdə uşaqlıq illəri yenidən gözlərim önündə canlandı.

Mənə elə gəidi ki, sinifdə oturub həmin əziz müəllimlərimin dərsini dinləyirərn.

Bəli, yeddi yaşında ikən atam məni həmin məktəbə gətirib ordakı katibə təhvil verdi. Özü isə dəmirçixanasına getdi.

Ailəmiz o vaxt Ləhic bağlarında istirahətdə idi. (Ləhic bağları Maştağa ilə Kürdəxanı arasındadır). Məktəb haqqında bütün lazımi məlumatı dəftərə qeyd etdilər, müəllimlər otağında tək qaldığımdan içimi çəkib ağlamağa başladım. Bu zaman başımı bir əl sığalladı. Könlümü alıb şəxsən özü məni sinfə apardı.

Hər tənəffüs vaxtı isə o, məni məktəbdə yaşayan Zakariya müəllimin otağına gətirib sonra yenə sinfə aparırdı. Bu munis insan mənim gələcək müəllimini Süleyman Sani idi.

Zakariya bəyin qızları isə mənim başımı şirin dillə və konfetlə qarışdırırdılar. Məktəbdə bəzi müəllimlərdən yaman qorxardıq. Xüsusilə şəriət müəülmindən.

Şəriət müəllimimiz ruhani idi. Dərs zamanı həmişə ağzı işdə olardı. O ləbləbi kişmiş yeyərdi. Şəriət müiəlliminin dərsindən bir şey başa düşmədiyimizdən sinifdə səs-küy salardıq. Buna görə də şəriət müəllimi cəza olaraq bizi bir neçə saatlığa odun anbarına salıb qapısını kilidlərdi.

(Odun anbarından başqa bir müəllimimiz də istifadə edərdi. Bu barədə bir az sonra).

Belə hallarda müəllimimiz Mir Həsən Vəzirov harayımıza çatardı. Anbar qapısını açdırıb bizi həbsdən azad edərdi. Hətta bəzən o, bizi öz evinə aparıb, quran ayələrini oxuyar və mənasını başa salardı.

Beləliklə gözlərimizdən qara cəhalət pərdəsini götürməyə səy edərdi. Ümumiyyətlə o vaxt bəzi müəlimlər dərslərdən zəif uşaqları öz evlərində təmənnasız imtahanlara hazırlardı. Mir Həsən müəllimin dərslərinə həmişə hazır gələrdik.

Yadımdadır: biz Novruz bayramlarında ona şəkərburadan, paxlavadan bayram payı apardıq. İlk dəfə ona pay aparanda bir qəribə hadisə baş verd. Biz kiçik ipək yaylıqdakı hədiyyəni, mizin üstünə qoyanda Mir Həsən müəllim təəccübləndi. Əsəbi halda bu nədir gətirmisiniz?!

Mən dilim topuq çala-çala:

- Şəkərburadır müəllim, - dedim.

O, "necə, necə, şəkərqara?!" - deyə sual etdi.

Dəsmalı açdıq. Müəllim "nahaq gətirmisiniz" deyə etiraz etdi. Biz çox dil tökdükdən sonra o bayram payını qəbul etdi.

Maraqlı burasıdır ki, o gündən başlayaraq aramızda Mir Həsən Vəzirovun adı "Şəkərqara müəllim" oldu. Biz Süleyman Saninin, Vəzirovun, İsrafil bəyin dərslərində çox sakit otururdıq. Süleyman Sanini bir yazıçı kimi də çox sevirdik. Onun "Qaraca qız" povestini, "Qorxulu nağılları"nı dönə-dönə, maraqla, həyəcanla oxuyardıq. Bu kitablar gecələr yataqda da əlimizdən yerə düşməzdi. Bu əsərlərdə böyük məhəbbətlə, səmimiyyətlə qələmə alınmış surətlərin taleyinə ürəkdən acıyardıq, hətta ağlardıq da.

Süleyman Saninin xasiyyətindəki səmimiliyi, dərin sadəliyi, mehribanlığı əsərlərindəki müsbət obrazlarda özünü göstərməkdədir.

Süleyman Sani bəzi yoxsul ailədən olan uşaqlara maddi yardım göstərməyi də unutmazdı. O öz kitablarını məktəblilərə hədiyyə verərdi.

Süleyman Sani bizə ucadan kiçik hekayələr, şeirlər, təmsillər oxutdurardı.

Bu qiraət yarışlarında mən həmişə fərqlənməyə çalışardım. Qənaət etdiyim qəpiklərə kitablar alıb evdə mütaliə edərdim.

İftixarla deyirəm ki, məndə ədəbiyyata böyük məhəbbət oyadan ilk müəllimim Süleyman Sani Axundov olmuşdur.

Oxuduğum məktəbdə sevimli müəllimlərmizdən biri də Süleyman Saninin dostu Ağabəy İsrafilbəyli idi. O da çox qayğıkeş insandi. Dərsdən zəif olan uşaqların evlərinə gedər, ailələrilə yaxından tanış olar, onlarla dərdləşər və əlindən gələn köməyi əsirgəmzdi.

Ağabəy İsrafilbəyli ucaboy, pəhləvan gövdəlı bir adamdı. O zaman xuliqanlar, avaralar tez-tez məktəblilərin yolunu kəsərdi. Onlar uşaqların əynindən paltosunu . çıxarar, kitab çantasını əlindən qapardılar. Hətta bəzilərinin ağız-burnunu da əzişdirib qanadardılar.

Polis belə hadisəiərin qabağını almazdı. Çünki bunlar Bakı qoçularının, varlılarının ərköyün balaları və qohumlarıydı.

Kimsədən çəkinməyən İsrafilbəyli onlarla qəribə mübarizə üsulu tapmışdı. O, məktəbimizin qabağına gələn bu dələduzlar yaxalayıb, hərəsini bir əlilə möhkəm tutub kəllə-kəlləyə vurardı. Sonra da şəriət müəllimimizin dustaqxanasına (odun anbarına) salıb bir neçə saatlıq həbs cəzası verərdi.

Müəllimimiz Ağabəyin sayəsində bizim məktəbin qabağından onların ayağı həmişəlik kəsilmişdi.

Bu misalları gətirməkdə məqsədim müəllimlərimizin o dövrdə nə şəraitdə çalışmalarını göstərməkdir.

İndi bütün məktəblərimizdə cürbəcür dərnəklər var. Şənliklərində, bayramlarda hər məktəb öz orkestri ilə nümayişə çıxır. Lakin o zaman biz bunlardan məhrum idik. Nümayişə çıxmaq üçün qəribə hazırlığımız olurdu. Məktəbimizdə Ramazan adlı Dağistanlı bir qarovulçu vardı. Tənəffus zamanı o bizə pendir-çörək, iris və başqa şirniyyat satardı. Ramazan uca boylu, enlikürək, şəkbuğ, zahirən vahiməli bir kişi idi. Lakin çox təmiz ürəkli idi.

Bayramqabağı məşq üçün hamımız beyətə toplaşardıq. Süleyman Sani həyətin başında pilləkən üstündə nümayiş qəbul edən bir general vəziyyətində durardı. Onun işarəsilə Ramazan qoltuğunda tutduğu köhnə vedrənin altını yumruqlarıyla döyəcləməyə başlardı. Biz də bu ahəng altında addımlayıb Süleyman Saninin qabağından keçərdik. Bu, bizim məktəb həyətindəki xudmani nümayişimiz olurdu. Bəzən Ramazanın güclü zərbələrindən vedrənin altı ayrılıb yerə düşərdi.

İllər keçdi, ibtidai məktəbi qurtaranda Süleyman Sani bizimlə vidalaşırdi. Kamal attestatını alıb ağlamağa başladiq. O, bizə "yenə də görüşəcəyik" deyə təsəlli verdi.

Mən onu məktəbi bitirdikdən sonra da tez-tez görürdüm. Çünki məktəbimizlə evimizin arasındakı məsafə çox az idi. Sonralar mən şeir yazmağa başladığım illərdə də onunla tez-tcz görüşürdüm.

Bu qayğıkeş insanın mənim üzərimdə böyük əməyi olmuşdur.

Süleyman Sani həddindən çox təvazökar adamdı. Buna canlı bir misal:

Vaxtilə mən ədəbiyyat fondu heyətinin sədri idim. Müəllimim xəstə idi. Əsəbləri pozulmuşdu. Ürəyi onu narahat edirdi. Bizim ədəbiyyat fonduna yazıçılar üçün kurortlara, istirahət evlərinə putyovkalar gəlmişdi. Kislovodsk sanatoriyalarının birinə olan putyovkanı Süleyman Saninin adına yazıb evinə göndərdim. O, əli əsalı yazıçılar ittifaqına gəldi.

Putyovkanı qaytarıb dedi ki: "Bunu nahaq etmisiniz. Qoy bu putyovkadan gələcəyimizə ümidlər verən gənclərimiz istifadə etsinlər. Mənimki keçib". Biz onu güclə yola gətirib putyovkanı almağa razı etdik.

Mənim və bir çoxlarının məktəb və ədəbiyyat müəllimi Süleyman Sani belə bir şəxsiyyətdi. Xalqımız yetirdiyi belə namslu övladlarıyla qoy həmişə fəxr etsin.

## RƏŞİD BƏY ƏFƏNDİYEV

Rəşid bəy Əfəndiyevi bir maarifpərvər, bir pedaqoq, bir şair kimi biz uşaqlıq çağlarımızdan tanıyırdıq. Onun ağır illərdə xalqın balaları üçün yazdığı, tərtib etdiyi tədris məcmuələri, uşaq şeirləri, rus klassik şairlərindən etdiyi tərcümələr cəsarətlə demək olar ki, böyük fədakarlıqdır.

Quşlar, quşlar, a quşlar,
Qaranquşlar, a quşlar -

şeri indi də bizim nəsildən olanların hafizəsindədir. Rəşid bəyin öz dövrünün qabaqcıl, tərəqqipərvər, proqressiv, azadlıq uğrunda mübarizə aparan nümayəndələrilə görüşləri, dostluğu öz xalqının vətənpərvər övladı olduğuna dəlalət edir. Gözəl bilirik ki, çar dövründə məktəblərimizdə ana dilimizdə şeirlərə, mahnılara, çox böyük ehtlyac

vardı. Bu ehtiyacı aradan qaldırıb azərbaycanlı balalarının köməyinə çatmaq istəyənlər sırasında Rəşid bəy Əfəndiyev də vardı.

Bəli, illər keçdi. Vətənimizdə sovet hakimiyyəti quruldu, xalq öz müqəddəratını əlinə aldı, çar dövründə millətin səadəti, mədəniyyəti haqqında düşünən, çarələr axtaran Rəşid bəy indiki bu qaynar həyatdan, bu coşqun hərəkatdən kənarda qala bilməzdi. O, Oktyabr inqilabının futuhatını, qələbələrini ürəkdən alqışladı. Rəşid bəy yaşının çoxluğuna baxmayaraq coşqun gənclik həvəsiylə, ehtirasilə ömrunün mənalı illərini millətinin tərəqqisinə, yüksəlişinə həsr etdi.

O, rus dilini çox gözəl bilirdi və bu dilə dərin məhəbbət bəsləyirdi. Onun Puşkindən, Lermontovdan məhəbbətlə tərcümə etdiyi şeirlər buna sübutdur.

Məncə Rəşid bəy Puşkinin "Bağçasaray çeşməsi" poemasının giriş hissəsini çox məharətlə tərcümə etmişdir. Bu poemanı sonralar böyük ədıbimiz Məmməd Səid Ordubadi də tərcümə etdi. Səidin tərcüməsi küll halında gözəldir. Rəşid bəy poemanın ilk iki sətrini belə çevirmişdir.

Oturmuş fikrə piçidə çubuq əldə Gəray durmuş,
Hüzuri-dəhşətə qol bağlamış əhli-saray durmuş.

Çox yaxşıdır. Bu iki sətirdə biz həm Gərayın əhvali-ruhiyyəsini hiss edir, həm də saray əhalinin necə vahimə keçirdiyini görürük. Bu tərcümə Rəşid bəyin Puşkin ədəbi irsinə dərin məhəbbətinin təzahürüdür. Rəşid bəy Əfəndiyev sanki yenidən cavanlıq dövrü keçirirdi. Gündən-günə çiçəklənən, gözəlləşən vətəni tərənnümdən böyük zövq alırdı.

Rəşid bəy Əfəndiyev yeni yaranmaqda olan proletar ədəbiyyatnın qızğın tərəfdarlarından, təbliğatçılarından biri oldu. O da Cəlil Məmədquluzadə, Haqverdiyev, Süleyman Sani Axundov, Cəfər Cabbarlı, Abdulla Şaiq kimi bu hərəkatı alqışladı və bu gənc orduya qoşuldu. Rəşid bəy Əfəndiyev Şəkidə yaşayırdı. O, tez-tez gənc qızıl Qələmlər İftifaqına məktublar yazırdı. Gənclərin müvəffəqiyyətlərinə ürəkdən, candan sevindiyini bildirirdi. Yadimdadır. Mən 1927-ci ildə Şəkiyə gənc Qızıl qələmlər ittifaqının bölməsini təşkil etməyə getdim. Yevlaxdan kiçik, köhnə bir avtobusa minərək çala-çuxurlu yollarla gəlib Şəkiyə çatdım. Avtobus dayanacağında xeyli fayton dayanmışdı. Faytonçular iki görkəmdə idi. Bəziləri həddindən artıq şişman, bəziləri

İsə olduqca arıq idi. Bir faytona minib mehmanxanaya doğru hərəkət etdik. Şəkinin təmiz havası, könül açan mənzərəsi yol yorğunluğumu apardı. Mehmanxanaya düşdüm. Bir saat keçməmişdi ki, Şəkinin garıc həvəskar yazıçıları, şairləri yanıma gəldilər. Bu mənim gənc qələmlərlə ilk tanışlığım idi.

Axşamüstü pəncərədən şəhərin dağ hissəsini seyr edirdim. Birdən mehmanxananın qarşısında bir fayton dayandı. Faytondan əli əsalı, gözü eynəkli dolğun, bığı, saqqalı qar kimi ağ bir adam düşdü; mehmanxana qapısındakılar onunla hörmətlə salamlaşdılar. Dedim görəsən, bu hörmətli adam kimdir. Birdən olduğum otağın qapısı astaca döyüldü. Tez qapını açdım, qarşımda faytondan düşən adam gördüm.

- Salam, oğlum, xoş gəlmisən, Rəşid bəy Əfəndiyev!

Qulaqlarıma inanmadım. Bakıdan yola düşərkən mütləq bu adamla

görüşməyi qərara almışdım. Artıq budur, o özü lapdan yanıma gəlmişdir. Onunla mehribancasına görüşdük.

- Oğlum, mən sənin dalınca gəlmişəm. Özünü görməsəm də, səni mətbuat vasitəsilə yaxşı tanıyıram. Amma yaxşı iş görməmisən. Şəkiyə gələsən, özü də mehmanxanaya düşəsən, tez ol, otaqda nəyin varsa götür gedək bizim evə.

Mən dedim ki, "Hörmətinizə görə təşəkkür edirəm. Lakin burda qalsam yaxşıdır. Çünki məni cavanlardan va təşkilatlardan axtaranlar olacaq".

"Oğlum nə olar ki... Məgər cavanlar, təşkilatlar Rəşid bəyin evini tanımırlar. Getməsən, məni incitmiş olarsan". Bunun üstündən artıq bir söz demək olmazdı. Faytona minib Rəşid bəygilə getdik. Rəşid bəyin ailəsi bizi öz ləziz xörəklərilə heyran etdilər. Mən Şəki şüyütplovunun, Şəki şirniləririnin adını, tərifini eşitmişdim, amma dadını bilmirdim. Mən bunları ilk dəfə Rəşid bəyin evində gördüm. Sanki dadı indi də ağzımdadır.

Rəşid bəyin sinəsi canlı, maraqlı, xatirələrlə dolu idi. Söhbətirniz gecə yarıya qədər çəkirdi. O məni vaxtilə çap olunmuş və olunmamış səhnə əsərlərilə də tanış etdi.

Biz Şəkidə, Azərbaycan gənc Qızıl qələmlər ittifaqının şöbəsini təşkil etdik. Yerli təşkilatların, gənc həvəskar yazıçıların arzusuyla Rəşid bəyi bu bölməyə sədr seçdik.

Bu, Rəşid bəyi bir qədər cavanlaşdırdı. Şəkidə olduğum müddətdə Xan sarayını gəzdim. Evlərə qonaq çağırıldım. Hər evdə yenə də

məşhur Şəki plovu və şirniyyatı daddım. Bakıdan Şəkiyə yola düşərkən, bir şəkili qələm dostum mənə demişdi ki, "sənə bir kağız verim, dostlarım səninçün şüyütplov bişirtsinlər". Mən ondan kağız almadan Şəkiyə gəlmişdim. Mənə kağız vermək istəyən dostum səhv edirmiş. Çünki mən plovu hər evdə kağızsız yedim. Ondan kağız almış olsaydım, bəlkə də Şəkidə yediyim plovları o öz kağızının hesabına yazardı.

Şəki ziyalılarının təşəbbüsilə Şəkidə bir ədəbi gecə təşkil edildi. Ədəbi gecəni Rəşid bəy idarə edirdi. Şəkinin gənc qüvvələri ilk dəfə idi ki, kütlə qarşısında çıxış edirdilər. Gənclər tribunaya qalxanda həyəcan keçirirdilər. Nədənsə iştirak etdiyim məclislər gülgüsüz, hadisəsiz olmur.

Bəli, bu ədəbi gecə də bunsuz olmadı.

Rəşid bəy çıxış edənlərin böyük siyahısını tutmuşdu. Onlara söz verdikdə siyahıya baxıb belə deyirdi: "Söz verilir Şəkinin birinci şairinə, söz verilir Şəkinin ikinci şairinə və i.a.".

Çıxış edənlərə gecənin sonuna qədər bu şəkildə söz verildi. Salonda oturmuş bir nəfər tez-tez əl qaldırıb söz istəyirdi. Rəşid bəy isə bu adama əsla əhəmiyyət vermirdi. Bu əl qaldıran adam mənim nəzərimdən qaçmırdı. Nəhayət dedim: "Rəşid bəy, yaxşı deyil axı. Bəlkə əl qaldıran adamın bir sözü, bir təklifi var. Xahiş edirəm ona söz verin".

- Oğlum sən onu tanımırsan axı. Şulux sala bilər.

- Niyə şuluq salır. Qorxmayın ona söz verin.

Nəhayət, Rəşid bəy elan etdi ki, "İndi isə söz verilir Şəkinin 37-ci şairinə".

Tribunaya orta yaşlı, üzü gülər bir adam qalxdı. Salonda bir gülüş oldu.

Tribunadakı adam çox ciddiyyətlə şairanə görkəm alıb belə başladı:

Çəpərdə oturmuşdu sərçə,
Düşdü kəndirə oldu büryan...

Rəşid bəy ayağa qalxıb dedi: "Əbucabbar bəy, ayıbdır axı, sən nə özünə, nə bizə hörmət qoyursan. Bu nə cəfəngiyatdır ki, oxuyursan". Rəşid bəyin dediyi Əbucabbar bəy aşağı düşərkən dedi: "Acığın niyə tutur Rəşid bəy, Şəkinin 37-ci şairi mənim kimi olar". Mən sonra öyrəndim ki, bu Əbucabbar kişi Şəkinin ən zarafatcıl, hazırcavab adamlarındandır.

Mən Bakıda bir neçə məclisdə onunla görüşüb söhbətlərindən zövq aldım.

Bu səfərdən başqa Rəşid bəylə digər vaxtlarda da Bakıda, təkrar Şəkidə bir neçə dəfə görüşmüşəm.

Şəkidə bölmə düzələndən sonra gənc şairlərin, yazıçıların şeirləri “Şəki fəhləsi" qəzetində və ayda bir dəfə qəzetə əlavə olaraq nəşr edilən ədəbi səhifələrdə şeirləri, hekayələri, oçerkləri dərc edilirdi.

Bu səhifələrdə Rəşid bəyin məqalələrinə və şeirlərinə də yer verilirdi.

Rəşid bəyin o illərdə Bakı mətbuatında da bir sıra şeirləri çap olunmuşdur.

1937-ci il "Maarif və mədəniyyət" məcmuəsində də maraqlı bir şerini dərc etdik.

Həmin şeirdə bu sətirlər səslənirdi.

Əcəb nə keçdi o dövran əhli bzar idi.
Nə qəlbi şad, nə də ruhunda bir fərəh var idi.
Sirur, zövq nadir, bilməziydi, əğyar idi.
O əsr-lənətə layiq, zəmanəyi çar idi.
Tamam varlığım ilə həyaım ağlar idi.
Bütün o dövrdəki xatiratım ağlar idi.
Həyatm bər cəhəti cəbridi, fəlakət idi,
Xəlayiqi bürüyən fəqridi, səfalət idi,
Çəkil, çəkil, geri dur, Şaki, hər şikayətdən,
Alıb qızıl qələmi sən də yaz həqiqətdən,

O vaxt Şəkidə şair Nikamın adına bir küçə vardı. Mən bir dəfə Rəşid bəylə o küçədən keçərkən dedi: "kim bilir, bəlkə gündən-günə gözəlləşən, bu şəhərdə bir küçə də mənim adımı daşıyacaq".

Rəşid bəy belə bir adamdı.

## NAZİM HİKMƏT

"Düşünən beyni Moskvaysa ölkəmizin,
Təzə qan dağıdan qəlbidir Bakı!"

Bu sətirlərin müəllifilə gənclik illərində hələ şəxsən taniş deyildim. O, Moskvadan "Maarif və mədəniyyət" adlı ədəbi, ictimai

xarakterli jurnalımıza tez-tez, böyük ürək oduyla yazılmış gözəl şeirlər göndərərdi. Nazim Hikmətlə əvvəlcə qiyabi tanış olduq. Bir-birimizə məklublar yazdıq. Yeni, novator poeziyamız haqda fikir mübadiləmiz oldu. Nazim bizim Azərbaycan sovet poeziyasi ilə çox maraqlanırdı. O, bizim oxucuların nə mövzuda, nə ruhda şeirləri xoşladığını bilmək istəyirdi.

Az bir zamanda Azərbaycan oxucuları türk xalqının vətənpərvər, inqilabçı, istedadlı şair oğlunu ürəkdən sevdi və alqışladı.

Nazim Hikmət Bakı həyatilə tanış olmaq və şairlərimizlə görüşmək arzusuyla çırpınırdı. Məktublarında gənc şairlarin jurnal səhifələrində çap olunmuş şeirləri haqqında öz səmimi fikirlərini yazırdı. Azərbaycan poeziyasına öz məftunluğunu bildirirdi. 1927-ci ildə mən bir neçə məktubumda onu Bakıya qonaq çağırdım.

Nəhayət, bir gün dostumuz Nazim Hikmət öz həyat yoldaşıyla birlikdə, qatarla, aşağıdakı sətirləri yaza-yaza Bakıya doğru gəlirdi.

Tıqırdıyor trenin rayda təkərlikləri,
Devrilərək keçiyor teleqraf dirəkləri.
Yan belimə qədər uzandım pəncərədən,
Tərə səsilə dolan havalan dinlədim.

Nazimin Moskvadan Bakıya gələrkən yolda yazdığı "yolçuluq notlarından" sərlövhəli şeirləri çox gözəl poeziya nümunələridir.

Bəli, Nazim Hikmət Bakıya gəldi. Bir-birimizi yaxından tanıdıq. Dostlaşdıq. Aramtzda qızğın yaradıcılıq söhbətləri, ədəbi mübahisələr başlandı.

O zaman Mikayıl Rəfili, Əli Nazim, Vəli Hacıoğlu, Əli Hüseynzadə, Əbdülbaqi Fövzi, bir söz hamımız dostumuzun Bakıdakı günlərinin səmərəli keçməsinə çalışırdıq.

Nazim Bakıya gəlişindən çox razı idi.

Bir axşam indiki akademiyanın binasında şairin oxucularla görüşünü təşkil etdik. Salondakılar Nazimi tribunadan buraxmırdılar. Bu gecə doğrudan da böyük şeir bayramı idi. Nazim sözün əsil mənasında novator şairdi. Nazim dənizi çox sevirdi. Vaxtımızın çoxunu onunla birlikdə, Xəzər sahilində keçirirdik. Axşamları qayıqla gəzintiyə çıxırdıq. Dənizdən gözəl şəhərimizi məhəbbətlə seyr edirdik. Nazim həsrətlə, ürək ağrısıyla İstanbulu xatırlayırdı.

Nazimi sonra bir neçə günlük Şüvəlana və Buzovnaya qonaq apardıq. Bir neçə gün Vəli Hacıoğlugilin bağında qaldıq. 12 yaşlı, pəhləvan gövdəli gənc Nazim idmanın bütün növlərinə yaxşı bələddi. Sahildə onunla güləşdiyimiz, qollarımızın gücünü sınadığımız, xatirimdədir. O günlər bizim üçün çox əziz günlərdi.

Günlər, həftələr, aylar keçdi. Nazimlə Moskvada proletar yazıçılarının birinci qurultayında və plenumlarında tez-tez görüşərdik.

Yadımdadır, Nazimi Ümumittifaq proletar yazıçıları qurultayına Azərbaycandan nümayəndə seçmişdik.

O zaman Moskvada Nazim kimi təhsil alan başqa türk gəncləri də vardı. Nazim bizi onlarla da tanış etdi.

27-ci ilə qədər Türkiyədə və Sovetlər ittifaqında Nazimin şeirləri yalnız qəzet və jurnallarda dərc edilmişdi. Nazimin hələ bir kitabı yox idi. Onun ilk şeirlər kitabı Bakıda çap olundu. Jurnallarımızda çap olunmuş şeirlərini toplayıb "Günəşi içənlərin türküsü" adıyla nəşr etdiyimiz üçün o bizə öz minnətdarlığını bildirdi. Kitaba bu adı da biz verdik.

Bu Nazimin ən gözəl şeirlərindən birinin adı idi. Bu kitabın naşri gənc Nazimin şairlik həyatında bir şənliyə, hadisəyə çevrildi.

Sonra uzun illər Nazim Hikmətlə görüşmədik. O öz doğma vətənində illərlə həbsxanalar küncündə ömür sürdü. Lakin mübariz şairin iradəsi, mətanəti sarsılmadı. Nazim məhşur "Zoya" poemasını müharibə illərində zindanda yazdı.

İllər illəri əvəz etdi. Nazim Hikmətlə yenidən Moskvada görüşdük. Mikayıl Rəfili ilə birlikdə Nazimin yanına getdik. Bu gün biz onun qonağı idik. Nazim qarşımıza döşü önlüklü çıxdı. Biz gülüşdük. Mən ona "Nazim, şairlikdən aşpazlığa keçmisən, nədir?" dedim.

O, gülərək cavab verdi: "Dost yolunda aşpazlıq etmək fənami şeydir? Bu gün sizə, əski dostlarıma hörmət deyə mətbəxdə özüm yemək hazırlayıram. Sırf türk yeməkləri. Bən buna zindanda alışdım. Siz söhbətlə məşğul olunuz, mən də mətbəxə gedim".

Nazim doğrudan da süfrəyə çox dadlı yeməklər düzdü. Döşlüyünü çıxarıb bizimlə oturdu.

Süfrə arxasında da söhbət şeirdən gedirdi. Nazim bizə yeni şeirlərini oxudu. Öz şəxsi həyatından, acı zindan xatirələrindən, nə kimi əsərlər üzərində çalışdığından xeyli danışdı. Yaşa dolduğuna baxmayaraq davranışı, danışığı, coşqun şairlik ehtirası narahat bir gənci andırırdı. Bu görüşlərdə Nazim Hikmətin ağır ürək xəstəliyinə tutulduğunu duymaq, hiss etmək çətindi.

Nazim Hikmət bir şair kimi, dostluq, sülh və azadlıq carçısı kimi dünyanın bir çox ölkələrini gəzib, dolaşmışdır. Onun alovlu, tribun şeirləri demək olar ki, dünyanın bir çox xalqlarının dilinə tərcümə edilmişdir.

Azərbaycanda da Nazimin şeirlərdən, pyeslərdən ibarət kitabları çap olunub çox geniş yayılmışdır.

Nazim Hikmət şerimizin dahi ustadları Nizami, Füzuli, Sabir, yazıçı və dramaturqlarımızdan Mirzə Fətəli Axundov, Cəlil Məmmədquluzadə, Cəfər Cabbarlı haqqında böyük məhəbbətlə danışardı.

Nazim Hikmət ikinci dəfə Sovetlər İttifaqına gələndən sonra da, Bakıda bir neçə dəfə olmuşdur.

Respublikamızın gündən-günə gözəlləşməsi, insanların firavan, xoşbəxt həyat sürməsi, mədəniyyətimizin çiçəklənməsi, zəhmətkeşlərin xariqələr yaratması onu ürəkdən sevindirirdi. Mehdi Hüseynlə mən onu Gəncəyə, Göy gölə, Şəmkirə və Qazaxa apardıq. Nazim yollarda maşını saxlatdırıb kolxozçularla şirin söhbət edirdi. Həsrətlə öz türk milləti haqda düşünürdü.

Nazim Hikmətlə dostluğumuzun indi 43 illik tarixi vardır. Onu da deyim ki, Nazim həm də çox kəskin zəkalı, hazırcavab, incə zarafat sevən bir adamdı.

O, bir dəfə gülə-gülə mənə belə dedi: "Qardaşım, sənin necə şair olduğunu bilirdim. Lakin yeni Molla Nəsrəddin olduğundan xəbərsizdim. Həkimlər mənə ürək xəstəliyimə görə dərd çəkməyi deyil, gülməyi, vaxtı şən keçirməyi məsləhət görürlər. Məncə artıq həkimlərə ehtiyac qalmır. Ya mən sənin yanında Bakıda qalım, ya da sən mənim yanıma Moskvaya köç".

Bu söhbetdən sonra Nazim istər görüşümüzdə, islərsə, məktublarında mənə: "Mərhəba, ya molla Süleyman, mərhəba Nəsrəddin xocam, mərhəba ya Süleyman, Peyğəmbər" deyə müraciət edərdi. Qadınlar iştirak edən məclislərdə isə Sabirin

"Ev madam, mənzil madam, bulvar madam, talvar madam.
Müxtəsər, əqlim çaşıb, ey dadi-bidad Ərdəbil"

- beytini deyib qəhqəhə çəkərdi.

Nazim Hikmət çox qayğıkeş, həssas bir insandı. Ona müraciət edən gənclərə həmişə xeyirxah məsləhətlər verib, bütün varlığıyla onlara kömək etməyə çalışardı. Zəmanəmizin ən istedadlı şairlərindən biri olan Nazim Hikmət aramızdan sinəsi hələ açılmamış səhifələrlə dolu getdi.

Lakin dünyanın milyonlarla oxucusu üçün çox qiymətli əsərlər qoyub getdi.

Nazim Hikmət öz əsərlərilə dünyanın poeziya ordusu sıralarında əbədi qaldı.

Şair özü gözəl deyib:

Ölənlər
Döyüşlərdə öldülər.
Günəşə gömüldülər.
Vaxtımız yox onlara matəm saxlamağa.
Axın var,
Günəşə axın.
Günəşi zəbt edəcəyiz,
Günəşin zəbti yaxın.

Hazırda mənim kitabxanamda Nazimin mənə hədiyyə verdiyi əsərləri, 1928-ci və sonrakı illərdə çəkdirdiyimiz şəkillər və bir sıra maraqlı, gülgü, zarafat dolu məktublar vardır.

Bunlar uzun illər duz-çörək kəsdiyimizin, dostluğumuzun əziz və unudulmaz nişanələridir. Nazimin "Bayram oğlu" (Əli Bayramov) "Neftə doğru", "Neftin cavabı", "Xəzər" kimi gözəl, səmimi şeirləri bizim xalqa, bizim vətənə həsr edilmişdir. Bunlar da Nazimdən bizə canlı xatirələrdir.

1968-ci ilin baharında biz bir qrup Azərbaycan yazıçısı Türkiyəyə, Nazimin vətəninə səfər etdik, İstanbulu, Bursanı, İzmiri, Ankaranı gəzib dolaşdıq. Həmişə, hər yerdə Nazimi xatırladıq.

İstanbuldan adalara gedərkən vaxtilə burada günlər keçirən Nazimi andıq. Yollarda bulaqlardan su içərkən Nazimi yad etdik. Meşələri, dağları, çayları, gölləri, əncirlikləri, üzümlükləri seyr edərkən türk dostumuz Nazimi düşündük. Nazim Hikmətin gənc yaşlarında bu yerlərdə udduğu havadan udduq. Türkiyədə Nazimin xalq tərəfindən necə dərin bir məhəbbətlə sevindiyinin şahidi olduq. Ziyalılardan tutmuş fəhlələrə, sürücülərə, məktəblilərə qədər hamı onun adını məhəbbətlə, hörmətlə yad edirdi.

Türk xalqının böyük şair oğlu, azadlıq, səadət aşiqi Nazim Hikmət bütün millətlər üçün əzizdir, doğmadır.

*Fevral 1970*

## SEYİD HÜSEYN SADİQ

Seyid Hüseyni mən 1923-cü ildən tanıyırdım.

O, Nərimanov texnikumunda bizim ədəbiyyat müəllimimiz idi. Gənclik illərimizdə aramızda "nadinc" tələbələr də vardı. Bəzi müəllimlərin yumşaq damarını tutub dərs zamanı dəcəlliklər etdiyimiz yaxşı yadımdadır. Bir dəfə Həsən adlı müəllimimiz bizimlə ədəbi gecədə iştirak etdi. Onu deyim ki, Həsən müəllim öz ixtisasını gözəl bilən, mülayim xasiyyətli bir adamdı. O, səhnədə bir muğam dəstgahı oxudu. Yaxşı da səsi vardı. Onun bizə qohumluğu da çatırdı.

Bir gün o sinfə girəndə hamımız bir ağızdan:

- Müəllim, "bir ağız" deyə səs-küy saldıq.
- Sakit, "nə bir ağız" başa düşmürəm, nə istəyirsiniz?
- Müəllim, bir ağız... Səhnədə oxuduğunuzdan bir ağız.
- Eyibdir. Şuluqluq salmayın, müdiriyyət otağında eşidərlər. Sonra yaxşı olmaz.

Biz yenə inadla:

- Müəllim, bir ağız, müəllim, bir ağız, deyib bağırdıq.

Həsən müəllim çox həlim bir adamdı. O naçar qalıb qızara-qızara pəsdən bizim üçün bir ağız oxudu. Əl çalıb Həsən müəllimi alqışladıqdan sonra sakit olduq. Sonra isə tutduğumuz işdən çox peşman olduq.

Seyid Hüseyn də çox sakit, xeyli həlim bir adamdı. Ona hamımız hörmət edirdik.

O bütün dərsləri aydın, rəvan, sadə bir dillə bizə yetirməyi bacarırdı. Seyid Hüseynin dərsləri səmərəli keçirdi. Hamımız onun dərsinə hazır gəlirdik ki, xəcalət çəkməyək. O özünü bizə belə tanıtdırmışdı.

Mənim ilk şerim onun köməyilə nəşr olunmuşdur. Bu şerim çap olunmasaydı, bəlkə mən ədəbiyyat aləminə bu qədər tez atılmazdım. Bu, belə olmuşdur.

Mən "Unudulmuş gənc" adlı kiçik bir şeir yazmışdım. Onu utana-utana Seyid Hüseynə verib dedim ki, müəllim, mən bir şeir yazmışam. Xahiş edirəm baxıb mənə fikrinizi deyəsiniz. Seyid Hüseyn şeri alıb, çox gözəl, vaxt tapıb baxaram, dedi.

Həftələr keçdi, lakin Seyid Hüseyn şerim haqqında mənə heç bir söz demədi. Mən də onu narahat etməkdən çəkindim. Bunun üstündən iki ay keçdi. Bir gün yoldaşlarım məni əhatəyə alıb təbrik etdilər.

- Gözün aydın, "Maarif və mədəniyyət" məcmuəsində şerin çıxıb.

- Necə? Mən ora şeir verməmişəm, ola bilməz. Uşaqlar məni inandırdı ki, məcmuədə şeri gözlərilə görüblər. Mən bunu növbəti zarafat bildim. Məktəbdən çıxanda məcmuəni aldım, vərəqlədim, gözlərimə inanmadım.

Seyid Hüseynə verdiyim şerin məcmuəmdə bir kəlməsinə toxunulmadan eynən dərc edildiyinin şahidi oldum. Bu münasibətlə Seyid Hüseynə müraciət etdim. Ona təşəkkürümü bildirdim, o dedi ki, şeir xoşuma gəldiyindən jurnal redaksiyasına verdim, çap ediblər, sağ olsunlar. Seyid Hüseyn mənə yazmağı və çox mütaliə etməyi, şeir üzərində çox zəhmət çəkməyi məsləhət gördü. Bu hadisə mənə qol-qanad verdi.

Seyid Hüseynin məsləhətilə ilhamlanıb gərgin mütaliəyə girişdim. Seyid Hüseynlə 1937-ci ilə qədər tez-tez görüşərdik. Şəxsən mən Seyid Hüseynin hekayə yazdığını bilmirdim. Amma inqilabdan əvvəl mətbuatda bir neçə hekayəsi çıxıbmış.

Mən 1927-ci ildə Ruhulla Axundovun məsləhətilə "Maarif və mədəniyyət" məcmuəsinə məsul katib təyin olundum. Jurnalın arxivini əvvəlki katibdən təhvil alanda Seyid Hüseynin "Gilan qızı" adlı hekayəsinə rast gəldim. Üzərində "getmədi" yazılmışdı. Katibdən hekayənin çap olunmamasının səbəbini soruşdum. O, dedi ki, hekayə zəif olduğundan dorc etmədik. Mən hekayəni evə aparıb diqqətlə, böyük maraqla və həyəcanla oxudum. Sonra Ruhulla Axundov da oxudu. Hekayə çox xoşumuza gəldiyindən məcmuədə dərc etdik. Beləliklə mən müəllimimin borcunu ödəmiş oldum.

Seyid Hüseyni redaksiyaya çağırdıq. Jurnalımızda yaxından, fəal iştirak etməsini xahiş etdik.

Seyid Hüseyn bir-birinin ardınca bizə "Bir kuçənin tarixi", "Gələcək həyat yollarında", "Yatmış kəndin qış gecələrində", "Sümük azarı" və qeyri hekayələrlə məcmuəmizin səhifələrini zinətləndirdi. Belə əsərlər məcmuəmizin oxucularının artmasına səbəb olurdu. Biz Seyid Hüseyni proletar yazıçıları ittifaqına üzv qəbul etdik.

Seyid Hüseyn gənclərin yetişməsində də böyük fəaliyyət göstərirdi. Biz onu fəhlə rayonlarındakı ədəbiyyat dərnəklərinə təhkim etmişdik. Mirzə İbrahimov, Məmmədağa Sultanov və başqaları onun rəhbərlik etdiyi dərnəklərdəndir. Seyid Hüseynin dili şirindi. Bəzi hərflər onun tələffüzündə zəif çıxırdı.

Seyid Hüseyn çox prinsipial adamdı. Oxuduğu əsər haqqında açıq və qəti fikir söylərdi. İclaslarda "Kim söz istəyir, kim danışmaq

istəyir" deyiləndə salondan səs çıxmazdı. Heç kəs birinci danışmaq istəməzdi. Burada Seyid Hüseyn bizim köməyimizə çatardı. İlk o danışardı. Biz buna öyrəndiyimizdən müzakirə zamanı həmişə, "ağa, sözü sənə veririk" deyəndə o imtinasız tribunaya qalxardı. Yadımdadır, bir dəfə biri bizi evinə çağırdı. Seyid Hüseyn, Çəmənzəminli də bizimlə idi. Bu evdə qutabdan tutmuş plova qədər bişmişdi. Əsər oxundu. Yeməkdən sonra əsər haqqında söhbət başlandı. İlk sözü Seyid Hüseyn dedı:

- Doğrudur, dadlı qutabınızı, plovunuzu yemişəm, inciməyin, ancaq əsəriniz çox zəifdir. Müəllifə bir-bir sübutla, dəlillə əsərin nöqsanlarını açıb göstərdi.

Biz gənc şairlər o zaman Seyid Hüseynə zarafatla "Məzlum ağa" adı vermişdik. Çünki o çox təmiz, açıqürəkli təvazökar bir insandı. Heç bir kəsə qarşı qəlbində həsəd, kin, qərəz hissi yoxdu.

Gənclərə qayğıyla, öz həmyaşlarına isə ciddi yaradıcılıq tələbkarlığıyla yanaşardı. Onun yanında heç kəs başqasının qiymətini qırmağa cürət etməzdi. Seyid Hüseyn novxanılı idi, mən də ata tərəfdən novxanılıyam. Mən yayda onunla Novxanı bağlarında görüşərdim.

1936-cıildəXalq Komssarları Şurası bədii əsərlər üçün müsabiqə elan etmişdi. Mən səhnəyə bir qədər bələd olduğumdan Seyid Hüseyn təklif etdi ki, birlikdə bir dram əsəri yazaq.

Əvvəlcə mövzu seçdik. Plan qurduq. Hərəmiz öz öhdəmizə düşən hissəni yazdıq. Sonra birlikdə işlədik. Əsər üzərində həm onun içəri şəhərdəki kiçik mənzilində, həm də Novxanıda birlikdə çalışdıq. Əsərin aqibəti yaxşı olmadi. Müsabiqədə əsər yaxşı qiymət almışdı. Zərf açılandan sonra Seyid Hüseynin imzasını mənim imzamla yanaşı görəndə diksinmişdilər. Nəticədə bizə mükafat verməməyi qərara almışdılar.

Seyid Hüseyn 1930-cu illərdə işçi teatrı üçün "Kölgə" adlı bir pyes yazmışdı. Mən həmin teatrda ədəbi hissə müdiri vəzifəsində çalışırdım. Bu əsər Abbas Mirzə Şərifovun iştirakilə oynanıdı. Əsər kənddə gedən sinfi mübarizədən bəhs edirdi.

Biz 1937-ci ilə qədər Seyid Hüseynlə tez-tez görüşərdik. Təəssüf, min təəssüf, bu böyük istedadı vaxtından çox tez itirdik. Sadə, təmiz geyimli, gözü eynəkli, əli əsalı Seyid Hüseyni sanki indi də Bakı küçələrində tələsik hara isə gedən görürəm.

*3 noyabr 1964*

## CƏFƏRİ YAD EDƏRKƏN

Bu torpağın gözü acdır, nə versələr yeyəcək,
O hər zaman dil açıb mən acam, acam deyəcək.

Bu iki sətri əziz dostum Cəfərin ölüm xəbərini eşidəndə demişdim, Onun ölümü biz dostlarını dərindən sarsıtdı. Cəfəri xalqa sevdirən onun yaratdığı ölməz əsərlər oldu.

İlk gənclik illərində biz onun əsərlərinə teatrda təkrar-təkrar tamaşa edər və sonra məktəbimizin dram dərənyində hazırlayıb tələbələr qarşısında nümayiş etdirərdik. O zaman hər yerdə, hər evdə Cəfərin səhnə əsərlərindən qızğın, şirin söhbətlər gedərdi. Ailələr də təzə doğulan körpələrə təntənəylə, böyük iftixarla Cəfərin əsərlərindəki qəhrəmanların adlarını qoyurdular. O dövrdə mən Nəriman Nərimanov adına sənaye məktəbində oxuyarkən onun "Aydın" pyesində Surxay rolunda çıxış etmişdim. Bu tamaşanın rejissoru Cəfərin yaxın dostu, xalqımızın böyük sənətkarlarından biri olan mərhum İsmayıl Hidayətzadə idi. Cəfərlə yaxından tanışlığım 1925-ci ildə Azərbaycan Dövlət Darülfünun Şərq fakültəsində oxuyarkən oldu. O yuxarı kursda olduğuna baxmayaraq bizimlə dostluq eləyirdi.

Onun sadəliyi, səmimiliyi, təvazökarlığı bizi özünə ürək dostu eləmişdi.

O, 1926-cı ildə darülfünun nəzdində dram və ədəbiyyat dərnəyinin təşkilində bizə çox yaxından kömək etdi. Cəfər, bu dərnəklərə tez-tez gəlib bizə gözəl məsləhətlər verirdi.

Yadımdadır, biz Hüseyn Cavidin mənzum "iblis" faciəsini böyük bir həvəslə tamaşaya hazırlayırdıq. Məşqlərimizdə o da iştirak edirdi. Əfirasiyab Bədəlbəyli İblis, mən isə Arif rolunda çıxış etməli idik. Yaman həyəcan keçirirdik... Cəfər bizə ürək-dirək verib tamaşanın yaxşı keçəcəyindən danışdıqca biz özümüzdə qüvvət, cəsarət hiss eləyirdik. Doğrudan da o zaman Mirzə Fətəli Axuudov teatrında verdiyimiz tamaşa müvəffəqiyyətlə keçdi. Hətta "Kommunist" qəzetində bu tamaşa haqqında yaxşı bir məqalə də çıxdı.

Biz darülfünunda dərslərimizə yaxşı hazırlaşan tələbələrdən idik. Bir dəfə təhsil linin sonunda fars dilindən imtahana hazır olmadığımızı başa düşdük. Bir neçə nəfərdən başqa tələbələrin hamısı imtahan verib qurtarmışdı. Bu dəfə də Cəfər köməyimizə yetişdi. O

bizə müəllimin evinə gedib orda imtahan verməyi məsləhət gördü. Cəfər də imtahana gecikənlər sırasında idi.

Fars ədəbiyyatı müəllimi Mirzə Möhsün içəri şəhərdə yaşayırdı. Cəfər, Əfrasiyab Bədəlbəyli və mən qərara gəlib onun evinə tərəf yollandıq. Müəllimimiz kiçik, qaranlıq bir otaqda yaşayırdı. O, bizi görüb təəccübləndi. Cəfər dedı ki, sizə imtahan verməyə gəlmişik. Müəllimimiz otağın pərakəndəliyindənmi, ya nədənsə yaman tutulmuşdu.

İlk söhbətə Cəfər başladı. Vəziyyət elə oldu ki, müəllimimiz yox, biz müəllimimizi imtahana, sorğu-suala çəkdik. Ona yeni fars ədəbiyyatı haqqında suallar yağdırırdıq. O da bizə hərarətlə cavab verirdi.

Nəhayət, Mirzə Möhsün gülümsəyərək kitabçamızı alıb fars ədəbiyyatından bizə qiymət yazdı. Biz Mirzə Möhsünün yanından çıxıb qələbəni təntənəylə qeyd elədik.

Cəfər Cabbarlı "Gənc qızıl qələmlər ittifaqının" üzvü olmasa da o bu təşkilatın yaranmasında yaxından iştirak edənlərdən biri idi. İttifaq yaranmamışdan əvvəl "Kommunist" qəzeti yanında ədəbiyyat dərnəyi vardı. Bu dərnəkdə gənclərin yeni əsərləri təhlil və müzakirə olunmdu. Cəfər Cabbarlı bu dərnəyə demək olar ki, rəhbərlik eləyirdi. Cəfər o zaman "Kommunist" qəzetinin əməkdaşı idi. Müəyyən illərdə qəzetə rəbbərlik edən Həbib Cəbiyev, Ruhulla Axundov, Cəfərə böyük hörmət bəsləyirdilər. Qəribə burasıdır ki, Cəfər kimi sənətkar, istedadlı, şöhrətli dramaturq həmişə gənclərin arasında görünürdü...

Dostu səfərdə daha yaxşı, daha dərindən tanımaq olur.

Cəfər Cabbarlı ilə bir neçə dəfə səfərdə olmuşuq. İlk səfərimiz 1929-cu ildə Gürcüstana, Ermənistana getməyimizdir. Heyətimizin sədri Haqverdiyev, katibi isə mən idim. Bizi çox böyük hörmət və məhəbbətlə qarşıladılar.

Bütün səfər boyu Cəfər biz gənclərin arasında idi. Cəfərin məzəli, duzlu söhbətləri, hazırcavablığı biz gəncləri ona daha yaxın eləmişdi.

Bir gün Tiblisidən Msxetiyə yola düşərkən, Cəfər, Şaiq və mən bir maşına minməli olduq. Qabaqda qocaların - Haqverdiyevin, Qalaktion Tabidzenin mindiyi maşın gedirdi. Birdən Cəfər sürücünün qulağına gülə-gülə nə isə pıçıldadı. Sürücü maşının sürətini artırdı. Yoldan toz qaldıran maşınımız mənzilə hamıdan əvvəl yetişdi. Qocaların maşını bizdən sonra gəlib çixdı.

Haqverdiyev çox pərt idı. Mən ondan belə bir töhmət aldım: "Bu dəfəlik günahından keçirəm... Adam sədrin maşınını keçməz, cavan oğlan!.."

Mən onun sözlərini təsdiq edərkən Cəfər bığaltı gülürdü. Tbilisidə, Yerevanda və başqa şəhərlərdə keçirdiyimiz xoş saatlar, günlər unudulmazdır.

Cəfər Cabbarlı da bu səfərin ən qaynar, fəal nümayəndələrindən biri kimi bizi ruhlandırırdı. İllər keçdikcə Cəfərlə dostluğumuz get-gedə bərkiyirdi. O yeni yaranan hər yaxşı əsərə ürəkdən sevinən sənətkardı. Hacıbaba Nəzərli ilə yazdığımız və işçi teatrında tamaşaya qoyulmuş "Yanğın" komediyası münasibətilə o məni səmimi təbrik etdi, alqışladı. Dövlət dram teatrı üçün əsər yazmaği məsləhət gördü. Ədəbiyyata xaltur əsərləriə soxulmaq istəyən təsadüfi adamlara qarşı Cəfər amansızdı. Bəziləri ağzına gələni yazıb dövlət dram teatrında zorla oynatmaq xəyalına düşmüşdü. Bunlar rədd cavabı aldıqda böhtanlara, iftiralara əl atmaqdan çəkinmirdilər. Bəziləri isə döviət dram teatrtnda Cəfərin vəzifəsinə, lojasına belə göz dikmişdilər.

Bir defə Cəfər mənə bu adamların əlindən zinhara gəldiyini söylədi. Mən bıı məsələylə əlaqədar "Kommunist" qəzetində çıxış etmək istədim. O buna razı olmadı. Mən öz fikrimi ayrı şəkildə qələmə aldım. "Dramaturq Səfdər Əmi oğlu" adlı hekayəmdə Cəfərə qarşı olan xalturaçılara, böhtançılara qarşı çıxdım.

Cəfərin üzünə tərif sözləri deyiləndə heç xoşlanmazdi. O, həmişə: "mən həvəskaram, yazırıq, görək axırımız hara çıxacaq" - deyərdi.

Biz Cəfərlə hər görüşəndə ürəkdən sevinərdik. O, həmişə yazıb yaratmaq eşqilə yaşayırdı.

1934-cü ildə Moskvadan sovet yazıçıları qurultayından qayıdandan sonra Cəfər xəstələndi. Xəstəykən bir gün məni evinə çağırtdırdı. Yanında yalnız Əlili vardı. Quzu kəsmişdilər, Sona baci gözəl süfrə açdı. Söhbətimiz uzun çəkdi...

Bir neçə ay sonra bir gün onun aramızdan getdiyini eşidəndə gözlərimdən ixtiyarsız yaşlar axdı. O, aramızdan gənc ikən getdi. Cəfər xalqımız üçün hələ bir çox qiymətli əsərlər yarada bilərdi. O, böyük, coşqun istedadın aramızdan vaxtsız getməsinə inana bilrairdik. Heyhat, bu itki ədəbiyyatımız üçün böyük, çox ağır bir itki oldu. Təsəllimiz budur ki, Cəfərin əsərləri yaşayır və həmişə yaşayacaqdır. Demək, dostumuz Cəfər də yaşayır və yaşayacaq!

*Fevral 1960*

## VLADİMİR MAYAKOVSKİ

Sovet poeziyasının ən görkəmli nümayəndəsi Vladimir Mayakovski ilə gənclik illərində tanış olmağımla həmişə iftixar etmişəm. Çünki şəxsən Mayakovski ilə görüşüm və əsərlərilə yaxından tanışlığım mənim yaradıcılıq həyatıma xeyirxah təsir buraxmışdı. İllər ötdükcə Mayakovskinin əvəzedilməz, təkrarolunmaz, inqilabi poeziyası mənə daha qiymətli, daha canlı, daha yaxın görünür.

Mən istərdim ki, Mayakovski kimi böyük ədəbi simalar haqqında xatirə yazarkən təhriflərə, uydurmalara yol verilməsin. Təəssüf ki, bəzən belə yazılara rast gəlirik.

Bu yaxınlarda bir təşkilatdan mənə belə sual verdilər: "Mayakovski Bakıda olarkən aşıqlarla görüşməsi və bir aşığın sazına rus aşığından Azərbaycan aşığına" sözünü yazması doğrudurmu? Bir jurnalist bizə bu haqda bir məqalə yazmışdır. Mən bu sualı verən yoldaşa bildirdiın ki, Mayakovski Bakıda aşıqlarla görüşmədiyinə görə bir aşığın sazına, deyilən sozü də yaza bilməzdi...

Mayakovskinin şeirlərilə 1925-ci ildən tanışdım. Onun özünə və yaradıcılığına dərin hörmət və məhəbbət bəsləyirdim.

Ədəbiyyata təzəcə həvəs göstərdiyimiz və rus sovet şairlərindən öyrənməyə can atdığımız illər idi.

O zaman rus sovet şairlərinin əsərlərini diqqətlə izləyib öz respublikamızda yeni inqilabi sovet ədəbiyyatı uğrunda mübarizə aparırdıq. "Sənət sənət üçündür" nəzəriyyəsinin tərəfdarları, mücərrədçilər, formalistlər, simvolistlər yaranmaqda olan yeni poeziyamızın inkişafına əngəl törətmək istəsələr də, onlar öz arzularına nail ola bilmirdilər.

O zaman respublikamızın daxilində künc-bucaqda maskalanmış pantürkistlər, millətçilər Azərbaycan yazıçılarının öz rus qələm dostlarıyla yaxınlaşmasına mane olmaq istəyirdilər. Onlar iradəsi zəif, sinfi görüşü yetişməmiş, bəzi gəncləri həqiqət yolundan müvəqqəti azdırsalar da, lakin öz murdar niyyətlnrinə nail ola bilmirdilər...

Mətbuat səhifələrində tez-tez rus yazıçı və şairlərinin gözəl əsərlərini çap edib geniş oxucu kütlələri arasında yayırdıq. O illərdə Moskvadan Bakıya tez-tez yazıçılar və şairlər gəlirdi. Onlarla yaxınlaşan görüşümüz yeni inqilabi poeziyamızın inkişafı üçün çox xeyirli olurdu.

Məsələn, dahi sovet yazıçısı Maksim Qorkinin Bakıya gəlməsi və biz gənc yazıçılarla müsahibəsi ədəbiyyatımızın inkjşafı üçün cox əhəmiyyətli bir hadisə oldu.

Mayakovski Bakıya 1927-ci ilin dekabr ayında gəldi. Onun şeir gecələrinin iri, maraqlı afişaları Bakı küçələrinin bəzəyi oldu. Azərbaycan proletar yazıçıları cəmiyyəti indiki Akademiya binasının ikinci mərtəbəsində yerləşirdi.

Mən cəmiyyətin məsul katibi vəzifəsində çalışırdım. Gənc və şair dostlarım Mayakovski ilə necə görüşmək haqda söhbət edirdi. Onun yanına nə zaman gedəcəyimizi düşünürdiik. Bir qədər sonra mən qapı arxasından gələn cürətli sərt addım səsləri eşitdim. Qeyri ixtiyari, lapdan yoldaşlarıma: "Odur, Mayakovski özü bura gəlir" dedim.

Mənim bu sözüm həqiqətə çevrildi. Qapıdaıı içəri ucaboylu enli kürəkli, uzun qollu bir adam girdi. Cəld ayağa qalxdıq. O iki iri addım atmaqla bizim stola yaxınlaşdı. Əllərimizi bir-birimizə uzatdıq.

O: - Mayakovski - dedi. Sevincimizin dərəcəsini dillə demək çətindir. Oturub söhbətə başladıq. Mayakovskinin söhbətə başlaması o qədər sadə və səmimi oldu ki, biz özümüzü çox sərbəst hiss etdik.

Mayakovski təşkilatımızın nə kimi ədəbi qüvvəyə malik olmasıyla maraqlanırdı. O, bizdən nəşriyyatlarla əlaqəmizi, kitablarımızın necə yayılmasını soruşdu.

Onu bizim əsərlərimizin mövzusu, Bakı neflçilərinə nə kimi əlaqəmiz olduğu çox maraqlandırırdı. Söhbət əsnasında dedi ki: "Bizə əsərlərimizi özümüz üçün yazmırıq. Özümüz üçün yazsaydıq nəşr etməyə ehtiyac qalmazdı. Biz əsərlərimizi geniş oxucu kütlələri üçün yazırıq. Buna görə də ilk növbədə əsərlərimizi onlara oxuyub fikirləi öyrənməliyik. Xüsusilə siz Bakı şairləri fabrikalarda, zavodlarda fəhlələrlə, mədənlərdə neftçilərlə əlbir işləməlisiniz. Bunsuz yeni ədəbıyyat yaratmaq olmaz. Sizin oxucularınız onlardır! Oxucusuz şair olmaz

Biz ona harada və nə kimi çıxışlar etdiyimizdən danışdıq.

Mayakovski Moskvada yaşasa da, bizim Baki həyatilə yaxından tanışdı. Ədəbiyyatımız haqqında ötərgi məlumatı vardı.

O, bizə deyirdi: "Gənclər üçün müvəffəqiyyətdən baş gicəllənməsi qorxulu xəstəlikdir". Sonra Mayakovski dedi:

"Klublarda, mədəniyyət saraylarında təşkil etdiyımız gecələrə kütlələrdə maraq, ehtiyac oyatmaq lazımdır. Qoy oxucularda

şairlərin yeni əsərlərini dinləməyə daxili, bədii ehtiyac oyansın. O şairin şerinə məhəbbət bəsləyən, onu dinləməyə ehtiyac hiss belə gecələrə axın-axın gələr. Bunun böyük əhəmiyyəti var".

Biz onunla iki saata qədər səmimi söhbət etdik. Böyük şair qardaşımız Vladimir Mayakovskinin Bakıya gəlişi və bizimlə açıq, söhbət etməsi hamımızda böyük ruh yüksəkliyi oyatdı.

Müsahibədən sonra küçəyə çıxdıq. Onunla birlikdə şəhərin küçələrini gəzərkən yol keçənlərin hamısı dönüb heyran-heyran bu pəhləvan gövdəli, iri addımlı şairə baxırdı.

Hamı - Mayakovski... Mayakovski... deyirdi. Mayakovskinin ədəbi gecələrindən biri mədəniyyət sarayında (İndiki akademiyanın binasında) oldu. Salon ağzına qədər adamla dolu idi. Burada əsas etibarilə ziyalılar, müəllimlər, mühəndislər, yazıçılar, tələbələr toplanmışdı.

Biz gənc şairlər salonun orta sıralarında bir yerdə oturmuşduq. Bizi gecəyə şəxsən Mayakovski özü dəvət etmişdi. Budur, Mayakovsk: səhnədə göründü. Salon hərəkətə gəldi. Alqış sədaları salonu bürüdü. Gecəni özü açıb özünə söz verdi. O, salondakılara ən gözəl əsərlərindən biri olan "Xoroşo" poemasını oxudu. Mayakovski poemanı oxuyub qurtarandan sonra hamımız onu ürəklə alqışladıq. Bir nəfər ona belə yazmışdı: "İnsanın qəlbində boşluq olanda, onun iki çıxış yolu var. Biri susmaqdan digəri isə bağırmaqdan ibarətdir. Siz nə səbəbo ikinci yolu seçmisiniz?"

Mayakovski əsla pərt olmadı. Lakin biz onun halına acıyırdıq. Onu ürəkdən sevən, poeziyasına pərəstiş edənlər cərgəsində tək-tük nadanların olması və belə hərəkət etməsi bizi əsəbiləşdirirdi. Mayakovski bu sualın müəllifinə belə cavab verdi:

Bu kağızın müəllifi unudur ki, üçüncü bir çıxış yolu da var. O da belə axmaq suallar yazmaqdan ibarətdir.

Btün salon gülüşdü. O bu cavabilə bizim ürəyimizdən tikan çıxartdı. O vaxt bir para adamlar unudurdular ki, Mayakovski artıq yaşıl koftalı Mayakovski deyildir.

Mayakovski bir sıra ölməz poemaların və şeirlərin müəllifidir. Mayakovskinin günləri Bakıda çox mənalı və səmərəli keçirdi. Fəhlələrin xahişilə Mayakovski ilə birlikdə Paris Kommunası tərsanəsinə getdik.

Bu görüş günorta yeməyi saatında oldu.

Mayakovskinin tərsanəyə gəlişi dalğa kimi fəhlələr arasına yayıldı. Tərsanənin mexaniki şöbəsinə bir neçə yüz fəhlə toplaşdı. Mərhum yazıçı Mixail Kamski, Mixail Yurin də buradaydı. Bəli, burada təntənəli, bəzəkli şərait yoxdu. Burada sovet şeri dəzgahlar arasında, əmək qəhrəmanları üçün səslənməli idi. Sexdə dərin sükut hökmfərma idi. Mayakovski burada da özü yığıncaği açıq elan edib özünə söz verdi. Fəhlələr Mayakovskini böyük diqqət və maraqla dinləyib onun poeziyasına valeh olduqlarını öz gurultulu alqışlarıyla büdirdilər.

Dəzgahların ahənginə öyrənmiş qulaqlar yeni əsrimizin yeni şeir ahəngini öz zəhmət himni kimi dinləyirdi.

Fəhlələr Mayakovski şerinin ahəngində, vəznində öz zəhmətlərinin ahəngini, musiqisini duyub şairə minnətdarlıqlarını bildirirdilər. Şair üçün bundan da böyük səadət olarmı?

Bir gün Mayakovski, Mixail Yurin və mən yazıçı Mixail Kamskinin Razin qəsəbəsindəki evində qonaq olduq. Mayakovski Kamskinin qonşuluğundakı fəhlələrin mənzilləri və yaşayışlarıyla tanış olmaq niyyətilə qocalarla, cavanlarla söhbətə girişdi. Biz Mayakovskidən Azərbaycan proletar yazıçıları ilə birlikdə ədəbi gecə təşkil etməyi xahiş etdik. Ədəbi gecəmiz dekabrın 6-da "Maarif evində" (indi həmin yer Sabir bağıdır) keçdi. Bu gecə Mayakovski bir-birinin dalınca xeyli gözəl şeir oxudu.

Sonra yenə qaydası üzrə oxucularla söhbətə başladı. Mayakovski salona xitab edərək: "kim mənim oxuduğum şeirləri başa düşməyibsə. kim, ümumiyyətlə, mənim şeirlərimi oxuya bümirsə əlini qaldırsın" dedi.

Salonda bir uğultu oldu. Hamı bu suala təəccüb etdi. Çünki bir az əvvəl hamı onu dərindən başa düşüb alqışlamışdı.

Biz Mayakovski ilə birlikdə bir xatirə olsun deyə şəkil çəkdirməyi qərara aldıq. O vaxt indiki "Nərgiz" kafesinin yerində ikimərtəbəli köhnə bir bina vardı. İkinci mərtəbədə Breqadze adlı yaxşı bir fotoqraf işləyirdi. Bakıya gələn böyük simaların, hörmətli yazıçıların, sənətkarların və dövlət xadimlərinin şəkillərini o çəkirdi.

Mayakovski ilə bərabar fotoqrafxanaya getdik. Biz Hüseyn Cavid, Məmməd Arif, Mixail Yurin, Mixail Kamski Q.Stroqonov, P.Tarasov və bir neçə başqa şairlə birlikdə şəklimizi çəkdirdik. Bu bizimçin ən əziz, ən qiymətli xatirədir.

Mayakovski Bakıdan çox razı getdi. Moskvada təhsil aldığımız illərdi. Proletar yazıçılarının Azərbaycan seksiyası təşkil edilmişdi. Bu seksiyada Səməd Vurğun, Əli Nazim, Osman Sarıvəlli, Məmməd Əkbər, Əbdülbaqi Fövzi, Beydulla Musayev və başqa gənc yazıçı və şairlər vardı. Biz hamımız Mayakovskinin Moskvada təşkil etdiyi ədəbi gecələrə gedib onu böyük maraqla dinlərdik. 1930-cu il idi. Yazıçılar evində Mayakovskinin ədəbi fəaliyyətinin 20 illiyi qeyd olunurdu. Mən bir neçə dostumla oraya getdim. Orada Moskva yazıçılarından yalnız iki nəfəri görə bildim. Bu iki nəfərdən biri "insan cildini dəyişir" romanının müəllifi məşhur polyak yazıçısı Bruno Yasenski, digəri şair Bezımenski idi.

Salonda oturanların çoxu fabrikalardan, zavodlardan gəlmiş ədəbiyyat həvəskarları, yeni yazanlardı.

Mayakovski öz yubiley iclasını açıq elan edib özünə söz verdi. O, yubiley gecəsində çox mənalı bir nitq söylədi. Mayakovskinin ədəbi fəaliyyətinin 20 illiyi münasibətilə yazıçılar evinin foyesində təşkil olunmuş maraqlı sərgiyə axın-axın gənclər, müəllimlər gəlirdi. Həmin sərgidə fəhlə ilə kəndlinin qardaşlığını göstərən bir rəsm nəzərimi cəlb etdi. Bu rəsm mənə tanış gəlirdi. Bu rəsmin hardan və necə buraya düşdüyünü sərginin təşkilatçısından soruşdum. Məlum oldu ki, bu rəsmi Mayakovski Bakıdan gətirmişdir. Bəli, bu rəsm bizim xalq rəssamımız Əzim Əzimzadənin işi idi. Bəlkə də bu rəsmi ona Əzimzadə özü bağışlamışdı. Bu sərgidə şairin müxtəlif illərdə çap olunmuş kitabları, plakatları, əlyazmaları, afişaları, karikaturaları, şarjları fotomontajları vardı.

Mayakovskini son dəfə 1930-cu ilin fevralında Yazıçılar evində gördüm.

Moskva yazıçılarının növbəti konfransı keçirilirdi. Konfransın son günü idi. Bir sıra cansıxıcı çıxışlardan yaxa qurtarıb bufetdə çay içməklə məşğulduq. Birdən tənqidçi dostum Sutırin mənə yaxınlaşıb dedi:

- Burda niyə oturmusan? Tez salona keç. Yoxsa çox şey itirmiş olarsan!

Mən cəld salona cumdum. Mayakovski tribunada idi. O, əvvəlcə "Rappa" qəbul edilməsi haqda öz ərizəsini oxudu. Salondakılar ayağa qalxıb onu qızğın alqışladılar. Təbrik etdilər. Mayakovski sonra cibindən kibrit qutusundan bir az iri dəftərçə çıxarıb ordan bizə ilk dəfə

"Vo vse qolos" poemasından parça oxudu. Bu şeir öz orijinalığı, öz bədii qüvvətilə hamımızı sarsıtdi. Salonda alqış sədaları çox uzun sürdü. Mayakovski şeri ikinci dəfə oxudu. Mayakovskinin Rusiya proletar yazıçıları ittifaqına qəbul olunması səsə qoyuldu.

Hamımız qırmızı mandatlarımızı bayraq kimi qaldırıb ona ürəkdən səs verdik. Mayakovski üzvlüyə qəbul edildikdən sonra üzünü köhnə "Rappçılara" tutub belə dedi: "Mən bu gündən "RAPP"ın üzvüyəm. Lakin onun daxilində müəyyən məsələlərdə prinsipial mübarizəmi davam etdirəcəyəm!

Mayakovskini bir daha görmədim. Son görüş çox acı və kədərli idu. Aprelin 14-ü idi. Saat 11 radələrində Moskva meydançalarının birində idim. Burada tanıdığım iki gənc yazıçı məni saxladı. Bunlardan biri dostum idi. Biz onu öz adıyla çağırmadıq. Aramızda onun adı "Jivoy çelovek" idi. Çünki o iclaslarda çıxış edərkən bu sözü həddindən çox işlədərdi.

Dostum qəmgin bir tövrlə mənə dedi: "Bilirsənmi, deyirlər Mayakovski intihar etmişdir. Evləri bu yaxındadır. Biz oraya gedirik".

Bu xəbər məni sarsıtdı. Onun dediyinə inanmaq istəmədim. Onlarla birlikdə bir həyətə girdik. Bir qapının ağzında qapalı, qara təcili yardım maşını dayanmışdı. Tanıdığımız bir neçə Moskva yazıçısı həyətdə başıaşağı, kədərli durmuşdu. Gözlərimiz yaşardı. İki gün sonra bu böyük itkidən ürəyi qana dönmüş biz gənclər onu qəbiristanlığa qədər müşayiət etdik.

Lakin Mayakovski öz poeziyası ilə bu gün də bizim novator ədəbiyyatımızın Ön sırasında dayanmışdır. Onun inqilabi, alovlu poeziyası sabah da yaşayacaqdır.

*İyun 1963*

## MİKAYIL MÜŞFİQ

Yaxın qələm dostu haqqında vəfatından sonra söz demək dost üçün çox ağır olur. Özü də əsərlərilə yaşayan, həmişə sənin gözlərinin qarşısında durub sənə baxan, gülümsəyən bir şair haqqında.

Mikayıl Müşfiqin yaxın dostlarından biri də mən idim. Sağlığında bu dostluğun 12 il, indi isə 40 ildən artıq bir tarixi vardır. Tanış

olduğumuz zaman Müşfiqin 18 yaşı olardı. Bizim gənclik illərimiz çox qaynar bir dövrdə keçdi. Qızıl qələmlər ittifaqı sıralarına Müşfiq Sabir kitabxanası yanındakı ədəbi dərnəkdən gəldi. Bu gəlişə hamımız sevindik. Demək olar ki, o vaxt kitabxanaların və məktəblərin hamısında ədəbiyyat dərnəkləri fəaliyyət göstərirdi. Bu dərnəklərdə istedadlı gənclər az deyildi. Biz şəhərimizdəki kitabxanaları, məktəbtəri gəzib böyük maraqla divar qəzetlərindəki ədəbi parçaları nəzərdən keçirərdik. Həmin yazılar haqqında "Gənc işçi"də məqaləbr yazardıq. Bu ədəbi parçaların müzakirəsini keçirərdik. İstedadlıları qızıl qələmlər ittifaqına cəlb edərdik.

Müşfiq bu deməklərdən birində ilk qələm təcrübəsi ilə məşğul olan ən istedadlı bir gəncdi. O ilk addımlarından gənclərin nəzərini şeirlərinə cəib edə bilmişdi. Qızıl qələmlər ittifaqında Müşfiq bizimlə birlikdə yeni, novator sovet poeziyası uğrunda mübarizə aparanlardan biri oldu.

Qaynar gəncliyimizin romantik çağları, xoş şirin arzularla keçdi. Keçdiyimiz şərəfli yollarda birimiz az, birimiz çox büdrəmişik. Lakin yenə qalxıb əzmlə yolumuza davam etmişik. Gənclik illərimizdə biz kommunist partiyamızın, komsomolumuzun qayğısını, köməyini həmişə duyurduq.

Yeni dünyamızın mahnılarını yaratmaq uğrunda fədakarlıqlar göstərməyə can atırdıq. Komsomolun orqanı "Gənc işçi" qəzetinin səhifələri şeirlərimizə, ədəbi mübahisələrimizə həmişə açıq idi. O vaxt inqilabi poeziyamızm sevilə-sevilə oxunan yaradıcılarından biri də Müşfiq idi. Onun şeirlərində zəmanəmizin əlamətdar hadisələrinin tərənnümü xüsusi yer tuturdu. Musiqi kimi səslənən bu səmimi, ürək çırpıntılarıyla dolu şeirlər dildən-dilə düşürdü.

Şeirlərin ahəngi Bakı təbiətilə sıx bağlıydı. Onlar gah xəzri kimi sərt, gah gilavar kimi mülayim səslənirdi. Müşfiq doğrudan da gözəl insan, gözəl dost, gözəl şairdi.

Müşfiqin hərəkətləri, insanlarla rəftarı şairanə idi desək, yanılmarıq. Evdə, gəzintilərdə, məclislərdə, tribunalarda, fabriklərdə, zavodlarda şeir oxumaqdan aldığı zövqü dillə söyləmək çətindir.

Onun ürəyindəki dilindəydi, dilinə yalan söz gəlməzdi. Yalan danışanlarla dostluq etməzdi, həmişə öz fikrini açıq, aydın söylərdi. Bir haqsızlıq gördümü, tez coşub özündən çixardi. Dostunun, yoldaşının eybini, nöqsanını üzünə deyərdi. Şair dostlarının sevincinə

sevinər, dərdinə ürəkdən şərik olardı. Özü bir səhv etdikdə düşünmədən dərhal "səhv etmişəm" deməzdi. O bunu ancaq öz səhvini dərindən dərk etdikdən sonra etiraf edib üzr istərdi. Yadımdadır, gənclik iliərimizdə mən Müşfiqi tənqid etmişəm, Müşfiq də məni. Hətta bu öz əksini o illərin mətbuat səhifələrində də tapmışdır. Bununla belə Müşfiqlə bir süfrədə duz-çörək kəsməkdən, heç vaxt uzaq olmamışıq. O illərdə vaxtımız restoranlarda sağlıqlar deməklə yox, ədəbi yığıncaqlarda və evlərdə poeziyamızın inkişafı haqqında düşünməklə, qizğın ədəbi mübahisəlarlə keçmişdir. Onu da deyim ki, bizim məktəb müəllimlərimizə böyük, dərin məhəbbətimiz vardı. Özümüzdən yaşlı yazıçı və şairlərə hörmətimiz sonsuzdu. Onların söbbətlərindən həmişə zövq alardıq. Onlar üçün həmişə ayağa qalxardıq. Bu kimi hərəkətlərdə Müşfiq aramızda birincilərdəndi. Mikayıl Müşfiq kiçik yaşlarından yetim qalmışdı. Hamımız çalışırdıq ki, o, bunu hiss etməsin. Bizim analarımız ona analıq edirdilər. Onu öz övladları qədər sevirdilər. Müşfiq isə bizim atıatarımızın dilini bizdən yaxşı bilirdi.

Evlərimizə gələndə tez analarımızı bağrına basıb kefini, əhvalını xəbər alardı. Analarımız da onu öz övladları kimi qucaqlayıb öpərdilər. Analarımız "qoy Mikayıl bizə tez-tez gəlsin" deyərdilər.

Yadıma Müşfiqin bır beyti düşür:

Gəl, Süleyman, çıxalım bir yarışa,
Çıxalım mövzu üçün axtarışa.

Doğrudan da o illərdə yeni-yeni əsərlər yaratmaq uğrunda yarışırdıq. Həmişə axtarışlar aparırdıq. Bir dəfə 1935-ci ildə Rəsul Rza, Müşfiq və mən Novxanıdakı bağımıza getməli idik.

Binəqədiyə qədər dar dəmir yoluyla getdik. Orada qazalaq tapmadıq. Nəhayət, əlacsız qalıb Novxanı kəndinə şalbandan qayrılmış dəmir, daş daşıyan arabanın sürücüsüylə danışdıq, o bizə dedi ki, bu araba sizi əldən sala bilər. Müşfiq təkid etdi ki, "eybi yoxdur, bunun da bir başqa aləmi var. Yolda sizə təzə şeirlərimdən oxuyacağam. Başımızı şeirlə qarışdırıb kəndə rahatlıqla çatarıq". Belə də oldu. Bütün yol boyu Müşfiq bizə şeir oxudu. Yolun əziyyətini hiss etmədik.

Novxanı kəndində isə piyada özümüzü bağlara yetirdik. Anam və atam dostlarımın gəlişinə çox sevindilər. Bir neçə gün səhər və axşam

Dənizdə çimdik. Qumlar üstündə özümüzü günəşə verdik. Hətta güləşdik də. Novxanı bağlarının şirinlikdən boğazları yandıran ağ şanısından, göbəyindən bal damarı əncirindən yedik. Nərd oynadiq. Şeirlər oxuduq.

Bakılılar çox yaxşı bilir: bizim Abşeron kəndlərində dəvə ətindən bişirilmiş qutab ən ləziz yemək hesab olunur. Xüsusilə, Novxanıda tez-tez dəvə kəsilərdi. Hər cümə axşamı qəssabxanadan bir nəfər dəvə üstündə bütün bağ yollarını dolaşıb "ay dəvə əti alan" deyə hamiya car çəkərdi. Hamı bilirdi ki, həmin dəvənin əti səhər qəssabxanada olacaqdır.

Bakılılar buna çox sevinərdilər. Lakin vətənimizin başqa yerlərindən gəlmiş dostlarımız dəvə ətindən xörək bişirilməsinə çox təəccüblənirdilər. Dadlı qutab yeyəndən sonra, bu ətlə qutab üçün nə qədər gərəkli, dadlı olduğunun şahidi olurdular. O vaxt biz bağlarda tez-tez toplaşardıq. Hətta sevimli müəllimlərimizi bağımıza hörmətlə qonaq aparardıq.

Abdulla Şaiq, Seyid Hüseyn, Cabbar Əfəndizadə, həftələrlə bağlarımızda əziz qonağımız olurdular. O zaman belə görüşlər biz gənclər üçün çox faydalı idi. Söhbətlərimiz təhsildən, ədəbiyyatdan və gələcəkdən, həyatda tutacağımız mövqe haqqında gedirdi. Müəllimlərimizlə birlikdə respublikamızın bir sıra şəhərlərində və qardaş respublikalarda səfərdə olmuşuq.

Məsələn, Cəlil Məmmədquluzadə, Haqverdiyev, Cəfər Cabbarlı, Abdulla Şaiq, Samil, Seyid Hüseyn kimi qələm sahibləri ilə birlikdə Gürcüstanda keçirdiyimiz günləri mən indi də unuda bilmirəm. Bu səfərdə Müşfiq də bizimlə olmuşdur. Bu səfər zamanı söhbət yenə ədəbiyyatdan gedirdi. Xüsusilə biz gənc şairlərin söhbəti həmişə şeirdən olurdu.

Müşfiqin Füzuli, Nəsimi, Vaqif, poeziyasına dərin məhəbbəti vardı. Bu şairlərin əksər şeirlərini əzbərdən deyirdi. Bəzən biz ona sinədəftər Müşfiq deyərdik. Çünki onun sinəsi şeirlərlə doluydu. İndi də Müşfiqin ürəkdən gələn şeirləri gözəl mahnı kimi dodaqlardan düşməyir.

*1969*

Yorğunluq nədir bilməyən bu adam bizim ədəbiyyatımız üçün az iş görməmişdir. Mikayılın ədəbi fəaliyyəti təqdirəlayiq bir fədakarlıqdır. Bəli, Mikayıl Rəfili böyük alim idi. O, alim kimi yüzlərlə gəncin gələcəkdə elmi rütbə qazanması üçün çox xeyirxah zəhmət çəkmişdir. Mikayıl yüksək mədəniyyətə, biliyə malik bir şəxsiyyətdi. O, çox qaynar bir həyat sürdü. Mikayıl həmişə hərəkətdəydi, mənə elə gəlir ki, dünya ədəbiyyatı xəzinəsinin elə bir nadir incisi tapılmazdı ki, Mikayıl onu bilməmiş olaydı. Özünün çox zəngin bir kitabxanası vardı ki, vaxtilə çoxumuz oradakı kitablardan az istifadə etməmişik. O, dostluqda möhkəm və səmimi idi. Şairliyinə gəldikdə, onun bir sıra dəyərli, səmimi, obrazlı dillə yazılmış şeirləri vardır ki, onlar indi də öz mahiyyətini, təravətini itirməmişdir.

Dünya klassiklərindən etdiyi müvəffəqiyyətli tərcümələr, teatr tamaşalarına yazdığı məqalələr də olduqca diqqət sayandır. Çoxumuz onunla uzun illər dostluq etmiş və bir süfrədə duz-çörək kəsmişik.

Mikayıl məclislərdə çox hazırcavab və zaraftcıl adam idi. Onun olduğu məclislərdə vaxtın nə zaman gəlib keçdiyini hiss etməzdin. Dostlarını özüylə zarafat etməyə özü həvəsləndirərdi. Adam var ki, iki cümləsini eşitdinmi, darıxırsan, canını əlindən qurtarmağa çalışırsan. Ancaq Mikayılı biz özümüz axtarırdıq ki, gərgin yaradıcılıq zəhmətindən sonra onunla şən dəqiqələr keçirə bilək.

Dostlar arasında bir küsülülük oldumu Mikayıl dərhal işə girişib küsülüləri barışdırardı. Mikayılın yanında biri qeybət etdinmi, o tez söhbəti başqa səmtə aparardı.

- Bəsdir, həyata fəlsəfi baxmaq lazımdır. Belə söhbətlə ancaq özünüzü vaxtından tez qocaldarsınız - deyərdi.

Şəxsən mən onunla 1927-ci ildə "Maarif və mədəniyyət" məcmuəsinə katib təyin olunduğum zaman yaxından tanış oldum. O vaxt Mikayıl həmin məcmuənin katibi idi. O, çoxumuzun ilk gənclik şeirlərinə məcmuənin səhifələrində az yer verməmişdir. Məmməd Rahimin, Mikayıl Müşfiqin, Əli Nazimin, Əbdülbaqi Fövzinin, mənim və digər gənc şairlərin şeirlərini məmnuniyyətlə dərc etməklə yeni sovet ədəbiyyatının gənc nümayəndələrinə öz məhəbbətini bildirərdi.

Mən ən ciddi, ən qaraqabaq adlanan adamlarda belə yumor və zarafat axtarmağa çalişanlardanam. Mikayılın həyatında bir çox gülüş, təbəssüm doğuran cəhətlər olmuşdur ki, bunlardan danışmaya

Bilmərum. Bizim şənliyimiz Mikayılsız keçmirdi. Bəzi adamlar görürsən ki, hər il özü üçün yeni tərcümeyi-hal düzəldir, yerinə görə gah yaşını azaldır, gah da çoxaldır.

Mikayıl belə deyildi, biz hər il onun anadan olan gününü qeyd etmək üçün evində toplaşardıq. Lakin yaşının neçə olduğunu öyrənə bilmirdik. Birimiz ilk piyaləni qaldırıb deyərdi:

- Mikayıl, piyaləni sənin şərafinə qaldırmışıq. Bu gün yaşının neçə olduğu söyləməsən içməyəcəyik.

O savabında:

- Rəhmətlik uşaqları, yaşımla nə işiniz var, yeyin, için, kefə baxın! - deyərdi.

Hər il onun anadan olan günündə aldığımız cavab buna bənzər olurdu. Mikayılın incə, həssas qəlbi vardı. Mən çox vaxt onun gözlərinin yaşardığını da görmüşəm. Ənvər Məmmədxanlı ilə də onun dostluğu, incə zarafatı vardı. Hətta bir dəfə Mikayıl mənə dedi ki, Ənvəri istəyirəm bir işə salam. Fikirləşib tapmışam. Teatrın butafor sexindən yaxşı ağ-saqqal alacağam, yapışqanla sifətimə yapışdırıb, yaxşı qrimlənib maşınımla onun qapısında gözləyəcəm. Ənvər küçəyə çıxanda məni daşbaşçı sürücü biri hesab edəcək. Maşına minib filan küçəyə sür deyəcək. Mənə də elə bu lazımdır. Maşını dəlicəsinə sürətlə sürəcəyəm, harayına fikir vermədən onu birbaş yasamal altına aparacağam. Ənvəri lap xəlvət bir yerdə düşürüb geri qaçacağam. Qoy şəhərə piyada qayıtsın.

Ona dedim:

- Mikayıl, Ənvərin səni tanıya bilməyəcəyinə əminsən?

- Bəs necə? O qalın gözlüyün dalından məni dediyim görkəmdə tanıya bilməyəcək.

Müəyyən səbəblərə görə Mikayıl bu arzusunu yerin yetirə bilmədi.

Yadıma Moskvada keçirdiyimiz illər düşür.

Mən 1929-ci ildə Bakı universitetindən 1-ci Moskva darülfünunun ədəbiyyat fakültəsinə köçürüldüm. Mikayıl Rəfili də həmin darülfununda məndən yuxarı kursda təhsil alırdı. Mikayılın həmkurslarından, dostlarından biri də tatar xalqının qəhrəman oğlu şair Musa Cəlil idi. Məni onunla Mikayıl tanış etdi. O zaman rus yazıçılarından Vadim Kojevnikov, Viktor Qusev, Pavel Jeleznov, Pavel Pançenko, Şipirt, Voytinskaya, Aleksandr Oyslendr və başqaları mənimlə bir fakültədə təhsit alırdı.

Mən o vaxt yaşayış üçün darülfünuna yaxın bir yerdə kiçik bir otaq, yaxud bir guşə axtarırdım. Moskvada tez-tez otaq dəyişdirən Mikayılın təcrübəsi olduğundan kömək üçün ona müraciət etdim.

Moskvanın axşam qəzetində ("Veçernyaya qazeta") o vaxt müxtəlif mövzuda qəribə elanlar olurdu.

Bir tələbə kimi pula qənaət etmək məqsədilə Mikayıl qəzetə mənim üçün müxtəsər, yığcam belə bir elan yazdı: "İşu, kom. ili uq. u od. j. v sentre".

Elanın mənası bu idi: "İşu komnatu ili uqolok u odinokoqo jelatelno v sentre".

Bu elan qəzetdə çıxandan sonra Moskva yazıçılar ittifaqına adına məktublar yığmağa başladı. Yazıçılar İttifaqında çalışan qadınlar bu məktubları mənə verəndə nədənsə gülümsəyirdilər. Yəqin bir həftənin içində mənim bu qədər tanışı haradan tapdığıma təəccüblənirdilər. Bəli, adıma gələn məktubların hamısı qadınlardan idi. Mən özüm də heyrət içindəydim.

Məsələn bir qadın yazırdı: "Ərim rəhmətə gedib, yalnızam, sizə mənzilimdə yer verə bilərəm".

O biri yazırdı ki, şəharin mərkəzinə yaxın bir yerdə yaşayıram, ərimdən boşanmışam, bir uşağım var və i.a.

Məktubların çoxu bu mövzuda idi.

Məni heyrət aldı. Sən demə başıma bu oyunu gətirən elanı yazarkən pula görə sözə qənaət etməyimiz olmuşdur.

Moskvanın bir para dul qadınları elanımızı bu sayaq başa düşüblər: "İşu komnatu ili uqolok u odinokoy jenşinı v sentre".

Mən gileyləndim ki, Mikayıl, sən bu elanı bilə-bilə ikibaşlı yazmısan. O, cavabında məni inandırdı ki, elandan, tesadüfən belə bir məna çıxıbdır. Sonra əlavə etdi:

- Qəm yemə, gəl gedək bu dul arvadlara tamaşa edək. Həm də bəlkə bir ev xoşuna gəidi, orada qalmağa razı oldun.

Bəli, daha bir evə getdik. Burada hekayə tamamlandı. Bu evdə bir kişi oturmuşdu. O, bizdən vəsiqə tələb etdi. Sən demə, mülki geyimdə olan bu adam milis orqanından imiş. Elanımız milis idarəsində şübhəyə səbəb olmuşdu. Bu adam vəsiqələrimizi yoxladı. Şübhədən çıxandan sonra bu ahvalata o da bizimlə birgə qəhqəhə çəkdi.

Yadıma 1934-cü ildə Moskvada keçirilən Sovet yazıçılarının birinci ümumittifaq qurultayı günləri düşür. Burada köhnə dostlarla

görușür və özümüzə yeni dostlar qazanırdıq. Görüşlərdə söhbətlər sovet ədbiyyatımızın gələcək yüksəlişi haqda gedirdi. Bu qurultayda xaricdən gəlmiş proqressiv yazıçılar da vardı. Biz bu qurultayda bir daha gərgin ideoloji mübarizənin şahidi olduq. Bizim nümayəndələr arasında Cəfər Cabbarlı, Səlman Mümtaz, Məmməd Kazım Ələkbərli, Qafur Əfəndiyev (Qantəmir) Səməd Vurğun, Əbülhəsən, Mikayıl Rəfili, Mikayıl Müşfiq, Yusif Şirvan və digər yoldaşlarımız vardı.

Maksim Qorkinin rəhbərliyilə keçən qurultay çox canlı idi. Poeziya haqqında məruzəçi Buxarin idi. Onun sovet poeziyasının görkəmli nümayəndələrinə verdiyi qiymət salondakıları çox narazı saldı.

Yadımdadır, görkəmli rus sovet şairləri bu məruzəyə qarşı öz etirazlarını bildirdilər. Tənəffüs zamanı söhbət arasında şair Aleksandr Bezımenski bu məruzə haqqında Sovet İttifaqı Kommunist partiyası Markəzi Komitəsinə bir məktub göndərilməsini irəli sürdü. Mərkəzi komitə adına yazılmış bu məktuba Mikayıl Rəfili və mən də imza atdıq.

Mikayıl Rəfili Moskvaya həyat yoldaşı Zoya ilə gəlmişdi. Qurultay günlərində yazıçılar ittifaqında ədəbiyyatın müxtəlif janrları üzrə müşavirələr də keçirilirdi. Mehmanxanaya gec qayıdan vaxtlarımız da olurdu. Bir axşam yenə bir müşavirəyə getməli idik. Mən Mikayılgilin nömrəsinə gəldim. Mikayıl geyinərək Zoyaya dedi.

- Zoya! Mı s Suleymanom idem na soveşanie dramaturqov.

Zoya tutularaq:

- Nu idi.

Mikayıl:

- Çestnoye slovo, mı tuda idem.

Zoya:

- Nu idi, idi!.. Mikayıl:

- Zoiçka, neujeli ne veriş. Yey boqu mı tuda idem.

Zoya:

- Nu idi, idi.

Mən söhbətin gərginliyini duyub sözə qarışdım.

- Mikayıl, daha arvada niyə yalvarırsan axı. Kişinin qızı dililə deyir ki, get də, gəl gedək.

Mikayıl:

- Süleyman, başa düş, bu "nu idi" o “nu idi” mən deyil.

Biz birtəhər otaqdan çıxıb müşavirəyə getdik. Qurultay öz işini qurtaran kimi Mikayıl ilə birlikdə vaxtilə təhsil aldığımız 1 -ci Moskva universitetinə getdik. Tələbəlik illərimizi xatırladıq. Hətta bir mühazirə salonunda oturub özümüzü yenidən tələbə hesab etdik. Mən orada 1929-cu ildə imtahanlar zamanı baş vermiş gülməli bir hadisəni Mikayıla danışdım.

Dialektik materializmdən bizə mühazirəni professor Serejnikov oxuyurdu. Hamımız onu sevirdik. Ona hörmət edib dərslərinə müntəzəm gəlirdik. O yaşlı adam idi. Eynək taxırdı. Mühazirə salonunda Əbdülbaqi Fövzi, (Yusifzadə) ilə mən həmişə yan-yana oturardıq. İmtahan vaxtı protessor gözlərini tədris jurnalına dikərək dedi:

- Tovariş, zade!

Bu sözə təəccübləndik. Müəllimə hay vermədik.

Müəllim gözünü jurnaldan ayırıb bizə tərəf baxaraq yenə: - Tovariş, zade, - deyib durdu.

Təəccüblə mən Fövzinin, Fövzi mənim üzümə baxdı. Professor ayağa qalxıb bir az əsəbi halda bizə dedi:

- Tovariş, zade ya s vami.

Mən naçar ayağa durdum. "Müəllim, siz məni səsləyirsiniz?" -deyə soruşdum.

- Bəli, səni, bayaqdan eşitmirdin?

- Professor, mən axı zadə deyiləm.

- Bəs sən nəsən?

- Mən Rüstəmzadəyəm.

- Bəli, burda da elə yazılıb. Rüstəmzadə - Yusifzadə ilə doğma qardaşsınız məgər?

- Xeyr, müəllim.

- Necə yəni xeyr? İkinizin də familiyası zadə deyilmi?

- Xeyr, müəllim. Onun familiyası Yusifzadə, mənimki isə Rüstəmzadədir.

- Qəribədir. Niyə familiyanızın zadə olduğunu danırsınız?

Mən başladım müəllimi başa salmağa ki, biz doğma qardaş deyilik.

- Professor, baxın bu tələbə dostumuzun familiyası Jeleznovdur, sizinki isə Serexnikov. Bizim zadəmiz sizin familinizin axırındakı "ov" kimi bir şeydir.

Professor ikimizin də familiyasın höccələməyə başladı. Lakin onları bir-birinə qarışdırdı.

- Yox, mən heç nə başa düşmürəm, mən sizi bundan sonra zadə deyə çağıracağam. Lakin bax sən, zade "pervıy", o isə zade "vtoroy" dur, vəssalam, qurtardıq.

Bəli, bu gündən professor Serejnikov bizi "Zade pervıy", "Zade vtoroy" deyə çağıranda biz gülümsəyərək ayağa qalxıb ona cavab verərdik.

Yadıma Mikayılın atəşin nitqləri düşür. Kiyevdə Taras Şevçenko, Daşkənddə Əlişir Nəvai təntənələrindəki çıxışları hamını valeh etmişdi.

Xalqımızın əvəzsiz, qüdrətli ustad müğənnisi Bülbül də Daşkənddə bizimlə idi. Bülbülün çıxışlarının təsirini bir neçə sözlə demək mümkün deyildir. Operalardan ariyaları, xalq mahnılarını elə məharətlə, məlahətlə ifa edirdi ki, salondakılar onu səhnədən getməyə qoymurdu. Biz böyük iftixar hissilə Bülbülümüzün bu misilsiz təntənəsinə ürəkdən sevinirdik. Biz Daşkənddə hökumət bağında yaşayırdıq. Mikayıl Rəfili ve Bülbül pəncərəsi bağçaya açılan bir otaqda olurdu. Bülbül özüylə Daşkəndə bir zənbil Borjom suyu gətirmişdi. O suyu ancaq özü içirdi.

Bir gün Daşkəndin istisi bizi haldan saldı. Naçar qalıb Bülbülün bir neçə Borjom şişəsini açıb stokanları doldurub doyunca içdik. Əvəzinə isə şişələrə adi su töküb öz qaydasıyla bağladıq. Sonra gördük ki, Bülbül Daşkəndin havasından şikayətlənir: "Canım, qəribədir, burada Borjomun dadı tamam dəyişibdir. Yəqin havadandır..."

Biz bu sirri açmadıq.

Hökumət bağındakı qizılgül kollarından qalxan ətir qoxusu bizi məst edirdi. Bülbüllə incə zarafatımız vardı. Bir səhər Bülbül bağçaya əl-üzünü yumağa çıxanda gülləri görüb heyrət etdi. Bir az sonra mən Mikayılla bərabər otağa girib gülləri təəccüblə nəzərdən keçirdik.

- Bülbül, bu nə işdir? Bu nə aləmdir, bu güllər yataqda nə gəzir?

- Bu yəqin mənim pərəstişkarım olan qızların işidir.

Mikayıl dedi:

- Allah elə erkək qızlardan bizə də qismət etsəydi, dərdimiz nəydi ki!

Hamımız gülüşdük.

Bir gün axşamüstü bağda gözəl bir süfrə açılmışdı. Bülbül hara isə getmişdi. Süfrə arxasında dostluqdan ədəbiyyatdan, incəsənətdən şirin söhbət gedirdi. Söhbətdən sonra özbək xanəndələri oxumağa başladı. Onlar nimçəni qaval kimi qulağına yaxın tutub oxuyurdu. Nimçə kimə ötürülürdüsə həmin adam tez musiqinin ahəngi altında oxumağa başlayırdı.

Bəli, nimçə mənə ötürüldü. Mən də solumdakı bir Özbəyə ötürmək istəyəndə o nimçəni məndən almadı, sonra sağımdakı yoldaşa ötürmək istədim o da almadı.

Özbək dostlar öf çaldılar: Bülbül əkə, bülbül əkə, deyə məndən oxumağımı xahiş etdilər. Çox qəribə vəziyyət əmələ gəlmişdi. Alqışlar arasında mən onları başa sala bilmirdim ki, mən Bülbül deyiləm, Süleymanam.

Nəhayət, ara sakit oldu. Mən dedim ki, "Bülbül hazırda bu məclisdə yoxdur. Mən şair Süleyman Rüstəməm. İnanmırsınızsa, vəsiqəmi göstərə bilərəm. Dostlar gülüşdü. Məşhur özbək xanəndəsi Kare Yaqubun həyat yoldaşı da təsdiq etdi ki, mən Bülbül deyiləm. Bir şeir oxumaqla yaxamı musiqi həvəskarlarının əlindən qurtardım.

Mikayılın növbəti zarafatlarından birini də xatırlayıram. O, Moskvaya bir neçə aylığa elmi məzuniyyətə getmişdi. Biz bir neçə yoldaş Bakıda Moskvadan qəribə imzalarla bir neçə teleqram aldıq. Dostlarımızdan birinə yazılmışdı. "oğlunuz yanıma gəldi. O mənə sizdən ağıllı göründü". Digər dost belə teleqram almışdı. "Böyük ehtiyac içindəyəm, xəsis olma, təcili teleqrafla mənə 50 qəpik göndər".

Mənə gələn teleqram belə idi: "Gözün aydın, təzə saç dərmanı çıxıb. Yubanma, özünü Moskvaya yetir".

Buuı teieqramların müəllifinin Mikayıl olduğuna şübhəmiz yox idi. Bunun əvəzini ondan tez çıxmaq olmazdı. Mikayıl Moskvada hələ xeyli vaxt qalmalı idi. Əlimə fürsət yeni il ərəfəsində düşdü. Ona teleqram vurdum ki, dekabrın 31-də həyat yoldaşımla birlikdə təyyarə ilə Moskvaya gəlirəm. Mümkünsə bizi qarşıla. 31 dekabr səhərİ Mikayıl Vnukovo təyyarə meydanına bizi qarşılamağa gəlir. Bakıdan gələn təyyarə yerə enir. O sərnişinlər arasında bizi görmür. Qərara alır ki, yəqin axşam təyyarəsi ilə gəlirik. Vaxtını axşama qədər bufetdə, restoranda keçirir. Bakıdan gələn ikinci təyyarə də yerə enir. Mikayıl yorğun gözlərini sərnişinlərə zilləyir, əməkdar artist Nəcibə Məlikovanı görüb sevinir. Ondan soruşur ki: Süleymanı təyyarədə görməmisiniz ki?

Nəcibə, cavab verir ki, Süleyman bu təyyarədə yoxdur. Mikayıl birdən ayılır, indi başa düşür ki, bu bir ay avvəl vurduğu teleqramlara cavab imiş. Bu bizim Mikayıl ilə son zarafatlarımızdan biri idi.

Bizim nəsil dahi kino artisti Çarli Çaplinin səssiz filmiərini uşaqlıq çağlarında çox sevirdi. Səsli filmlər çıxanda Çarli Çaplini bir neçə gözəl rollarda görüb onun sənətinə bir daha valeh olduq.

Çaplinin "Böyük şəhərin işıqları" filmini görməyən çox az tapılar. Bu filmdə Çaplinin çox məzəli oynaq bir rəqsi var. Mikayıl bu rəqsi çox sevirdi.

Bu rəqs havası harda çalınsaydı, Mikayıl vəcdə gələrdi. Yerində dingildəyərdi, gözlərində sevinc qığılcımları parlardı. Bu rəqs havası nə vaxt harda, hansı şəraitdə çalınsaydı, Mikayıl bir bəhanə tapıb mütləq oynamalıydı. Oynamaq var, oynamaq var. Adama elə gəlirdi ki, oynayan Mikayıl deyil, Çarli Çaplin özüdür ki, var. Yazıçı və şairlərimizin çoxu onu bu hava ilə oynayanda görmüşdür. Bəzən restoranlara gedəndə fürsət tapıb Mikayıldan xəbərsiz orkestrdəki musiqiçilərdən xahiş edərdik ki, biz işarə verəndə Çarli Çaplinin rəqs etdiyi havanı çalsınlar. Bir dəfə də mən Moskvada olduğumuz zaman "Araqvi" restoranının musiqiçilərindən belə bir xahiş etdim. Həmin hava çalınan kimi Mikayilın gözlərində təböəssüm göründü, yerində rahat otura bilmədi.

- Süleyman qalxacağam, yerimdə otura bilmirəm.

- Mikayıl, ayıbdır, burada bizi tanıyanlar ola bilər.

- Olsun da... Pis iş görmürəm ki, oynayacağam.

Bəli, Mikayıl bir qırpimda ayağa qalxıb quş kimi süzərək rəqsə başladı. Restoran boyu o baş bu başa gedərək böyük həvəslə, hünərlə oynadı.

Alqiş sədaları restoranı bürüdü. Bu münasibətlə süfrəmizə içki hədiyyələri göndərənlər do oldu. Mikayıl dilləndi:

- Süleyman, gördünmü, oynamağım qonararsız olmadı.

Novruz bayramı ərəfəsində Sabit Rəhman, Ənvər Məmmədxanlı və mən Mikayılı təbrikə getdik. Süfrəyə bayram şirniyyatı düzüldü. Yenə şirin söhbətlər, gülüşlər, qəhqəhələr otaqları bürüdü.

Mikayıl hər söz başında deyirdi: "Bu mənim son zarafat atılqanlarımdir, qocaldıq getdik".

Bir neçə ay sonra Kislovodskdan qayıdarkən Mikayıl Rəfilinin ölüm xəbərini eşitdim.

Mən sarsıldım.

Mikayılla vidalaşdıq. Onun cismini vətən torpağına tapşırdıq. Əsərləri nəsillər üçün yadigar qaldı. Duzlu sözləri, zarafatları isə bizim məclislərimizdə təkrar-təkrar deyilir və Mikayılı özümüzlə bir , süfrə arxasında oturmuş zənn edirik.

*Dekabr 1969*

# HÜSEYNQULU SARABSKİ

Səhnəyə, sənətə məcnuncasına
Məftunumuz təkdi, gəldi və getdi.
Füzuli gözünün yaşından doğan,
Məcnunumuz təkdi, gəldi və getdi.

Sənət aləmində unudulmayan, əbədi yaşayan sənətkarlarımızdan biri də Hüseynqulu Sarabskidir. Vaxtilə şöhrəti dastan kimi dildən-dilə gəzən bu əvəzsiz ustadın musiqi mədəniyyətimizin, opera sənətimizin inkişafında çox böyük xidmətləri olmuşdur. Təəssüf ki, bu misilsiz sənətkarın səsi yazılmamış, haqqında film çəkilməmişdir. Mən şəxsən Sarabski ilə gənclik illərində, 1926-cı ildə mətbuat orqanlarında çalışdığım zaman tanış oldum. Sonralar daha tez-tez görüşüb dostlaşdıq. Yadımdadır, məktəbli çağlarımızda əlimizə pul düşən kimi opera teatrına "Leyli və Məcnun", "Şah İsmayıl", "Əsli və Kərəm" və digər tamaşalara baxmağa gedərdik. Hüseynqulu Sarabskinin aktyorluq istedadı, ürəkləri titrədən məlahətli səsi biz gənclərin ruhunu oxşayırdı, həyəcanlandırırdı. Onun iştirak etdiyi tamaşalara təkrar-təkrar baxdıqca bu sənətkəara qarşı məhəbbətimiz qat-qat artırdı. Məcnunu o qədər təbii, canlı, zəngin boyalarla ifa edirdi ki, tamaşa salouundakıların gözləri yaşarırdı. O zaman Hüseynqulu Sarabskinin iştirakilə verilən tamaşa axşamları teatr qarşısında atlı milis dəstəsi növbə çəkirdi. Çünki bilet əldə edə bilməyənlər nə yol ilə olursa-olsun teatra girib Hüseynqulunu səhnədə görmək istəyirdilər. Qapılar sınmaq dərəcəsinə gəlirdi. Hər sənətkarın gözəl, qiymtli əsərləri Sirasında bir şah əsəri olur. Sarabskinin yaratdığı gözəl surəttərin hamısından yüksəyi Məcnun obrazı idi. Mühitinin ədalətsizliyi nəticəsində müsibətlərə düçar olub faciələr keçirən Məcnunu Sarabski kimi səhnədə təcəssüm etdirən başqa bir artist təsəvvür etmirəm. Biz bir dəfə bir neçə mədəniyyət xadimi ilə birlikdə Sarabskinin evində qonaq idik. Söhbət yenə "Leyli və Məcnun" operasından gedirdi. Sarabski "Leyli və Məcnun" operasının rejissorluğunu etmək fikrində olduğunu büdirdi. O dedi: "Tanımayan olsa, səhnəmizdə o imkan olsa, doğrusu, mən Məcnunu səhnədə qumlar üstündə ayaqyalın oynayardım. Onda özümü tamam kamal bir ərəb zənn edərdim".

Bu sözlər göstərir ki, Hüseynqulu Sarabski bir Məcnun kimi, bir ərəb kimi səhnədə özünü tamam kamal Ərəbistan torpağında görmək istəyirdi.

Səhnə fəaliyyəti bir hadisəyə çevrilmiş Sarabski həyatda çox sadə, mehriban, təvazökar, qayğıkeş bir insandi. Ümumxalq məhəbbəti qazanmış bu ustad insanları çox sevirdi. Həmişə insanda yaxşı cəhətləri görməyə çalışırdı. Gənclərin yüksəlişi üçün əlindən gələni əsirgəmir, müvəffəqiyyət brini ürəkdən alqışlayırdı. Hüseynqulu Sarabski dövlət, partiya xadimlərindən Ruhulla Axundov, Əli Heydər Qarayev, Ağamalıoğlu, Baba Əliyev, sənət və ədəbiyyat xadimlərindən Hacıağa Abbasov, Üzeyir Hacıbəyov, Mirzəğa Əliyev, Abbas Mirzə Şərifzadə, Əzim Əzimzadə, Hüseyn Cavid, Haqverdiyev, Cəlil Məmmədquluzadə, Cəfər Cabbarlı, Səməd Vurğun kimi şəxsiyyətlərlə tez-tez görüşər, onlarla dostluq edərdi. Bu şəxsiyyətlər onun istedadina yüksək qiymət verərdi. Biz Hüseynqulu Sarabskinin səhnədən kənardakı həyatilə, hətta geyimi ilə də maraqlanardıq.

Sarabski olduqca səmimi bir insandi. Onun qəlbində həsədə, kinə, küdurətə yer yox idi. O, kiçik bir haqsızlıq görəndə yaman coşardı. Respublikamızın rayonlarından gəlmiş tələbələrin təhsil taleyi ilə maraqlanar, gənclərin müəyyən bir təşkilatda işə düzəlməklərinə yaxından kömək edərdi. Sarabski bir deputat kimi də az fəaliyyət göstərməmişdir. Öz seçicilərinin yanına tez-tez gedər, onların arzularının yerinə yetməsi üçün əlindən gələni əsirgəməzdi.

Dedim ki, biz Sarabskinin geyimi ilə də maraqlanardıq. Onun geyimi də daxili kimi təmizdi, səliqəliydi. Geyimdə bütün aktyorlardan seçilirdi desəm yanılmaram. Sarabski ilin hər mövsümünə görə paltar geyərdi. Onun davranışı, yerişi, nəcib ədası hamının nəzərini cəlb edirdi. Şax qamətli, iri gözlü, qara qaşlı, qarabuğdayı bu adam Bakı küçələrindən keçərkən hamı bir də dönüb ona baxar və dodaqaltı "Sarabski keçdi" deyərdi.

İndi də yaşlı ziyalılarımıza rast gəldiyim zaman Sarabskidən söhbət açırlar. Onun yaratdığı Məcnun surətini yada salırlar. Bəli, Sarabskinin Məcnun rolunda:

"Yandıraram dağı, daşı"

yaxud:

"Get dərdim sən dava deyilsən,
Biganəsən, aşina deyilsən"

- deməsi ilə kim həyəcanlanmamışdır?! Kimin gözləri yaşarmamışdır?! Əgər Füzuli sağ olsaydı "Leyli və Məcnun" tamaşasına baxmış olsaydı, məncə deyərdi ki, Məcnunu (Qeysi) mən belə düşünüb yaratmışam! Məcnunu mən belə ifadə görmək istəmişdim".

Yadimdadır, biz 1930-cu ildə çox istedadlı bir bəstəkar dostumuz Asəf Zeynallını vaxtsız itirdik. Sarabski onun cənazəsi üstündə uşaq kimi ağladı və dedi: "Asəf, oğlum, sən çox cavandın, mən dünya görmüşəm. Sən yox, görək mən öləydim, mən".

Doğrudan da bu hamımız üçün çox böyük itki idi. Asəf Zeynallının vaxtsız ölümü Sarabskini sarsıtmışdı. Bu son dərəcə səmimi və qayğıkeş adam bizim gənc yazıçılarla da dostluq edərdi.

Onu incəsənətlə, ədəbiyyatla əlaqədar çağırılmış bütün məclislərimizdə görərdik. Yeni gənc ədəbi qüvvələrin yaxşı əsərlərini ürəkdən alqışlardı.

Bizə öz həyatından canlı hadisələrlə dolu xatirələr söylərdi. Ədəbi gecələrimizin konsert şöbəsində qonorarsız, könüllü çıxış edərdi. Onun son dərəcə məlahətli səsi dinləyənlərin hələ də qulaqları Sarabski teatrda məşğul olmadığı vaxtlarda "Gənc işçi", "Yeni yol", "Kommunist", "İnqilab və mədəniyyət" redaksiyalarina gələrdi. Yeni sənət və ədəbiyyat məsələlərilə tanış olardı. Hüseynqulu Sarabski bir sıra mahnılar da yaratmışdır. Vaxtilə konsert salonlarında, məclislərdə oxuduğu "Muğan", "Qızıl əsgər" mahnısı onun özünündür. Hətta "Qızıl əsgər" mahnısının bu sətirlərlə başlayan mətni də onundur.

Yatmış idin, fəhlə-kəndli, oyandın,
Şuralarçin al qanına boyandın.
Sən getdiyin doğru yola inandın,
Möhkəm saxla al bayrağı əlində!

Hüseynqulu Sarabski bizim musiqi mədəniyyərimizin tarixində əbədi yaşayan simalardandır.

*30 oktyabr 1969*

## ƏBÜLHƏSƏN XAN İQBAL

Bu yaxınlarda bir alim dostumuz İran Azərbaycanının məşhur ustad xanəndəsi Əbülhəsən xan İqbaldan da bizə müjdə yetirdi. O, 100-ə yaxın yaşı olan bu müğənninin indi də gənclik təravətilə oxumasını sevinclə bizə bildirdi.

Dostumuzu dinlərkən ordu sıralarında Təbrizdə olduğum günlər yadıma düşdü.

Mən Əbülhəsən xan İqballa 1941 - ci ildə Təbrizdə tanış oldum. Tanışlığımızın qəribə tarixi var.

Biz Təbrizdə olarkən opera teatrımız ora qastrola gəlmişdi. Şəhər böyük bayram keçirirdi. Tamaşaya başqa şəhərbrdən də axın-axın tamaşaçı gəlirdi. Teatrın qastrolu orucluq ayına təsadüf etmişdi. "Koroğlu", "Arşın mal alan" və digər operalara gələn tamaşaçıların çoxu iftarını teatrın binasında açırdı.

Tamaşa zamanı restoranlardan lojalara plov, kabab və başqa ləzzətli xörəklər gəlirdi. Salonu plov və kabab qoxusu bürüyürdü. Bülbül səhndə oxuyarkən salondan "Bülbül, ölmə, ölmə" - deyə bağıranlar da olurdu.

Tamaşaçılardan birinə dedim: "Yaxşı iş görmürsünüz, artistin oxumasına mane olursunuz". Təbrizli tamaşaçının mənə cavabı bu oldu:

- Xeyr, ağa, əksinə, mən belo deməsəm, o, səsini qozamaz.

Sənətkarlarımızın Təbrizdə olmasından istifadə edərək qəzet əməkdaşlarının köməyilə məktəblərin birində gündüz bir dostlıq görüşü təşkil etdik. Sənətkarlarımızdan Bülbül, Həqiqət Rzayeva, Ələvsət Sadiqov, Yavər Kələntərli və başqaları çıxış etdi.

Bülbül dinləyənlərin alqışları altında bir neçə xalq mahnısı oxudu.

Birdən fikirləşdim ki, bu necə dostluq görüşüdür ki, yalnız Bakıdan gələn artistlər çıxış edir, bəs Təbriz sənətkarları? Fikrimi Təbriz qəzeti əməkdaşlarına bildirdim. Dedilər ki, məclisdə oxuyanlarımız var. Lakin orucluqdur bəlkə oxumadılar. Qubernator da burdadır. Ona desəniz bəlkə bir şey çıxdı.

Mən birinci sırada oturan Rəhimi adlı qubernatora bu təkliflə müraciət edib sonra öz yerimdə oturdum.

O, bir nəfəri yanına çağirtdırdı. Bu gödəkboy, kök, gözü çeşməkli bir qoca idi. Aralarındakı söhbəti eşitmədim. Bir azdan konserti idarə edən cavan təbrizlılər adından Əbülhəsən xan İqbalın çıxış edəcəyini

elan etdi. Salonda böyük bir canlanma oldu. Birinci cərgədə yanımda oturan Bülbül iki əlilə üzünü tutub dedi:

- Ay Süleyman, biabır olduq, vay, vay.

- Niyə, Bülbül?

- Heç bilirsən Əbülhəsən xan kimdir?

- Xeyr bilmirəm.

- O Şərqin dahi xanəndəsidir. Mən gərək o olan məclisdə mahnı
yox, bir dəstgah oxuyaydım, keçib.

Bir az əvvəl qubernatorla danışan çeşməkli qoca səhnədə göründü. Salon alqışdan titrəyirdi. Bəli, bu Əbülhəsən xan İqbal idi.

O, böyük şairimiz Seyid Əzim Şirvaninin qəzəlinin bu sətrilə: "Zülfünü bas yarama, qoyma məni qan aparır" oxumağa başladı.

Salondakılar dərin sükut içində idi. Mən harda olduğumu unutmuşdum. Doğrudan, o, ecazkar bir xanəndəymiş.

Əbülhəsən xan İqbal məni səsiylə, nəfəsilə, öz musiqi dünyasına aparmışdı. Oxuyarkən onun üzündə əzab əlaməti görünmürdü. Dodaqları, gözləri, bir sözlə bütün siması incə bir təbəssümə qərq olmuşdu. Konsertdən sonra Bülbül Əbülhəsən xanla qucaqlaşıb öpüşdü.

Sonralar onunla görüşəndə xanəndələrdən söhbət gedəndə belə deyərdi:

- Məclisdə oxuyarkən, xanəndənin üzünda əzab əlaməti olmamalıdır. Xanəndə onu dinləyənlərə əziyyət verməməlidir.

Bir axşam bizim artistlərin bir konserti haqqında onun fikrini bilmək istədim.

O, Qurban Pirimovun mükəmməl texnikaya malik böyük ustad olduğunu söylədi. Sara Qədimova səhnədə xalq mahnıları oxuyarkən
dedi:

- Bu xanım hələ cavandır. Onun qarşısında uzun bir yol var.

Xoşuma gələn cəhət oxuyarkən gözlərində, dodaqlarında görünən təbəssümləridir. Bu çox yaxşı əlamətdir.

Əbülhəsən xan Seyid Şuşinski haqqında məhəbbətlə danışırdı. Onlar bir zaman Tiflisdə görüşüblərmiş. Əbülhəsən xan açıq, pullu konsertlərda oxumazdı. Lakin o, musiqilə, sanətkara qiymət verilən, hörmət göstərilən məclislərdə təmənnasız oxuyardı. İranda onun plastinkalarını on baha qiymətə belə tapmaq çətindi.

Bu böyük sənətkar o zaman Təbrizdə şəhər bələdiyyəsində kiçik bir vəzifədə çalışırdı. Halbuki, belə bir adam musiqi ocaqlarında bir ustad kimi gəncliyə çox xeyir verə bilərdi.

Sovet ordusu doğma şəhəriərimizi faşistklrdən geri alanda Təbrizdə təntənəli yığincaqlar keçirilirdi. Biz Əbülhəsən xana müraciət etdikdo o:

- Belə təntənədə iştirak etməmək günahdır. Mən hüzurunuzda hazır - deyib gülümsərdi.

Bir axşam Cəlil Məmmədquluzadənin köhnə dostu professor Fəxri Ədham bizi evinə "paçaplov"a qonaq çağırdı. Bu növ plov yalnız Təbrızdə olur.

Əbülhəsən xan İqbal da məclisdə idi. O, bizi yenə öz məlahətli səsilə valeh etmişdi. Məclisdə sakitlik olan kimi deyirdi:

- Ağalar, niyə məni oxutdurmursunuz! Mən ki, təmənnasız oxuyanam. Yoxsa güman eləyirsiniz ki, qocalmışam, yorularam. Yox, ağalar, mən hələ çox oxuyacağam. İstəsəniz, gedib Təbrizin ətrafındakı o dağın başında elə oxuyaram ki, Təbriz əhli səhərə kimi yuxusuz qalar.

Bəli, Əbülhəsan xan belə bir xanəndə idi.

1942-ci ildə Mirzə İbrahimovla birlikdə Təbriz ziyalılarından bir neçəsini Bakıya qonaq gətirdik.

Təbrizdə bunu eşidən Əbülhəsən xan yanımıza gəlib dedi:

- Bakıya gedənlər nə xoşbəxtdirlər. Mən də getmək istərdim.

Ordakı həmpeşələrimlə, köhnə dostum Seyid Şuşinski ilə görüşərdim.

Mən çox istərdim ki, sizin konservatoriyada muğam haqqında bir neçə mühazirə oxuyam. Gələn dəfə Bakı səfərində məni yaddan çıxarmayın.

Bu söhbətdən 25 il keçmişdir. Əbülhəsən xan eyni arzunu indi Təbrizdən gəlmiş alim dostumuza da demişdir. O Bakını, Azərbaycan sənətkarlarını görmək arzusuyla çırpınır.

Son illərdə İranla aramızdakı mədəni əlaqələr genişlənir, yoluna düşür. Bakıdan Tehrana, Tehrandan Bakıya incəsənət xadimləri qastrola gedib gəlir.

Arzu edərdik ki, günlərin birində İrandan Bakıya gələn sənətkarlarla birlikdə 100 yaşlı həmişəcavan Əbülhəsən xan İqbal da bu dostluq körpüsündən keçsin.

*11 yanvar 1967*

## MİRZƏĞA ƏMİ

Səhnəmizin nəhəng artisti, xalqımızın sevimli sənətkarı Mirzəğa Əliyevi respublikamızda tanımayan varmı? O, böyük şöhrəti, sonsuz məhəbbəti xalqa, vəəonə sədaqətlə xidmət sayəsində qazandı.

Mən onu uşaqlığımdan tanıyırdım. Bizim məhəllədə (keçmiş Spasski və Çadrovı küçəsinin tinində) yaşayırdı.

Məhəlləmizdə böyük, kiçik - hamı onu sevərdi. Onun mis kimi cingildəyən, şən qahqəhələri, gülən gözləri, əbədi olaraq mənim xatirimdən çıxmayacaqdır. Şirin-şirin danışdıqca həm gülər, həm də dinləyənləri güldürərdi. Mən onu gah həyətimizdə, gah da dükan qabaqlarında tanıdığı və tanımadığı adamlarla söhbət eləyən görərdim. Biz ona sadəcə Mirzəğa əmi deyərdik. Ömrünün axırınadək ona bu adla muraciət eləyirdik. Bizim məhəllə uşaqları onun adını böyük bir sevinc və qürurla çəkirdi. Zarafat deyil, teatrın ən yaxşı, ən böyük artisti bizim məhəllədəndi. Məhəlləmizin əhalisi onun tamaşalarına bir bayram təntənəsinə gedən kimi axışardı.

Mirzağa Əliyev böyük realist sənətkar kimi məhəlləmizdəki müxtəlif adamların müxtəlif xasiyyətlərinə dərindən bələd olmaq məqsədilə onlarla dostluq eləyirdi. Məhəlləmizdə yaşayanlardan çoxunun qəribə ləqəbləri vardı. Bu ləqəblərin bəzisi nəsillərilə, bəzisi də özlərinin xasiyyətlərilə əlaqədardı. Mirzəğa bu adamların xarakterlərindəki müsbət və mənfi cəhətləri həssas bır sənətkar kimi öyrənir və səhnədə ifa etdiyi şəxsiyyətlərin simasında onlardan gördüklərini kəskin boyalarla yaratmağa nail olurdu.

Xalqımızm sevimli sənətkarı, məhəlləmizin üzügülər Mirzəğa əmisi belə bir adamdı.

1922-ci üdə 16 yaşım vardı. Nərimanov adına Sənaye Texnikumunun elektro mexanik şöbəsində oxuduğum halda şerə, ədəbiyyata həvəsim daha çoxdu. Divar qəzetində kiçik şeirlər çap etdirirdim. Məktəbin dram dərnəyində iştirak etdiyimdən tez-tez satir-agit teatrına gedərdim. Orada oynayan kiçik formalı komediyalar məni ürəkdən güldürürdü.

Atam isə teatra əmimlə bərabər Mirzəğa Əliyevin onlara verdiyi kontramarkalarla ayrıca gedərdi. Mirzəğa səhnədə görünən zaman salon nəhəng bir ağız kimi birdən qəhqəhə çəkirdi. Mirzəğanın təbii, səmimi oyunu hamını heyran eləyirdi.

Satir-agit teatrında tamaşaya qoyulan bir və ya iki pərdəli kiçik formalı əsərləri əsas etibarilə Əbdürrəhimbəy Haqverdiyev, Süleyman Sani Axundov, Səid Ordubadi kimi tanınmış yazıçılarımız, Mirzəğa Əliyev, H.Abbasov, Əhməd Qəmərli kimi artistlərimiz yazırdı. Mən bu əsərlərə tamaşa etdikcə həvəsləndim. Mənə elə gəldi ki, mən də bu sayaq komediyalar yaza bilərəm. Bir həftə gecəli gündüzlü aram sız zəhmət çəkərək "Çimnaz xanım yuxudadır" adlı bir pərdəli iki şəkilli bir komediya yazdım. Lakin əsərin taleyinə bir o qədər də inanmırdım. Bu əsəri böyük bir qorxu, ehtiyat, həyəcan və utancaqlıqla satir-agit teatrına apardım. Orda Mırzəğa Əliyevə rast gəldim. O məni diqqətlə süzüb fikrə getdi. Mən Nərimanov adına texnikumun formasını geydiyimdən o məni birdən tanıya bilməmişdi. Nə üçün gəldiyimi ona söylədim.

- Bala, harda oxuyursan! Haralısan! Kimlərdənsən?

Mən ona harda oxuduğumu, haralı olduğumu, hansı ailəyə mənsubiyyətimi söylədikdə, o sevindi və bərkdən gülməyə başladı.

- Deməli, Qara övladı nəslindən, özü də mənim dostum Dəmirçi Əliabbasın oğlusan?

- Bəli dedim. Ancaq bunu atam bilməsin.

- Nə üçün oğlum?

- Çünki atam mənim mühəndis olmağımı istəyir. O, istəyir ki...

- Başa düşürəm, qorxma deməərəm, deməərəm.

- Sağ olun.

- Yaxşı, sən onu bilirsən ki, atan mənə bir palto borcludur?

- Xeyr.

- Bunun qəribə bir tarixi var. İşdir, yazdığın əsər, xoşumuza gəlsə, paltomun pulunu sənin zəhmət haqqından çıxacağıq - deyib qəhqəhə çəkdi.

Mən heç nə başa düşmədiyimdən mat-qut olub qalmışdım. O bunu sezərək əlavə etdi:

- Oğlum, zarafat eləyirəm. Paltonun tarixi belədir. Atanla uşaqlıqdan dostam. Ananı gəlin gətirəndə mən atanın sağdışı idim. Dost-aşnalar, fişəng atdılar, qəfildən fişəngin biri mənim təzə paltomun qoluna düşüb onu yandırdı. Bu belə... qaldı yazdığın bu əsər.

Ona diqqətlə baxaram görək dəmirçi Əliabbasın oğlu nə yazıb.

O, məni bir ata mehribanlığı və nəvazişi ilə yola saldı. Mən bir neçə ay teatra tərəf üz çevirmədim. Məhəllədə də qorxumdan onun

gözünə görünmədim. Deyirdim bəlkə yazdığım komediya heç bir şeyə yaramayacaq. Nigarançılıq içində qovrulurdum.

Bir gün satir-agit teatrının divarlara vurulmuş böyük bəzəkli afişaları mənim toy-bayramına çevrildi, sevincimə səbəb oldu. Öz gözlərimə inana bilmirdim. Bir afişanın qabağında yarım saatdan çox dayanıb teatrda oynanılacaq əsərlərin adlarını təkrar-təkrar oxuyurdum. Afişa: Mirzəğa Əliyevin benefisinə ("Orda elə, burda betü") Əsər Mirzəğa Əliyev ("Çimnaz xanım yuxudadır" yazanı Nərimanov adına texnikumun tölebesi Süleyman Rüstəmzado) sözləri yazılmışdı.

Sevincimdən yerə-göyə sığmırdım. Məktəbdə uşaqlar raəni dövrəyə ahb təbrik eloyirdilər.

Tamaşa axşamı məktəb yoldaşlarımla birgə lap dal cərgədə otur-muşduq. Mirzəğanı bir çox təşkilatlar tərəfindən təbrik ctdilər. Onun ilhamla, məharətlə oynaması, tamaşaçıların qolbinİn dnrinliklorina qədər təsir eləyirdi. "Çimnaz xanım yuxudadır" komcdiyasmda baş rolu Mirzəğa oynayırdı. Mən də tamaşaçılara qoşulub ürəkdən gələn qəhqəhələr çəkirdim. Özüm öz yazdığımın belə təsir bağışlayacağını heç də gözləmirdim. Təcrübəsiz bir məktəblinin qələmindən çıxan kiçik bir əsərdə Mirzəğa Əliyevin müəllim qələmi işləmişdi. O, yazdığım bu kiçik esərdə bir sıra ixtisarlar aparmışdı. Həmin gecə tamaşada qonşularımızla birlikdə atam da vardı. "Avtor-avtor" – deyə məni səhnəyə çağırdılar. Teatrdan qayıdandan sonra evdə atam mənə dedi ki, Mirzəğa Əliyevin benefısinə getmişdik... Teatrda ol çalıb səhnəyə bir uşaq çıxartdılar lap sənə oxşayırdı.

Mən üstünü vurmadım. O, məni tanımamışdı. Çünki uzun illər dəmirçixanada ocaq alovlarına baxdığından gözləri bir o qədər də yaxşı görmürdü. O, teatr üçün əsər yazdığımı bilsəydi bəlkə də pərt olardı. Çünki necə olursa-olsun öz oğlunu mühəndis görmək istəyirdi.

Mirzəğa Əliyevlə mənim yaradıcılıq dostluğum həmin bu gecədən başlandı. Sonralar mən satir-agit teatrına getdiyim zaman səhnə arxasına keçib onunla görüşərdim.

Mirzəğa Əliyevin səhnəmizdə istər klassik, istər müasir sovet dram əsərlərində yaratdığı unudulmaz obrazlar, bütün tamaşaçıların xatirəsində, qəlbində silinməz iz buraxmışdı. O, biz yazıçılarla görüşəndə Cəlil Məmmədquluzadədən, Əbdürrəhimbəy Haqverdiyevdən, Nəcəfbəy Vəzirovdan, Hüseyn Ərəblinskidən, Kəblə Cahangirdən şirin-şirin maraqlı söhbətlər elərdi. O, Stanislavski, Şepkin, Tolstoy,

Ostrovski, Çexov yaradıcılığından böyük məhəbbətlə, hörmətlə danışardı.

Onun yaradıcılıq oduyla yanan gur ilhamlı sinəsi canlı xatirələrlə doluydu.

Bir ay əvvəl xəstəxanada onun yanındaydım. O, məndən "Burda mənəm Bağdadda kor xəlifə" komediyanın taleyini soruşdu. Mən də onun yadına ilk kiçik formalı komediyamın tarixini saldım. O, gülə-gülə dedi:

- İlk komediyanda pis oynamışdım. Bu komediyanda oynamamaq kişilikdən deyil. Xəstəliyə qalib gəlirəm. Bir həftəyə qədər hələ həlbət burdan çıxacağam. Səhnə məni çağırır!

Mən ona təsəlli verdim.

Mirzəğa əmi ona gətirdiyim üzümdən yeyərək deyirdi;

- Dostum yaxşı kişiydi, zəhmət sevən adamdı, yəqin bu üzümlər onun əkdiyi meynələrdəndir. O məndən bır neçə yaş böyükdü. Qoy onun üzümündən doyunca yeyim ki, o kişi qədər yaşaya bilim!

Ondan ayrılarkən dedi: "Məndən yazıçılarımıza salam apar. Bir-birinizi sevin, bir-birinizə hörmət eləyin, bir-birinizi tənqid eliyəndə də, çalışın ki, arada qərəz filan olmasın. Bundan xalqa sənətə xeyir dəyməz! İnanıram ki, bundan sonrakı görüşümüz xəstəxanada yox, teatrda olacaq!

Əl verib ayrıldıq.

Heyhat, biz onunla teatrda tabutu yanında görüşdük. Amansız ölüm onun sən arzusunu ürəyində qoydu. Böyük sənətkar, yaxşı insan Mirzağa əmi artıq aramızda yoxdur. Yox, yox, ölüm onun səhnəmizdə yandırdığı realizm sənəti məşəlini söndürməkdən acizdir.

*Bakı, 26 oktyabr 1954*

## İSMAYIL HİDAYƏTZADƏ

İsmayıl Hidayətzadə dedikdə gözlərimiz önündə mənalı, qaynar həyat sürmüş böyük istedada malik sənətkarımız canlanır.

Hidayətzadə kimsəyə bənzəmirdi. O özündən əvvəl gələn şənətkarlardan öyrənərək, özünəməxsus orijinal, axtarışlarla dolu sənət yollarında addımlayırdı. Bəstəboy, qarabuğdayı, od baxışlı bu adamın

daxilində bir sənət ümmanı dalğalanırdı. O, nə evdə, nə teatrda rahatlıq bilməzdi. Həmişə axtarışda, həmişə səhnəmizin inkişafı üçün düşünməkdəydi.

O, qəlbinin bütün tellərilə səhnəyə, sənətə bağlı idi. Hidayətzadə, klassik və müasir dramaturgiya və ədəbiyyatla çox yaxşı, dərindən tanışdı. O, səhnənin bütün sirlərinə bələddi desək, yanılmarıq. Mən onunla Nəriman Nərimanov adına Sənaye Texnikumunda oxuduğu zaman, 1924-cü ildə tanış oldum.

Məktəbimizin dram dərnəyində biz həvəskarlar kiçik formalı əsərlər hazırlayardıq. Böyük formalı əsərlər üçün dövlət dram teatrının artistlərini dəvət edərdik. Cəfər Cabbarlının "Aydın" dramasını Hidayətzadənin bizimlə məşq etdiyi yadımdadır. Şəmsəddin Abbasov Aydın, mən isə Surxay rollarında çıxış etdik. Məktəbli olduğumuz illərdə çox sevdiyimiz artistlərdən biri də Hidayətzadə idi. İstedadlarına heyran olduğumuz artistləri səhnədən kənarda görəndə sevincimizin hüdudu olmazdı. Abbas Mirzə Şərifzadə, Mirzəğa Əliyev. Sidqi Ruhulla, Rza Təhmasib, Gəraybəyli, Hacıağa Abbasov, Mirziyə, Əzizə, Hidayətzadə kimi artistərin həyatını daha yaxından öyrənməyə can atardıq. Daha sonralar bu sənətkarlarla tez-tez görüşüb söhbət etmək, onlarla duz-çörək kəsmək kimi səadət də bizə nəsib oldu.

1934-1935-ci illərdə Hidayətzadə ilə daha tez-tez görüşərdik. O, Cəfər Cabbarlının "1905-ci ildə" əsərində Salamov, "Sevil"ində Əbdüləli bəy, "Almas"ında Şərif surətlərini misilsiz məharətlə, ustalıqla ifa edərdi.

Yadımdadır, biz yazıçılar "1905-ci ildə" tamaşası veriləndə teatra zəng vurub Salamov obrazını hansı artistin oynayacağını soruşardıq. Hidayətzadənin bu rolda çıxacağını biləndə toplaşıb dəstəylə teatra gedərdik. Biz onun daimi azarkeşləri idik. Hidayətzadə hər tamaşada ifa etdiyi surətlərə əsərdəki hadisələrlə əlaqədar gözəl cizgilər, boyalar əlavə edərdi. Mürəkkəb xarakterli dolğun surətlər yaradan bu səhnə ustadının məharətinə hamımız heyran idik. Sənət məsələlərində prinsipial, özünə və dostlarına qarşı çox tələbkar, sənət aləmində güzəşt bilməyən bu adam həyatda çox sadə, təvazökar və olduqca şirin söhbətli idi. Onun söhbətlərində incə bir yumor vardı. Özündən yaşlı və kiçik sənət adamlarıyla Cəfər Cabbarlı, Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Əfrasiyab Bədəlbəyli. Rza Təhmasib, Sabit Rəhman,

Mikayıl Müşfiq, Məmməd Kazım Ələkbərli, Əli Nazim, Tuqanov, Adil İskəndərov, İsmayıl Dağıstanlı, rəssam Rüatəm Mustafayev, Şəmsi Bədəlbəyli, Ələsgər Ələkbərov və başqalarıyla dostluq edərdi.

Mən də Hidayətzadənin dostlarından və sənət pərəstişkarlarından biri idim. Mən onun Trenyovun "Lyubov Yarovaya" əsərindəki Şvandiya obrazını necə ustalıqla, məharətlə ifa etdiyinə valeh idim. Hidayətzadə bir rejissor kimi də böyük şöhrət və məhəbbət qazanmışdı...

1937-38-ci illərdə Əzizbəyov adına teatrda müdir olduğum zaman Hidayətzadə ilə daha yaxından dost olduq. Mən onun bir çox məşqələrində olmuşam. O, xüsusilə gənc artistlərə qarşı çox qayğıkeş idi. Məşq zamanı cavan artist onun tapşırıqlarını lazımınca yerinə yetirməyəndə İsmayıl özü səhnəyə atılıb həmin surəti necə ifa etmək lazım gəldiyini nümayiş etdirər və ciddi tapşırardı ki, məni təqlid etmə, özünü tap, mən bu surəti bu sayaq düşünürəm. Sən də düşün, tap. O, hər məşq zamanı bir neçə dəfə tərli köynəyni dəyişərdi. Biz o vaxt tez-tez Hidayətzadəgildə toplaşıb pürrəng çay içərək teatrımızın repertuarı və kollektivi haqda ciddi söhbətlər edərdik. İsmayılın həyat yoldaşı Soltan xanım, oğlu Timuçin süfrəmizi dadlı şirnilərlə bəzərdilər. Mən onunla və Üzeyir Hacıbəyovla birlikdə özbək incəsənəti on günlüyünə Moskvaya və başqa yerlərə səfərə çıxmışam. Hidayətzadənin çox yaxşı yol yoldaşlığı var. Onunla səfərə çıxan əsla darıxmazdı. Moskvada keçiriləcək Azərbaycan incəsənəti ongünlüyünə hazırlıq ərəfəsində Hidayətzadə dram teatrından müvəqqəti olaraq opera və balet teatrına köçürüldü. Onun tamaşaya qoyduğu "Koroğlu"nun necə böyük müvəffəqiyyət qazanması hamıya bəllidir. Hidayətzadə ayrı-ayrı surətlərlə yanaşı kütləvi səhnələri canlı nümayiş etdirmək işində çox mahir ustad idi. Kütləvi səhnələrə onun qədər böyük əhəmiyyət verən rejissor tək-tək olar. Moskva səfərindən sonra Hidayətzadə opera və balet teatrında bədii rəhbər vəzifəsində qaldı.

Opera teatrında olsa da onun yarı canı, ürəyi dram teatrında idi. Yadımdadır, darıxanda zəng vurub məni yanına çağırardı. Çaydan, söhbətdən sonra, kabinetin qapısını bağlayıb ayna qabağında dayanardı.

- Mirzə Süleyman, biletsiz axşam tamaşası başlanır - deyib birdən dram teatrında oynadığı surətlərdən parçalar nümayiş etdirməya başlardı. Özü də necə... Mənim üçün, tək bir tamaşaçı üçün vəcdə

gəlib, coşqun ilhamla oynardı. Paltarsız, qrimsiz də olsa gözlərimin qabağında Salamov, Şmaqa, Əbdüləli bəy, Şərif, Şvandiya, Şeyx Nəsrulla və başqa surətlər bütün boyalarıyla canlanırdı. Mən ondan xahiş edərdim ki, heç olmazsa ayda bir dəfə gəlib dram teatrında yaratdığı bu surətləri tamaşaçılara göstərsin. O, razılıq versə də, operada iş çox olduğundan bu vədi yerinə yetirə bilmirdi.

Hörmətli bəstəkarımız Qara Qarayev bu günlərdə bəstəkarların qurultayında çox haqlı olaraq Hidayətzadənin və Məhərrəm Haşımovun opera sənətimizin inkişafı üçün böyük zəhmət çəkdiyini hörmətlə qeyd etdi. Vətən müharibəsi illərində: opera və balet teatrımız Təbrizdə çox böyük müvəffəqiyyətlə tamaşalar verdi. O zaman teatrın bədii rəhbəri yenə Hidayətzadə idi.

Təbrizin, Mərəədin, Sərabın, Ərdəbilin teatr həvəskarları onun yanına məsləhətə gələrdilər. Hidayətzadəni burada da sevdilər. Bir qardaş, bir ustad kimi bağırlarına basdılar.

1946-cı ildə "Qaçaq Nəbi" əsərinin quruluşunu Hidayətzadəyə tapşırmışdılar. Onun kimi rejissorla işləmək doğrudan da müəllif üçün səadətdir. Həmin ildə mən bir neçə aylığa Moskvaya təhsilə getməli oldum. Əsərdən nigarandım. Hidayətzadə ilə məktublaşandan sonra ürəyim sakit oldu. Hidayətzadənin məktublarında da özünə məxsus bir əda və yumor vardı. Onlardan bir neçə misal gətirmək istəyirəm. O yazırdı: "Qardaşım Süleyman! Hər şeydən qabaq salam olsun əziz Mirzə Süleyman ağaya və sonra ərz olsun ağamın qulluğuna ki, sənin məktubunu aldım və çox şadam ki, Moskvadakı işlərin düzəlib və hər şey öz qaydasıyla cağbacağdır. Snə cavab yaza bilmədiyimə səbəb çoxdur. Birincisi odur ki, mən bu vaxta kimi "Qız qalası" quruluşunda məşğul idim. Aprelin 18-də tamaşa böyük müvəffəqiyyətlə keçdi. Ancaq hələ "Qız qalası" qurtarmamış, məni çağırıb aprel bayramı üçün, yəni aprelin 28-i üçün böyük bir konsert proqramı düzəltməyi tapşırdılar. Əlavə bu kansertdə birpərdəli yeni bir əsər göstərməli idim. Yəni, yoldaş Orconikidzenin və başqa yoldaşların Azərbaycana ilk dəfə gəlmələrini göstərməli idik. Odur ki, kompozitor Niyazi və Mikayıl Rəfili ilə bu tema üzərində çalışıb bir pərdədən ibarət bir səhnəcik quruluşu verdim".

Hidayətzadə bütün böyük təntənələrdə, bayramlarda, əlamətdar hadisələrlə əlaqədar şənliklərdə verilən konsertlərə məharətlə, İlhamla, məhəbbətlə rejissorluq edirdi.

"Qaçaq Nəbi" əsərilə əlaqədar bir məktubunda mənə belə yazırdı: "Mən pyesin üzərində hələ də çalışıram. Məncə nə qədər çox məşğul olsam, bir o qədər yaxşı olar. Süleyman, məncə pyesdə həll edilməmiş bir son şəkil qalmışdır. Mən belə güman edirəm ki, 10-cu şəkildən sonra məsələni çox uzatmamalı, çünki artıq hər şey aydındır. Bəlkə, artıq pyes boyu aparılan mübarizələrə bir yekun vurmaq zamanı çatmışdır?! Odur ki, pyesin finalını tapmaq və həll etmək lazımdır. Ancaq bunu elə etmək lazımdır ki, ara soyumasin".

Görürsünüzmü Hidayətzadə necə qayğıkeş bir sənətkar və nə qədər mehriban bir insan olmuşdur. Görursünüzmü səhnonin sirlərinə nə qədər aşina bir ustaddır. Səhnə onun üçün bir müqəddəs ocaq, bir məbəd idi. Mən belə bir sənətkarı, belə səmimi bir dostu unutmamışam. Onu həmişə məhəbbətlə, hörmətlə yad edirəm.

Hidayətzadə teatr sənəti aləmində özünə layiq fəxri bir yer tutmuşdur.

*10 yanvar 1968*

## YADA DÜŞƏNLƏR

Əziz Əliyevi mən gənclik illərindən tanıyırdım. Onunla ictimai yığıncaqlarda, məclislərdə çox görüşmüşdük. Olduqca sadə, səmimi insan idi. Ondakı incə, duzlu yumor söhbətlərinu məlahət verərdi.

Belə oldu ki, Vətən müharibəsi başlananda, Sovet ordusu vətənimizi alınan faşizmi təhlükəsindən qorumaq məqsədilü İran torpağına qədəm qoydu (1921-ci il muqaviləsi əsasında). 1941-ci ildə İran ərazisino daxil olan qoşunlarımızı xalq duz-çörəklə qarşıladı. Lakin xan, mülkədar ailələrinə mənsub yüksək rütbəli zabitlərin qara niyyətləri puça çıxdı. Onların çoxu silahlarını kəndlilərə verib əvəzində kəndli paltarı alaraq təğyiri-libasla Tehrana qədər qaçdılar.

İranda alman faşizminə rəğbət bəsləyən, nökərçilik göstərənlər yox deyildi. Onlar çox çalışırdı ki, ordumuz İranda olduğu müddət ərzində ölkədə hərc-mərclik olsun. Bunun qarşısını almaq bizim borcumuz idi.

O vaxt orduya çağırılmışlar sırasında mən də İranda idim. Təbrizdə düşmən təbliğatına uyan tacirlər, mülkədarlar, alverçilər və qeyriləri Tehrana qaçmışdılar. O zaman Tehranda ingilis qoşunları

olurdu. Təbrizdə küçələr, bazarlar dilnçillrlə, əlillərlə dolu idi. Hələ yoldan keçənlərə əl uzadan cındır geyimli qarılar, qızlar, körpələr... Hərbi şuranın üzvü Əziz Əliyev bizim rəhbərimiz idi.

O bizi toplayaraq dedi ki: "Biz İranın daxili işlərinə qarışmırıq. Ölkədə sakitliyi qoruyub hərc-mərcliyə yol verməməliyik. Biz bu ölkəyə müharibəylə gəlməmişik. Bütün əhaliyə açiq-aydın bildirməliyik ki, bizim xanla, tacirlə, mülkədarla və qeyriləri ilə işimiz yoxdur. Sovet ordusunun bir nəfərindən də İran əhalisi pislik görməyəcək.

Əlbəttə, zülmdən, işgəncədən cana doymuş kəndlilər, əlsiz-ayaqsızlar, kəndxudalara, mülkədarlara, xanlara qarşı ayağa qalxıb qisas, intiqam almaq üçün ölüm-dirim vuruşuna girişmək istəyəcəklər. Lakin faşizmlə müharibə vaxtı, qoşunumuzun burada olduğu zaman buna əsla yol vermək olmazdı. Hamımız özümüzü sovet vətəndaşına layiq aparmalıyıq. Siz bunu çox yaxşı bilirsiniz".

Hərbi şuranın üzvü Əziz Əliyevin əmrilə bır qrup təbliğatçı ayrıldı. Bu qrupun sədri Yunis Hacıyev, müavini mən oldum. Haciyev Bakıya çağırılandan sonra onu mən əvəz etdim.

Əziz Əliyev bütün hadisələrin içərisindəydi. Onun qayğıkeşliyi, alicənablığı, xeyirxahlığı, mehribanlığı hamımızı heyran etmişdi. Hamımız ona hədsiz rəğbət bəsləyirdik.

Əzizin dediyi kimi xalq arasında olduq, buraya gəlişimizin mənasını kütlələrə anlatdıq.

Tehrana qaçmış mülkədarlar, tacirlər, alverçilər Təbrizə və digər şəhərlərə qayıtdı.

Onu da deyim ki, qoşunumuz sərhədi keçərkən özlərini yaxşı aparmayan bir sıra hərbi xidmətçilər araya çaxnaşma düşməsin deyə tərəfimizdən müvəqqəti həbs edümişdilər. Mənim yanıma bir çox adam övladlarının həbsdən buraxilmasıyla əlaqədar xahişə gəlirdi. Mən Əziz Əliyevə bu barədə müraciət etdim. Əziz Əliyev dedi ki: "Biz onları hələlik, arada sakitlik olsun deyə saxlayırdıq. İndi sən yanına gələnlərdən müvəqqəti tutulanların adlarını, familiyalarını soruşub dəftərinə yaz və qətiyyətlə de: bu gün, sabah buraxdırarıq.

Qoy bilsinlər ki, bizim ölkədə şairə necə hörmət bəsləyirlər".

İki gün müddətində tututanlar azad edildi. Mən "sağ ol-var ol, Allah səni saxlasın" kimi təşəkkürlər qazandım.

Az müddətdə Cənubi Azərbaycan əhalisi bizim ordu nəfərlərindəki insani sifətlərə heyran qaldı. Hərbi şuranın üzvü Əziz Əliyevin adı Cənubi Azərbaycanda dillər əzbəri oldu.

Əziz Əliyev bütün hadisələrlə maraqlanır və öz məsləhətlərini bizə yetirirdi.

Biz Əziz Əliyevə öz gördüyümüz işlər haqqında məlumat verəndə qüsurumuzu da gizlətməzdik.

O da bizimlə böyük qardaş kimi, sosial ucaltmadan, açıq, aydın və çox təsirli bir tərzdə müsahibə aparardı.

Yeri gəlmişkən deməliyəm ki, Təbriz və digər şəhərlərdə çox acınacaqlı bir məsələnin də sahidi olduq. Azərbaycanlılar məktəblərdə öz ana dillərində deyil, fars dilində təhsil alırdılar. Məktəb daxilində öz doğma ana dilində danışmağa cürət edən uşaqlar məktəbdən xaric olunurmuş...

Təbrizdə 12 minə yaxın erməni yaşayırdı. Onlar şahdan öz ana dillərində məktub açmağa icazə ala bilmişdilər. Daha əcayib bir məsələ. Kürdlərin dağlardan şəhərlərə gəlişi qadağan imiş, kürdləri quldur, cani kimi qələmə verib əhali arasında vahimələr yaratmışdılar. Əziz Əliyev İranda müxtəlif dilli xalqların bir-birilə dostluq etməsini vacib məsələlərdən biri kimi irəli sürdü. Kürdüstanda sakitlik olsun deyə oraya Mehbalı Əmiraslanovu və digər bir yoldaşı vaziyyəti öyrənmək üçün göndərdi. Bunun böyük təsiri oldu. Kürdlər Əmiraslanovu "Əmiri asi" deyə adlandırırdı. Kürd qazıları Təbrizə gəidilər. Onları müşayiət edən bir dəstə də gəlmişdi. Qəribədir. Təbrizdə dərhal dükanlar, restoranlar, evlərin qapıları bağlandı. Əhali elə bildi ki, şəhərdə qətl, qarət başlanacaq. Yox, belə olmadı. Kökü olmayan təbliğat heçə döndü. Yenidən dükanlar, restoranlar, bağlı qapılar açıldı. Əziz Əliyevin kürd və İran xalqları arasıda bu ülfəti, dostluğu yaralması təqdirəlayiq bir iş oldu. Təbrizdə Əziz Əliyevin kürd qazı-ları, ruhaniləri ilə dostluq, qardaşlıq söhbətindo Mehbalı Əmiraslanovla birlikdə mən də iştirak etmişəm (Sonralar bizimlə görüşən kürd xalqının mərd oğullarını Məhəmməd Rza şah Tehranda dar ağacından asdırdı). Onlar bizə Rza şahın kürd xalqına etdiyi zülmlərdən, hər hüquqdan məhrum edildiklərindən danışırdılar. Onlar söz verdilər ki, nə qədər sovet qoşunları İrandadır, bizim tərəfdən kimsənin burnu belə qanamayacaq.

Bu görüşlərdən sonra qazinin qardaşı mənim üçün ceyran vurub hədiyyə gətirmişdi.

Təbrizdə  konsert salonu, teatr binası və qeyri-mədəni ocaqlar yoxdu. Əziz Əliyevin təşəbbüsü ilə Mirzə Fətəli Axundov adına Dövlət Opera və Balet teatrı Təbrizə qastrola gəldi. Opera teatrı

sənətkarlarını qarşılamağa vağzala əllərdə gül dəstələri bütün Təbriz getmişdi, desəm yanılmaram.

Əziz Əliyev kürdləri teatr artistləri tərəfindən verilən bir konsertə dəvət etdi. Kürdlər lojalarda oturmuşdular.

Paltarları, çalmaları rəngarəngdi. Bellərində qəmələri, silahları vardı.

Konsertdə müğənnimiz Sara Qədimova "Kürdün gözəli" mahnısını oxumağa başlayan kimi kürdlər cəld salondan çıxdılar. Tamaşaçıları heyrət bürüdü. Kürdlər birdən səhnədə göründülər. Bir-birlərinin qurşağından yapışıb kürdcə oxuyaraq yallı getdilər. Salonu arasıkəsilməyən alqışlar bürüdü. Bu, təbrizlilər üçün, bızim üçün unudulmaz hadisə oldu.

* * *

Əziz Əliyev həkim olduğundan Təbriz əhalisinin vəziyyətini, ehtiyacını nəzərə alaraq Təbrizdə əhaliyə məccani xidməl göstərən xastəxana açdırdı. Bakıdan həkimlər çağırıldı. Xəstəxananın müdiri, baş həkimi çox gözəl insan, çox yaxşı həkim Qədimov oldu. Tez bir zamanda Təbrizdə böyük hörmət və şöhrət qazandı.

Əziz Əliyevin birtəşəbbüsü də alqışa layiqdir. Əziz, ucuz, eybəcər Amerika filmləri görmüş, əhaliyə Azərfilmin çəkdiyi filmləri göstərməyi irəli sürdü. Bakıdan "Kəndlilər", "ismət" və digər filmlər gətirildi.

Yadımdadır. Sərin bir payız axşamı Gülüstan bağında, açıq havada "Kəndlilər" filmi göstərildi. Hava getdikcə soyuyurdu. Lakin əhali yerdə oturub həyəcanla filmə baxırdı. Azərbaycanımızın keçmiş həyatından, xalqımızın mübarizəsindən danışan bu film gostərildikcə təbrizlilər əsərin qəhrəmanın şiddətli alqışlarla qarşılayırdılar.

* * *

Biz Təbrizə gəldiyimiz vaxt məscidlərin qapıları qıfıllı idi. Soruşduq, dedilər ki, Rza şah bağlatdırıbdır. Bizdən soruşdular ki, bu məsələyə siz necə baxırsınız. Cavab verdik ki, bu sizin öz daxili işinizdir. Bir də soruşdular ki, sizdə necə, məscidlər işləyirmi?

Cavab verdik ki, bizdə dindarlara məscidə getməyi qadağan edən yoxdur. Məlum oldu ki, qadınlara çadra örtmək də yasaq imiş. Bir

azdan məscidlər işə başladı. Maraqlanıb bir neçə məscidə getdik. Rövzəxanlar əvvəlcə Leninin ruhuna fatihə, Stalinə cansağlığı və Qızıl Orduya faşizm üzərində qələbə arzulayaraq öz dini işlərini davam etdirirdilər.

Mən aşura günü Təbrizdə qəribə bir hadisənin şahidi oldum. Təbrizin mərkəzi küçəsində böyük bir izdiham göründü. Bunlar zəncir vuranlardan, başlarını yaranlardan, sinə vuranlardan ibarətdi. Təbriz ajanları bu izdihamın qarşısını kəsə bilmədi. Dəstənin qabağında bir adam ələmlər arasında Stalinin iksini aparırdı. İzdihamdan bu sözlər yüksəlirdi: "Məhv olsun zalimlər, qəhr olsun cəlladlar. Yaşasın hürriyyət, ədalət. Yaşasın şurəvilər!" Ajanlar yoxa çıxdı...

* * *

...Bir zarafat daha... Hər axşam opera teatrımızın tamaşalarında olurduq. Həmin dostumuz deyirdi ki, "Koroğlu" operasında mənalı bir şey varsa, o da təlxəkdən ibarətdir. Təlxəksiz "Koroğlu" "Koroğlu" olmazdı. Təlxək səhnədə peyda olan kimi dostumuzun kefi kökəlirdi. Mən yoldaş Əziz Əliyevdən icazə alıb bir zarafat düzəltdim. Səhnə arxasına gedib güclə Hidayətzadəni hazırladım. Sonra gəlib sakit lojada oturdum. Bir azdan Hidayətzadə həyəcanlı gəlib Əziz Əliyevə müraciət etdi: yoldaş hərbi şura üzvü, xoşa gəlməz bir badi səbaş verib.

- Nə olub ki?
- O olub ki, təlxək rolunu oymayan artist İsgəndərov bərk naxoşlayıb, bu gecə tamaşa təlxəksiz olacaq.
- Çarəmiz nədir. Onsuz oynayın.

Dostumuz qızarıb, bozarırdı. Əsəbi anlar keçirirdi.

- Necə yəni onsuz oynayın? Təlxəksiz da "Koroğlu" olar. Durun gedək mehmanxanamıza nərdimizi oynayaq. Qoy bunlar da özleriyçün təlxəksiz oynasınlar.

Əziz: - Getmək yaxşı düşməz. Tamaşaçılar bizi görüblər. Getsək haqqımızda nələr danışmazlar, - dedi.

Hidayətzadə səhnəyə getdi. Dostumuz isə çox pərt, qanıqara lojada oturub heç səhnəyə tərəf baxmırdı. Tamaşa başlandı. Birdən "Nay, nay, nay, nay, nay" deyib dünbək çala-çala təlxək səhnədə göründü.

Dostumuz ucadan "Adə, təlxək gəlib ki" deyə bağırdı. Salondakıların hamısı lojamıza tərəf baxdı...

* * *

Bir axşam Təbriz qubernatoru bizi evinə qonaq çağırmışdı. Məclisdə on, on iki nəfər adam vardı. Sovet adamrarından məclisdə Əziz Əliyev, Mehbalı Əmiraslanov və mən vardıq. Təbrizin cavan xanəndəsi başladı. Qəzəl oxunduqca qubernator hiddətlənirdi. "Bunu məclisdən kənar eləyin" kimi sözlər deyirdi. Lakin xanəndə qəzəlin sonunda

Süleyman, qafil olma, yaxşi bax ətrafa şairsən
Cinayət aşdı həddindən, haray sal ki, vətən yandi.

sətirlərini oxuyan kimi Fəhimi də, digərləri də qəzəblərini süni təbəssümlə əvəz edərək məni alqışladılar, tərifədilər...

* * *

Mən Bakıya məzuniyyətə gəlməli idım. Əziz mənə dedi ki, sənə bir əmanət verəcəyəm, bizim ailəyə çatdırasan.

Yola çıxan gün yanına getdim... Mənə əl boyda bir qutu verdi. Lakin başqa yoldaşlarımız düyü, kişmiş və qeyri şeylər alıb göndərirdilər. Qutunun içində nə olduğunu bilmirdim.

Bakıda Əzizgilin evinə gəldim. Həyat yoldaşı məni hörmətlə qarşıladı. Məktubu və qutunu ona verdim. Qutunu açdılar. İçində qələm, karandaş, karandaş yonan, pero və məktəbli uşaqlara lazım olan şeylər vardı.

Əzizın həyat yoldaşı Təbrizdəki həyatla, güzəranla maraqlandı. Mən ona o qədər lazımi şeylərin olduğundan danışdım ki... Təbrizə qayıdanda ona ailəsindən məktub apardım. Məktubu oxuyub Əziz Əliyev gülə-gülə dedi ki: "Təbriz mağazalarını qiyabi evimizə köçürmüsən ki..." Əlbəttə, Əziz evlərinə ailəsi üçün çox şey göndərə bilərdi. Lakin bu onun xarakterinə uyğun deyildi.

Əziz Əliyevlə müharibədən sonra da görüşərdik. Təbrizdəki günləri yada salardıq. Dağıstanda olduğu zaman hər görüşdə mənə deyərdi ki, "Həmişə Moskva səfərindən qayıdan zaman Mahaçqalada düş, keçən günləri təkrar yada salaq".

Bəli, hər görüşdə biz o günləri xatırlayardıq.

Cənubi Azərbaycanda yazılan şeirlər hadisələrdə yaxından iştirak etməyimin bəhrəsidir.

## ARAZIN O TAYINDA

Cənubi azərbaycanlı qardaşlarımızın taleyi məni həmişə düşündürmüşdür. İlk gənclik illərində yazdığım bir neçə kiçik şerim bu mövzudadır. 1934-cü ildə qələmə aldığım "Yaxşı yoldaş" poemasında da bu məsələdən bəhs açmışam.

1940-cı ildə tamaşaya qoyulmuş "Qaçaq Nəbi" mənzum dramasında bu haqda daha ətraflı söhbət getmişdir.

Boyük Vətən müharibəsi illarində isə Arazın o tayında qan qardaşlarımızla görüşmək, dərdləşmək mənə qismət oldu. Müharibə təzəcə başlanmışdı. Alınan faşistləri bizə qonşu ölkələrdə (İranda) fitnə-fəsad yaratmasınlar deyə, qoşunlarımız İran torpağına daxil oldu. İran qoşunları isə çox yüngül müqavimət göstərdi. Ordu başçıları, zabitlər əsgərləri özbaşına buraxıb qaçdılar. Qaçarkən kəndlərdə hərbi paltarlarını kəndlilərlə dəyişir, təğyirlibas edirdilər.

Hamamsızlıqdan paltarları bitli kəndlilərə bu sərfəli idi. Bir çox kəndlilər isə onlardan köhnə yamaqlı paltar əvəzinə silah alirdılar. Baş verən kiçik toqquşma zamanı yalnız bir İran təyyarəsi sovet Azərbaycanının bir rayon mərkəzinə bir-iki bomba ata bilmişdi.

Təbrizə isə bir sovet təyyarəsi xətərsiz bir neçə bomba atmışdı. İran zabitlərindən əsir düşən də olmuşdu. İran ordusunda olan azərilər müqavimət göstərməmişdi. Əhali ilə birlikdə Qızıl Ordu hissələrinə yol göstərmişdilər.

Şəhərin varlıları Tehrana qaçmışdılar (Nəhayət, sovet ordusunun xeyirxah məqsədlə İrana girdiyini bilib yenidən Təbrizə qayıtmışdılar).

Təbrizə sovet Azərbaycanın qabaqcıl ziyalılarından bir qrup gəlmişdi. Mən də onların sırasında idim. Mən bir neçə nəfərlə Tehranda olmalıydım. Lakin bu məni heç də maraqlandırmırdı. Mən qan qardaşlarımla yaxından görüşmək, həyatlarını dərindən öyrənmək maqsədilə Tehrana getmədim. Təbrizdə qaldım. Bu gözəl şəhərdə keçirdiyim munalı günlər, aylar indi də xatirimdədir. Təbrizdəki siyasi qruppanın rəisi Yunis Hacıyev, müavini isə mən idim. Yunis Hacıyev Bakıya çağırıldıqdan sonra onu mən əvəz etdim. Dəstəmizdə rayon Partiya Komitəsi katibləri, icraiyyə komitəsi müdirləri vardı.

Şəhər hadisələrlə doluydu. Əhali Qızıl Ordu nəfərlərini ehatə edib Sovet İttifaqı haqda onlara suallar yağdırdılar. Təbrizdə biz azərilərin

görünməsi böyük hadisəyə çevrildi. Qucaqlaşmalar, öpüşmələr. Sevincdən doğan göz yaşları.

Təbriz küçələrində dilənçilər də az deyildi. Küçədən keçənlərə körpə əllər uzanırdı. Yolçular bu zarıyan uşaqlara əhəmiyyət vermədən keçirdilər.

"Qaraçılar məhəlləsi" adlanan yer isə həyatın dibi idi, - desək yanılmarıq. Ehtiyac üzündən bu darısqal, natəmiz məhəllədə özünü tümənlərə satan qadınlar, qızlar vardı.

Cənublu qardaşlarımızın həyatı çox ağırdı.

Məktəblərdə yalnız tədris pulu verməyə gücü çatanların balaları oxuyurdu. Məktəblərdə tədris fars dilində keçirdi. Məktəb divarları arasında öz ana dilində (azəricə) danışanlar məktəbdən qovulurdu. Şəhərdə yalnız bır xəstəxana vardı.

Yoxsulların xəstələri dava-dərmansız keçinirdi.

Şəhərdə mədəniyyət ocaqları yox idi desək, yanılmarıq. Bunun yerinə tiryəkxana və ümumxana vardı.

Yoxsulların balaları gün çıxandan-gün batana bir qarın çörəyə ərbablar üçün işləyirdi.

Sovet adamlarının bu torpağa gəlişi xalqın gözünü açdı. Şəhərdı tızə həyat başlandı. "Azırbaycan", "Şahin" adlı qəzetə nəşr edildi, Həvəskarların dram dərnəkləri işə başladı.

Məni şairlər maraqlandırırdı.

Əvvəla onu deyim ki, ilk günlərdə Təbrizdəki acınacaqlı vəziyyət məni yaman sıxmışdı. Bir neçə gün yemək-içməkdən qalmışdım. Nəhayət, bu vəziyyətə alışdım. Bir ay müddətində yazdığım bir neçə şeri mətbuata verməkdən çəkindim. Təbrizdəki şairlərlə tanış olmadan, onların şairlik qüdrətlərini bilmədən bunu etməkdən çəkindim. Sovet şerimizin adını ucada tutmağı hər şeydən üstün bildim. Təbrizdə şairlər vardi. Mir Mehdi Etimadla, Hilal Nasiri və Əli Fitrətlə tanış oldum. Bunların yalnız birinin bir kitabçası nəşr olunmuşdu. Bu kitabın müəllifi Mir Mehdi Etimad idi. Hilat Nasirinin Təbrizdə və Ərdəbildə kitab-dəftər mağazası vardi. Əli Fitrət isə Təbriz dəmir yolunda keşikçi vəzifəsində çalışırdı. Dəmir yoluna yaxın yerdə kiçik bir xanəsi vardı. Həmin daxmada o mənə və Mirzə İbrahimova beş-alti qoyun baş-ayağından çox dadlı yemək hazirlamışdı. Bizimlə görüşəndən sonra azəricə şeirlərini qəzetlərdə çap etdirməyə başladı. Mən bu şair dostlarımla görüşdən sonra

Süleyman Hikmət imzasıyla şeirlər dərc etdirməyə başladım. İlk şerim "Vətən yandı" idi.

Doğrudan da Cənubi Azərbaycan od içindəydi. Onun zəngin varını Tehrana daşiyırdılar. Tehrandan da xarici ölkələrə daşmırdı.

Yadımdadır. Təbrizdə gizli polis rəisi Sərhəng Seyf demokratlara, bizə hüsn-rəğbət bəsləyənlərə gizlicə divan tuturdu. Təbriz zindanları azadixahlarla doluydu. Bir gün bir bayram münasibətilə Təbriz qubernatoru Fəhimi bir ziyafət düzəltmişdi. Sərhəng Seyf mənimlə yanaşı oturmuşdu. Mənə bir sıra müəmmalı suallar verirdi. Təbrizdə arayıb tapdığımız gənc müğənni başmaqçı Xəyyam da burada idi. Xahiş etdilər ki, Xəyyam oxusun.

Xəyyam "Vətən yandı" qəzəlimi oxumağa başladı. Qubernator I Fəhimi və Sərhəng Seyf qəzəlin ilk sətirlərindən qəzəbləndilər. Öz aralarında müğənni başmaqçı Xəyyamı məclisdən başqa yerə aparmağı qərarlaşdırdılar. Lakin qəzəlin sonunda:

Süleyman, qafil olma, yaxşı bax ətrafa şairsən
Cinayat aşdı həddindən, haray sal ki, vətən yandı...

beytini eşidən kimi ikisi də üztərində süni təbəssümlər yaratdılar. Başmaqçı Xəyyamı rahat buraxıb məni alqışladılar. Sərhəng Seyf mənə "Abco" (pivə) içirməyə çalışırdı. Mən də ona müharibə illərinin arağını içirmayə başladım. Bu işdə mənə yanımızda oturan sovet süvari diviziyasının komandiri polkovnik Alekseyev də kömək etdi. Bir azdan sonra Sərhəng Seyf özünü itirdi. Qubernator Fəhiminin əmrilə onu məclisdən apardılar.

* * *

Cənubi Azərbaycanda maşınla, atla və piyada bir çox dağ kəndlərində oldum. Mən müharibədən əvvəl Moskvada hərbi ləhsil almışdım. Hərbi şöhrətim "batalyon komissarı" idi. Təbrizdə süvari diviziyasına təhkim olunmuşdum. Polkovnik Alekseyevin təşəbbüsü ilə süvari məşqlərini keçdim, yaxşı at çapmaq öyrəndim. Döşümdə patrondaş, çiynimdə karabin silahım, bir de Alekseyevin hədiyyəsi "parabellum" yarağım vardı. Alekseyev Finlandiya cəbhəsində iştirak etmiş komandirdi. O mənə həmin cəbhələrdə olmuş "Artist" ləqəbli gözəl bir at və gümüş bəzəkli qılınc da bağışlamışdı.

Azərbaycan Opera Teatrı Təbrizdə qastrolda olanda Bülbül "'Koroğlu" tamaşasında həmin atı minərdi.

Bir gün dostum Bülbül ilə balaca küsüşmüşdük. Atlara baxan əsgərə tapşırdim ki, mənim atımı daha teatra verməsinlər.

Bir axşam "Koroğlu" tamaşasında Bülbül səhnəyə arıq görkəmsiz faytonçu atı ilə çıxdı. Tamaşadan sonra Bülbüllə görüşdük. İkimiz də sözsüz gülməyə başladıq. Nəhayət, Bülbül diliəndi. "Şair, axırda qəhrəman Koroğlunu fayton atına da mindirdin".

Bundan sonra Bülbiil yenə həmin "Artist ləqəbli atla çıxış etdi. Ata "Artist" ləqəbi təsadüfi qoyulmamışdı. At doğrudan da çox qəşəng və çox oynaq idi.

* * *

Təbriz indi də gözlərimin önündədir. Onun bir böyük küçəsi vardır. Biz orada olanda əhali həmin küçəyu Səttarxan-Bağırxan xiyabanı adını verdi. Həmin küçədə mehmanxana (Firdos mehmanxanası), mağazalar, restoranlar yerləşir. Təbrizdə əhalini siyahıyaalma o qədər də inandırıcı deyil. Əhalinin müəyyən qismi müəyyən səbəblərə görə siyahıyaalınmadan boyun qaçırırdı. Verilən rəsmi məlumata görə o zaman Təbrizin əhalisi 300 minə qədərdi.

Təbrizdə 12 min erməni yaşayırdı. Demək olar ki, şəhərin mərkəzindəki mağazaların səhmanlısı onların idi.

Təbrizdə vur-tut bir zavod vardı. Bu pivə zavodu Budaqyansm idi.

Şohərdə bir kinoteatr binası vardı.

Bakıdan Təbrizə bizim "Azərfilm" in çəkdiyi əsərtar gətirildi. Bu işlərə də mən nəzarət edirdim.

Biz çox ucuz qiymətə bu filmləri bina sahiblərinə xalqa göstərmək üçün verirdik.

Bir gün şəhər bağında "Kəndlilər" filmini əhaliyə göstərirdik. Açıq havada soyuğa baxmayaraq, tamaşaya hamı böyük maraqla baxırdı. Az keçmədi quşbaşı qar yağmağa başladı. Lakin kimsə yerindən tərpənmədi. Təbrizdə sanki hamı alverlə məşğuldur. Məsələn, bir küçədən keçirsən, orada qəribə munzərəyə rast gəlirsən. Sanki alçaq mərtəbəli evlər mağazadır. Hər evin küçəyə açılan pəncərələrində hər şey satılır.

Məsələn, bir pəncərədə üzüm, yemiş, digərində quru meyvə nəzərə çarpır. Pəncərənin bir gözü bir qardaşa, digər gözü digər qardaşa məxsusdur.

Təbrizdə istədiyin şeyi adama zorla da sata bilirlər.

Bir gün Bülbüllə birlikdə küçə ilə gedirdim.

Bir cavan adam qabağımızı kəsib Bülbülə müraciətlə "Ağa, mən bu qəlyanaltını satıyam".

Bülbül: - Canım, get sat.

Cavan oğlan; - Ağa, bu qəlyanaltını vallah satıyam.

Bülbül: - Gülüm, dedim ki, get sat!.. Mən çəkən deyiləm. Mənim qəlyanım yoxdur, altını neyləyirəm.

Cavan oğlan bizdən ayrıldı. Bir az sonra başqa bir yerdə yenə qabağımızı kəsdi.

Cavan oğlan: - Ağa, man bu qəlyanaltını satıyam...

Bülbül: - Canım, get sat da... nə istəyirsən məndən...

Cavan oğlan getdi. Üçüncü dəfə yenə qabağımıza çıxdı.

Cavan oğlan: - Ağa, mən bu qəlyanaltını satıyam.

Bülbül: - Bala, qiyməti neçədir?

Cavanoğlan: - Birtüməne...

Bülbül: - Al bala, bü sənin bir tümənin, xoş getdin. Qəlyanaltın mənə gərək deyil.

Cavan oğlan alverindən xeyli razı bizdən uzaqlaşdı. Doğrudan da heç nəyə gərək olmayan köhnə qalyanaltını da Təbrizdə yaxşi qiymətə satmaq olarmış.

Bülbül dedi: "Süleyman, bu Təbrizlilər qəribə adamlardır. Bir də gördün ki, həmin bu cavan adam sabah qabağımıza çıxıb deyəcək, ağalar, mən qarpız qabıqlarını satıyam. Sənə satacaq, hünərin var alma, alacaqsan".

* * *

Dedim ki, Təbriz qəşəng şəhərdir. Baharı çox gözəldir. Dar küçələrdən keçəndə uca banlardan başqa bir tikintini görmürsən. Lakin hər qapıdan içəri girəndə gözəlliyə heyran olursan. Bunların içərisində nəzərə çarpmayan evlər, meyvə ağacları, üzümlər, güllər, çiçəklər, gözləri oxşayır. Şəhərin ətrafındakı yoxsul evlərinin qabağında üzümlük və çiçəklik vardır.

Təbrizin qışı sərt olur. Bozən şaxta adamı qılınc kimi kəsir.
Belə qış aylarında yoxsulların halı çox ağır olur. Qışda yanacaq üçün odun çox baha satılır.
Bir az komür tapıb kürsü quran daxmalarda ailə güclə qızına bilir. Bir dəfə şəhərkınarı məhəllələrinin birində çox acınacaqlı bir mənzərənin şahidi oldum. Bir döngədə xörək içində kişə bükülmüş bir meyit gördüm. Meyitin dövrəsində buz üstündə titrəyə-titrəyə ağlayan bir nççə oğlan və qız uşağı vardı. Yaxınlaşıb məsələylə aşina oldum. Meyit qoca bir bənnanın idi.
Yoxsullar yayda birtəhər dolana bilərdilər. Qış ayları onlar üçün çox ağır olurdu. Evlərdə yanacaq yox idi, bazarda odunun qiyməti çox baha idi.
Hətta elə evlər vardı ki, orda ailələr üstlərinə salmağa qalın yorğan belə tapa bilmirdilər.
Küçələrdə buzlar üstə ayaqyalın, başıaçıq gəzən uşaqların vəziyyəti adamı sarsıdırdı.
Axşamlar dadlı yeməklərin qoxusunu ətrafa yayan restoranların qapısında dilənən oğlan, qız uşaqları adamın ürəyini yandırırdı. Biz cibimizdə nə artıq pul vardısa, bu məsum balalara verirdik. Bəzi dilənçi uşaqlar bizi öz aralarında bölüşdürmüşdülər. Məsələn, biri məni, digər dilənən uşaqlara göstərib deyirdi ki: "Siz bu ağaya yaxınlaşmayın, bu mənim ağamdır. Siz də özünüzə başqa ağa tapın".
Bu körpələr haqqında düşünən, onları bu vəziyyətdən xilas üçün çarə axtaran hanı? Şair, gəl döz bu dərdlərə görüm necə dözürsən!
Ailənin imkanı olmadığından meyiti döngədə qoyub dəfn üçün yol keçənlərdən kömək istəyirdilər. Cibimdə olan bir neçə türnəni onlara verib ürəyi yaralı düşüncələr içərisində oradan ayrıldım. "Memarın faciəsi" poemam həmin hadisənin məhsuludur.
Sovet qoşunları İran torpağına daxil olmamışdan əvvəl kürdlərin dağlardan aşağı, şəhərlərə gəlməsi qadağan idi. Bizim İranda olmağımız bu xalqların dostluğunun möhkəmlənmasinə səbəb oldu.
Doğrudur, kürdlər ilk dəfə dəstə-dəst;» Təbrizə gələndə yuxarı təbəqədən olanların kürkünə birə düşdü. Dükan-bazar bağlandı. Şəhərdə gediş-gəliş azaldı - adamlar evlərdə oturub nəyinsə baş verəcəyini gözləyirdi.
Lakin heç bir hadisə baş vermədi.

Əksinə, gözəl, əlamətdar dostluq tuntənəsi nümayiş etdirildi. Bakıdan Təbrizə qastrola bir dəstə artist gəlmişdi. Sara Qədimova da onların arasındaydı.

Təbrizdə teatr binasında konsert verilirdi. Kürd xanları tavus quşu qədər rəngli libasda, belləri qəməli, silahlı lojalarda konserli dinləyirdilər.

Qurban Pirimovun müşayiətilə Sara Qədimova "Kürdün gozəli" mahnısını oxuyanda kürdlər dayana bilmədi. Öz dillərində səhnəyə aferinlər yağdırdılar. Daha sonra hamısı lojalardan çıxıb səhnəyə toplaşdılar.

Bir-birilərinin qurşağından yapışıb oxuya-oxuya yallı getdilər. Doğrudan da çox maraqlı, görməli mənzərəydi. Salondan alqış sədaları uzaqlara əks edirdi.

Bu axşam hamının xatirində dərin izlər buraxdı. Səhəri bütün şəhər əhalisi bu gözəl hadisədən danışırdı. Beləliklə, kürdlər haqqında gedən fitnəli şayiələrə son verildi.

Opera teatrımız Təbrizdə müvəffəqiyyətlə çıxış edirdi. Orucluq ayı idi, lojalarda oturanlar iftarını teatrda açırdı. Onlar üçün restoranlardan plov, kabab və qeyri-ləziz xörəklər gətirilirdi. Onlar iftar aça-aça tamaşaya baxırdılar.

Bir tamaşa zamanı teatrın foyesində gödəkboylu bir adam yanaşdı. Məni bir tərəfə çəkdi. Mən onu dərhal tanıyıb Cavadzadə yoldaş dedim. O: "Xeyr, mən Pişəvəriyəm" deyə cavab verdi. Mən onu "Bakıda Qızıl Qələmlər İttifaqının fəaliyyəti vaxtından tanıyırdım. O zaman o "Kəndli" qəzetinin redaktoru idi. Onunla bir neçə dəfə görüşümüz də olmuşdu.

Pişəvəri məndən xahiş etdi ki, bizim məsul yoldaşlarla onu görüşdürüm. "Zindandan təzə buraxılmışam. Məqsədim Təbrizdə "Tüdə"-ni yaratmaqdır. Burada arzuma yetməsəm Tehrana getməliyəm".

Mən onun bu arzusunu bizim yoldaşlara çatdırdım. Yoldaşlarımız bu işə laqeyd baxdılar. Mən Pişəvərini (Cavabzadəni) yaxşı tanıdığımı, bizim adam olduğunu başa salmağa çalışırdım. Söhbətdən belə çıxdı ki, Təbrizdə olan məsul işçi yoldaşlarımızın bu böyük şəxsiyyət haqqında heç bir məlumatları yoxdur. Hətta bir nadan dedi ki, "Onu zindandan bilərək buraxıb üstümüzə göndəriblər. Şübhəli adamdır. Bİz onunla görüşmək istəmirik".

Bunu söyləyən Cənubi Azərbaycanda xeyirxah fəaliyyət göstərmək əvəzinə silah alverilə, qadınlara sataşmaqla və ciblərini doldurmaqla məşğul olan Ağa Səlim Atakişiyev (Səlim Petroviç) idi. Nə isə. Pişəvəri belə qəbuldan çox pərt oldu. Təbrizdə qalmayıb Tehrana getdi.

* * *

Yeri gylmişkən deyim ki, həmin Ağa Səlim Təbrizdə və onun ətraf kəndlərindən silah yığmağı bir şübhəli adama tapşırmışdı. Həmin ailə vaxtilə Bakıda bizim sabiq Spasskaya küçəsində yaşayırdı.

Bir gün Mirzə İbrahimov mənə dedi ki, məni bir fəhlə ailəsi evinə qonaq çağırır. Gəl bərabər gedək. Zavallı vaxtilə Bakıda fəhləlik edirmiş. İndi də burada ehtiyac içindədir. Gəl gedək, yoxsa könülləri qırılar...

Bərabər həmin ailəyə qonaq getdik. İçəri girən kimi diksindim. Mən kimi görsəm yaxşıdır. Kor Əlini. Ağasəlim Atakişiyev üçün silah toplayan gəncin atasını. Kor Əlini...

Onlar da məni görən kimi özlərini itirdilər. Kor Əli əlbəttə, tamamilə kor deyildi. Bir gözünün qapağı yatıq idi. Bu Kor Əli Bakıda məşhur Qoçu Ağakərimin qardaşı idi. Məhlə onların əlindən göz açmazdı. Adam oğurlamaq, adam oldürmək onun əlində su içmək kimi bir şeydi. Bəli, bu evdə mənim dəmirçi atamı, əmimi və anamı tanıdıqlarım və İrana gələndən sonra polis tərəfindən soyulduqlarını bizə nəql etdilər.

Bu evdən çıxandan sonra Mirzə İbrahimova bu "fəhlə" Əli kişinin kim olduğun açıb deyəndə mat qaldı. Atakişiyev və Kor Əli görünür ta Bakıdan çox yaxşı tanışmışlar. Ağakişiyev biz ziyalıları yaman tərif edirdi. Amma əlaltdan xeyirxah, azadixah adamlarla görüşümüzə mane olurdu. Bir dəfə mənim maşınımda Səttarxanın qardaşını yanımıza gətirdib onunla söhbət etdik. Bu münasibətlə Ağakişiyev bizə min cür siyasi ləkələr vurmağa çalışırdı. Nəhayət, mən Ərdəbildə onun adamlarının qəbzlərini öz puluma dükanlardan geri alıb Təbrizdə yığıncağımızda müzakirəyə qoydurdum. Onun adamları dükanlardan şey alanda pul verməzdilər. Əvəzinə bir barmaq kağıza qol çəkib dükançıya təqdim edərdilər. Bu hadisədən sonra Atakişiyev bizi bir qədər təqib etmədi.

* * *

Bir gün xəbər gəldi ki, Sərabın Dağ kəndlərinin birində sovet adamları xanı və oğlunu öldürüb izini itiriblər. Əlbəttə, bu, düşmənlərin şayiəsi idi. O kənddə bir nəfər də sovet adamı olmurdu. Qubernator bizim ştaba bu haqda etiraz bildirdi. Həmin kəndə Həsən Şəhgəldiyevlə məni göndərdilər. Biz maşınla Səraba gəldik. Sərabda olduğumuz zaman bəzi yoldaşlarımız otaqdan, yaxud kənddən kənara çıxmırdılar. İdarə işiylə və dadlı yeməklər yeməklə məşğuldular... Bir paramız isə həyatın içərisində olmağı istəyirdik. Bizə nə tapşırıq verirdilərsə dərhal icrasına başlayırdıq. Bu dəfəkj səfərdə Sərabda bir gün qalmalı olduq. Polis idarəsinə getdik. Dağ kəndinə onlarla birlikdə getməyi lazım bildik. Polis rəisi bizə əmniyələr verməkdən imtina etdi.

Dedi ki: "Kəndlərdə əmniyələrimizi tutub silahlarını alırlar. Müqavimət göstərdikdən öldürürlər də. Siz zamin olsanız birlikdə gedərik". Biz zamin olduq ki, onların başından bir tük əskik olmayacaq. Atlara minməli olduq. Mənə birxam at gətirdilər. Bəli, bu at bəlkə də minilməmişdi. Polis həyətinda at məni az qalmışdı yerə çırpsın. Bu atı mənə bilərəkdən vermişdilər. Digər bir at gətirdilər. Təəccüblü burasıdır ki, həmin ata nə əmniyə rəisi, nə də əmniyələr mindi.

Üzü dağlara doğru hərəkət etdik. Atlarımızı sürətlə dağ yoluyla çapırdıq.

Şahgəldiyev atı bir ayaq, bir ayaq sürürdü. Çox yerdə onu gözləməli olurduq... İrəlidəki yollar bizi dağlara doğru aparırdı. Gedəcəyimiz kəndə az qalmışdı ki, əmniyə rəsi və əmniyələr atları qamçılayıb kəndə bizdan əvvəl girməyə can atdılar. Mən da atı çapdım. Onlar atları kənddə bir daxma qarşısında saxlayıb yerə endilər.

\- Bu nə işdir, siz bizdən zaminlik istəyirdiniz. Necə olur ki, bizdən əvvəl kəndə girməyə cürət edirsiniz dedim. Əmniyə rəisi dedi ki, bax bu ev şurəvilərindir. Mən istədim ki, onları buradaca silahlı surətdə sizə göstərim.

Nə isə Şahgəldiyev də gəlib çıxdı. Otaqda bir neçə adam vardı. Bunlar tudəçilərdəndi.

Xan və oğlu haqqında sorğu-suala başlandı. Hamı bir ağızdan dedi ki, Xan və oğlu qaçmışdır. Onları öldürən olmamışdır.

Xanın malikanəsinə getməli olduq. Xanın evi qarət edilmişdi. Evin müəyyən yeri yandırılmışdı, Bir manqalın dalından bir nəfər yuxulu

gözlərilə bizi süzdü. Bu xanın qardaşı idi. Belə bir hadisəyə baxmayaraq, tiryək çəkməklə məşğuldu. Digər otaqdan iki qadın çıxdı. Biri xanın arvadı, digəri bacısı idi. Xanın bacısı örpəyini başından götürüb ayaqlarımın altına atdı.

- Qardaşımın və oğlunun ya dirisini, ya ölüsünü bizə qaytarın - dedi.

Kənd ağsaqqallarına müraciət etdik. Qarət olunmuş şeylər bir saatın içində xanın evinə qaytarıldı. Kənd əhalisi meydançaya toplaşdi.

Hamı bir ağızdan xanın və oğlunun qaçdığını söyləyirdi. Əmniyə rəisi deyirdi ki, "bu yalandır, xanı öldürmüsünüz. Görünür günahı varmış ki, öldürmüsünüz". Meydançaya toplaşanlar bir-bir xanın zülmündən, oğlunun qizların namusunu pozmasından xeyli danışdı. Bir gənc qadın başını aşağı dikərək Xan oğlu tərəfindən zorlandığını danışdı.

Bir qoca kürkünü qaldırıb belindəki xəncər yaralarını göstərdi. O dedi ki, Xan oğlu nəvəmi zorlamaq istəyirdi. Mən harayına yetişdim. Xan oğlu həyatimdəki meyvə ağaclarını doğramağa başladı. Mane olmaq istəyəndə xəncərlə bir neçə yerdən məni yaraladı.

Divana şikayət etdim. Səsimi eşidən olmadı. Kəndlilərin arasında pəhləvan gövdəli birini tanıdım. O vaxtilə (Qulam Yəhya) Bakı neft mədənlərində işləyirdi. Mən xəlvəti ona başa saldım ki, əmniyə rəisi köhnə qurddur. Onlardan şübhələnir. Sabah gecə Səraba yanımıza gəlsinlər. Gecəni kənddə xanın evində qalmalı olduq. Kəndülər gecə yarısına qədər bizə suallar yağdırırdılar. Əmniyə rəisi onlara belə deyirdi: "Əqlinizi başınıza yiğın. Bu gün-sabah müharibə qurtaracaq. Bunlar öz vətənlərinə qayıdacaq. Yenə burada sizinlə biz qalacağıq".

Mən kəndlilərə bir neçə şeir oxudum. "Durnalar" şerimi oxuyandan sonra soruşdum ki, bu şeir onlara çatdımı? Bir kəndli dedi:

- Ağa, niyə, ürəyimin qulaği var, gözü var.

Durnalar bizux da".

Bu söz sonra mənim bir şerimin sərlövhəsi oldu. Kəndlilər evlərinə dağılışdı. Biz xalılar üzərində yatmalı idik. Əmniyə rəisi və əmniyələr biləklərini və ayaqlarının açıq tərəfini qaytanla bərk bağladılar. Biz təəccüb etdik. Sən demə özlərini bitdən müdafiə üçün tədbir görürmüşlər.

Sababı Səraba gəldik. Bir evdə rahatlanmaq istədik. Gecəyarı Qulam Yəhya bir yoldaşla yanımiza gəldi. Lampa işığında söhbətə başladıq. Onlar xanın və oğlunun həmin kənddə otaqda boğdurulub yol üstündəki quyuya atıldığını bildirdilər.

Artıq bu adamların burada qalması təhlükəli idi. Səhər tezdən görüşməyi qərarlaşdırdıq.

Lakin sübhə qədər yata bilmədik. Bədənimizi nə isə yeyirdi. Bəlkə qaşınma xəstəliyinə tutulmuşduq, deyə düşündük. Köynəklərimizi yoxladıq. Əllmizdə bitlər sira-sıra düzülmüşdü. Dəhşətə gəldik. Sübh tezdon iki yoldaşı Ərdəbildən Təbrizə gedən hərbi yük maşınıyla yola salıb özümüz də orada qalmayıb hərəkət etdik. Mehmanxana həyətində soyunub paltarımızı yandırmağa verdik. Təmizlənib təzə paltar geydik. Təbrizdə Q.Y. yoldaşın taleyi bizi çox nigaran qoymuşdu. Bizə xəbər çatdı ki, Q.Y. yoldaşı tutublar. Sərab əmniyə rəisi Təbrizə telefonla xəbər çatdırıb ki, Q.Y. yoldaşı sovet maşınında yola salıblar.

Mən şairliklə yanaşı, bir fədaiyə dönmüşdüm. Ürəyim cənublu qardaşlarımızın çəkdikləri müsibətlərə, əzablara tamaşaçı kimi baxa bilmirdi. Təbriz ziyalıları, ətraf kəndlərin nümayəndələri yanıma gəlib dərdlərini danışırdılar. Mən də onların arzularını məndən rütbəcə böyük yoldaşlara çatdırırdım. Hər ailənin, hər adamın həyatı, güzəranı bir böyük kitaba sığmayan hadisələrlə doluydu.

Q.Y. yoldaşın taleyi ilə məşğul olduq.

Mirzə ilə mənim yanıma iki adam tez-tez gəlib hər xahişimizi yerinə yetirməyə hazır olduqlarını bildirdilər. Bunlardan biri Milli Qəhrəman Səttarxanın kürəkəni idi. Çox ucaboy, pəhləvan gövdəli bu adam deyirdi ki, kimi istəyirsinizsə gedib vurum. Mən bunlardan çox zülmlər çukmişəm. Biz onu başa salırdıq ki, İran torpağına gəlməkdə məqsədimiz başqadır. Biz terror əleyhinəyik. Tək-tək adamları aradan götürməklə xalqımın vəziyyəti yaxşılaşmaz. Bir gün eşitdik ki, Qarabağda mülkədarlar öz nökərlərilə birlikdə onu facianə bir surətdə öldürüblər.

İkinci adam isə Zəndi adli kürd idi. O zindandan təzəcə çıxıb Təbrizə gəlmişdi. O deyirdİ ki, "Mon kürd ziyalılarındanam. Azadgah olduğumdan neçə ildi ki, zindanda yatırdım. Mən hazırda dəmir qəfəsdən çıxmış pələngə bənzəyirəm. Deyin, kimi aradan götürüm!"

Biz Səttarxanın kürəkəninə dediklərimizi ona da söylədik. Mirzə ilə bir neçə kəlmə danışdıq ki, o bizi başa düşməsin...

Kürd Zəndi bir neçə dil bilirdi. Mən ona Q.Y. yoldaşın başına gələnləri danışdım. Zəndi dedi ki, mən belə işlərin çarəsini yaxşı bilirəm.

Nəhayət, öyrəndik ki, Q.Y. yoldaş xilas edilmişdir. Bu həqiqətə nə qədər uyğundur, bilmirəm. Zəndi bizə dedi ki, mən qubernator Fəhminin kabinetinə girdim. Mauzeri gicgahına dayayıb Q.Y. yoldaşın dərhal

azad olunmasını tələb etdim. Qoca qubernator canının qorxusundan telefonla dərhal Q.Y. yoldaşın buraxılması əmrini verdi. Sonralar Q.Y. yoldaşı hər dəfə görəndə bu hadisəni ona xatırlatmaq istədimsə də, bacarmadım.

## ƏRDƏBİL SƏFƏRİ

Bizə, Təbrizə xəbər gəlib çatdı ki, 7 noyabrda Oktyabr inqilabının ildönümü günündə Ərdəbildə əhali çevriliş yaratmaq fikrindədir. Bunun qarşısı alınmalı idi. Bizim Qızıl Ordu İran torpağına bu məqsədlə daxil olmamışdl. Bu hadisədən müharibənin bu gərgin çağında bizə dost olmayanlar sui-istifadə edə bilərdi. Ərdəbilə məni və bir yoldaşı göndərməyi qərara aldılar. "M-l" maşınla yola çıxdıq. Sürücümüz gənc idi. Bu yolu ilk dəfə qət edirdik. Axşamüstü Səraba çatdiq. Mən gecəni Sərabda qalmağı irəli sürdüm. Dostum təkidlə yola çıxmaği məsləhət gördü. O tanış, bələd olmadığımız bir yerdə gecələməkdən ehtiyat edirdi. İkimizin də rutbəsi batalyon komissarı rütbəsiydi. Nədənsə, səfər dostum Bakıda məsul işlərdə olduğu havayla hərəkət edərok mənimlə sürücünün üzərindo rəhbərliyi öhdəsinə götürdü. Hava qaralanda yola düşdük. O, sürücüyə ciddi tapşırdı ki, "Gözün dörd əfsun, yolda gözünə şübhəli bir şey görünəndə cəld maşını saxla".

Artıq qaranlıq düşmüşdü. Dərələrdın keçəndə qulaqlarımızda küləklərin uğultusu səslənirdi.

Təbrizdən Ərdəbilə gedən yol boyu hər şeydən çox söyüd və iydə ağacları görmək olur. Hətta palçıq evli kənd həyətlərində, küçələrində də bu ağaclar görünür. Yollarda Tehrana və digər şəhərlərə gedən maşınların damında da kəndirlə məhküm sarınmış yük vardı. Bir də görürsən ki, yolu tozanaq bürüdü. Yolda toz bulud kimi havaya qalxdı. Budur, bir neçə yüz eşşəkdən ibarət karvan gəlir. Bunlar hansı mülkədarınsa, xanınsa taxılını, toyuq-cücəsini, meyvosini şehere daşıyır. Bu malları gətirən karvanı sürən kəndlilərin yolların tozundan ancaq parıldayan gözlərini yaxşı seçmək olurdu. Yollar, yollar, ağ saçlı yollar, cənublu qardaşlarımın dərdlərinə, müsibətlərinə şahid yollar.

Cənublu qardaşlarımızın qəhrəmanlıqlarına şahid yollar. Bu yollardan səyyahlar, şairlər, alimlər, sərkərdələr keçib. Bu yollardan

körpə Mirzə Fətəli (Səbuhi) keçib. Qaçaq Nəbi Təbrizə çar təzyiqindən bu yollarla gəlib. Ehtiyac içində boğulan cənublu qardaşlarımız bir parça çörək həsrətiylə Bakıya bu yollarla gəlib - Səttarxan öz fədailərilə bu yollardan keçərək azadlıq bayrağını Tehran meydanında dalğalandırmışdır. Bu yollarla kəndlərdən-kəndlərə gələn köçərilər, bu yollarla son mənzilə gözəllər, igidlər ötürüblər.

İndi yollardan ürəyi dərdlərlə, xoş arzularla dolu cənublu qardaşlarımız və öz səadətini qorumaqçın canından keçməyə hazır sovet adamları keçir. Mən il boyu hazırda Ərdəbildə yaşayan Baba haqqında düşünürdüm. Bizim Qasım İsmayılov küçəsində yaşayırdı. Bütün məhəllə onu tanıyırdı. Cənubi azərbaycanlı Baba bir novxanılı qızına evlənmişdi. Məhləmizdə ona həmşəri Baba deyərdilər. Çox şirindil, üzügülər adam idi. Onu həmişə atamla söhbət eləyən görərdim. Baba atama İran həyatından, oradakı bolluqdan, ucuzluqdan danışardı. Mən bu söhbətlərə qarışanda Babanın xoşuna gəlməzdi. İran pasportlu Baba müharibədən beş-altı il əvvəl İrana köçmüşdü. Məni düşündüran onun mədh etdiyi bu torpaqda necə güzəran keçirməsi idi.

Mən bu xəyalda ikən lapdan maşınımız dayandı. Əlizaman bağırdı: - Nə var, adə?

Sürücü cavab verdi ki, qabaqdan gələnlər var.

Əlizaman tez maşından yerə atılıb əmr verdi:

- On addım geri, yerə yat!

Mən naçar maşından düşüb on addım geri çəkildim və yoldaşımla yanaşı tozlu yerə sərələndim. Yenə onun əmrilə silahlarımızı atəşə hazirladıq. Birdən sürücü maşının yanından bağırdı:

- Yoldaş batalyon komissarı!
- Nə olub adə?
- Gedən dəvə karvanıdir.
- Adə, ölmüşdük ki, bunu əvvəldən deyə bilməzdin.
- Əvvəldən bu qaranlıqda hardan deyə bilərdim!

Maşına minib yolumuza davam etdik.

Gecəni Əfdəbilə yaxın Nəyir kəndində qaldıq. Orada bizim qrup-padio üç yoldaşımız vardı. Onlar Nir əhalisi və təbiəti haqqında rusca məlumat yazmışdılar. Yoldaşım yorğunluğa baxmayaraq yoldaşlarımızın rusca savadlı yazılmış bu məlumatının "səhvlərini" düzəldib sonra yatdı.

Səhəri Ərdəbilə gəldik.

Səfər dostum çox gözəl insandı. Ürəyi təmiz, bəzən bir uşaq qədər sadə idi. Yaxşı da təşkilatçı idi.

Ərdəbil səfərində o ovundan da qalmırdı. Təpəyə qonmuş qartal gördümü, maşını saxlatdırırdı. Atəş açandan sonra sürücüyə deyərdi ki, get o vurduğum quşu gətir. Sürücü bir neçə dəfə "vurulmuş" quş dalınca gedib əliboş qayıtdı. Nəhayət, etirazını bildirib daha quş dalınca getmədi. O isə deyirdi ki, yaxşı baxsaydın vurulmuş quşu çoxdan tapardın.

Yol boyu şirin söhbət edərək gəlib Ərdəbilə yetişdik.

Burada çalışan yoldaşlarımızın numayiş və çevriliş haqqında məlumatları yox idi.

Dostum bizim yoldaşlarla məşğul oldu.

Mən şəhəri dolaşdım. "Hövdək" adlı qəzet redaksiyasında Ayı Cövdətlə tanış oldum. Ziyalılarla görüşdük. 7 Noyabr nümayişi haqqında söhbət etdik. Onlar məni başa düşdülər. Nəhayət, çayxanaları gəzdim. Burada Bakıdan gələnləri gördüm, səmimi söhbətimiz oldu.

Nəhayət, bir çayxanada qəribə hadisə baş verdi. Yeri torpaq, mizi köhnə taxtadan ibarət, tüstüdən göz-gözü görmək mümkün olmayan bu çayxanada oturub çay istədim.

Ərdəbillilər məni əhatə edib ölkəmiz və müharibə haqqında suallar verirdilər. Bu dilində əlində stəkanlar dolu padnosla bizə tərəf çay gətirən adam mənə tanış gəldi.

O mənə yaxınlaşanda "Süleyman!" deyib padnosu əlindən yerə buraxdı. Çayxanadakılar donub qatdılar. Mən də "Baba!" deyib ayağa qalxdım.

Qucaqlaşıb öpüşdük.

Baba ağlayırdı. Göz yaşını əlinin dalı ilə silib yanımda oturdu. Babanın paltarı köhnə, ayaqları yalın idi. Bəli, atamın cənnət kimi qələmə verdiyi, burda, Baba çayçı şagirdi olmuşdu.

Baba deyirdi ki, sovet qoşunları İrana daxil olanda göydə sizin ilk təyyarəni mən gördüm. Ona əl elədim. Baba ilə şərtləşib evlərinə getdim. Arvadı da məni görüb ağladı. Bütün məhəllə adamlarını soruşdu. Bu yoxsul, bər-bəzəksiz, yeri torpaq daxmada bir neçə saat şirin söhbətimiz oldu. Artiq əmin idim ki, Ərdəbildə heç bir xoşagəlməz hadisə baş verməyəcəkdir.

Ərdəbildəki hərbi dostlardan bir qədər azuqə alıb Babanın evinə göndərdim. Əvəzinə Babadan yalnız bir kütüm balığı götürdüm.

Ərdəbildə köhnə uçuq məscid vardır. Məscid deyəndə, hücrələri, barılan da uçmuşdur. Oraya getməli oldum. Çünki Sovet İttifaqından İran təbəələri 1937-ci ildə İrana köçürülərkən onların əksəri Ərdəbilə gəlmişdilər. Baba mənə demişdi ki, onların çoxu dilənçiliklə dolanır. Onlara mühacir (çervən) adı verib işsiz, pənahsız buraxıblar. Varlı gələnlər yoxsul olmuşlar.

Bəli, mən məscidə getdim. Uçuq hücrələr ayaqyalın, başıaçıq, çılpaq, meyit rəngli uşaqlarla, əldən düşmüş qocalarla dolu idi. Bizi görən kimi hamı məscidin həyətinə doluşdu. Yüzlərlə azəri burada göz görə-görə acından qırılırdı. Bəzilərinin başına hava gəlmişdi.

Bir gənc dodaqaltı öz-özüylə danışırdı. Şeir deyirdi. Mən bu mənzərəni Ərdəbildəki hərbi yoldaşlarımıza danışıb, onlara yardım göstərmılırini xahiş etdim. Yoldaşlarımız yaxşı dolanırdılar.

Məsləhətlyşib qərara gəldik ki, aldıqları düyü, kartof, yağ, qənd paylarını bir araya toplayıb həmin aclara versinlər. Burada bir gənc dilənçi qadına rast gəldim. Söhbət əsnasında aydın oldu ki, o vaxtilə Gəncədə müəllimə imiş... İrana gələndən sonra bu hala düşmüşdür. Bu savadlı qadın dilənirdi. Biz onu hələlik Təbrizdə sovet xəstəxanasına işə göndərdik. Həmin qadınla görüşdən bir şeir yarandı. "Təsadüf" adlı şerim bu görüşün nəticəsidir. Şeir beiə başlayır:

Birdən gözüm sataşdı xiyabanda bir qıza
Qafqazdakı həyatın mən andım, ağladım,
Dilbərdi, nazənindi, fəqət indi heç nədir,
Ahından od tutub o qızın yandım, ağladım.

Ərdəbildə məşhur təlxək Lotu Cabbara rast gəldim. Mən onu uşaqlıqda da görmüşdüm. O, Quba meydanında meyxana deyərdi, qəribə oyunlar nümayiş etdirib tamaşaçıların şiddətli gülüşünə səbəb olardı.

Lotu Cabbar xalq arasında məşhur oyunbaz idi. Onun maharətinə hamı heyran olurdu.

Hətta çar dövründə onun yaratdığı məzhəkələr öz səsilə vallara yazılıb satılırdı.

Lotu Cabbar Bakı və başqa şəhərlərimizin toylarında çox iştirak etmişdir. Mən onunla 1937-ci ildə də görüşmüşdüm. Azərbaycan Dövlət Dram Teatrında müdir vəzifəsində çalışdığım zaman Moskvada

keçiriləcək 10 günlük üçün bizdə tamaşalar hazırlayırdıq. "Hacı Qara" komediyasının quruluşçu rejissoru respublikamızın xalq artisti Rza Təhmasib idi. Rza Təhmasib xahiş etdi ki, Heydər bəyin toy məclisində mütləq Lotu Cabbar iştirak etməlidir. Onu tapıb teatrda işləməyə dəvət etdik. Lotu Cabbar məşqlərdə çox gülməli oynnlar nümayiş etdirirdi. Bu qocaman usta hamımızı güldürürdü. Nəhayət, bir gün son məşq zamanı salonda adamların çoxluğunu görən Lotu Cabbar vəcdə gəlib sərhədi aşdı. Ağzından bir neçə beyt qəribə söz çıxdı. Rza Təhmasib vahiməyə düşdü. Dedi: "Qürxuram Moskvada daha başqa sözlər icad eliyə".

Lotu Cabbarın zəhmət haqqısını verib hörmətlə yola saldıq. Budur, indi Ərdəbildə həmin Lotu Cabbar yanımızdadır. Bizi əyləndirir, güldürür.

Qocalığına baxmayaraq yenə qıvraqdır, çevikdir. Meyxana deyir, sərçə rəqsi göstərir. Barmaqlarıyla çəhəngini ta qulaqlarının dibinə aparır. Dombalaq aşır. Bir söz, bütün oyun proqramını bizim üçün nümayiş etdirir.

Lotu Cabbar da Bakıda qalan qızı və digər qohumlarından nigaranlığını bildirdi.

Mən Ərdubildə necə yaşadığını soruşdum. O dedi ki, "Əvvəllər bir qədər çətin dolanırdım, Allaha şükür, siz gələni kalanam.

Mən ölüm, nə qədər mən sağam burdan getməyin. Yoxsa ölərəm, qalarsınız mənsiz.

Görürsünüz ki, sizin yanınıza tez-tez gəlirəm, siz mənim çörək ağacımsınız. Ərdəbilin bütün varlıları mənə həsəd aparır. Onlar sizdən yaman qorxurlar. İllər biri ayrılıqda cibimə pul basıb deyir ki, məni o şurəvilərə tapşır. İşdir, bir şey olsa, mənim vanına, malıma toxunmasınlar. Mən də həriflərə deyirəm ki, qorxmayın, sizi onlara çox möhkəm tapşırmışam, noxtaları əlimdədir. Budur, bu gün onlar mənim cibimə pul basıb yanınıza göndəriblər, mən də gərək bu pulların əvəzinə sizə kef verəm. Mən ölüm, burada həmişəlik qalın, getsəniz bataram".

Lotu Cabbarı bir daha görmədim.

Ərdəbildən Sərəyinə getdik. Bizə xəbər verdilər ki, orada almanların çadirları və qeyri-ləvazimatı qalmışdır. Biz dağlara doğru hərəkət etdik. Yolda bir çayxanada çay içmək istədik. Çayxanadan nəşə qoxusu gəlirdi. Çayxananın divarına yaşıl karandaşla çəkilmiş eybəcər şəkillər vardı. Mən o şəkilləri divardan qopardım! Çayxana sahibi dedi

ki: "Onları nahaq yerə çıxartdım. O şəkilləri bir dəli çəkir və gəlib bu divarlara yapışdırır. Ona mane olduqda çayxanada stəkan, nəlbəki qoymur. Hamısını sındırır". Sərəyinə çatdıq. Burada almanların çadırlarından əlamət görmədik. Kim isə onları bizdən əvvəl aparmışdır. Guya almanlar buradakı suların tədqiqi ilə məşğul imişlər.

Burada kiçik çaya bənzər Sərəyin suyu axırdı. Su buğlana-buğlana axırdı. Əlimizi suya vurduq. Çox isti idi. Müalicə əhəmiyyətli su idi. Çox yerdən adamlar buraya gəlib həftələrlə bu suda çimirlərmiş. Yaxın kəndə girdik. Təəccüblüdür. Bilirdik ki, Cənubi Azərbaycan kəndlərində nə hamam olur, nə də bir həkim... Bu səbəbdən kəndlilər müxtəlif xəstəliklərə tutulurlar. Kəndlilərin ehtiyacdan və natəmizlikdən rəngləri solğun olur. Bu kənddə isə adamların sifəti başqa şəkildə idi. Gözümüzə qıvraq görünürdülər. Kənddə çox gözəl su da vardı. Bu eynənNarzan suyu kimi idi.

Kənd əhalisi həm isti suda çimir, həm də bu Narzana bənzər suda.

Bu sudan bir şüşəni doldurub ağzını probka ilə möhkəm bağladıq. Sərəyindən qayıdarkən suyun qazı iki dəfə probkanı havaya atdı. Yol üstündə bir kənd yaxınlığında birdən maşınımızın qabağına bir kəndli ailəsi çıxdı.

Onlar maşının qabağında yerə sərələndilər. Maşından düşüb nə istədiklərini soruşduq.

Arvadı və uşaqlarıyla qarşımıza çıxan kəndli yalvarmağa başladı:

- Ağalar, bu balalarımıza rəhminiz gəlsin. Allah xatirinə bizim acından ölməyimizə razı olmayın. Əmniyələr qış ehtiyatımızı-taxılımızı zorla evimizdən apardılar. Siz haqq-ədalət sahibisiniz. Bizə kömək əlinizi uzadın.

Mənim dostum kəndliyə dedi ki, sizin öz hökumətiniz var. Ora şikayət eləyin. Bir də sizin daxili işlərinizə qarışmağa bizim ixtiyarımız yoxdur.

Bu dəfə uşaqlar ağlaşmağa başladı. Mən dözə bilmədim, maşını kəndə sürdük. İnsanlığımızı, sovet adamı olduğumuzu yerinə yetirməli idik. Bəli, kəndlinin qış azuqəsi ondan haqsızcasına alınmışdı.

Kəndlinin oğlu Ərdəbildə azadgahlarla çalışırmış - bu ailənin "günahı" bu imiş. Kəndlinin taxılını özünə qaytardılar. Ürəyi sakit Ərdəbilə qayıtdıq.

Ərdtibildə doğrudan da bir həyəcan vardı. Bu həyəcanı doğuran çürümüş üsuli-idarə idi. Biz həqiqətən İranın daxili işlərinə

qarışmırdıq. Ehtiyacdan, istismardan, istibdaddan cana gəlmiş adamlar artıq bu quruluşun çürüdüyünü bilirdilər. Nicat yolu axtarırdılar. Bu vəziyyati yaradanlar isə bunu sovet qoşunlarının İran torpağında olmasıyla izah etmək istəyirdilər. Özləri bunu bilirdilər. Lakin Qızıl Ordunun İran torpağında olması onlara kəndlilərə divan tutmaq üçün istədikləri məkanı vermirdi.

Biz Ərdəbildə şəhər rəisinin (ostandarın) yanında olduq. O, qoca və arıq bir adamdı. Söhbətimiz Ərdəbildəki və kəndlərdəki vəziyyət haqqında idi. O farsdı, bizimlə hərbi pallarlı bir gənc İran zabitinin vasitəsilə söhbət edirdi. Biz sovet hərbi nümayəndələrinin onların daxili işlərinə qarışmadığını, kəndlərdəki silahları öz qoşunlarının qaçarkən kəndlilərə verdiklərini, satdıqlarını söylədik. Bu həqiqəti əlbəttə, danmaq olmazdı. Əksinə, biz İran torpağında iğtişaşların baş verməməsinə çalışırdıq.

Bir dostumuz yenə özünəməxsus əda ilə üzünü ostandara (şəhər rəisinə) tutub dedi: "Cənab fərhəngdar (belə bir təbir yoxdu) məsələnin əsası budur ki, belə-belə bir şeylər" mütərcim bu cümləni tərcümə edə bilmədi. Ostandara söylədi ki, ağanın cümləsini anlamadım.

Daha sonra dostum nitqinə davam etdi.

- Ağayi fərhəngdar, biz Süleyman Rüstəmlə sabah səhər Ərdəbildən çıxıb getməliyik.

Bu sözü yarımçıq qoyub dostum birdən həyəcanla dedi:

Ostandar tərcüməçidən soruşdu ki, ağa niyə əsabanı danışır.

Tərcüməçi ostandan başa saldı.

O da cavab verdi ki, "mən ağanın havaxt hardan gəlib və havaxt hara gedəcəyilə əsla maraqlanmıram. Əsəbanı olmağa dəyməz".

Oslandarla söhbətimizdən sonra dostumdan özündən çıxmasının səbəbini soruşdum. Cavabı bu oldu: "Yaxşı qurtardıq, sirri yaman vermişdim. Axırını yaxşı ki, düzəltdim. Yoxsa sabah yolda qabağımızı kəsib səni də, məni də öldürərdilər".

Ərdəbili ətrafındakı xanlar arasında da müxtəlif hadisələr baş verirdi. Alman radio verilişlərinə qulaq asan bu xanlar Moskvanın düşmənlərimiz tərəfindən alınacağını güman edirdilər.

Xüsusən Şahsevən xanları arasında belə söhbətlər gedirdi. Bu xanların bəzisi bir-birilə yaxın qohum idilər. Ərdəbildə Korotkov yoldaşla görüşdüm. O, Ərdəbilə bu məsələlərlə əlaqədar gəlmişdi. Korotkov farsca da bilirdi. Qarayaniz zarafatçı bu adarala söhbətimiz tutdu.

O, Ərdəbildə evi olan Şahsevən Nəsrulla xanla görüşməli idi. Onun evinə birlikdə getməyimizi təklif etdi. Nəsrulla xan bizı qəbul üçün yaxşı hazırlıq görmüşdü. Məclisdə üçümüzdən başqa kimsə yoxdu. Bəzən xanın xidmətçiləri qapı arasından ehliyatla görünüb süfrəyə yeməklər verirdilər.

Nəsrulla xan da yaman zarafatcıl idi. Görünür, Korotkovla o əvvəllər də görüşübmüş. Çünki aralarında çox dərin zarafat olurdu. Korotkov ona ağır söyüşlər yağdırdıqsa Nəsrulla xan qəhqəhə çəkib gülürdü.

Burada söhbət xanların bir-birlərilə silahlı toqquşmalara yol verməmələri haqda gedirdi. Nəsrulla xanın dediyindən belə çıxırdı ki, bizi Şahsevən xanları sovetlərin qələbəsinə inanmır. Almanlara rəğbət bəsləyirlər.

Nəsrulla xan bizə iki sual da verdi.

1. Stalin haradadır?
2. Moskvanı almanlar ala biləcəkmi?

- Əsla yox.

Nəsrulla xan bir sıra sorğu-sualdan sonra bizi əmin etdi ki, "Şahsevən xanları sovet qoşunları İranda olduqları müddətdə ixüşaşa yol verməyəcəklər".

Ərdəbildən Korotkovla birlikdə çıxdıq.

Noyabrın əvvəli idi. Yollara bərk qar yagmişdı. "M-1" maşının çarxlarına zəncir bağladıq. Qarlı yoldan çox ağır keçirdik. Yolda bizdən başqa kimsə yoxdu.

Nəhayət, yarı yolda maşınımız dayandı. Ətrafda gözümüzə bir yaşayış yeri göründü. Biz yüngül payız paltarında idik. Donmayaq deyə ayaq döyürdük.

Nəhayət, yoldan bir neçə yüz addım bir yerdən nazik tüstü çıxdığını gördük. Özümüzü ora yetirdik. Bu uçuq, xaraba bir mənzildi. İçəridən arıq, qara, çox qoca bir kişi çırpılardan ocaq düzəldib üstünə köhnə bir çaydan qoymuşdu. Kim olduğunu soruşduq. Xanımanı dağılmış, işsiz, sərkərdan bir şəxs olduğunu bildirdi. Onun dediyinə görə, yaxında bir kənd var. Ondan xahiş etdik, kəndə bizim haqqımızda xəbər versin. Ona bir neçə tümən pul da verdik.

Qoca ayağa qalxıb yola düşdü. İki saat sonra əllərində bel bir dəstə kəndli harayımıza yetişdi. Onlar bizimlə əl verib, salamlaşdı. Yolun qar toplanmış xeyli sahəsini təmizlədilər. Biz onlara öz səmimi təşəkkürümüzü, hörmətimizi, məhəbbətimizi bəyan edib Təbrizə yola düşdük.

## 12-Cİ TÜFƏNG

Şərab səfərində bir hadisənin şahidi olmuşduq. Mən onu bilərəkdən sonra yazmağı qərara aldım. Əmniyə rəisiylə və əmniyələrlə birlikdə hadisə baş vermiş kənddən digər bir dağ kəndinə getməli olduq. Əmniyə rəisi deyirdi ki, sizə arxalanıb kəndlilər bizim 12 əmniyəni tərk-silah edib gülünc vəziyyətdə Sərəba qaytarıblar. Bu saat onlarda 12 tüfəng var. Bu asi kəndə divan tutmaq lazımdır.

Biz təkrar ora atlandıq. Bu kimi çıxışlara səbəb İrandakı vəziyyətdir. Kəndlilərin mülkədarlardan, dövlət məmurlarından çəkdikləri əzabların nəticəsidir.

Əmniyyə rəisi isə öz nadan fikrindən əl çəkmirdi. Birlikdə Savalan dağları ətəyinə doğru hərəkət etdik. Bahar ayı idi. Savalanın təpəsində hələ qar ərimimişdi. Atlarımızın ayaqları altından bahar çiçəklərinin qoxusu qalxırdı. Dağ yuxarı qalxdıqca təmiz havanı ciyərlərimizə çəkirdik.

Yüksəkdə bina edilmiş kəndə çatdıq. Kəndlilər çox təəccübləndilər. Əmniyyələrlə birlikdə iki hərbi sovet adamı vardı. Kəndin ağsaqqali bizi təzimlə, ehuramla qarşıladı. Uşaqlar bizi dövrəyə aldı. Kəndliləri başa saldıq ki, onlarla söhbətə gəlmişik. Bizi kəndin kənarında ikigöz otaqdan ibarət bir mənzilə apardılar.

Otağın mənzərəsi mənim diqqətimi cəlb etdi. Pəncərə şişələri sınıqdı. Onlara xamırlı kağızla yamaq vurmuşdular.

Bəli, bu bir yoxsul evi idi.

Divarlar isə başdan ayağa qəzetlərdən cırılmış şəkillərlə bəzənmişdi. Otağın bu bəzəyindən orada yaşayanların daxili aləmini bilmək olardı. Divarlarda Leninin, Stalinin, Nəriman Nərimanovun, sovet sərkərdələrinin qəzetlərdən kəsilmiş, şəkilləri yapışdırılmışdı. Otaqda bardaş qurub oturduq. Bizim üçün qoyun kəsmək istədilər. Yəqin gedəcəyimizi söykəyib buna razılıq vermədik. Bizo pürrəng çay gətirdilər. Söhbətə başladıq. Kənd ağsaqqallarına bildirdik ki, bu yaxınlarda bu kənddə 12 əmniyəni tərksilah etmisiniz. Tüfəngləri onlara qaytarmalısınız. Sovet hökuməti İranda silahlı çıxışların əleyhinədir.

Kəndlilər əvvəlcə əmniyələrdən silah almadıqlarını soylədilər. Əmniyə rəisi birdən başından böyük qələt edib təhqiramiz sözlər işlətdi. Ağsaqqallar qəzəbləndi. Əlbətlə, üç-dörd əmniyə bu kənddə

nə edə bilərdi ki. Səfərə çıxanda biz zamin olmuşduq, kəndlilər onlara toxutunayacaqlar. İndi isə kişilənməyə, xoruzlanmağa başlayıblar.

Biz kəndliləri sakitləşdirib əmniyə rəisinə bir daha ədəbsiz danışmamağı məsləhət bildik. Kəndin ən yaşlı sakini bizdən icazə alıb yan otağa keçdi. Bir neçə nəfərlə nə haqdasa söhbətdən sonra yenə yanımıza gəldi.

- Bəli, əmniyələrdən silah almışıq. Silahlar kənddədir. İndi ki şurəvilər silahları qaytarmağı məsləhət görür, nə olar ki, qaytararıq.

Ancaq bu silahları qaytarmaqla biz əliboş qalmırıq. Kəndimizə pis niyyətlə gələnləri qarşılamağa çomaqla da, baltayla da gücümüz çatar.

Qoca iki nəfərə işarə verdi ki, silahları gətirsinlər. Oturduğumuz otağa əmniyələrin qabağına bir-birinin dalınca tüfənglər töküldü. Əmniyələr tüfəngləri saydılar. Otağa ən bir tüfəng gətirilmişdi. Əmniyələr 12-ci tüfəngi tələb etdilər. Kəndlilər isə təkidlə 11 tütəng aldıqlarını irəli sürürdülər.

Bu söhbətlər əsnasında digər otağın pərdəsi arasından hərdən iki baş görünürdü. Bunlardan biri örpəklə üzünü örtmüş gənc bir qadın, digəri isə on, on iki yaşli bir qəşəng uşaq idi. Biz kəndlilərdən xahiş etdik ki, 12-ci tüfəngi də qaytarın, əmniyələr artıq əskik danışmayıb sakit olsunlar.

Ağsaqqal yenidən ayağa qalxıb yan otağa keçdi. Az keçmədən otaqdakı tüfənglərin üslüna 12-ci tüfəngi yerə tulladı. Bu dəm qapı ağzında boynunu burub dayanan uşaq fəryad qoparaq qartal ov üstünə şığıyan kimi 12-ci tüfəngin üstünə atıldı.

— Yox, bunu vermərəm, vermərəm!

Uşaq tüfəngi sinəsində sıxıb verməк istəmirdi. Kəndin ağsaqqalı və qadın uşağı güclə tüfəngdən ayırıb yan otağa apardılar. Bu tüfəng nəzərinizi cəlb etdi. Onun qundağı parçalanmışdı.

Ağsaqqal bu tüfəngin tarixini bu şəkildə danışdı. "Ağalar, əztz şurəvilər, bu kəndlərdə mülkədarların, bax bu əmniyətlərin əlindən zülm ərşə dayanmışdı. Bir adamı öldürmək onlar üçün bir milçək öldürmək kimi idi.

Qonşu kəndin mülkədarı çox zalım, qəddar adamdi. Bıçaq sümüyə dayanmışdı. Bir gün həmin kəndin yoxsulları yığışıb mülkədarın yanına dərdlərini danışmağa getdilər. Mülkədar bu söhbəti öz nökərlərinə gülləsilə, atəşilə aparmağı lazım bildi...

Kəndlilərdən ölən, yaralanan oldu. Bizim kənddən həmin qonşu kəndə köməyə gedənlər oldu. Bu uşağın atası bu Tüfənglə həmin kənddə mülkədarın quldurlarına qarşı atışmada iştirak etmişdi. Atışma zamanı bir-bir güllə gəlib tüfəngin dəstəyinə toxunaraq bu uşağın atasının ürəyindən dəyir. O can verərkən bu tüfəngi oğluna verməyi və atasının intiqamını zalimlərdən almağı arzu etdi.

O gündən bu uşaq həmin tüfəngi gələcək ədalət davasında atasının heyifini almaq üçün saxlayırdı. Nə olar... Bu tüfəng olmasın, başqa tüfəng olsun. Sağlıq olsun, bu divarda gördüyünüz şəkilləri ruznamələrdən həmin bu uşaq kəsib otağı bəzəmişdir. Uşağın adı Nərimandır". Kəndlilər və balaca Nəriman bizi kəndin kənarına qədər ötürdülər. Mən ayrılarkən Nərimanın alnından öpdüm.

Bütün yol boyu onun haqqında düşünürdüm. Yazdığım "12-ci Tüfəng" poeması bu hadisənin bəhrəsidir.

1967-ci ildə mənə ol boyda bir kağız verdilər. Bu, Cənubi Azərbaycandan idi. Yazının müəllifi radio ilə mənim "Əzizlərdən əzizlərə" şerimi dinləyib onu yazılı surətdə məndən istəyirdi. Yazının altından "N" yazılmışdı. Çox düşündüm. Nəhayət, sevincimdən nə edəcəyimi bilmirdim. Bəli, bunu mənə, 25 il sonra kənddə gördüyüm, taleyindən nigaran qaldığım Nəriman yazırdı.

Bəli, uşaq çağında gördüyüm Nəriman indi yəqin vətənpərvər, zəhmətsevər bir mübarizdir.

Səhra kəndindən Sərab yoluyla Təbrizə qayıtmalı idik. Bu səfərdə Ərdəbil səfərində olan dostum yox idi. Bu səfərdə mənimlə Şahgəldiyev Həsən vardı. Buna görə də məzəli hadisələr də baş vermirdi.

Bu yolda yenə bir hadisəylə üzləşdik. Bizi əyləndirib şikayətləndilər ki. Duz-duzan kəndində bolşeviklər var. Mülkədarları sıxışdırıblar. İndi də Duz-duzandayıq. Kənd əhalisi ilə mülkədar arasında gərgin mübarizə gedir. Mülkədar öz qohumları və nökorlərilə uca banlı malikanəsino çəkilib guya Özlərini təhlükədən qoruyurlar. Onlarla danışığa girmək istəyənlərə barının gözlərindən atəş açırlar.

Burada bir nəfər özbaşına kəndlilərə rəhbərlik etməyə başlamışdı. Heç bir təşkilatla əlaqəsi olmadan özünü bu kənddə bolşeviklərin müvəkkili adlandırırmış.

Onun hərəkətlərilə yaxından tanış olduq. Cibində bir siyahı vardı. Ətraf kəndləri dolaşıb kim bolşevik olmaq istəyirsə yazılsın deyə

adamların adını cibindəki kağıza qeyd edib onlardan üzvlük haqqi toplamışdı. Topladığı parayla guya silah alacaqmış. Lakin məlum oldu ki, o topladığı pulları öz xeyrinə istifadə etmişdi.

Bu özbaşınalıq edən adamı kəndin qabaqcıl adamları arasında itşa etdik.

Kəndlilər mülkədarlardan çox şikayətləndilər.

Bu kənddə baş verən hadisələrə son qoymaq lazım idi. Kəndlilərə dedik ki. onlar mülkədarın malikanəsindən uzaqlaşsınlar. Biz özümüz onunla danışarıq.

Həsən Şahgəldiyevlo tnülkədarın malikanəsinə yönofdik. Bizə atəş açan olmadı. Əksinə, ban üstündon çubuq başında ağ yaylıq göründü. İran torpağında nə bir xan, na bir mülkədar cürət edib sovet zabitinə, sovet əsgərinə əl qaldıra bilmirdi. Mülkədar malikanəsinə kəndli nümayəndələrini çağırtdırdıq. Mülkədarla sohbətə girdik. O kəndlilərdən çəkildiyini, kəndlilər isə ondan çəkindiklərini söyləyirdilər. Mülkədar söz verdi ki, daha kəndlilərə qarşı əl qaldırmayacaq. Yalvardı ki, kəndlilər də ona toxunmasınlar.

O özünün və övladlarının həyatı üçün çox qorxduğunu söyləyirdi.

Mülkədar qələmi alinə alıb bir kağıza bir neçə cümlə söz yazaraq bizə təqdim etdi. O bu yazıda kəndlilərə zülm etməyəcəyinə söz verirdi. Yalvardı ki, kəndlilər də belə bir kağız yazıb sizə versinlər, mən də arxayın olum.

Nə etmək olardı. Duz-duzanlılardan bir nəfər eyni rubda bir kağız yazdı ki, daba mülkədara və ailəsinə qarşı silah işlətməyəcəklər.

İki parça kağızı cibimizə qoyub Duz-duzandan Təbrizə doğru hərəkət etdik.

## ŞƏBÜSTƏR VƏ XAMNƏ SƏFƏRİ

Bizə xəbər verdilər ki, Xamnədə Azəri ədəbiyyatının fəxri Mirzə Fətəli Axundovun nəslindən Axundov adlı bir müəllim yaşayır. Biz bu xəbərdən çox sevindik. Həmin müəllimi görmək arzusu bizi Xamnə səfərinə sövq etdi.

Yunis Hacıyev, rəssam İsmayıl Axundov, Zülfəli İbrahimov və mən bir dəstə opera sənətkarımızla birlikdə yoxa çıxdıq. Şəbüstərə

çatdıq. Bu kənd Azəri poeziyasının şöhrəti, Cənubi Azərbaycan Sabiri Möcüz Şəbüstarinin vətəni idi. Şəbüstər çox məzərəli bir yerdir.

Kənd yaşıllıqlar içərisindəydi. Badam ağacları, iydələr, qovaqlar göylərə baş qaldırmışdı. Əhali bizi dövrəyə aldı. Şirin, səmimi söhbətimiz xeyli çəkdi. Kəndlilər bizi meyvəyə qonaq etdilər. Bəzi evlərdən isə qızlar kuzələrdə bizə şərbət gətirdi. Maşınımız hərəkət edərkən onlar həsrət dolu gözlərlə bizi yola saldılar.

Budur Xamnədəyik. Uşaqlıq illərini bu yerdə keçirmiş Mirzə Fətəlı haqqında düşünürük. Bizim Xamnəyə gəlişimiz bir bayrama çevrildi. Adamlar axın-axın yanımıza gəlirdi. Cümə günü idi. Biz bir məktəbin həyətinə toplaşdıq. Axundzadə familiyalı müəllimi soruşduq. Onunla görüşmək arzusunda olduğumuzu bildirdik. Boş vaxt keçirməyək deyə Xamnədəki kiçik örtülü bazara getdik.

Bazarda kitablar bizi maraqlandırırdı.

Zülfəli İbrahimov burada bir neçə qiymətli kitab aldı. Məktəb həyətinə qayıtdıq. Həyət əhali ilə dolu idi. Məktəb əlrafında damlarda al-əlvan geyinmiş qadınlar, qızlar, xırda uşaqlar vardı.

Əhali ilə söhbətə başladığımız zaman həyətə bir zabitlə bir neçə ajan daxil oldu.

Kəndlilərə "Podor süxtə", '"bişərəflər" deyə şallaq, təpik vuraraq məktəbin həyətindən qovmağa başladılar.

Bu ədəbsizlər sovet hökumətinin nümayəndələrinə, hərbi xidmətçilərinə salam belə vermədən, nə səbəbə gəldiklərini bilmədən kəndlilərə əzab verməyə başladılar. Söyüşlərin arası kəsilmirdi. Mən buna dözə bilmədim. Parabellumu ayağa çəkib zabitin üstünə cumdum. Yunis Hacıyev "Süleyman, dayan, sən nə edirsən" dalımca çığırdı.

Zabitlər və ajanlar donub qaldılar. Artıq onlar yaltaqlanmağa başladılar. Dedimki, "bizi görməyə gəlmiş bu kəndlilərin günahı nədirki, onları şallaqlayırsınız, söyürsünüz".

Zabit cavabında: - Ağayi major (mayor), biz bunları sizin xatirinizə, sizə mane olmasınlar deyə qovalayırıq. Bunlar nadandırlar, həşəratdırlar. Bizi bağışlayin. Sizin islirahətinizi pozan bu adamları buradan çıxarmaq borcumuzdur".

Onlara dedik ki, bizim məqsədimiz kəndin bu hörmətli sakinləri ilə söhbət etməkdir. Burada bizim böyük ədibimiz dahi Mirzə Fətəli Axundov yaşamışdır. Eşitdiyimizə görə burada Axundzadə adlı bir

müəllim var. Bəlkə o müəllim həmin nəsildəndir. Bu bizim üçün çox maraqlı və mühüm bir məsələdir.

Bunu aydınlaşdırmaq istəyirik. Bu söhbət əsnasında Axundzadə müəllim də gəlib çıxdı.

Zabit ona müraciətlə dedi ki: "Bu şurəvilər deyir ki, sən bunların Axundzadəsinin qohumusan. Bu doğrudurmu?"

Müəllim özünü itirdi.

Biz müəllimə dedik ki, yəqin ki, sizin böyük ədib Mirzə Fətəli Axundov haqqında az-çox məlumatınız var. O bu kənddə illər keçirmişdir. Əgər bu kənddə Axundzadə familiyalı adam varsa, şübhəsiz həmin nəsillə əlaqədar olmalıdır.

Zabit gözlərini Axundzadə müəlümin ağzına zilləmişdi. Onun cavabını gözləyirdi.

Müəllim dedi ki, əibəttə, Mirzə Fətəli haqqında məlumatım var. Lakin biz o nəsildən deyilik.

Bizi heyrət bürüdü. Zabitin hədəli baxışları altında müəllim Axundzadə öz tərcümeyi-halilə bizi tanış etmədi.

Bizimlə gələn artistlər mahnılarla çıxış etdilər. Mən bir neçə şeir oxudum.

Məktəb həyətindən və damlardan yağan alqışların sədası kənddən uzaqlara qədər yayılırdı. Axşam Təbrizə qayıtdıq. Öyrəndik ki, Təbriz qubernatoru mənim Xamnədə polis zabiti ilə olan münaqişəmdən xəbərdardır. Bu haqda bizim sovet nümayəndələrinə xəbər vermişdir.

Təbrizdə böyük canlanma vardı. Ürəkləri milli hiss, milli qürurla dolu adamlar İrandakı vəziyyələ artıq dözə bilmirdilər. Təbriz ziyalıları tribunalardan atəşin vətənpərvər nitqlər söyləyirdilər. Qəzet səhifələri bu hisslərlə doluydu. Təbrizdəki sovet konsulluğu qarşısında saysız adam olurdu. Bunların yarısı ərizə verib sovet vətəndaşı olmaq istəyirdi. Yarısı isə cəbhəyə, faşizmə müharibədə iştirak etmək üçün can atırdi. Hətta bəziləri yalvarırdı ki, bizə heç olmasa bir barmaq kağız verin ki, bizim bu barədə sizdə ərizəmiz var.

Məscidlərdən minbərə çixan rövzəxanlar ilk öncə sovet ordusunun qələbə çalması və Stalin haqqında dualar edirdilər. Hətta Aşura günü zəncir vuranlar, xəncərlə baş yaranlar Leninin, Stalinin adını çəkirdilər. Düşmənlərimizə qarğışlar yağdırırdılar. Təbriz ziyalılarından Əli Birəng, professor Fəxri Ədhəm, Hilal Nasiri, Mir Mehdi Etimad,

Məmməd Abbaslu, Əli Fitrət kimi dostlarımız həmişə bizim yanımızda olurdular. Bizi evlərə qonaq dəvət edirdilər.

Bir dəfə bir qadın qabağımı kəsib dedi ki, "Ağa, biz varlı qonşulardan çox əziyyətlər görmüşük. Bizi adam saymırdılar. İndi siz gələndən sonra dilləri qarınlarına girib. Çox xahiş edirəm. Bizə qonaq gəlin, qoy sizi bizim evdə görüb kor olsunlar. Bağırları çatlasın. Ərim dülgərdir. Söz verin ki, gələcəksiniz". Bu görüş "Dülgərin arzusu" adlı şerinin yazılmasına səbəb oldu.

Bir gün də Yunis Hacıyevlə məni evinə məşhur azadigah Əli Birəng dəvət etdi. Biz onun yanına getdik. Onun həyəti gozəl güllük, çiçəklikdi.

Bu ziyafətdə biz üçümüz idik. Başqa heç kəs yoxdu. Hərdən bir cavan süfrəyə yemək verirdi.

Əli Birəng bizim üçün çox zəngin süfrə açmışdı. Əli Birəng deyirdi ki, sizin Təbrizə gəlişinizlə bu ölkəyə ədalət, həqiqət, vicdan, namus gəlmişdir. Mən ziyalıyam. Vaxtilə Rusiyada Lenini görmüşəm. Bir az gözüaçıq adamam. Bu bədbəxt ölkədə haqsızlıq ərşə dayanmışdır. Sizdən niyə gizlədim. Mənim iki kiçik kəndim vardı. Dolanışığım o kəndlərdəndi. Sizin ordu hələ İran torpağına daxil olmamışdan qabaq kəndlərə getdim. Əhalini toplayıb kəndləri onların öz ixtiyarlarına verdim. Siz bu həqiqəti yoxlaya bilərsiniz. Kəndlilər də bu yaxşılığı unutmadılar. Hərdənbir mənə azuqə gətirib öz minnətdarlıqlarını bildirirlər.

Əli Birəng yaşlı adamdı. Sifətdən qəşəng, boydan uca idi.

O bizə İrandakı azərilərin başına gələn fəlakətləri şərh edirdi. Əli Birəng sovet adamlarına öz hörmətini, məhəbbətini bildirirdi.

Əli Birəng söhbətin axırında mənə xatirə olaraq qiymətli bir üzük bağışladı. Mən üzüyü ona qaytardım. Onu başa saldıq ki, belə hədiyyə bizim üçün yaxşı məna daşımaz. O öz səhvini başqa cür düzəltdi.

"Bəli, əlbəttə, şair üçün kitabdan gözəl hədiyyə ala bilməz" deyib mənə daş çaplı iki kitab bağışladı. Bu kitablardan biri şair Sabirin qəzəllərindən ibarət kitabdı.

Sonra o mənə Möcüzün şeirlərini verdi. Bu əlyazmaları mən Təbrizdə Qulam Məmmədəliyə yetirdim.

Bu görüşümüzdən sonra Əli Birəng yığıncaqlarda çox ağıllı çıxışlar edirdi. O bir gün Təbriz ziyalılarının iclasında təbrizlilər tərəfindən

Üzeyir Hacıbəyovun və Səməd Vurğunun Təbrizə qonaq çağırılmalarını irəli sürdü.

Əli Birənglə tez-tez görüşürdük.

Mən Bakıya gələndən sonra ondan bir məktub aldım. Ağır xəstəliyindən şikayətlənirdi.

Cənubi Azərbaycandan qayıtmağımızı vəfasızlıq adlandırırdı. Məktubun bir yerində yazırdı ki, "Sizin getməyinizlə, namus, vicdan da buradan getdi".

* * *

Təbriz ziyalılarından professor Fəxri Ədhəm də maraqlı bir şəxsiyyətdi. Bu alimin iki cilddən ibarət farsca-fransızca-azəricə lüğəti vardır.

Fəxri Ədhəm Cəlil Məmmədquluzadənin dostlarından idi. Çox mehriban bir insandı.

O bir axşam bizi evinə qonaq apardı. Yunis Hacıyev, Mirzə İbrahimov və bir neçə digər dostlarla onun evində gözəl saatlar keçirdik.

Əvvəlcədən demişdi sizə bir plov verəcəyəm ki, gərək barmaqlarınızı sumura-sumura yeyəsiniz. Doğrudan süfrəyə düyüsü bir qədər sarımtıl plov gəldi. Düyüdə bir qədər qara xala bənzər şeylər vardı. Heç birimiz bu plovun düyüdən başqa nə ilə hazırlandığını bilmədik.

Fəxri Ədhəm bu sirri açıb dedi ki, bu yalnız mənim mətbəximdə hazırlanır, buna "Paçaplov" deyərlər.

Doğrudan da bu çox ləziz bir plov idi.

Fəxri Ədhəm bizi öz kitabxanasiyla taniş etdi: Sonra bizə divardakı əksləri göstərdi.

Bu əkslərin biri Cəlil Məmmədquluzadə ilə birlikdə alınmışdı. Cəlil Məmmədquluzadə Təbrizdə olanda Fəxri Ədhəmgildə qalırmış.

Hələ Fəxri Ədhəmin zarafatlarını demirəm. O çox şirin-şirin bizə bəzi həyati hadisələri nağıl kimi çox maraqlı danışırdı. Fəxri Ədhəmin ən qiymətli hədiyyəsi başqa bir şey idi. Bu gecə onun evində Şərqin dahi müğənnisi oturmuşdu. Bu Əbülhəsən xan İqbal idi.

Bu adamla bir az əvvəl rəsmi tanış olmuşduq. Onu yalnız səhnədə oxuyanda görmüşdük. Bu Təbriz məktəblərinin birində olmuşdu. Bir gün Təbrizin qabaqcıl ziyalılarıyla birlikdə dostluq görüşü keçirməyi qərara aldıq.

Bu görüş bir məktəb binasının salonunda keçirilirdi. Dostluq nitqlərindən sonra konsert başlandı. Bizim səhnə ustalarından Bülbül, Həqiqət Rzayeva, Əliövsət Sadıqov və başqaları çıxış etdilər.

Birdən məni təəccüb götürdü. Bu necə dostluq konsertidir ki, cənublu qardaşlarımızdan kimsə onda iştirak etmir. Mən Təbriz ziyalilarına fikrimi söylədim. Onlar dedilər ki, məclisdə bir xanəndəmiz iştirak edir. Yəqin ki, ağzı orucdur, yalnız qubernator Fəhimi ona desə oxuyar. Mən qubernatora fikrimizi söylədim. O yanına gödək boylu, gözü eynəkli bir adamı çağırtdırdı. Qubernator dolğun bədənli şəxsə nə isə dedi.

Bir az sonra konserti idarə edən gənc elan etdi ki, indi Əbülhəsən xan İqbal oxuyacaqdır.

Bunu eşidən yanımdakı Bülbül birdən:

- Vay, vay, mən nə etdim. Biabır oldum, Süleyman.
- Niyə, Bülbül?
- Necə, niyə? Bunu tanımırsan?
- Xeyr.
- Bu Şərqin dahi xanəndəsi Əbülhəsən xan İqbaldır. Mən gərək "Süsən sünbül" və digər mahnılar əvəzinə bir dəstgah oxuyaydım. Nə isə keçib-keçib.

Əbülhəsən xan kamanın müşayiətilə: "Zülfünü bas yarama, qoyma məni qan aparır" bır dəsigah başladı. Bu səsdə nə məlahət varmış, nə əfsun varmış.

Salon sükut içərisində Əbülhəsən xanı dinləyirdi. Onun gözləri, dodaqları təbəssüm içərisindəydi. Biz varlığımızla, ürəkdən onu təkrar-təkrar oxutdurub alqışladıq.

Sonra öyrəndik ki, Əbülhəsən xan vaxtilə Tiflisdə də olmuşdur. Orada Seyid Şuşinski ilə görüşmüş, Seyid Şuşinski ondan çox şeylər öyrənmişdir. Bir də öyrəndik ki, Xan Şuşinskinin əvvəllərdə adı başqaymış. Gənclik illərində oxuyarkən kimsə demiş ki, lap Əbülhəsən xan kimi cəh-cəh vurursan - bundan sonra o Xan Şuşinski ləqəbini götürmüşdür.

Fəxri Ədhəmin evində həmin dahi xanəndə ila yaxından tanış olduq.

Məzəli söhbətləri vardı. Oxuduqca oxuyurdu. Bəzən deyirdi ki, bəlkə sizi yoruram, niyə demirsiniz ki, oxu, bu məclis mənimçün

kiçikdir. Təbriz kənarındakı dağın başında elə oxuyaram ki, səsim Təbrizi qəflət yuxusundan ayıldar.

Bu görüşdün sonra Əbülhəsən xanla dostluq etdik. Onu həmişə rəsmi, qeyri-rəsmi ziyafətlərimizə dəvət edirdik. O məclislərdə pul ilə oxumurdu. Bizim təntənəli yığıncaqlarımızda öz əvəzsiz səsilə hamımızı heyran edirdi. Əbülhəsən xan həmişə deyərdi ki, məclisdə, səhnədə xanəndə üz-gözü təbəssümlü olmalıdır. Xanəndə oxuyarkən dinləyənlər onun üzündə əzab əlaməti görməməlidir.

Belə bir şəxs şəhər bələdiyyəsində kiçik bir vəzifə sahibi idi. Bir dəfə məndən rica etdi ki, şurəvi ticarat nümayəndələrinə onu xüsusi tapşırım. Ona bir neçə top çit və kəllə qənd versinlər. Bəlkə bu növ ilə güzəranım yaxşılaşsın.

Onun bu ricasını yerinə yetirdilər.

Əbülhəsən xan İqbal Bakını çox görmək arzusunda idi. Deyirdi ki: "Bakıya aparsanız əvvəla şəhərlə tanış olaram. Orada müsamirələr verərəm. Bir az da sizin konservatoriyada gənc xanəndələrə təlim verərəm ki, muğamatı savadsız oxumasınlar.

İndi də Əbülhəsən xanın həmişə gülər gözləri, dodaqları gözlərimin qabağında, insanı məftun edən məlahətli, təkraredilməz səsi qulaqlarımdadır.

Təbrizdə Məhəmməd Biriyanı ilk dəfə bələdiyyədə gördük. Şəhər bələdiyyəsində qonaqlıq vardı. Biriya orada paltar asandı. Onu sonra Təbriz küçələrində kanal təmizləyənlərə baş çəkən gördük. Biriyanın ilk şeri "Vətən yolunda" qəzetində çıxdı. Sabirə bənzətməylə yazılmış satirik şeirlər tez əhali arasında yayıldı. Əgər səhv etmirəmsə Biriyanın atası dülgər idi. Bir gün evlərinə getdik. Yoxsullara məxsus mənzildə ayaqlarımızı yorğan altı kürsüyə uzadıb bozbaş yedik.

Biriya özü deyirdi ki, o, kəndlərdə rəmmallıqla, falçılıqla da məşğul olmuşdur.

Artıq Biriya tribunalarda görünürdü, təhsil ibtidai idi. Fitri istedadı vardı. Təbrizdə olarkən Biriyada bir mənfi cəhətin şahidi oldum. O, özündən başqa kimsəni bəyənməzdi, hərəyə bir qara damğa vurmağa çalışardı. İrəli gəlmiş ziyalıların bizə yaxın gəlməsinə maneçilik göstərərdi. Məsələn: "Ehliyatlı olun. Filankəs casusdur, xəfiyyədir. Sizlərdən gizli polisə xəbər aparandır və ilaxır..."

Təbrizdə yaşayan bir ziyalını (Məhəmmədlü Abbasini gözümüzdən salmağa çox səy edərdi. Məhəmmədlü Abbasi çox hazırlıqlı bir gəncdi. O, Marksın manifestini almancadan tərcümə etmişdi.

Halbuki, Biriyanın dediyi sözləri digər ziyalılar onun özü haqqında söyləyirdilər.

Bəli, Biriya məşhur şair oldu.

Cənubi Azarbaycanda Milli hökumət yaradılanda o maarif naziri vəzifəsinə qədər gəlib çıxdı. Təbrizdə qurduğu toy məclisinin söhbəti indi də danışılır. Varlı qızına evlənən Biriya deyildiyinə görə, Məhəmmədlü Abbasini qısqanclıq üstündə döydürüb gozünü şikəst etdirmişdi. Yadımdadır. Təbrizdə çəkilmiş bir neçə film-xronikaya baxmışam. Tribunada Pişəvəridən qabaqda döşünü qabağa verib bağıran Biriyanı görmüşəm. Biriya iki dəfə Bakida olmuşdur. İlk dəfə gələndə ona gözəl şərait yaratmişdılar. Bu müharibə zamanı idi. Cəbhədən hələ ki, könül açan xəbərlər gəlmirdi. Almanların Mozdok ətrafında olan vaxtda Biriya atası ilə birlikdə bir xalı hədiyyə apararaq İran konsulluğuna pənah aparıb İrana göndərilmələrini xahiş etmişdilər.

İkinci gəlişi isə Cənubi Azərbaycanda milli hərəkat müvəqqəti yatırılanda oldu. Ölüm qorxusu altında o sərhədi aşıb bizə pənah gətirmişdi.

Bu dəfə də Biriya üçün şərait yaradıldi. Lakin Biriya bu dəfə başqa bir dona girdi. Zənnimcə o şairlik yox, başqa bır vəzifə axtarırdi. Məsələn, Mərkəzi Komitə katibi, Nazirlər Soveti sədri (azı bir nazir) olmaq xəyalında idi.

Axı Biriya burada hələlik də olsa mühacir idi. Bu niyyəti baş tutmadıqda o buradan başqa xarici ölkəyə köçürülməsini tələb edirdi. Şaha və Məhəmməd Əliyilislama poemalarından küçələrdə parçalar oxuyurdu.

Nəhayət, xəstəliyi o dərəcəyə gəlib çıxdı ki, başına bir əmmamə qoyub əyninə bir göy qurşaqlı əba geyib Təzəpir məscidində fəaliyyətə başladı.

Mən bir münasibətlə Vilayigildəydim. Biriyada ora gəldi. Süfrəyə plov gətiriləndə Vilayidən arvadının hansı millətdən olduğunu soruşdu. Vilayinin həyat yoldaşının erməni qızı olduğunu bilən kimi söyüştə süfrədən qalxdı. Namaz qılmaq üçün bu binada müsəlman evi axtardı.

Dünyagörüşü dumanlı, iradəsi zəif şair Biriyanın aqibəti belə oldu.

Təbriz ziyalilarından şair Mir Mehdi Etimadı hamımız sevirdik. O çox alicənab, təvazökar, ürəyi açıq, savadlı bir şəxs idi. Onun məzəli söhbətindən zövq alardıq. Etimad bir neçə şeir kitabının müəllifi idi... Dili şirindi. Məclisdə çox nazikanə hərəkətləri vardı. Mir Mehdi Etimadın şeirləri xalq arasında geniş yayılmışdı.

Etimadın "Məsləkində öldü vardır, döndü yox" şeri dillar əzbəriydi.

Mən tez-tez onun yanına söhbətə gedərdim. Çalışdığı idarə həm notarius, həm nikah qeyd olunan bir yerdi. Ondan xahiş etmişdim ki, Firdovsi mehmanxanasındakı nömrəmə söhbətə gəlsin.

Lakin Etimad nədənsə gəlib çıxmırdı. Mehmanxanada sovet zabitləri yaşadığı üçün qapıda əli silahlı əsgər keşik çəkirdi. Alt mərtəbə isə restoran idi. Orada işləyən bircənublu qardaş bizə çox məhrəmdi. Bizi soruşan olanda gəlib bizə xəbər verərdi. Gəlişinə icazə verib, verməmdiyimizi öyrənib hərəkət edərdi.

O bir neçə dəfə mənə xəbər gətirdi ki, "Ağa, sizi bir qarayaxa görmək istəyir". Mən də qarayaxanın buraxılmasını tapşırırdım.

- Qarayaxaları başımdan rədd edin, qardaş.
- Ağa, gələn yenə həmin qarayaxadır,
- Buraxma, vəssalam, rədd elə.

O da sözümə əməl edib gələn qarayaxanı qapıdan geri qaytarırdı. Bir gün küçədə Etimada rast gəldim.

Dedim: - Vəfasız, daha bızi saymırsan, nə olub, günahımız nədir?!

Dedi: - Vicdanıma and olsun, çox gəlmişəm. Məni mehmanxana qapısından buraxmayıblar. Peşman geri qayıtmışam.

Dedim: - Yox, aşna, sən yanıma gəlməmisən. Gəlsəydin, səni dərhal buraxardılar, qapımızı bir qarayaxa tanıyıb ki, onu mənim sözümə qovublar.

- Baba, o qarayaxa mənəm də...
- Canım, sən nə danışırsan? Sən qarayaxa niyə olursan axı?
- Ağayi Süleyman, mən ki hərbi deyiləm, qarayaxayam da.

Məni bərk gülmək tutdu. Etimad da mənə qoşuldu. Sən demə, hərbi xidmət sahibi olmayanlara İranda qarayaxa deyirlər.

Zarafatı davam etdirərək Etimadı mehmanxanadakı nömrəmə apardım. Dedim, çay gətirdilər. Təzəcə söbbətə başlamışdıq ki, Etimad dedi:

- Ağayi Süleyman Rüstəm, deyiyəm, çün maye olmayım...

Etimadın bu qəliz hiyləsini doğrusu başa düşmədim. Tərəddüdlə onun sözünü cavabsız qoymaq istəmədim. Dedim - əlbəttə, Ağayi Etimad, əlbəttə.

Sözün ağzımdan çıxmasıyla Etimadın ayağa qalxması bir oldu. Asılqandan şlyapasını alib başına qoydu.

- Ağayi Etimad, hara gedirsən? Nə oldu ki?
- Mən ərz eylədim ki, maye olmayım. Siz də buyurdunuz ki, olmayım. Yəni baş-qulağınızı ağrıtmayım.
- Vallah və billah nə dediyinizi başa düşməmişəm. Sözünüzü cavabsız qoymayım deyə qanmadığım cümlənizi təsdiq etmişəm.

Məni bağışla. Olmaz ki, bir az sadə danışasan?

- Niyə, o da olay... o da olay...

Mir Mehdi Etimad Bakıda yaşamışdır.

Bakıda ikən yenə bəzi qəribə əhvalatın səbəbkarı olmuşdu. Bu gün bir neçə dost şəhər univermağına getdik. Təbrizdən gələn iki həkim bəzi ləvazimat aldı. Müdirin otağında idik. Dostlarımızın könlü istəyənləri müdirin otağına gətirirdilər.

Birdən Etimad dedi ki: "Mənə bir neçə yaxşı karavat lazımdır". Azərittifaqın sədri də yanımızda idi. Dedilər ki, kravata baxmaq üçün anbara getməliyik. Etimad dedi ki, buraya gətirsələr yaxşıdır. Azərittfaqın sədri ona belə cavab verdi: canım biz bu boyda kravatları bu kiçik otağa necə gətirək axı. Düşək podvala, orda bax, seç".

Etimadı heyrət bürüdü. Əlini boynundakı qalstuka atıb dedi: "Baba, bir barmaq qaravata baxmaq üçün anbara niyə enək. Bu nəmənədir ki, otağa da yerləşməsin".

Univermaqdakı yoldaşlar sonra başa düşdülər ki, Etimad qalstuk istəyirmiş. Fransızca "kravat" qalstuk deməkdi. Hələ mən Etimadın müharibənin gərgin çağında əlinə zənbil alıb bazarda ləbləbi, kişmiş, sədri düyüsü, quzu əti, toyuq, cücə axtarmasını bir kənara buraxıram. Bir dəfə işdən evə qayıtdım. Gördüm ki, Etimad mənim iş otağımda oturub, şəkərçörəyi ilə kakao içir. Zarafata salıb dedim ki: "Ağayi Etimad, sən nə haqla mən evdə olmayanda bizə gəlmisən?" Etimad gülümsəyərək dedi: "Öz qardaşımın, öz həmşiyəmin yanına gəlmişəm de".

Bəli, Etimadın dərdi açıldı.

Sözə başladı: "Ağayi Süleyman, getmişdim sizin sekaya (Mərkəzi Komitəyə) Şahgəldiyevi görəm. Polis məni qapıdan buraxmadı.

- Ağayi Etimad, bizdə polis yox, milis var.
- Qoy milis olsun. Dərdim böyükdür, namusum məni qoyub getdi İrana. Qalmışam tək, tənha. Olmur da deyirəm, sən bu başıma Şahgəldiyev yoldaşla bir çarə tapın. Məni evləndirin. Bu işə Seka qarışsa lap yaxşı olar. Deyirəm, mənimçin heç təfavütü yoxdur. Gürcü qızı olur-olsun, rus qızı olur-olsun, yəhudi qızı olur-olsun: qərəz bir qulaq yoldaşim olsun.

Mən Etimadın ciddi irəli sürdüyü məsələni zarafatla tamamladım.

Ona söz verdik ki, göz-qulaqda olub ona bir övrət taparıq. Etimadın xasiyyətindəki bu şirin cəhətlər bir yana. Biz ona bir şair kimi, vətənpərvər kimi, millətini bütün varlığıyla sevən bir insan kimi hörmət və məhəbbət bəsləyirdik.

## TƏBRİZ ZİNDANINDA

Təbrizdə təbrizlilərdən, digər əyalətlərin sakinlərindən məktublar alırdıq.

Məktub müəllifləri təkidlə yazırdılar ki, sovet hökumətinə hüsn-rəğbət bəsləyənlər, sovet ordusu sərhədi keçəndə qabağa düşüb yol göstərənlər hələ də Təbriz zindanında çürüməkdədirlər.

Mən və Mirzə bu haqda digər yoidaşlarla söhbət etdik... Yoldaşlarımız bu işə qarışmaqdan boyun qaçırdılar. Onların fikrincə, bu, İranın daxili işlərinə qarışmaq demək idi. Lakin birtəhər özümüz yazıçı kimi hərəkət etməyə razılıq aldıq. Yox, biz buna dözə bilməzdik. Sovet dövlətimizin, sovet ordumuzun şərəfini qorumalı idik. Mirzə ilə birlikdə qubernator Fəhiminin yanına getdik. Nə üçün gəldiyimizi ona bildirdik. O ciddi etiraz etdi:

- Bu bizim daxili işlərimizə qarışmaqdır. Bizim orqanlarımız zindanlarda yalnız caniləri, dələduzları, oğruları saxlayır. Sizə yalan məlumat vermişlər.

Biz ona bir neçə siyahı göstərdik. Bu siyahıdakı adamlar Mərənddən, Əhərdən, Sərabdan, Culfadan. Qaradağdan idi. Məktublarda bu adamların nahaqdan zindanda saxlanıldıqlarını yazırdılar. Biz quber-

natora dedik ki: "Biz bir yazıçı və jurnalist kimi bu məsələ ilə maraqlanırıq. Məktublar yalan məlumat verirsə, daha yaxşı, gəlin sizin adamlarla birlikdə bu işi yoxlayaq. Sizinçin də, bizimçün də arxayınlıq olsun".

Qubernatorun yolunu hər tərəfdən bağladıq. Əlacsız birlikdə yoxlamağa razılıq verdi. Bizim üçün kabinetinə çay və meyvə gətirtdi. Bir neçə yerə zəng vurub farsca nə barədə isə tapşırıq verdi.

Bizdən cəbhə vəziyyəti haqqında məlumat istədi. Özü isə ordan-burdan bəzi gülməli əhvalat danışdı.

Bizi iki saata qədər öz kabinetində əyləndirdi. Biz bunu çox yaxşı başa düşürdük. Zindanda nə isə bir iş gedirdi. Nəhayət, iki zabit və bir qarayaxa gəlib bizimlə birlikdə zindana getməyə hazır olduqlarını bildirdilər.

Təbriz zindanına getdik: bir-bir kameraları gəzirik. Yeri rütubətli torpaq olan kameralar dustaqlarla doluydu.

Dərhal hiss etdik ki, qubernator bizi iki saat kabinetində bilərəkdən saxlamışdır. Sərəncam verib zindanda bir az təmizlik apartdırmışdır. Buradakı insanlardan hər birinin öz macərası, öz aləmi vardı. Biz siyahımıza baxırıq. Dustaqları dindiririk. Oğrular, canilərlə məşğul oluruq.

Mülkədarlardan işgəncələr çəkmiş və nahaqdan zindana atılanların, sovet ordusuna məhəbbət bəsləyib cəza alanların taleyi bizi düşündürürdü. Biz hər kameraya girəndə bu səslər ucalırdı:

- Yaşasın şurəvilər! Zindəbad Stalin!

Bizə yazılanlar həqiqət imiş.

Dustaqları dindirdikdə vəziyyət aydınlaşırdı. Dustaqların bəzisi çirk köynəyini qaldırıb vurulmuş şallaq yerini bizə göstərirdilər. Hələ mülkədarların, ajanların, əmniyələrin, bunların başlarına gətirdikləri azmış kimi, zindanda da cəza alırlar.

Gödəkboylu biri irəli gəlib bizi salamladı. Öz başına və yaşadığı mahaldakı yoxsulların başına gətirilən müsibətlərdən danışdı. Hamı bir ağızdan dedi ki: Bu Əli bolşevikdir, qəribədir. Necə yeni, Əli bolşevik.

Doğru danışdığıma görə qorxmayıb sözümü qansoranların üzünə dediyimə görə, kənd camaatı bu adı veribdir. Adım Əlidir.

Biz bu adamların adını, familiyasını, harada yaşadığını qeydə alırdıq.

Zindanda bütün kameralar həyəcan içindəydi. Hətta bizimlə gedən məmurlara söyüşlər yağdırırdılar. Az qalırdı üstlərinə hücum etsinlər. Hər yeri bir uğultu bürümüşdü.

Bir kamerada isə tənha bir qadın bir küncə qısılmışdı. Rəngi solğun, bədəncə çox zəifdi. Dərdini soruşduq. Ehtiyac üzündən doğduğu körpəni boğub çaya atmışdır.

Bu qaranlıq kameralarda gözəl insanlar yatırdı. Zindandan qayıdandan sonra biz sovet hökuməti nümayəndələrini vəziyyətlə tanış etdik. Qubernatora etiraz göndərdik.

Sovet hökumətinə məhəbbət bəsləmək və sovet qoşunlarına bələdçilik üstündə tutulmuşların hamısı zindandan azad edildi.

Mənim "Zindan" və "Zindanda işıq" şerim bu hadisələrdən doğmuşdur.

* * *

Təbrizdə mənim çox dostlarım var idi. Onlardan biri də Hilal Nasiri idi. Mən onun dəftər, kitab mağazasındakı kitabları araşdırıb mütaliə üçün götürürdüm. Bəzən insanlığa düşmən yazanların kitabına da təsadüf edirdim. Hilal Nasiri həmin kitabları xahişsiz, filansız cırıb yandırırdı.

Hilal Nasirini biz "Köşkü balaban" deyə çağırardıq. O "Köşkü balaban Araza baxar-Arazın suyu gözlərdən axar" adlı bir dastan yazmışdı.

Tribunalardan həmin şeri tez-tez oxuyardı. Hətta bir axşam konsert zamanı Hilal Nasirinin təşəbbüsüylə səhnədə "Köşkü balaban" ifa olundu. On iki adam bir-birinin qurşağından tutmuş, onların çiynində isə yenə o qədər adam dayanmışdir. Aşağıdakılar "Köşkü balaban Araza baxar", mahnısını oxuyaraq yallı gedir. Üstdəkilər isə əllərini gözlərinin üstünə qoyub Arazın o tayına baxır və oxuyurlar.

Hilal Nasiri "Köşkü balaban" şerilə, rəqsilə həmişə yadımıza düşür.

Dostumuz İsmayıl Şəmsi də həmişə məhəbbətlə yad edirik. Bu mədəni, təvazökar, bir az utancaq və səmimi dostumuz "Azərbaycan" qəzetinin məsul katibi idi. Demək olar ki, qəzetin əsas işini o görürdü. Bu qəzetin səhifələrində sovet dövlətinə, sovet ordusuna məhəbbət dolu məqalələr çap olunurdu.

İsmayıl Şəms az danışıb, çox iş görən bir gəncdi. İsmayıl Şəms məni Təbrizlə və Təbrizin ətrafındakı yaşayış məskənləri ilə tanış etməkdə çox səy göstərirdi. Onun aydın baxışları, gülər üzü indi də gözlərimin qabağındadir.

***

Təbrizdə olduğum müddətdə çox maraqlı şəhərlərdo olub, maraqlı insanlarla da görüşmüşəm. Bəzilərilə doslluq da etmişəm. Mərənd səfəri də məndə unudulmaz xatirələr yaratmişdır. Bu şəhərdə mərəndlilər bizi böyük məhəbbətlə qarşıladılar. Bizə çiçəklər, güllər verdilər. Bizi dədə-baba qaydasiyla duz-çörəklə qarşıladılar: bağlardan dərilmiş gözəl meyvələr, mərəndi üzümü süfrəmizə dalbadal gətirdi. Bizi dinləmək üçün bütün mərəndlilər meydançaya toplaşmışdı.

Sovet Azərbaycanındakı həyatla, cəbhədəki vəziyyətlə tanış olmaq istəyirdilər. Həqiqəti bizim dilimizdən eşitmək arzusuyla çırpınırdılar. Meydan, ətraf evlərin damları, ağacların təpələri adamlarla doluydu.

Alqış səsləri bütün ətrafa yayılırdı. Mən onlara bir neçə şeir oxudum. Mərəndlilərdən bir gənc xanəndə "Mərənddən aşdım Xoya qoymadılar, paltarım yoxdur, toya qoymadılar" mahnısını oxudu.

Azərfilm bu görüşü çəkmişdir. Saxlanırsa çox yaxşı. Biz geri Təbrizə qayıdarkən mərəndlilər yolumuza çiçəklər səpdilər, arxamızca gülabdanlardan su atdılar.

Cənubi Azərbaycan şairi Mir Mehdi Etimad bizimləydi. O, mərəndli idi.

* * *

Heç yadımdan çıxmaz. Oktyabr inqilabının ildönümü münasibətilə Təbriz klubunda təntənəli yığıncaq keçirilirdi.

Bu görüşə təbrizlilər axın-axın gəlmişdilər. Salonda yer yoxdu. Bir çoxları ayaq üstə dayanmışdı.

Təbrizlilər bu görüşə böyük əhəmiyyət verirdilər. Onlar burada Sovet İttifaqındakı həyatla qiyabi də olsa tanış olurdular.

Əziz Əiiyev giriş sözüylə iclası açdı. Salondakı cənublu qardaşlarımıza salamlar yetirdi. Sonra Həsən Şahgəldiyev Oktyabr inqilabının fütuhatı barədə məruzə eldi.

Təbriz şairləri, xanəndələri buradaydı. Əbülhəsən xan İqbal konsertdə iştirak üçün gəlmişdi.

İclasin rəsmi hissəsini qapamaq istəyəndə salonda gurultu başladı. Salondakılar əl çalaraq, ayaq döyərək "Ağayi Süleyman Rüstəm" deyirdilər.

Prezidiumda oturan İsrafil Cahangirov salona gəlib mənə dedi ki: "Hərbi sovet üzvü Əziz Əliyev yoldaş sizi təcili səhnəyə çağırır". Dedim ki, "lazım olsaydım əvvəldən çağırardılar". Salondakılar təkrar əl çalaraq, ayaq döyərək "Ağayi Süleyman Rüstəm, Ağayi Süleyman Rüstəm" deyə səslənirdilər.

Mən qalxıb birbaşa salondan tribunaya çıxdım. Təbrizli qardaşlarımızın azəri ədəbiyyatına olan məhəbbəti məni vəcdə gətirdi. Təbrizdə yazdığım şeirlərdən, cəbhə şeirlərindən doyunca onlara oxudum.

Bu məhəbbət məni təzə-təzə gözəl şeirlər yazmağa ilhamlandırdı.

Təbrizdə qəzetlərdə çap etdirdiyim şeirlər haqqında Tehranda təhsil alan azəri tələbələri məktublar göndərirdilər. "Vətən yolunda" qəzetimizə təzə şeirlərim haqqında fikirlər yazırdılar.

Bəzi məktub müəllifləri Süleyman Hikmətin kim olduğunu bilmək istəyirdi. Yazırdılar ki, bizim dərdlərimizi, arzularımızı özümüz qədər bilən bu adam kimdir? Bizi onunla görüşdürün.

Bu məktubların bəzisi "Vətən yolunda" qəzetimizdə dərc edilmişdir.

Bir axşam Mirzə ilə Təbriz küçələrinin birindən keçirdik. Qəzet-satan uşaqlar "Ruznameyi Şahin, əşari Süleyman Rüstəm" deyə bağırıb əllərindəki qəzeti yoldan keçənlərin qabağında yellədirdilər.

Biz təəccübləndik. Mirzə dedi ki. "Təbrizlilər yaman zarafatcıl olurlar. Yəqin bizi tanıyıblar ki, belə edirlər".

Mirzə pul verib qəzet aldı. Doğrudan da "Şahin" qəzetinin birinci səhifəsində başda mənim kiçik bir şerimi dərc etmişdilər. Redaksiya bu növ ilə qəzetini satdırmaq istəyirmiş.

Təbrizdə çıxan qəzetlər arasında yaman rəqabət vardı. Bəzi qəzetlər alıcısız qalanda daha nəşr olunmurdu.

Hələ canubda yaşayan yazıçı və şairlərin vəziyyətinə bir nəzər salaq. Şair mətbəə sahibi ilə danışib qiymət kəsirlər. Əsər müəllifin kefi istədiyi tirajla çap olunur. Şair kitabını mətbəədən götürüb düşür bazarın canına. Dükançılarla sövdələşəndən sonra kitablarını satmaq

üçün onlara təhvil verir. Əlbəttə, belə şəraitdə ancaq yazıçılıqla yaşamaq çox müşküldür.

Halbuki İranda 10 milyondan çox azəri yaşayır. Burada dövlət nəşriyyatı isə yoxdur.

Yeri gəlmişkən, Təbrizdə bir fars yazıçısına təsadüf etdim. O mənə kitabını bağışladı.

Kitabın cildində rəngli, yarımçılpaq bir qadın şəkli vardı. Ondan soruşdum ki, kitabda bu qadınınmı haqqında söhbət gedir. Dedi: xeyr ağa, kitabda başqa həyatdan bəhs edilir. Bu şəkil kitabın satılması üçündür.

Bu yazıçı mənə çox qəribə bir təklif də etdi. Deyirdi ki, şair gərək həmişə cananlar arasında vaxt keçirsin.

Məni şəhərkənarı bir bağa çağırırdı. Guya orda çəmənlikdə iki gözəl qadınla oturmalıydıq.

Mən hərbi şair olduğumu bəhanə edib bu dəvətdən boyun qaçırdım.

Bir gün yanıma yaşlı bir qadın gəlmişdi. Bu qadın deyirdi ki, "Kürdüstan valisinin xanımı Kürdüstanda olan ərindən çox nigarandır. Onun xanımı bu haqda şəxsən mənimlə görüşüb söhbət etmək arzusundadır.

Oraya getsəm könlüm açılacaqdır. Orada kişi tayfasından bir kimsə olmayacaqdır. Valinin xanımı, bir çalan və bir do oxuyan iki xanım olacaqdır".

Bu qəribə dəvəti də rədd etdim.

Əlbəttə, bu validən nigarançılıq məsələsi deyildi. Validən dürüst xəbər tutmaq üçün bir çox başqa vasitələr vardı. Mən sovet vətəndaşı olduğumu, bu adı heç bir vəchlə ləkələməməyi nəzərə alıb bu əcaib təklifdən yaxamı qurtardım.

Təbrizlilərin hörmət va məhəbbəti hədsizdi.

Evlərdə bizə çox ləziz, rəngarəng yeməklər hazırlayırdılar.

Restoranlarda yeməklər yaxşı idi. Zənnimcə. Cənubi Azərbaycan yeməkləri, Cənubi Azərbaycan mətbəxi dünyada birincidir.

Restoranların, evlərin qarşısından keçəndə xörəklərin ətri adama iştaha gətirir. Yadımdadır. Tehranda Şah sarayında banket olanda Tehrandan Təbrizə təyyarə gələrdi, Təbriz aşpazlarını Tehrana xörək bişirmək üçün aparardılar. "Xurşid" restoranında qəribə qayda var.

Müştəri içəri girir. Bir miz arxasinda oturur. İki dəqiqə ərzində xidmətçi süfrəyə göyərti, çörək, qatıq, dolma və əlli qram araq gətirir. Deyirsən ki, "Ağa, mən bunu istəməmişəm". Cavab alırsan ki, "Ağa, bu bizim restoranın sizə məccani xidmətidir. Sonra kefiniz nə istərsə buyurarsınız".

Restoran bu yol ilə özünə müştəri toplayırdı.

Burada pivəni duzda qovrulmuş püstə və ya badamla içirlər.

Tübrizdə cızbızxanada çox adam olur.

Bir kababxana da vardı ki, orada ağciyərdən, qaraciyərdən, böyrəkdən, ürəkdən və ağ ətdən dadlı kabab hazırlayırdılar.

Təbrizli dostlar bizi tez-tez bu yerlərə aparırdılar. Bir gün mən onları qonaq etməli idim. Birdən gördüm ki, yanımda pulum bir qədər azdır. "Vətən yolunda" qəzeti redaksiyasına getdim. Vaxt gec idi. Bizim maliyyə işlərinə baxan İsrafil Cahangirovanı tapdım. Ona məsələni anlatdım. O dedi ki, əlimdə bir şey olmalıdır ki, mən də sənə pul verə bilim.

Təzə şerin varsa ver, sənə avans verim, təzə, hazır şerim yox idi.

Oturub on dəqiqənin içərisində "Araz qırağında" adlı qəzəli yazıb ondan lazımi qədər para ala bildim.

Qəzəl belə başlayırdı:

"Həmişə nalə olur aşiqin dodağında
Sevimli, qəmzəli bir dilbərin fərağında".

***

Cənubi Azərbaycanda ayılmanın, milli qürurun, vətənpərvərliyin təzahürünün qarşısına sədd çəkmək istəyən şovinistlər yox deyildi. İranın mədəniyyətinə dünya şöhrəti qazanmiş şair, alim oğullarına bizim böyük məhəbbətimiz vardır.

Nədənsə azərilərin öz milli mədəniyyətinin ədəbiyyatının inkişafı yolunda atdığı addımlar Tehranda və Təbrizdə oturan bir para ağaların xoşuna gəlmirdi.

"Vətən yolunda" qəzetinə mənim adıma tək-tük qəribə imzasız məktublar gəlirdi. Bir məktub müəllifi yazırdı ki, azəri dilində şeir yazmaq olmaz.

Bu "Türkə xər" dildir. Şeir yalnız və yalnız fars dilində yaranar.

Görünür. bu nadan dünya mədəniyyətindən, ədəbiyyatdan xəbərsizdi. Cahildi... Təhqiramiz məktuba mən bu şeirlə cavab verdim.

Mən sənin dilinə dəymirəm, sən də,
Gəl mənim bu ana dilimə dəymə.
Sənin də bağın var, gülün var, çəkin,
Bağımda əkdiyim gülümə dəymə!

Həsədlərlə baxdın çəmənimə sən,
Gör bir nələr etdin vətənimə sən –
Yan deyib, od vurdun bədənimə sən,
Altında atəş var, külümə dəymə!

Mən ağa ağ dedim, qaraya qara.
Sən məni istədin çəkəsən dara.
Təzəcə sağalır vurduğun yara,
Mənim bu yaralı könlümə dəymə!

Bu şeir bütün Təbrizə yayıldı. Dostlarımız aldığım məktubun azəri xalqının düşmənləri tərəfindən yazıldığını bildirib mənə təsəlli verirdilər. Nə isə, bir imzasiz məktub da gəldi. Ona da bu misralarla başlayan şeirlə cavab olaraq yazdim.

Kim nə deyir desin, kim gülür gülsün,
Mən də öz yerində gülən şairəm.
Ağzın süd qoxuyur, körpəsən hələ
Mən xalqın dilini bilən şairəm!
Vətənim öl desə, ölən şairəm.

Bu şeirdən sonra imzasız məktubların arası kəsildi.

Bu şeri, xüsusilə "Dilimə dəymə" şerimi Cənubi Azərbaycanda gənclər, məktəblilər əzbərləyib səhnədə oxuyurdular.

Cənubi Azərbaycanda azadlıq hərəkati müvəqqəti yatırılan zaman çox oğullar qurban getdi. Hətta Tehrandan Təbrizə varid olan qoşun qabağında azəri balalarını qurban deyə boğazdan kəsmişdilər. Təbrizdən qayıdan Cəbrayılov yoldaşın dediyinə görə, hər yerdə mənim "Dilimə dəymə" şerimi oxuyan gənci söyə-söyə, döyə-döyə öldürüblər.

"Dilimə dəymə", "Vətən yandı", "Təbrizim" və qeyri şeirlərimə nəzirələr yazan, mənə şeir ithaf edən gənc şairlər də vardı. Mən

Cənubi Azərbaycanda bir ildən artıq oldum. Bu müddətdə kişilərə qardaş, yaşlı qadınlara ana, qızlara baci gözüylə baxdım.

Cənubi Azərbaycanda olduğum müddətdə kimsənin rütbəsinə, şöhrətinə qarşı özümdə qısqanclıq əlaməti duymadım. Vaxtımı həmişə xalq arasında keçirməyə çalışdım.

Orada məndən başqa da azəri sovet yazıçı və şairləri vardi. Osman Sarıvəllinin də bir sıra gözəl, tutarlı, hədəfə dəyən şeirləri cənublular tərəfindən sevilə-sevilə oxunurdu. Orada ziyalılarımızdan bir nəfər də vardı. Mən onu içərisində görmürdüm.

O mənzilində yağlı yeməklər yeməklə və şair qardaşını ağızdolusu təriflə və başqa şairlərlə müqayisə edərək üstün tutmaqla məşğuldu.

Şeirlərimə görə qazandığını az-çox hörmətə qarşı onda böyük qısqanclıq hisslərinin coşduğunu görürdüm. Məni istər bizim konsulluqda və istərsə Təbriz rəsmi orqanları tərəfindən verilən ziyafətlərə tez-tez dəvət edərdilər.

Bu ziyalı dostumuz bunu özünə dərd edərdi. Əziz Əliyevi və başqa yoldaşları bu münasibətlə məzəmmət edərdi. Nəhayət, bir axşam bizim yoldaşlar qubernatorun verdiyi ziyafətə onu da apardılar. Banketdə Avropa qaydasıyla hamı ayaq üstə yemək yeyirdi.

Bizim dostumuz məclisə ləkəli, yağlı paltarla gəlmişdi. Məclisə plov gələndə özündən uzaqda olan bir yoldaşı bağıraraq yanına çağırdı. Plova qaşıqla yox, pəncəylə hücum etdi. Bunu görən Əziz Əliyev mənə dedi ki, "Süleyman, biabır olarıq, get o yoldaşlara de ki, xəlvəti məclisdən çıxıb getsiniər".

Mən bunu edə bilməyəcəyimi bildirdim.

Bu axşamkı banketdən birtəhər üzüsulu evə qayıtdıq. Əziz Əliyev yoldaş həmin dostumuzu xeyli məzəmmət etdi. Daha bundan sonra təşkil olunan qonaqlıqlara onu aparmadılar.

Həmin dostumuz isə bunun günahını özündə yox, məndə görürdü. Onun fikrincə, biz hamımız gərək bütün rəsmi məclislərdə, banketlərdə, yığıncaqlarda bir sözlə, hər yerdə onun qardaşından danışmalı idik. Halbuki qardaşının buna heç ehtiyacı yox idi.

Arada mən Bakıda olduğum zaman öyrəndim ki, həmin dostumuz şair qardaşina məktub yazıb məndən şikayətlənmiş.

Mən hər yerdə, hər zaman bir sovet adamı olduğumu nəzərə almışam. Həmişə vətən və xalq işində bacardığım qədər çalışmağa can atmışam.

Bunu qələm dostlarım yaxşı bilirlər.

Müharibənin ən gərgin çağları idi. Bakıya qayıtdım. Bakıdan isə cəbhəyə, milli diviziyalara əsgərlər arasında çalışmağa getməli idik.

Təbriz, təbrizlilər gözlərimin qabağından getmirdi. Xüsusilə biz Təbrizə ilk dəfə gələndə bir konsertdə bir az yoxsul geyinmiş beş-altı qız səhnədə xalça üstdə oturub mahnı oxuyurdu. Bu mahnının bir bəndi indi də yadımdadır.

Gülüstan bağının qapısı dəmir,
Əlini ver əlimə, şurəvi gəlir.

## HƏKİMLƏR CASUS TUTUB

Bəli, biz xaricdə idik. Müharibənin gərgin zamanı hər cür xeyrimizə olmayan hadisələrdən qorunmağı bacarmalı idik. Hər birimiz sayıqlığı nəzərdən qaçırmamalıydıq.

Çünki düşmən çox hiyləgərdi. Hər yerdə onun adamları ola bilərdi.

Təbrizdə bir qrup azəri həkimi vardı.

Bu həkimlər əhaliyə böyük yardım göstərirdi. Hətta Təbrizdən başqa digər mahallara gedib yerində cənublu qardaşlarımıza, bacılarımıza tibbi kömək əllərini uzadırdılar.

Təbrizin özündə bir sovet xəstəxanası da açılmışdı. Bu xəstəxanada təmənnasız xəstələri müalicə edirdilər. Ümumiyyətlə, İranda xəstələrin vəziyyəti çox fəna idi. Apteklərdə dərman çox baha qiymətə satılırdı. Yoxsulların dərman almağa qüvvəsi çatmırdı. Mustafa Quliyev və Qədimov kimi həkimlərimizin şöhrəti bər yerdə yayılmışdı.

Həkimlərimiz həmişə xalq arasında olurdu.

Onların yaşayış yeri Gülüstan bağındakı bina idi. Gülüstan bağını başı göyə ucalmış ağaclar bəzəyirdi. Bağda böyük bir hovuz vardı. Hovuzda çoxlu qəşəng balıq üzürdü. Qışda hovuzun suyu qalın buz bağlayırdı. Balıqlar hovuzun dibinə çəkilirdi. Cülüstan bağında Rza şah Pəhləvinin heykəlini təbrizlilər çoxdan uçurmuşdu.

Qış günlərindən biri idi. Mehmanxanada bizə xəbər çatdı ki, Gülüstan bağında yaşayan həkimlərimiz bir xarici casus tutublar. Mən

tez özümü oraya çatdırdım. Casusu görmək istədim. Bir otaqda gənc bir adam vardı. O çox səliqəylə geyinmişdi.

Bizim həkimlər azəricə və rusca deyirdilər ki, suallarımıza cavab vermir. Rus deyil, bəlkə də dilimizi bilir və bilərəkdən cavab vermir.

- Deyirik bunu bağdakı buz bağlamış hovuza ataq. Onda əqli başına gələr suallarımıza cavab verər.

Bu kimi sözləri dinləyən adam birdən mənə rusca dedi ki: - Yoldaş mayor, qoy bu adamlar bayıra çıxsın. Sizə sözüm var.

Mən həkimlərdən xahiş etdim. Onlar otağı tərk etdilər.

Bu adam dedi ki: "Xahiş edirəm. Bizi daha yüksək rütbəli yoldaşlara çatdırın. Məni burada saxlamasınlar. Mənim vacib işim var. Mən kəşfiyyatçıyam. Sovet adamıyam. Bir neçə dil bilirəm. Buraya mühüm tapşırıqla gəlmişəm. Axşam bir adamla görüşüm olmalıdır. Bu görüşdən çox şey asılıdır. Düşmən kəşfiyyatçıları burada əl-qol açmamalıdırlar. Mənə inanmırlarsa, sizin rütbəli yoldaşlara harda görüşə gedəcəyimi deyə bilərəm. Qoy onlar məni nəzarət altında həmin yerə çatdırsınlar".

Mən bu adamın xahişini yoldaşlara yetirdim. Nəticəsilə maraqlanmadım.

Lakin həkimlər tutduqları casusun əsl casus olmadığını bildikdə yaman pərt oldular.

Təbrizdə İngiltərənin, Türkiyənin də konsulluğu vardı.

İngilis konsulluğunun katibi eni-uzunu bir yaşlı adamdı. Bu adam həmişə sovet adamlarına hədiyyələrlə yaxınlaşmaq istəyirdi.

Xüsusilə Bakıdan gəlmiş opera teatrının balet qızlarına hədiyyələr təklif edirdi.

Lakin bizim qızlar bu hədiyyələrə yaxın gəlmirdi. Təbrizə gələn ingilis zabitləri də qəhvəxanalarda, restoranlarda, hətta tamaşa salonlarında çox kobud hərəkətlər nümayiş etdirirdilər. Bu hərəkətlərin şahidi olan təbrizlilər sovet ordu nəfərlərinə böyük hörmət və məhəbbət bəsləyirdilər.

Küçələrdə, ictimai yerlərdə onlara yaxınlaşıb səmimi söhbətə girişirdilər.

Müharibə illərində İran torpağında olmuş sovet adamları sovet vətənimizə alınaçıq, üzüağ qayıtdılar.

# 7 NOYABR

Oktyabr inqilabının ildönümü günü 7 noyabrdı. İran torpağında olan sovet adamları bu günü böyük iftixar hissiylə, faşizm üzərində qəti qələbəyə inamla qarşılayırdı. Mən mehmanxanadaydım. Birdən Təbrizin baş küçəsindən uğultular, gurultular qopdu. Balkona çıxdım. Atları addım-addim, ağır-ağır gedən bir fayton nəzərimə çarpdı. Faytonun dalınca yüzlərlə adam "urra" deyə bağırırdı. Faytondan əhalinin üzərinə vərəqlər göyərçinsayağı uçurdu.

Bu nə işdir, nə olmuşdur? Mənə elə gəldi ki, təbrizlilər 7 noyabr gününü qarşılayır. Faytonun içindəki adam mənə çox tanış gəldi. Bəli, bu "Şahin" qəzetinin sahibi Ağazadə idi.

Bu şəxs yel hayana əsdi, o yana əsən adamdı. O həmişə deyirdi: "Baba, bu yaşda mənim dağa-daşa düşüb inqilabçılıq eləməyə iqtidarım yoxdur. Nə bilim... Siz burda qalacaqsınız, yoxsa gedəcəksiniz. Əgər qəti burada qalacaqsınızsa mən kəfən taxıb sizdən də betər inqilabçılığa razıram. Yox, gedəcəksinizsə, mənlə işiniz olmasın... Bu qorxaq, liberal bir adamdi, biz bir növ ilə onunla dil tapıb qəzetində ziyanlı materialiarın çıxmamasına çalışırdıq.

İndi budur, Ağazadənin dalınca baş küçədən insan seli axır. Mən dərhal mehmanxanada yaşayan yuxarı rütbəli yoldaşları bu işdən xəbərdar etmək istədim.

Təəssüf ki, onlardan heç birini tapa bilmədim. Yoldaşların hamısı şəhərdən bir az kənarda hərbi hissədə 7 noyabr təntənəsini keçirməyə getmişdilər.

Mehmanxanada bir yoldaş tapdım (bu adam hazırda Azərbaycan Dövlət Universitetindədir). Maşına minib Gülüstan bağına gəldik. Vərəqələrdən birini alıb oxuduq. Farsca yaxşı bilmədiyimizə baxmayaraq vərəqədəki mətləbi başa düşdük. Vərəqədə deyilirdi ki, "Şirindilli şirazlılar sizə peyam göndərir. Onların səsinə səs verməliyik və ilaxır..."

Bu vərəqəni Ağazadə özü tərtib etmişdi. Gülüstan bağının qabağında faytonun sürücüsü oturan yerinə qalxıb əsasını hərlədərək Ağazadə nitq söyləyirdi. Əlbəttə, bu nitqin Oktyabr inqilabının ildönümünə heç dəxli yoxdu. Nitq Təbrizdəki hökumətin başçılarının ünvanına söyüşdən ibarətdi.

Əhali isə "urra" deyib Gülüstan bağına axışdı. Ağazadə əsasını şahın heykəlinə doğru uzadıb "Məhv olsun Pəhləvi xanədanı" deyirdi.

Bu sözlərdən sonra kimi Rza şah Pəhləvinin heykəlinə tüpürür, kimi heykəli daşa basır, uşaqlar isə heykəlin başına dırmanırdılar.

Bu dəmdə Gülüstan bağında yaşayan həkimlərdən bir neçəsi bizim köməyimizə gəldi. Əhalini sakit etdik. Ağazadəni və bir dostunu maşına mindirib Firdovsi mehmanxansındakı nömrəmizə gətirdik. Otağa çay gətirdilər. Ortaya nərd gəldi. Ağazadə ağzıköpüklü ona mane olduğumuzdan narazılığını bildirirdi.

"Baba, niyə qoymursunuz ki, inqilabçı öz inqilabçılığını eləsin" deyə bizi töhmətləndirirdi.

Biz çox yaxşı bilirdik ki, Ağazadə tudədə yoxdur. Qəti bir məslək sahibi də deyil. Onun bu hərəkətlərinin xalqa, vətənə bir xeyri yox idi. Haradan bildiniz ki, vərəqədə mən nə yazmışam?!" Onu başa saldıq ki, farsca bilməsək də ayrılıqda bir çox sözün mənasını başa düşürük. Ağazadə yaman həyəcan keçirirdi.

Baba, olmaya məni həbs etmisiniz?

- Xeyr, ağayi Ağazadə, bizim İran vətəndaşları ilə işimiz yoxdur.

Onları həbs etməyə səlahiyyətimiz də yoxdur. Siz bizim qonağımızsınız. Buyurun, çay için, meyvə yeyin... Nərd oynayın. Bir qədər də söhbət edək.

- Xub, elə olsun.

O yenə də bizə şübhəli nəzərlərlə baxırdı. Hadisədən iki saat sonra Təbriz ağsaqqallarından bir neçəsi yanımıza gəldi.

Əli Birəng də onların arasındaydı. Ağazadəni nərd oynayan gördükdə sevindilər. Onlara xəbər çatıbmış ki, şurəvilər Ağazadəni zəbt ediblər.

Bunlar da söhbətə girişdilər. Şəhərdə artıq sakitlikdi. Lakin mehmanxana ətrafında bəzi nigaran adam görünürdü. Ağazadəni və onun ardınca gələnləri opera teatrımızın tamaşasına apardıq.

Bütün salonun gözü bizim oturduğumuz lojada idi. Şəhərə yayılan şayiə bununla yuyulub getdi. Qonaqları maşinlarda evlərinə yola saldıq. Bu hadisə haqqında isə mənimlə olan yoldaşla birlikdə yazılı surətdə izahat yazdıq.

Ağazadənin "inqilabı" bu yolla yatırıldı.

Ağazadənin səsini sonra bir dəfə radio vasitəsitə eşitdim. Tehran qoşunları Cənubi Azərbaycandakı azadliq hərakatını boğmaq üçün Təbrizə gələndə Ağazadə yenə fəaliyyətə keçmişdi.

Təbriz radiosu vasitəsilə cır səslə bağıraraq şah qoşunlarını təbrik edirdi. Cənubi Azəri qardaşlarımız cəlladlar tərəfindən qətlə yetirilərkən Ağazadə radio vasitəsilə "Zindabad şah İran'" - deyə bar-bar bağırırdı.

Doğrudan da bu "dostum"un ürəyi dilindəydi.

Təbrizdə bunu bilənlər vardi.

Bir gün Təbriz qubernatorunun yanında olduq.

Əziz Əliyev Təbrizdə baş verən yeni hadisələrlə əlaqədar qubernator Fəhmiyə sovet qoşunları qərargahının etirazını bildirdi.

Qoca qubernator dünyagörmüş adamdı. O bu ciddi söhbəti zarafatla qarşılayıb dedi ki, "Doğru buyurursunuz. Arada anlaşılmazlıqlar olur. Bunun qabağını bir şeylə almaq olar. Baxın, bu mənim kabinetim. Başımın üstündə Şahın surəti. Siz mənə bir adam verin gəlsin bu kabinetimdə otursun. Əlbir işləyək. Məsələn, mənə filankəsi verin. Qoy o da istər Leninin, istər Stalinin şəklini assın. Öz başı üstündən. Üzbəüz oturub çalışaq. Onda sizə söz verirəm aramızda əsla ixtilaf-filan olmaz".

Təbrizdə plakatlar da buraxılırdı.

Burada rəssam İsmayıl Axundovun fəaliyyəti təqdirəlayiqdi. İsmayıl rəssamlıqdan başqa, səhnə işləriylə də məşğul olurdu. Məsələn, "Arşın mal alan", "Məşədi İbad" kimi operettaların rejissorluğunu da edirdi. İstər kişi, istər qadın surətlərini məşq zamanı özü ifa edib gənc həvəskar artistlərə yol göstərirdi.

İsmayıl Axundov plakatlar üçün faşizm əleyhinə çox tutarlı, hədəfə dəyən karikaturalar yaradırdı. Bu plakatlara şairlərimiz şeir yazırdı.

*Şüvəlan, avqust 1968*

## MÜNDƏRİCAT

### CƏNUB ŞEİRLƏRİ

*Dilimə dəymə*

Təbrizim........................................................................................7
Dilimə dəymə..................................................................................8
Anam dilli qardaşım........................................................................8
Yad gül dərə bilməz........................................................................9
Yasin əvəzinə..................................................................................9
Burax.............................................................................................10
Layla..............................................................................................10
Mücahidlər mahnısı.......................................................................11
Təbrizli analar ...............................................................................12

*Vüsal həsrəti*

Köçən deyiləm...............................................................................13
Öz gülüstanım................................................................................13
Vüsal həsrəti..................................................................................14
Deyilmi?........................................................................................14
Bir anlıq həyacan ..........................................................................15
Vəfalı qalıb....................................................................................15
Gəl demə........................................................................................16
Axtararsınız...................................................................................16
Süleyman dərdi..............................................................................17
Sən deyilmidin?.............................................................................17
Arazım...........................................................................................18
Yaşa baxmıram...............................................................................19
Ehtiyac...........................................................................................19
Yaz, Süleyman, yaz........................................................................20
Şeirdən qiymətli şəriət olmasın .....................................................20
Təbrizli Süleyman oldum................................................................21
Mənim muştuluğum........................................................................22
Söz ordum......................................................................................23
Nə qədər ki, sağdır.........................................................................23
Həyatdır mahnı..............................................................................24
Gecəli-gündüzlü............................................................................25
Mübarizə elan edirəm....................................................................25

Oxucuma.....26
Gərəksiz deməsinlər.....27
Məhəbbətim.....27
Güclüdür məncə.....28
Yaşıllıq məcnunu.....29
Anam Xırdaxanımın xatirəsinə .....31
Ağ günlü nəvəmsən.....32
İşıq.....32
Saxlarsan .....34
Ürək sözləri.....35
Adın kimi.....36
Haqlı deyilsən.....37
Eşqın ürəyimin yarasındadır.....37
Bacım üçün.....38
O taylı gözələ .....38
Ayrılıq mahnısı.....39
Min könül qalacaq.....39
Dənizəm mən.....40
Hardadır.....40
Təbrizli gözəllər.....41
Qəbrimə yazsın nəqqaş.....41
Sevgilim.....42
Sənsən.....42
Təbrizli gözələ.....43
Hardasan.....43
Cənublu gözələ.....44
Təbrizli qız.....44
Təbriz gözəlinə.....46
Bir xatirə.....47
Sapa düzdüm.....47
Getməyib.....48
Həsrət çəkirəm.....48

*Təbriz yolu*

Oralıyam mən.....49
Araz deyir.....49
Nigaranam.....50
Ağladı.....50
Könül mahnısı.....51

Uçunüz....................................................................................52
Çörəyim, ağla .......................................................................................52
Bir ovuc torpaq.......................................................................................53
Amandır, getmə.......................................................................................54
İçə bilmirəm ...........................................................................................54
Ürəyimi verərəm......................................................................................55
Köçürə biləydilər .....................................................................................56
Dinlə qardaşını.........................................................................................56
Qəlbim......................................................................................................56
Leyla.........................................................................................................57
Dəyişməzsə kökündən..............................................................................57
Ürəyimin qulağı var, gözü var.................................................................58
Gəlir .........................................................................................................58
Zindan.......................................................................................................59
Dilbərin gəlinlik evi..................................................................................59
Təbriz zindanında.....................................................................................60
Vətən yandı...............................................................................................60
Tanışdır....................................................................................................61
Ürəyim parçalanır.....................................................................................62
O gün gələcək...........................................................................................62
Dülgərin arzusu.........................................................................................63
Bir məkləbin qapısında.............................................................................64
Cənub həsrəti............................................................................................65
Qardaşımın dərdi.......................................................................................68
Yenə dumalar............................................................................................69
Bəlkə.........................................................................................................70
Demə.........................................................................................................70
Dinlə məni................................................................................................71
Ay ellər......................................................................................................71
Yoruldum deməræm..................................................................................71
Üzüm yoxdur ............................................................................................72
Azərbaycandadır.......................................................................................73
Var............................................................................................................73
Dədələr, babalar ocağındayam ..............................................................74
Dolaşır dillərdə .........................................................................................74
Yenə Araz qırağında ................................................................................75
Könlümə Təbriz düşdü..............................................................................76
Bənzəməz..................................................................................................76
Xatirə.........................................................................................................77

Bəli, cənubluyam....................77
Özümü gördüm....................78
Piyaləm....................78
Saxla yadında....................78
Qorxmuram....................79
Cənub dərdim....................79
Dənizə çıxsın....................80
Birdir....................81
Kölgə var....................81
Ən müqəddəs arzu....................82
Dözə bilmirəm....................82
Sinəm olsun....................82
Təbriz yolu....................83
Uşaq deyil....................83

*Şəhriyara məktub*

Şair qardaşıma məktub....................85
Üçüncü məktub....................86
Şəhriyara dördüncü məktub....................88
Şair Səhəndə cavab....................90
Dostum Cavad Heyətə....................92

POEMALAR

Yaralarım....................95
Qafurun ürəyi....................99
Səbuhini düşünərkən....................112
Xilaskar....................116
Təbrizdə qış....................121
Qolsuz qəhrəman....................129
Yeni kəndin işıqları....................135
Məsumə....................142
Nakam məhəbbət....................145
Partizan Əli....................148
Gülbahar....................151
İldırım....................157
Şairin ölümü....................169
Yaxşı yoldaş....................173
12-ci tüfəng....................190
Dönə-dönə xatırlayın....................199

Ağamalıoğlu..........205
Cəlil Məmmədquluzadə..........208
Xəyalımda Mirzə Fətəli canlandı..........214
Əzim Əzimzadə..........218
Süleyman Sani Axundov..........220
Rəşid bəy Əfəndiyev..........224
Nazim Hikmət..........228
Seyid Hüseyn Sadiq..........233
Cəfəri yad edərkən..........236
Vladimir Mayakovski..........239
Mikayıl Müşfiq..........244
Mikayıl Rəfili..........248
Hüseynqulu Sarabski..........256
Əbülhəsən xan İqbal..........259
Mirzəğa əmi..........262
İsmayıl Hidayətzadə..........265
Yada düşənlər..........269
Arazın o tayında..........275
Ərdəbil səfəri..........286
12-ci tüfəng..........294
Şəbüstər və Xamnə səfəri..........297
Təbriz zindanında..........307
Həkimlər casus tutub..........316
7 noyabr..........318

**SÜLEYMAN RÜSTƏM**

**SEÇİLMİŞ ƏSƏRLƏRİ**

ÜÇ CİLDDƏ

II CİLD

"ŞƏRQQƏRB"

BAKI-2005

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Rəşad Həmidov*

Korrektorlar: *Elmira Teymurova*
*Ceyran Abbasova*

Yığılmağa verilmişdir 22.10.2004. Çapa imzalanmışdır 22.04.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 20,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 89.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.